Tarixi Araşdırmalar




QAYIDIŞ

R.Bahar SONAM

R.Bahar SONAM



# QAYIDIŞ

**ZƏFƏRDƏN - ZƏFƏRƏ...**

**Aprel müharibəsi - 4 günlük müharibə 4 ildən sonra 44 günlük Vətən müharibəsi ilə davam etdi. Böyük Zəfər qazanıldı və Xankəndi Qələbə paradı ilə yekunlaşdı. VAR OLSUN, AZƏRBAYCAN!**

Tarixi Araşdırmalar

B23(07)

**Bahar SONAM.**
**QAYIDIŞ.**.
- Bakı, "Adiloğlu nəşriyyatı" MMC, 2025 – 288 s.

Qarabağın mübariz yollarından keçən tarixi araşdırmaçı yazıçı və hərbi jurnalist R.Bahar Sonam ("ARBS Fateh" tarixi Araşdırmalar jurnalının təsisçisi və baş redaktoru, "Tarixi Araşdırmalar" İB-nin rəhbəri) bir çox dövlət əhəmiyyətli tarixi kitabların müəllifidir: Azərbaycan xalqının xilaskarlığına həsr edilmiş -1993-1994-ci il hadisələrinə həsr edilmiş **"Böyük Xilaskar – Heydər Əliyev",** görkəmli oftalmoloq Zərifə Əziz qızı Əliyevaya həsr edilmiş **"Yanar Qəlb",** böyük mütəfəkkir Hüseyn Cavidin yeni elmi ampulada təhlil edilmiş on dörd əsərinin beş cilddən ibarət **"Yazmasaydım...",** Azərbaycanın Qarabağ faciələrini əks edən bədii-sənədli **"Xocalı hekayələri",** M.C.Bağırovun dövlət həyatını bəhs edən **"İttihamnamə",** 1-ci Qarabağ müharibəsi zamanı torpaqlarımız uğrunda canlarını fəda edən, xalqımızın say-seçmə qəhrəman oğullarına həsr edilmiş **" Milli Qəhrəmanlar",** 1-ci Qarabağ müharibəsi zamanı xarici jurnalistlərin çəkdikləri foto-şəkillərin əsasında tərtib edilmiş ingilis dilində **"Dünyanın unutduğu insanlar"**, R.T.Ərdoğana həsr edilmiş **"Savunan insan"** və **"Yandıran satırlar"**, **"Zəfər"**, **"Azərbaycan-ABş diplomatik əlaqələri"** kitabları. Çap olunmayan tarixi-bədii roman kitabları isə **arbs.az** saytında təqdim olunur.

R.Bahar Sonamın oxucu kütləsinə təqdim etdiyi **"QAYIDIŞ"** adlı kitabı Azərbaycanın Qarabağ tarixi zəfərlərinə və erməni işğalından azad olunmuş ata-baba yurdlarına yurd həsrətli insanların qayıdışına həsr edilmişdir**.** R**.**Bahar Sonamın novbəti kitabı **"Azərbaycan nefti və Nobel Qardaşları"** sənədli romanıdır.

**Var olsun Azərbaycan dövləti, var olsun Azərbaycan Xalqı!**

4804000000 - 023(07) _
B------------------------
M670(07)-2025 Sifarişlə

© Bahar SONAM., 2025

**R.Bahar SONAM**

# QAYIDIŞ

**ZƏFƏRDƏN - ZƏFƏRƏ...**

**Aprel müharibəsi - 4 günlük müharibə 4 ildən sonra 44 günlük Vətən müharibəsi ilə davam etdi. Böyük Zəfər qazanıldı və Xankəndi Qələbə paradı ilə yekunlaşdı. VAR OLSUN, AZƏRBAYCAN!**

**BAKI-2025**

# QARABAĞ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ
## *(1918-1920-ci illər)*




1918-ci il mayın 28-də, təxminən 120 ilədək davam edən Rusiya əsarətindən sonra Azərbaycan xalqı Şimali Azərbaycanda yeni müstəqil dövlətini yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti İstiqlaliyyət bəyannaməsində, vaxtı ilə Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Rusiya tərəfindən işğal olunmuş Şimali Azərbaycan torpaqlarının qanuni varisi olduğunu bəyan etdi. İstiqlal bəyannaməsinin birinci maddəsində deyilirdi: “Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir”. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisinin hüquqi-siyasi cəhətdən əsaslandırılmış xəritəsini nəşr etdirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın bütün tarixi ərazisində öz siyasi hakimiyyətinin bərqərar edilməsinə çalışırdı. Bu zaman yenicə elan olunmuş Ermənistan (Ararat) Respublikası da Qarabağa heç bir əsası olmayan iddia irəli sürdü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu iddianı rədd etdi. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.M.Topçubaşov (1862-1934) Osmanlı dövlətinin xarici işlər naziri ilə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı bildirmişdi: “Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5 ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq – Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir ki, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir… Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskunlaşıblar. Bununla belə, biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq”.



Ermənilər Qarabağı ələ keçirmək üçün əvvəllər başladıqları soyqırımlarını Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirdilər. Azərbaycan hökuməti yaranmış vəziyyəti nəzərə alaraq 1919-cu ilin yanvarında Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaratdı. X.Sultanov Qarabağ general-qubernatoru təyin edildi. Ermənistan (Ararat) Respublikasının Xarici işlər naziri S.Tiqranyan Qarabağ general-qubernatorluğu yaradılmasına etirazını bildirmiş, lakin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin cavabında bu etiraz əsassız hesab olunmuş və həmin ərazilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması göstərilmişdi. Qarabağ general-qubernatoru ermənilərin ərazi iddiaları ilə yanaşı, əvvəlcə ingilislər, sonra isə amerikanlarla gərgin münasibətlər şəraitində fəaliyyət göstərməli oldu. Lakin ermənilər Qarabağ general-qubernatorluğu ərazisində sülh yaranmasına imkan vermədilər.

1919-cu ilin sonları – 1920-ci ilin yazında Zəngəzurda erməni-daşnak silahlı quldur dəstələri dinc azərbaycanlı əhaliyə qarşı basqınlar və kütləvi qırğınlar törətdilər.

Ermənilər Cavanşir qəzasında da sakitləşmirdilər. Onların qəzanın dağətəyi kəndlərinə hücumları adi hal almışdı. Erməni quldur dəstələri 1918-ci ilin yaz-yay aylarında qəzanın düzənlik hissəsinin müsəlman əhalisinə qarşı da çoxsaylı zorakılıq aktları etdilər. “Ermənilər Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın aran kəndlərinin əkinlərini susuz qoyaraq, onlara böyük zərər vururlar. Hətta iş o yerə çatmışdı ki, aran kəndlərində içməli su belə çatışmırdı”.

Qarabağın digər qəzası Cəbrayılda da erməni silahlıları dinc əhaliyə hücum edirdilər. 1918-ci ilin dekabrında Cəbrayıl qəzası-

nın azərbaycanlı kəndlərinə ermənilərin hücumları genişlənmiş, 1919-cu ilin əvvəllərində daha dağıdıcı xarakter almışdı.

Şuşa qəzası və Qarabağın siyasi mərkəzi olan Şuşa şəhərində ermənilərin vəhşilikləri daha amansız şəkil almışdı. Vaxtı ilə Zaqafqaziya Ölkə Komitəsinin Dağlıq Qarabağda məsul nümayəndəsi olmuş S.Şaduns 20 dekabr 1922-ci ildə yazırdı: "... Еще до создания в Карабахе Мусаватской власти (т.е. Азербайджанской Демократической Республики - Я.М., К.Ш.) туда был назначен со стороны турецких властей (т.е. Азербайджанской Демократической Республикой - Я.М., К.Ш.) генерал-губернатор Карабаха, и вот в это время появляется новый термин – Нагорный Карабах, созданный дашнаками. Не довольствуясь безграничными бойнями, вызванными в Турецкой Армении, партия "Дашнакцутюн", после сдачи гор. Шуши туркам, подымается на горы, населенные исключительно армянами, и постановляет сражаться "до последней капли крови", но не сдаваться туркам. Вот здесь в это время впервые вместе с социал-демократами, именующими себя интернационалистами, организуется правительство Нагорного Карабаха. Если партии "Дашнакцутюн" удалось избежать войны с турками, то вскоре, по настоянию крестьян этого же самого Нагорного Карабаха, пришлось соединить эту часть с низменной частью и весь Карабах подчинить власти мусаватского правительства ..."

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şuşada ermənilərin ən xəyanətkar silahlı qiyamlarından biri 1920-ci il martın 22-də Azərbaycan xalqının Novruz bayramı günü baş verdi. Bu separatçı qiyam Azərbaycanı işğal etməyə hazırlaşan bolşeviklərin sifarişi ilə qaldırılmışdı. Bu zaman erməni-separatçı qiyamlarının əksər yerlərdə dəf edilməsinə baxmayaraq, onlar Əsgəran qalasını ələ keçirə bildilər. Görülən hərbi-siyasi tədbirlər nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Qarabağda suveren hüquqlarını bərpa etdi. Lakin ərazisində yaşadıqları dövlətə xəyanət edən ermənilərin Qarabağda separatçı qiyamları və törətdikləri soyqırımları 1920-ci ilin aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vurdu və müstəqil Azərbaycan dövlətinin — Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu sürətləndirdi.



# DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ

## Tarixi

1923-cü il iyulun 7-də Azərbaycan SSR Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır.




1981-ci il iyunun 16-da isə Azərbaycan SSR Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanun qəbul edib və muxtariyyətin səlahiyyətlərində yeniliklər edilib. Dağlıq Qarabağdakı muxtariyyətin sonuncu rəsmi statusu da bu qanunla müəyyənləşib.

1987-ci ildə Ermənistan və Azərbaycan SSR arasında Dağlıq Qarabağ münaqişəsinin başlanmasının ardından, bu münaqişə 1991-ci ilin sonuna tam miqyaslı müharibəyə çevrilmişdir.

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə" qərar qəbul etdi.

Bunun ardınca, 1989-cu ilin noyabr ayında SSRİ Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin muxtariyyətliyinin ləğv edilib birbaşa Azərbaycan Sovet Sosialist Respublikasına qatılmasına dair qərar qəbul etmişdir. Lakin 1989-cu ilin dekabr ayının 1-də Ermənistan Sovet Sosialist Respublikası Ali Soveti və Qarabağ Milli Şurasının birgə iclası həmin qərarı əsassız hesab edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanla birləşməsini açıqlamışdır.

1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunmuşdur. Həmin qanuna əsasən "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş sayılmış, Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq Stepanakert şəhəri - Xankəndi şəhəri, Mardakert şəhəri – Ağdərə şəhəri, Martuni şəhəri – Xocavənd şəhəri, Mardakert rayonu – Ağdərə rayonu, Martuni rayonu – Xocavənd rayonu adlandırılmış, Əsgəran və Hadrut rayonları ləğv edilmiş, Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılmış, ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilmişdir. Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlərin, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları respublika tabeli rayonların sırasına daxil edilmişdir.

"Azərbaycan Respublikasının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli, 327 nömrəli Qərarı. ilə Ağdərə rayonu ləğv edilmiş və onun ərazisi Tərtər, Kəlbəcər və Ağdam rayonları arasında bölüşdürülmüşdür.

**İnzibati ərazi quruluşu**

*DQMV-nin inzibati xəritəsi (1989)*

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri rayon-volost-kənd pillələri əsasında inzibati baxımdan aşağıdaki kimi bölünmüşdü:

1. Ceraberd rayonu. Bu rayonun tərkibində 4 volost (Marquşevan, Orataq, Dovşanlı, Aterk) və 53 kənd var idi.
2. Vərəndə rayonu. Bu rayonun tərkibində 5 volost (Tağavert, Sus, Çartaz, Noraşen) və 46 kənd var idi.
3. Xaçın rayonu. Bu rayonun tərkibində 4 volost (Daşbulaq, Əsgəran, Krasnoselsk, Qala dərəsi) və 53 kənd var idi.



4. Dizaq rayonu. Bu rayonun tərkibində 5 volost (Hadrut, Tuğ, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi;
5. Şuşa rayonu. Şuşa şəhəri və Malıbəyli volostundan (12 kənd) ibarət idi;

Yeni inzibati-ərazi bölgüsi həyata keçirilərkən DQMV-də dəyişiklik baş verir. 1930-cu ilin avqustunda DQMV ərazisi yenə də 5 rayona bölünür:

Ceraberd,
Martuni,
Xankəndi,
Dizaq,
Şuşa.

Göründüyü kimi, Vərəndə Martuni adlandırılır, Xaçının ərazisi isə Xankəndinə aid edilir. 1939-cu il avqustun 17-də Ceraberd Mardakert, Dizaq isə Hadrut adlandırılır. Başqa sözlə, Azərbaycan dövləti olan Qafqaz Albaniyası dövrünə aid olan Dizaq, Vərəndə, Xaçın, Ceraberd kimi tarixi-coğrafi adlar unutdurulur və xüsusi məqsədlə Rusiya işğalları dövründə bura köçürülüb gətirilmiş ermənilərə məxsus adlarla əvəz olunur. 1960-cı illərin əvvəllərində rayonların iriləşdirilməsi siyasəti həyata keçirilərkən əsas zərbə Şuşaya vurulur. 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilir, onun ərazisi Stepanakert rayonuna verilir. Lakin N.S.Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra inzibati ərazi bölgüsündə yeni dəyişiklik baş verir. 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunur. 1978-ci ildə Stepanakert rayonu əsasında Əsgəran rayonu təşkil edilir. SSRİ-nin dağılmasınadək Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazi bölgüsü belə idi.

Dağlıq Qarabağ Muxtar Vilayətinə Əsgəran, Hadrut, Ağdərə, Xocavənd, Şuşa rayonları və vilayət tabeli Xankəndi şəhəri daxil olmuşdur.

# BİRİNCİ QARABAĞ MUHARİBƏSİ

**Birinci Qarabağ müharibəsi** — 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi Azərbaycanın cənub-qərb hissəsində yerləşən Qarabağ bölgəsində Ermənistan Respublikası və onun tərəfindən dəstəklənən Qarabağın etnik ermənilərinin əksəriyyəti ilə Azərbaycan Respublikası arasında baş vermiş etnik və ərazi münaqişəsi.

Keçmiş DQMV- də Ermənistan ilə birləşmək istəyən separatçı hərəkatının tələbi 1988-ci ildə nisbətən dinc şəkildə başlasa da, növbəti aylarda SSRİ dövlətinin süqutunun yaxınlaşması səbəbindən fərqli istiqamətdə vüsət alaraq, etnik azərbaycanlılar ilə ermənilər arasında getdikcə böyüyən şiddətli münaqişəyə çevrilmiş və hətta etnik təmizləmə iddialarına səbəb olan qanlı toqquşmalarla müşayiət olunmuşdur. Baş verənlərin fonunda, keçmiş SSRİ respublikaları olan Azərbaycan və Ermənistan 1988-ci ildən başlamaqla Dağlıq Qarabağın yüksəkliklərində uzun və elan edilməmiş müharibə aparırdı.

Azərbaycanın ilk vaxtlarda əsas məqsədi separatçı hərəkatı məhv etmək, Ermənistanın niyyəti isə Azərbaycanın beynəlxalq çərçivədə tanınan ərazilərinin bir hissəsini ilhaq etmək idi. Bu zaman kəsiyində, DQMV-nin yerli parlamenti DQMV-nin Ermənistanla birləşdirilməsinin lehinə səs verib, referendum keçirdi. Dağlıq Qarabağın azərbaycanlı əhalisinin referendumu boykotuna rəğmən erməni əsilli seçicilərin əksəriyyəti sözügedən aktın lehinə səs verərək münaqişənin yeni qarşıdurmalar fazasına keçid etməsini sürətləndirdi. Azərbaycandan ayrılmaq haqqında bəyənnamə bu torpaq münaqişəsinin son nəticəsi olmuşdur. Azərbaycan SSR-dən müstəqilliyini elan etdikdən sonra Qarabağ ermənilərinin əksəriyyəti, Azərbaycandan çəkilmək qərarına gəlmiş və qondarma Dağlıq Qarabağ Respublikasının müstəqilliyini elan etmişdirlər.

Tərəflər arasında genişmiqyaslı döyüşlər 1992-ci ilin qışında başlamışdır. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi bir neçə təşkilat, tərəflər arasındakı münaqişənin



həllinin sonunu gətirmək istəsə də, cəhdlər uğursuz olmuşdur. 1993-cü ilin yazında Ermənistan qüvvələrinin anklavın tərkibində olmayan torpaqları işğal etməsi, regiondakı digər ölkələrin müharibəyə qatılması üçün təhdid yaratmışdır. 1994-cü ildə müharibə başa çatana qədər ermənilər Qarabağın əksər hissəsini demək olar ki, tam nəzarətlərinə keçirib, əlavə olaraq anklavın tərkibində olmayan Azərbaycan torpaqlarının 9%-nə nəzarət edirdilər.

Münaqişə nəticəsində Azərbaycandan 230.000 erməni, Ermənistan və Qarabağdan isə 800.000 azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüşdür. 1991–1994-cü illərdə Qarabağda və dövlət sərhədində baş vermiş döyüş əməliyyatlarında 11.557 Azərbaycan hərbçisi şəhid olub. Ən çoxsaylı itkilər 1992–1994-cü illərdə davam edən hərbi əməliyyatlar zamanı baş verib. Erməni qüvvələrinin əsas itkiləri Azərbaycan ordusunun 1992-ci ilin yayında həyata keçirdiyi uğurlu hücum əməliyyatları zamanı qeydə alınıb. Azərbaycan ordusunun itkiləri isə əsasən Ağdam döyüşlərində, habelə 1994-cü ilin qış-yaz aylarında Kəlbəcəri geri almaq üçün təşkil edilmiş hücum əməliyyatlarında baş verib. 1994-cü ilin mayında Rusiyanın dəstəyi ilə atəşkəs əldə olunmuşdur. Daha sonra münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün ATƏT-in Minsk qrupu yaradılıb.

Dağlıq Qarabağın ərazi mülkiyyəti bu günə qədər hələ ermənilər və azərbaycanlılar arasında kəskin münaqişəyə səbəb olur. Cari münaqişənin kökləri Birinci dünya müharibəsi hadisələrinə çıxır. Osmanlı İmperiyasının müharibədə məğlubiyyətindən bir az əvvəl, Rusiya imperiyası 1917-ci ilin noyabr ayında çökdü və bolşeviklərin hakimiyyəti altına düşdü. Qafqazın üç xalqı olan azərbaycanlılar, ermənilər və gürcülər, əvvəlcə rusların hakimiyyəti altında Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradılması elan etdilər, lakin onun mövcudluğu cəmi üç ay sonra ləğv olundu.

Tezliklə İlk Ermənistan Respublikası və Azərbaycan Xalq Cümhuriyyəti arasında döyüşlər üç spesifik bölgədə (Naxçıvan Muxtar Respublikası, Zəngəzur və Qarabağ) başladı.

Ermənistan və Azərbaycan bu üç vilayətin sərhədləri üzərində mübahisə aparırdı. Qarabağdakı ermənilərin cəhdlərinə

baxmayaraq, onların Ermənistan Respublikası ilə əlaqə yaratmaq cəhdi uğursuz oldu. Birinci dünya müharibəsində Osmanlı İmperiyasının məğlubiyyətindən sonra, erməni generalı Andranik Ozanyan hərbi uğurlar qazanaraq Qarabağa daxil oldu və 1918-ci il dekabrda bölgənin paytaxtı olan Şuşaya doğru irəlləyirdi. 1919-cu ildə Böyük Britaniya qoşunları Cənubi Qafqazı işğal etdi və Britaniya komandanlığı Ozanyana öz hücumunun dayandırılmasını, münaqişəni Paris Sülh Konfransında həllinə imkan verilməsini təklif etdi. Daha sonra britaniyalılar Azərbaycan dövlət xadimi Xosrov bəy Sultanovu Qarabağın müvəqqəti General-Qubernatoru kimi təsdiq etdi. Britaniyalılar Sultanova "*bölgədə hər hansı bir iğtişaşın qarşısının alınmasını*" əmr etmişdi.

### Sovet işğalı

İki ildən sonra SSRİ 11-ci ordusu Qafqazı işğal etdi və Qafqaz respublikaları hər üçü birlikdə SSRİ-nin Zaqafqaziya SFSR-ini formalaşdı. Bolşeviklər sonra yeddi üzvlük komitə olan Qafqaz Bürosunu (adətən Kavbüro adlanır) yaratdılar. İosif Stalinin rəhbərlik etdiyi, Millətlərin İşləri üzrə Xalq Komissarlığının nəzarəti altında olan Kavbüroya Qafqazda rəhbərlik həvalə olunmuşdu. 1921-ci il iyulun 21-də komitə Qarabağı yeni yaradılmış Ermənistan Sovet Sosialist Respublikasına verilməsinin lehinə 4–3 səs versə də, bir gün sonra Kavbüro qərarını ləğv edib, regionu Azərbaycan SSR-in tərkibində saxlamağa səs verdi. 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətininin (DQMV) əhalisinin tərkibi 94% erməni idi. Regionun inkişafı Azərbaycanın iqtisadi əlaqələri ilə bağlı idi. Həmin ildə vilayətin paytaxtı Şuşadan Xankəndiyə köçürüldü və həmin şəhər daha sonra *Stepanakert* adlandırıldı.

Ermənistan və Azərbaycan alimləri iddia edirlər ki, bu qərar Sovet İttifaqı tərəfindən "parçala və idarə et" prinsipinin hissəsi idi. Bunu Ermənistandan ayrılmış, lakin Azərbaycanın bir hissəsi olan, Naxçıvan Muxtar Respublikasının qeyri-adi yerləşdirilməsində də görmək olar. Digərləri iddia edirdilər ki, bu xoşməramlı jest Sovet hökuməti tərəfindən "Atatürkün Türkiyəsi ilə yaxşı



əlaqələrin" saxlamaq üçün edilmişdi. Sovet hakimiyyəti idarəçiliyi dövründə ermənilər Ermənistanın Dağlıq Qarabağın birləşməsi üçün güclü cəhdlər göstərirdi və Ermənistan Kommunist Partiyasının bəzi üzvləri bu hədəfi yerinə yetirməyi məqsəd qoymuşdu. Ermənistan Kommunist Partiyasının birinci katibi Ağasi Xanciyan, NKVD rəis müavini (və tezliklə rəhbəri) Lavrenti Beriya tərəfindən Ermənistanın Dağlıq Qarabağ və Naxçıvana qayıtmaq sorğusunu Stalinə təqdim etdikdən sonra öldürüldü. Ermənilər israrla qeyd edirdilər ki, onların milli hüquqları sıxılır, mədəni və iqtisadi azadlıqları məhdudlaşdırılırdı.

### Qarabağ məsələsinin bərpası

Sovetlər dövründə istənilən etiraz qətiyyətlə yatırılırdı. Lakin Stalinin ölümündən sonra ermənilərin narazılığı artdı. 1963-cü ildə 2500-ə yaxın Qarabağ erməniləri Qarabağı erməni nəzarəti altında qoymaq və ya Rusiyaya köçürmək üçün ərizə yazmışdı. Həmçinin 1963-cü ildə, 18 erməni ölümü ilə nəticələnən Xankəndində şiddətli qarşıdurmalar yaşanmışdı. 1965-ci və 1977-ci ildə Ermənistanla Qarabağı birləşdirmək çağırışı ilə İrəvanda böyük nümayişlər keçirilmişdi. Sovet İttifaqının yeni baş katibi Mixail Qorbaçov, 1985-ci ildə hakimiyyətə gələn kimi, Sovet sistemində islahatlar siyasətini həyata keçirməyə başladı. Bu siyasət əsas iki tərkib hissədən ibarət idi: *perestroyka* və *qlasnost*. Perestroyka daha çox iqtisadi islahatlar ilə əlaqəli olsa da, *qlasnost* və ya "mərdanəlik" Sovet sisteminin özü və onun liderləri haqqında şikayətlərin ifadə olunmasında Sovet vətəndaşlarına məhdud azadlıq verirdi. 1987-ci ilin payızında bir çox narazı qüvvələr vəziyyətin dəyişdiyini hiss etdi. Oktyabrın əvvəlində Yerevanda ekologiyaya həsr olunmuş mitinqdə ilk dəfə olaraq DQMV-nin Ermənistan SSR-ə verilməsi barədə tələb səslənməyə başladı. Yerli mətbuat Azərbaycan rəhbərliyini bölgə iqtisadiyyatını gerilətməkdə, erməni mədəniyyətini sıxışdırılmaqda və Dağlıq Qarabağla Ermənistan arasında əlaqələri əngəllətməkdə ittiham etdi. Dağlıq Qarabağ və Ermənistanda muxtar vilayət statusunun dəyişdirilməsi üçün 75 minə yaxın imza top-

lanmışdı. 1987-ci il dekabrın 1-də yazıçı Zori Balayan başda olmaqla heyət Dağlıq Qarabağın tarixi və müasir durumuna dair imzalar atılmış vərəqələr və 84 sənədi görüş zamanı Politbüro üzvlüyünə namizəd Petr Demiçevə təqdim etmişdir. Moskvanın yeni siyasətindən xeyir güdən QMV Xalq Deputatları Soveti, 1988-ci il fevralın 20-də vilayətin Ermənistana birləşdirilməsi təklifinin lehinə səs verdi. Azərbaycanlı deputatlar səsvermədə iştirak etmədi. 24 fevralda Dağlıq Qarabağ Muxtar Bölgəsi Partiya katibi və Azərbaycan tərəfli Boris Kerkorov qəbul olunmuş qərarın təsdiqlənməsi üçün tələb olunan rəsmi möhürü oğurlamağa cəhd etmişdi. Fevralın 24-də Kevorkov vəzifəsindən kənarlaşdırılaraq yerinə əhali arasında daha populyar olan Qenrix Poqosyan təyin olundu.

Qarabağ erməni liderləri regionda nə erməni dilində dərsliklərin, nə də televiziya yayımın olmamasından şikayət edərək, Azərbaycanın Kommunist Partiyasının baş katibi Heydər Əliyevi regionun geniş "Azərbaycanlaşdırma" cəhdində, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların sayının və təsirinin artırılmasında ittiham etmişdi. 1988-ci ilə kimi, Qarabağda erməni əhalisi, ümumi əhali ilə müqayisədə təxminən 3/4 dəfə azalmışdı. 1988-ci ilin həmin fevral günlərində Sovet rəhbərləri birdən gördülər ki, vəziyyət gərginləşməyə doğru gedir. Kommunist Partiyasının daxilində açıq mübarizə gedirdi, Moskva rəhbərliyi üsyançıları vərdiş etdiyi gücün işlədilməsilə yatıra bilməyəcəyi qənaətinə gəldi. Qorbaçovsayağı dözümlülük prinsipini praktikada tətbiq etmiş Politbüro, Azərbaycan kompartiyası liderlərinə elan etdi ki, onlar münaqişəni yatırmaq üçün gücdən yox, yalnız "partiya xəttinə uyğun" inandırmaq kimi metoddan istifadə etməlidir.

Bu hərəkata məşhur erməni xadimləri rəhbərlik edirdi və onlara Rusiyada ziyalılar da dəstək verirdi. Jurnalist Tomas de Vaal qeyd edir ki, dissident Andrey Saxarov kimi bəzi Rusiya ziyalıları erməniləri dəstəkləyirdi. Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibəsində, DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini



bəyan etmişdi. Bəyanatın elanından əvvəl ermənilər etiraza başlayaraq, İrəvanda işçilər nümayişlər edib, anklavın Ermənistana birləşməsini tələb edirdi. Bu, Bakıda əks etirazlara səbəb oldu. İrəvanda nümayişlərdən sonra, 1988-ci il fevralın 26-da Qorbaçov Qarabağ hərəkatının iki rəhbəri olan Zori Balayan və Silva Kaputikyan ilə görüşdü. Qorbaçov onlardan nümayişlərə görə bir aylıq moratorium istədi. Qorbaçov konkret vəd etməsə də, Kaputikyan eyni axşam Ermənistana qayıtdı və xalq qarşısında çıxış edərək "ermənilər qələbə çaldı" deyə bildirdi. Svante Kornellə görə, bu Moskvaya təzyiq cəhdi idi. Martın 10-da Qorbaçov Sovet Konstitusiyasının 78-ci maddəsinə uyğun olaraq, respublikalar arasında sərhədlərin dəyişikliyinin mümkün olmadığını ifadə etdi. Qorbaçov Sovet İttifaqının bir sıra digər bölgələrində ərazi dəyişikliklər həsrətini və Qarabağda sərhədlərini yenidən çəkilməsini belə bir təhlükəli presedent olduğunu qeyd etdi, lakin ermənilər hiddət ilə Kavburonun 1921-ci il qərarına baxırdı və onlar öz səylərini, öz müqəddəratını təyinetmə prinsipi ilə tarixi səhvin düzəlişi (konstitusiyada verilən haqq) kimi görürdülər. Digər tərəfdən, azərbaycanlılar ermənilərin belə çağırışlarını ağlasığmaz sayırdı və özlərini Qorbaçovun mövqeyi ilə bərabərləşdirdi.

Erməni nümayişlərinin yeddinci günündə, 1988-ci il fevralın 19-da Bakıda ilk etiraz nümayişi keçirildi. Hadisələr başlayan zaman, tarixçi Süleyman Əliyarlı şair Bəxtiyar Vahabzadə ilə birlikdə 1988-ci ildə "*Azərbaycan*" jurnalının 9-cu sayında dərc etdirdikləri "Dağlıq Qarabağ – uydurmalar və həqiqətlər" yazısında, Qarabağın tarixən Azərbaycan torpağı olduğunu bəyan etmişdi.

Mixail Qorbaçov isə tərəddüd edərək, öz mövqeyini 1988-ci il fevralın 26-da erməni yazıçıları Silva Kaputikyan və Zori Balayanla söhbətdə bildirdi. Qorbaçov dedi ki, statusun dəyişdirilməyəcək, lakin vilayət sakinlərinin qanuni tələbləri iqtisadiyyat və mədəniyyət sahəsində islahatlar keçirilməklə yerinə yetirilməlidir. Qarabağın Ermənistana verilməsi tərəfdarlarına qarşı repressiyalar olmadı.

### Sülh danışıqları üçün ilk cəhd

İlk sülh vasitəçilik səyləri 1991-ci il sentyabrda, Rusiya prezidenti Boris Yeltsin və Qazaxıstan prezidenti Nursultan Nazarbayev tərəfindən edilmişdi. 20 – 23 sentyabrda Bakı, Gəncə, Xankəndi və İrəvanda sülh danışıqlarından sonra, tərəflər Rusiyanın Jeleznovodsk şəhərində Jeleznovodsk Kommünikesini yazmağa razılaşdı. Müqaviləni Yeltsin, Nazarbayev, Mütəllibov və Ter-Petrosyan imzalamışdı. Razılaşmaya baxmayaraq, erməni hərbi birləşmələri Xocavənd və Hadrut rayonları ərazisində azərbaycanlı sakinlərə qarşı hücumlar edirdi. Nəticədə, bu rayonların azərbaycanlılar yaşayan kəndlərinin əksəriyyəti işğal olundu; azərbaycanlı sakinlər isə öz torpaqlarını tərk etmək məcburiyyəti qarşısında qaldılar. 1991-ci il 20 noyabrda Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbi dəstələri Azərbaycana məxsus hərbi helikopteri vurdu.



## SSRİ-NIN SON GÜNLƏRINDƏ QARŞIDURMA

### Əsgəran və Sumqayıt hadisələri

Etnik daxili çəkişmələr tezliklə Qarabağda yaşayan ermənilər və azərbaycanlılar arasında qarşıdurma yaratdı. 1987-ci ilin sonlarında, azərbaycanlılar Ermənistanın Qafan və Meğri rayonunun kəndlərində evlərini, onların erməni qonşuları arasında gərginliyin nəticəsində tərk etmək məcburiyyətində qaldı və 1987-ci ilin noyabrında azərbaycanlılar iki yük dolu avtomobillər ilə Bakının qatar stansiyasında gəlmişdilər. Sonrakı müsahibələrdə, iki kənd bələdiyyə başçıları bu cür gərginlik zamanda mövcud təkzib edib, belə sənədlərin məcburi sürgün anlayışı dəstək alması üçün demişdi.

1988-ci il 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında təcrübə keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanmışdı. İki gün sonra azərbaycanlılar və ermənilər arasında birbaşa qarşıdurma atışmaya çevrildi. Qarşıdurmalar zamanı iki azərbaycanlı gənc həyatını itirdi. 1988-ci il fevralın 27-də Sovet vitse-prokuroru Aleksandr Katayev Bakının mərkəzi televiziyasında danışarkən qeyd etdi ki, "Ağdam rayonunun iki sakinləri qətlə yetirilmişdir" və onların müsəlman adlarını açıqlamışdır.

Əsgəran qarşıdurması Sumqayıt qırğınları üçün müqəddimə idi. Qarabağ münaqişəsində artıq emosiyaları artırmışdı və fevralın 27-də başlayan etirazlar daha da çirkin oldu. Etirazlarda Qafandan gələn azərbaycanlı qaçqınlar erməniləri "cinayət və vəhşiliklər"də ittiham etmişdi. Sovet mətbuatının bu iddiaları təkzib edib və danışanların çoxunu agent-provokator olmağında suçlayırdı. Bir neçə saatdan sonra, 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər həlak oldu. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı idi. Təxminən bütün Sumqayıtın erməni əhalisi bu hadisələrdən sonra şəhəri tərk etdi. Fevralın 28-də hər saatbaşı respublikanın o dönəmki rəhbəri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi Kamran Bağırovun sumqayıtlıları sakitliyə çağıran müraciəti yayılırdı. Ermənistan prezidentliyinə keçmiş namizəd Paruyr

Hayrikyan 1988-ci ilin fevralında Sumqayıtın erməni sakinlərinə qarşı basqınların təşkilində sovet hakimiyyətini ittiham edirdi. O, Sumqayıt olayını Moskvanın təşkil etdiyi bir hadisə adlandırıb.

1988-ci il martın 23-də Sovet İttifaqının Ali Soveti ermənilərin Ermənistanla Dağlıq Qarabağla birləşmə tələblərini rədd etdi. İrəvanda qərarın etiraz qarşısını almaq üçün qoşunlar göndərildi. Qorbaçovun cəhdləri boşuna idi — hər iki tərəf bərabər olaraq barışmaz qaldı. Ermənistanda Naxçıvan bölgəsində baş verən hadisələrin Dağlıq Qarabağda təkrar olunacağı barədə möhkəm inam var idi: SSRİ qurulmazdan əvvəl, orada əhalinin 40%-i erməni idi, lakin 1980-ci illərdə erməni əhalisi faktiki olaraq qeyri-mövcud idi. 1989-cu il dekabrın 1-də Ermənistanın Ali Soveti Moskvanın kursuna zidd olaraq dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsini rəsmən dəstəklədi.

Qorbaçov tərəfindən kompromisə baxmayaraq, ermənilər məsələni sakitləşmək üçün təkliflərdən imtina etdilər. Kompromisə 400 milyon rubl paketlik erməni dilində dərslik və Qarabağda televiziya verilişləri daxil idi. Eyni zamanda, Azərbaycan Ermənistana hər hansı bir ərazini güzəştə getməyin əleyhinə idi. 1988-ci il dekabrın 7-də Spitak zəlzələsində 25 min nəfər həlak olmuşdu və Spitak və Leninakan (hazırkı Gümrü) şəhərini məhvinə görə, Ermənistanda Qarabağın köçürülmə çağırışları bir az azaldı. Lakin Moskva rəsmilərinin zəlzələ fonunda yeni formalaşan Qarabağ Komitəsinin 11 üzvünün, o cümlədən Ermənistanın gələcək prezidenti Levon Ter-Petrosyanın həbsindən sonra münaqişə yenidən qızışdı. Belə hadisələr Ermənistan və rəsmi Moskva arasında münasibətləri soyuqlaşdırdı: ermənilər Qorbaçova inamını zəlzələdə kömək səylərinin idarəsinə və onun Dağlıq Qarabağ üzrə barışmaz mövqesinə görə itirmişdi.

Ermənilərin iddia etdiyi Sumqayıt poqromlarından sonra məcburi əhali mübadiləsi baş tutdu: Azərbaycanda yaşayan ermənilər və Ermənistanda yaşayan azərbaycanlılar evlərini tərk etmək məcburiyyətində qalmışdı. Azərbaycan hökumətinə görə, 1988-ci ildə 27 və 29 noyabrda 33 azərbaycanlı Spitak, Quqark və Stepanavanda, 1987–1989 dövründə isə 216 nəfər öldürülmüşdür. Azərbaycan deputatı Arif Yunus qeyd edir ki, həmin ilin noyabr ayında 20 azərbaycanlı erməni kəndi Vartanda yandırılmışdı. Lakin, erməni mənbələrində 1988–1989-cu illərdə öldürülən azərbaycanlıların sayı 25 kimi göstərilib.



Millətlərarası münaqişə həm də Azərbaycanın şəhərlərinə, o cümlədən, 1988-ci ilin dekabr ayında Gəncə və Naxçıvanda yayılmışdı. Bu şəhərlərdə Sovet ordusunun ermənilərə yönəlmiş hücumları dayandırmaq üçün cəhdləri nəticəsində, yüzlərlə insan yaralanmış və yeddi nəfər (onlardan dördü əsgər) həlak olmuşdur. Münaqişənin ilk iki ili ərzində həyatını itirən insanların sayı hesablamalarda fərqlənir. Azərbaycan hökuməti 216 azərbaycanlı Ermənistanda öldürüldüyünü, tədqiqatçı Arif Yunus isə tək 1988-ci ildə həyatını itirənlərin 127 nəfər olduğunu iddia edir. 1989-cu ilin oktyabr ayında Time jurnalının məqaləsində qeyd olunur ki, 1988-ci ilin fevral ayında hər iki tərəfdən 100 nəfər həlak olmuşdur.

1988-ci ilin sonlarında Ermənistanda onlarla kəndlər 200,000 azərbaycanlı və müsəlman kürdlərin tərk etdiyi səbəbə görə boş idi. Müsəlman kürdlər ermənilərə qarşı silahlı münaqişəyə qoşulmasalar da, erməni işğalı altında olan ərazilərdən qovulmuşdular.

## Əsgəran və Sumqayıt hadisələri

Etnik daxili çəkişmələr tezliklə Qarabağda yaşayan ermənilər və azərbaycanlılar arasında qarşıdurma yaratdı. 1987-ci ilin sonlarında, azərbaycanlılar Ermənistanın Qafan və Meğri rayonunun kəndlərində evlərini, onların erməni qonşuları arasında gərginliyin nəticəsində tərk etmək məcburiyyətində qaldı və 1987-ci ilin noyabrında azərbaycanlılar iki yük dolu avtomobillər ilə Bakının qatar stansiyasında gəlmişdilər. Sonrakı müsahibələrdə, iki kənd bələdiyyə başçıları bu cür gərginlik zamanda mövcud təkzib edib, belə sənədlərin məcburi sürgün anlayışı dəstək alması üçün demişdi.

1988-ci il 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında təcrübə keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanmışdı. İki gün sonra azərbaycanlılar və ermənilər arasında birbaşa qarşıdurma atışmaya çevrildi. Qarşıdurmalar zamanı iki azərbaycanlı gənc həyatını itirdi. 1988-ci il fevralın 27-də Sovet vitse-prokuroru Aleksandr Katayev Bakının mərkəzi televiziyasında danışarkən qeyd etdi ki, "Ağdam rayonunun iki sakinləri qətlə yetirilmişdir" və onların müsəlman adlarını açıqlamışdır.

Əsgəran qarşıdurması Sumqayıt qırğınları üçün müqəddimə idi. Qarabağ münaqişəsində artıq emosiyaları artırmışdı və fevralın 27-də başlayan etirazlar daha da çirkin oldu. Etirazlarda Qafandan gələn azərbaycanlı qaçqınlar erməniləri "cinayət və vəhşiliklər"də ittiham etmişdi. Sovet mətbuatının bu iddiaları təkzib edib və danışanların çoxunu agent-provokator olmağında suçlayırdı. Bir neçə saatdan sonra, 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər həlak oldu. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı idi. Təxminən bütün Sumqayıtın erməni əhalisi bu hadisələrdən sonra şəhəri tərk etdi. Fevralın 28-də hər saatbaşı respublikanın o dönəmki rəhbəri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi Kamran Bağırovun sumqayıtlıları sakitliyə çağıran müraciəti yayılırdı. Ermənistan prezidentliyinə keçmiş namizəd Paruyr Hayrikyan 1988-ci ilin fevralında Sumqayıtın erməni sakinlərinə qarşı basqınların təşkilində sovet hakimiyyətini ittiham edirdi. O, Sumqayıt olayını Moskvanın təşkil etdiyi bir hadisə adlandırıb.



1988-ci il martın 23-də Sovet İttifaqının Ali Soveti ermənilərin Ermənistanla Dağlıq Qarabağla birləşmə tələblərini rədd etdi. İrəvanda qərarın etiraz qarşısını almaq üçün qoşunlar göndərildi. Qorbaçovun cəhdləri boşuna idi — hər iki tərəf bərabər olaraq barışmaz qaldı. Ermənistanda Naxçıvan bölgəsində baş verən hadisələrin Dağlıq Qarabağda təkrar olunacağı barədə möhkəm inam var idi: SSRİ qurulmazdan əvvəl, orada əhalinin 40%-i erməni idi, lakin 1980-ci illərdə erməni əhalisi faktiki olaraq qeyri-mövcud idi. 1989-cu il dekabrın 1-də Ermənistanın Ali Soveti Moskvanın kursuna zidd olaraq dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsini rəsmən dəstəklədi.

Qorbaçov tərəfindən kompromisə baxmayaraq, ermənilər məsələni sakitləşmək üçün təkliflərdən imtina etdilər. Kompromisə 400 milyon rubl paketlik erməni dilində dərslik və Qarabağda televiziya verilişləri daxil idi. Eyni zamanda, Azərbaycan Ermənistana hər hansı bir ərazini güzəştə getməyin əleyhinə idi. 1988-ci il dekabrın 7-də Spitak zəlzələsində 25 min nəfər həlak olmuşdu və Spitak və Leninakan (hazırkı Gümrü) şəhərini məhvinə görə, Ermənistanda Qarabağın köçürülmə çağırışları bir az azaldı. Lakin Moskva rəsmilərinin zəlzələ fonunda yeni formalaşan Qarabağ Komitəsinin 11 üzvünün, o cümlədən Ermənistanın gələcək prezidenti Levon Ter-Petrosyanın həbsindən sonra münaqişə yenidən qızışdı. Belə hadisələr Ermənistan və rəsmi Moskva arasında münasibətləri soyuqlaşdırdı: ermənilər Qorbaçova inamını zəlzələdə kömək səylərinin idarəsinə və onun Dağlıq Qarabağ üzrə barışmaz mövqesinə görə itirmişdi.

Ermənilərin iddia etdiyi Sumqayıt poqromlarından sonra məcburi əhali mübadiləsi baş tutdu: Azərbaycanda yaşayan ermənilər və Ermənistanda yaşayan azərbaycanlılar evlərini tərk etmək məcburiyyətində qalmışdı. Azərbaycan hökumətinə görə, 1988-ci ildə 27 və 29 noyabrda 33 azərbaycanlı Spitak, Quqark və Stepanavanda, 1987–1989 dövründə isə 216 nəfər öldürülmüşdür. Azərbaycan deputatı Arif Yunus qeyd edir ki, həmin ilin

noyabr ayında 20 azərbaycanlı erməni kəndi Vartanda yandırılmışdı. Lakin, erməni mənbələrində 1988–1989-cu illərdə öldürülən azərbaycanlıların sayı 25 kimi göstərilib.

Millətlərarası münaqişə həm də Azərbaycanın şəhərlərinə, o cümlədən, 1988-ci ilin dekabr ayında Gəncə və Naxçıvanda yayılmışdı. Bu şəhərlərdə Sovet ordusunun ermənilərə yönəlmiş hücumları dayandırmaq üçün cəhdləri nəticəsində, yüzlərlə insan yaralanmış və yeddi nəfər (onlardan dördü əsgər) həlak olmuşdur. Münaqişənin ilk iki ili ərzində həyatını itirən insanların sayı hesablamalarda fərqlənir. Azərbaycan hökuməti 216 azərbaycanlı Ermənistanda öldürüldüyünü, tədqiqatçı Arif Yunus isə tək 1988-ci ildə həyatını itirənlərin 127 nəfər olduğunu iddia edir. 1989-cu ilin oktyabr ayında Time jurnalının məqaləsində qeyd olunur ki, 1988-ci ilin fevral ayında hər iki tərəfdən 100 nəfər həlak olmuşdur.

1988-ci ilin sonlarında Ermənistanda onlarla kəndlər 200,000 azərbaycanlı və müsəlman kürdlərin tərk etdiyi səbəbə görə boş idi. Müsəlman kürdlər ermənilərə qarşı silahlı münaqişəyə qoşulmasalar da, erməni işğalı altında olan ərazilərdən qovulmuşdular.



## QARA YANVAR



**1990-cı ildə Bakıda Sovet qoşunları**

Millətlərarası münaqişə hər iki ölkənin əhalisi arasında baş verirdi: Azərbaycanda ermənilər Ermənistana, Ermənistan azərbaycanlıları isə Azərbaycana qaçmağa məcbur olmuşdu. Dağlıq Qarabağda vəziyyət Sovet hakimiyyətinin idarəsində çıxmışdı: 1989-cu ilin yanvarında Moskvada mərkəzi hökumət müvəqqəti olaraq bölgəyə nəzarət edirdi və bu vəziyyət bir çox ermənilər tərəfindən yaxşı qarşılanmışdı. 1989-cu ilin sentyabrında Azərbaycan Xalq Cəbhəsinin (AXC) rəhbərləri və onların artan tərəfdarları Ermənistana və DQMV keçən dəmir yolunu blokada etməyi bacarmışdı. Bu, Ermənistanın iqtisadiyyatına ciddi dərəcədə sarsıdıcı zərbə yetirmişdi, çünki, yük və malların 85%-i dəmir yolu vasitəsilə Ermənistana gəlirdi. Bəziləri iddia edirdi ki, bu, Ermənistanın Naxçıvan MSSR qarşı embarqosuna cavab idi. Ermənistanda dəmir yolu xidmətinin pozulmasından sonra, erməni yaraqlıları Ermənistana daxil olan Azərbaycan qatar qruplarına hücumlar edirdi.

1990-cı ilin yanvarında ermənilərin Bakıda sıxılması nəticəsində, Qorbaçov asayişi bərpa etmək üçün fövqəladə vəziyyət

elan etdi və DMV qoşunlarını göndərməsini əmr etdi. Azərbaycanda artan müstəqillik hərəkatından əvvəl, Sovet rejimi dağılmağa yaxın olduğundan, Qorbaçov hadisələri zorla idarə etmək üçün Azərbaycana Sovet qoşunlarını göndərdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23.30-da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür. "Şit" təşkilatının müstəqil hərbi ekspertlərinin hesabatı, hərbçilərin atəş iddialarını rədd edib, Bakı yollarında silahlanmış insanların qurduğu barrikadalara aid heç bir dəlil tapmamışdı. Daha sonra komendant saatı elan olundu və MVD əsgərləri və güclənən Azərbaycan Xalq Cəbhəsi arasında şiddətli qarşıdurmalar baş verdi. Bunun nəticəsində, Bakıda 120 azərbaycanlı və səkkiz MVD əsgəri həlak olmuşdu. Bu müddət ərzində Azərbaycanın Kommunist Partiyası ləğv olunmuşdu və gecikmiş əmr, əsasən şəhərin erməni əhalisinin qorunmasına yox, partiyanın hakimiyyətdə saxlanmasına hesab olunmuşdu. "Qara Yanvar" kimi adlanan bu hadisələr, Azərbaycan və mərkəzi hökumət arasında əlaqələri gərginləşdirdi.



## Qazaxda döyüşlər

1990-cı illərdə Azərbaycanın Bağanis Ayrım kəndi Ermənistan hərbçiləri tərəfindən gündəlik hücuma məruz qalırdı. Eyni zamanda, erməni qüvvələri Ermənistan ərazisində, Azərbaycan anklavlarına və Azərbaycanın Qazax və Sədərək rayonunda yerləşən sərhəd kəndlərinə hücum edirdi. 1990-cı il martın 26-da erməni hərbçilər bir neçə maşınla Bağanis kəndinin sərhədinə gəlmişdi. Qaranlıqda onlar sərhədi keçib, Azərbaycanın Bağanis Ayrım kəndinə hücum etmişdi. Təxminən 20 ev yandırılmış və 8–11 azərbaycanlı kəndli qətlə yetirilmişdi. Bir ailənin üzvlərinin cəsədləri, o cümlədən körpələr, yanmış evlərin xarabalıqlarında aşkar edilmişdir. Sovet Daxili İşlər Nazirliyinin qoşunları Bağanıs Ayrıma çatanda, təcavüzkarlar artıq qaçmışdı.

18 avqustda çoxlu sayda erməni yaraqlılarının Azərbaycan sərhədinə yaxın toplanması müşahidə edilirdi. Növbəti gün erməni silahlıları Azərbaycanın Yuxarı Əskipara, Bağanis Ayrım, Aşağı Əskipara və Quşçu Ayrım kəndlərini raketli qumbaratan və hava toplarından istifadə edərək bombaladı. İrəvandan dörd helikopterlə gətirilən əlavə yardımın hesabına, erməni qüvvələri Yuxarı Əskipara və Bağanis Ayrımı ələ keçirə bildi.

## Çaykənd əməliyyatı

1991-ci ilin yazında Prezident Qorbaçov yeni ittifaq müqaviləsi əsasında saxlanılmasına dair referendumun keçirilməsi nəzərdə tutulan Şura Müqaviləsi adlı xüsusi referendum keçirdi. Yeni seçilən, Sovet respublikalarında hakimiyyətə qeyri-kommunist liderlər, o cümlədən Rusiyada Boris Yeltsin (Qorbaçov Sovet İttifaqının prezidenti idi), Ermənistanda Levon Ter-Petrosyan və Azərbaycanda Ayaz Mütəllibov gəlmişdi. Azərbaycan rəhbərliyi referendumun keçirilməsinə razılıq verdi, Ermənistan isə beş digər müttəfiq respublika ilə birlikdə boykot yolunu seçdi.

Qarabağda bir çox erməni və azərbaycanlılar özlərini müdafiə etmək üçün silah yığmağa başlayırdı. Mütəllibov regionda erməni yaraqlılarını silahsızlaşdırmaq üçün birgə hərbi əməliyyat başlanmasında Qorbaçovdan dəstək istəyirdi. Bunun nəticəsində, Çaykənd əməliyyatında Sovet Müdafiə və Daxili İşlər nazirliklərinin, həmçinin Azərbaycan XTMD-nin 6 minlik qüvvəsi ermənilərin yaşadığı rayonlara qarşı yeridildi. Bu qüvvələrin 3 min nəfəri Azərbaycan Xüsusi Təyinatlı Milis Dəstəsinə məxsus idi və əsas ağırlıq da onların üzərinə düşürdü. Çaykəndin azad edilməsi SSRİ-nin rəhbəri Mixail Qorbaçov, SSRİ müdafiə naziri, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri, Azərbaycanın rəhbəri Ayaz Mütəllibov səviyyəsində müzakirə olunmuş, respublika rəhbərlərinin hamısı Xanlara (indiki Göygöl) gəlmiş və 1991-ci ilin aprelin 30-da başlamış əməliyyat mayın 4-də tamamlanmışdı.

Əməliyyat zamanı baş verən zorakılıq, ermənilər arasında Qarabağ münaqişəsinin yeganə həllini yalnız hərbi yolla inamını gücləndirdi.



## Xocalı soyqırımı



**Ağdamda Xocalı soyqırımının şahidi olan qaçqın**

Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da quru yolu əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi olaraq helikopter əlaqəsi qalmışdı. Xocalıya sonuncu helikopter 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki helikopterin vurulması və nəticədə 41 nəfərin faciəli surətdə həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilmirdi.

1992-ci il yanvarın 2-də Ayaz Mütəllibov Azərbaycan Respublikası Prezidentinin vəzifəsini icra etməyə davam etdi. Rəsmi olaraq yeni yaradılmış Ermənistan Respublikası Dağlıq Qarabağda separatçılara açıq olaraq hər hansı bir silah, yanacaq, ərzaq və ya digər maddi-texniki təmin olunmasını təkzib edirdi, lakin Ter-Petrosyan sonra separatçılarının maaşlarının ödənilməsi və maddi-texniki təchizat ilə təmin edilməsini etiraf etsə də, müharibəyə öz hərbçilirinin göndərilməsini təkzib edirdi. Ermənistan artıq Azərbaycan Respublikasının blokadası, həmçinin Azərbaycanın qonşusu olan Türkiyənin təzyiqi altında idi. Fevralın əvvəli Azərbaycan kəndləri olan Malıbəyli, Qaradağlı və Ağdaban ermənilər tərəfindən işğal edildi və oranın əhalisi evlərindən qovuldu. Nəticə-

də ən azı 140 nəfər yaralanmış və 99 nəfər həlak olmuşdu.

Ermənistanın Qarabağla əlaqəsi yalnız Laçın dəhlizi vasitəsilə, ora daxil olan helikopterlər vasitəsilə idi. Bölgənin tək hava limanı, paytaxt Xankəndindən yeddi km məsafədə yerləşən, əhalisi təxminən 6.000–10.000 nəfər olan Xocalı şəhəri idi. Bundan əlavə Xocalı Qrad raketlərinin artilleriya bazası kimi xidmət edirdi: Xankəndidə ermənilərin yaşadığı çoxmərtəbəli binalara 400 Qrad raketləri atılmışdı. Fevralın sonunda erməni qüvvələri qarşıdakı hücum barədə xəbərdarlıq etdi və Azərbaycana Xocalıda atəşin dayandırması üçün ultimatum verdi.

Fevralın sonunda Xocalı əsasən izolyasiya olunmuşdu. Fevralın 26-da erməni qüvvələri 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalıya hücum etdi. Azərbaycan tərəfinin və Human Rights Watch, Moskvada insan hüquqları təşkilatı Memorial və erməni komandiri Monte Melkonyanın bioqrafiyasında olan mənbələrinin məlumatları əsasında, Qarabağ separatçıları Xocalını ələ keçirib, şəhərdən qaçan mülki əhalini öldürməkdə ittiham edilirdi. İlkin olaraq erməni qüvvələri şəhərə hücum etmək və şəhər əhalisinin çıxışı üçün quru dəhlizi ayıracığını qeyd etmişdi. Nəticədə şəhərdə yanğınlar baş vermiş və fevralın 26-ı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdür. Belə bir vəziyyətdə erməni mühasirəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali yaxınlıqda azərbaycanlılar məskunlaşan Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur olmuşdur. Hava limanının enmə zolağı qəsdən məhv edilib yararsız günə qalmışdı. Azad dəhlizlə qaçan əhali Azərbaycanın Ağdam rayonuna yaxın ərazidə gülləyə tutulmuşdur və nəticədə çoxlu sayda insan həlak olmuşdur. Beynəlxalq qrumların, vətəndaşların qəsdən qırğını ittihamlarıyla üzləşən Ermənistan hökumət rəsmiləri soyqırımı təkzib edib, hücumu Xocalıdan gələn artilleriya atəşinin susdurulması ilə əsaslandırmışdı.

Britaniya jurnalisti Tomas de Vaalın fikrincə, faciə nəticəsində 485 insan (donma nəticəsində həlak olanlar da daxil) həlak olmuşdu. Azərbaycan hakimiyyətinin rəsmi hesablamasında 25 – 26 fevralın hadisələri zamanı ölü sayı 613 nəfər idi, bunlardan da 63-ü uşaq, 106-sı qadın, 70-i isə ahıl yaşlı insanlar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər, o cümlədən 76 uşaq yaralanmışdır. 1275 nəfər əsir götürülmüş, 150 Xocalı sakini itkin düşmüşdür. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur. 1992-ci il 3 martda The Boston Globe məlumat verirdi ki, münaqişənin son dörd ili ərzində 1000 nəfər öldürülmüşdür. Məlumatda qeyd olunurdu, Xocalının meri Eldar Məmmədov 200 nəfər itkin, 300 nəfər girov və döyüşlərdə 200 nəfər yaralandığını bildirib. 1992-ci ildə hüquq müdafiə təşkilatı Helsinki Watch-ın hesabatında qeyd olunurdu ki, Azərbaycan OMONu və "bəziləri silahlı olan, hərbi formada olan şəxslər mülki şəxslərin arasında idilər", bu isə erməni separatçılarının onlara atəş atmasına səbəb ola bilərdi.

Xocalı soyqırımından sonra Azərbaycan Xalq Cəbhəsinin təzyiqi altında Ayaz Mütəllibov Azərbaycan Milli Məclisinə istefasını təqdim etmək məcburiyyətində qaldı.

## Şuşanın işğalı



13 fevral 1988-ci ildə ermənilər Xankəndiyə ilk hücumlarından birini edəndə azərbaycanlıların çoxu Şuşaya pənah gətirdi. Martın 28-də Azərbaycan qüvvələri Xankəndiyə hücum etməyi planlaşdırırdı və Canqasan kəndindən Kərkicahandan yuxarıda yerləşən düşmən mövqelərinə hücum etdi. Növbəti günün günorta çağı Azərbaycan hərbçiləri şəhərə yaxın mövqelərə yerləşsələr də, ermənilər tərəfindən hücumdan sonra geriyə çəkildilər.

Xocalının zəbtindən sonrakı aylarda regionun sonuncu Şuşa istiqamətində təslim olmayan azərbaycanlı komandirlər "Qrad" qurğularından istifadə edərək Xankəndiyə qarşı genişmiqyaslı artileriya hücum etdilər. Aprelə qədər davam edən bombalama Xankəndidə yaşayan 50.000 nəfər sakinin böyük hissəsinin bunker və zirzəmilərdə qalmasına məcbur etdi. Şəhərin ucqar nöqtələrinin yaxınlığında Dağlıq Qarabağdakı erməni hərbi liderlər şəhəri tutmaq üçün hücum təşkil etdilər.

Mayın 8-də yüzlərlə erməni əsgəri tanklarla və vertolyotlarla Şuşaya hücum etdi. Şəhərin küçələrində şiddətli döyüşlər baş verdi və hər iki tərəfdən yüzlərlə adam həlak oldu. Sayca az olmalarına və daha zəif silahlanmalarına baxmayaraq, ermənilər mayın 9-da şəhəri ələ keçirib, azərbaycanlıların geri çəkilməsinə nail oldular.

Şuşanın işğalı qonşu Türkiyədə böyük səs-küyə səbəb oldu. Ermənistan SSRİ-dən müstəqilliyini elan etdikdən sonra Türkiyə ilə



münasibətləri yaxşılaşsa da, Dağlıq Qarabağ regionunun işğalı Türkiyə və Ermənistan arasında münasibətləri zəifləşdirdi. Türkiyənin baş naziri Süleyman Dəmirəl Azərbaycana kömək etməklə bağlı təzyiq altında olduğunu qeyd etmişdi. Buna baxmayaraq, Dəmirəl müharibəyə müdaxilə etməyə qarşı olduğunu, Türkiyənin müharibəyə daxil olmasının daha böyük xristian-müsəlman münaqişəsinə səbəb ola biləcəyini bildirdi. Bunun nəticəsində, Türkiyə ordusunu Azərbaycana göndərməyib, Azərbaycana əhəmiyyətli hərbi yardım etdi.

1992-ci ilin may ayında MDB qüvvələrinin hərbi komandiri marşal Yevgeni Şapoşnikov Qərb dövlətlərinə, xüsusilə ABŞ-yə Qafqazdakı münaqişəyə müdaxilə etməmək barədə xəbərdarlıq etdi. Şapoşnikov "bu yerin Üçüncü dünya müharibəsinin başlanğıcı ola biləcəyini" bildirdi.

Şamil Basayevin başçılıq etdiyi çeçen qüvvələri müharibədə iştirak edən hərbi birliklərdən biri idi. Azərbaycan polkovniki Azər Rüstəmova görə 1992-ci ildə Şamil Basayev və Salman Raduyevin başçılığı altında yüzlərlə çeçen döyüşlərdə azərbaycanlılara əhəmiyyətli kömək göstərmişdi. Bəzi mənbələrə görə, Şamil Basayev Şuşanı tərk edən sonuncu döyüşçülərdən biri idi. Basayev qeyd edirdi ki, müharibə dindən çox, milliyyətçi xarakter daşıdığından o, qüvvələrini geri çəkdi.

## Laçının işğalı

Şuşanın işğalından sonra Azərbaycan Milli Məclisi Azərbaycan prezidenti vəzifəsini icra edən Yaqub Məmmədovu günahlandıraraq, onu güclə vəzifəsindən çıxartdı. Mütəllibov Xocalının itkisi haqqında hər hansı bir məsuliyyət daşınmasında təsdiq edən faktlar aşkar etmədiyindən, Ali Sovet öz qərarını ləğv etdi və 1992-ci il mayın 15-də o, vəzifəsinə qayıtdı.

1992-ci il mayın 18-də erməni qüvvələri Ermənistanı və Dağlıq Qarabağı ayıran Laçın dəhlizinə hücum etdi. Laçın şəhəri zəif mühafizə olunduğundan, növbəti gün ərzində Ermənistan Silahlı Qüvvələri şəhəri ələ keçirdi və orada vuruşan Azərbaycan hərbçilərini məğlub etdi. Şəhərin alınması, quru marşrutla Ermənistandan Qarabağın dağlıq bölgəsi olan Laçına qədər özünü təchizat edən karvanların bağlanamasına imkan yaradırdı.

Laçının itkisi Mütəllibov rejiminə son zərbə oldu. Mütəllibovun qadağasına baxmayaraq, Azərbaycanda etiraz aksiyaları keçirildi və Xalq Cəbhəsi fəalları silahlı çevrilişə nail oldular. Hökumət qüvvələri və Xalq Cəbhəsinin dəstəkçiləri arasında döyüşlər siyasi müxalifətin Bakıda parlament binasının, hava limanının və prezident ofisinin ələ keçməsinə səbəb oldu. 1992-ci il iyunun 16-da Əbülfəz Elçibəy Azərbaycanın prezidenti seçildi və Azərbaycan Xalq Cəbhəsi Partiyasının bir çox siyasi fəalları deputat oldular. Azərbaycan Xalq Cəbhəsinin tərəfdarları Mütəllibovu Qarabağ müharibəsində zəif lider olmasında günahlandırırdı. Əbülfəz Elçibəy Rusiyadan yardım alınmasının əleyhinə idi. O, Türkiyə ilə yaxın əlaqələrinin tərəfdarı idi.



## Goranboy əməliyyatı

Dağlıq Qarabağ üzərində nəzarətə həlledici zərbə vurmaq üçün 1992-ci ilin yayında Azərbaycan irimiqyaslı hücum etdi. Bu hücum Azərbaycan Ordusunun ən uğurlu hərbi irəliləyişi idi. Goranboy əməliyyatından sonra müharibə daha şiddətli mərhələyə keçdi. Əməliyyatda 8000 Azərbaycan əsgəri, dörd əlavə batalyon, ən azı 90 tank, 70 piyada döyüş nəqliyyat vasitəsi və Mi-24 hərbi helikopterləri istifadə olunmuşdu.

1992-ci il iyunun 12-də Azərbaycan ordusu Dağlıq Qarabağın mərkəzi olan Əsgəran rayonu istiqamətində genişmiqyaslı diversiya hücumuna başladı. 4000 nəfərlik iki dəstə Əsgəranın şimal və cənub mövqelərinə hücum etdi. Şiddətli döyüşlər nəticəsində azərbaycanlılar Əsgəran rayonunun bəzi yaşayış məntəqələrində nəzarəti ələ keçirdi: Naxçıvanlı, Dovşanlı, Pircamal, Dəhrəz və Ağbulaq.



***Daşaltıda məhv olunmuş BRDM-2.***

1992-ci il iyunun 13-də Azərbaycan hərbçiləri erməni könüllü dəstələri tərəfindən müdafiə edilən Goranboy rayonununda əks hücuma başladı. Bu üç günlük hücumun kod adı "Goranboy əməliyyatı" idi və əməliyyata Surət Hüseynov başçılıq edirdi. On beş saat Azərbaycan qüvvələrinə qarşı şiddətli mübarizəsindən sonra, iki erməni dəstəsi geri çəkilməyə məcbur oldu. Azərbaycan Ermə-

nistan qüvvələri tərəfindən nəzarət olunan Goranboy rayonunun onlarla kəndini ələ keçirməyi bacardı və regiondan bütün mülki erməni əhalisi qaçdı. 1992-ci il iyulun 4-də azərbaycanlılar bölgənin ən böyük şəhəri olan Ağdərəni ələ keçirdi.

Azərbaycanın hücum miqyasını görən Ermənistan hökuməti, Azərbaycanı təhdid edib, birbaşa müdaxilə və Qarabağda döyüşən separatçılara kömək edəcəyini elan etdi. Goranboya hücum Ermənistan qüvvələrini Xankəndinin cənubuna doğru çəkilməyə məcbur etmişdi, harada ki, erməni komandirləri Ağdərə rayonunun mühüm Sərsəng su anbarına nəzarət edirdi. Dağlıq Qarabağın təxminən yarısı alındığdan sonra, 30 000 erməni Xankəndidən qaçmaq məcburiyyətində qalmışdı.

1992-ci il iyunun 18-də ermənilər nəzarət etdiyi ərazilərdə fövqəladə vəziyyət elan etdi. Avqustun 15-də Robert Koçaryan və daha sonra Serj Sarkisyanın başçılıq etdiyi qondarma DQR Dövlət Müdafiə Komitəsi yarandı. Komitəyə qismən səfərbərlik üçün çavuş və əsgərlər, 18–40 yaşlı hərbi xidmətə mövcud kişilər, 50 yaşına kimi zabitlər və keçmiş hərbi təlimli qadınlar çağırıldı. Hərbi xidmətə çağırılanların sayı 15 000 nəfərdən artıq idi. Sürətli hərbi islahatlar ayrı-ayrı döyüşən Ermənistan könüllü dəstələrini vahid DQR Müdafiə Ordusuna çevirdi.

1992-ci ildə Azərbaycanın zirehli qoşunlarının hücumu erməni helikopterləri tərəfindən dayandırıldı. İddia olunur ki, Azərbaycanın zirehli qoşunlarının ekipaj üzvlərinin çoxu, Gəncədə yerləşən 104-cü qvardiya desant-hücum diviziyasından olan ruslar idi. 1992-ci ilin payızında Azərbaycan ordusu ağır itkilər vermişdi. Qaçılmaz məğlubiyyət ilə üzləşən Surət Hüseynov, ordusundan qalan əsgərlərini Ağdərədən çıxardı. Sürət Hüseynov daha sonra qoşunları Gəncəyə — 104-cü qvardiya desant-hücum diviziyasının hərbi bazasından sursat yığmaq üçün köçürdü. Növbəti ilin fevral-mart aylarında, DQR Müdafiə Ordusu gələcək Azərbaycan hərbi hücumlarının qarşısını ala bildi.



## Sülh danışıqlarının növbəti cəhdləri

Xocalı soyqırımı və Azərbaycan prezidenti Ayaz Mütəllibovun istefasından sonra, sülh danışıqlarının yeni cəhdləri 1992-ci ilin birinci yarısında İran prezidenti Haşimi Rəfsəncaninin təşəbbüsü ilə keçirilirdi. İran diplomatları məkik diplomatiyasını icra edərək, 1992-ci il mayın 7-də ikitərəfli danışıqlar üçün Tehrana Azərbaycan prezidentinin səlahiyyətlərinin icraçısı Yaqub Məmmədovu və Ermənistan prezidenti Levon Ter-Petrosyanı dəvət etdi. Məmmədov, Ter-Petrosyan və Rəfsəncani beynəlxalq hüquq normalarına, sərhədlərin sabitlik tərəflərin razılığa aşağıdakı və qaçqın böhranı ilə məşğul olmaq üçün Tehran kommunikesini imzalamışdılar, lakin sülh səyləri növbəti gün Ermənistan qoşunlarının Şuşa şəhərini və 18 mayda tamamilə Laçın şəhərini ələ keçirməsinin uğursuzluqundan sonra pozuldu.

1992-ci ilin yayında ATƏM (sonradan Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı oldu) Helsinkidə 11 ölkədən təşkil olunan Minsk qrupunu yaratdı. Görüş Fransa, Rusiya və ABŞ-nin birgə başçılığı altında keçirilirdi, lakin 1992-ci ildə, qrupun illik sammitində, təşkilat problemi həll edə bilmədi və Sovet İttifaqı dağıldıqdan sonra bir çox yeni problemlər yaranmışdı: Yuqoslav müharibələri, Dnestryanı separatçı respublikası ilə Moldovanın müharibəsi, Çeçenistanda separatçı hərəkatı, Rusiya, Abxaziya və Osetiya ilə Gürcüstanın yeni mübahisələri gündəliyin əsas məsələlər idi.

ATƏM atəşkəsə nəzarət və humanitar yardım daşımaların məcburi qaçqın göndərilirməsini qorumaq üçün NATO və MDB sülhməramlılarının istifadəsini təklif edirdi. Bir neçə atəşkəs iyun hücumundan sonra qüvvəyə minsə də, Ermənistan tərəfindən dəstəklənən Avropa sülhməramlı qüvvələrinin Qarabağda yerləşmə planları alınmadı. Qarabağa 100 beynəlxalq müşahidəçi göndərilməsi ideyası dəfələrlə qaldırılsa da, iyul ayında Azərbaycan və Ermənistan rəhbərləri arasında danışıqlar tamamilə pozulmuşdu. Rusiya Qafqazda NATO-nun çoxmillətli sülhməramlı qüvvələrinin tam əleyhinə idi.

## Ağdərə və Xocavənd toqquşmaları



*1992-ci ildə Dağlıq Qarabağda Azərbaycan hərbçiləri*

İyunun sonunda Azərbaycan Qarabağın cənub-şərqində yerləşən Xocavənd şəhərinə yeni hücum hazırlayırdı. Hücum qüvvəsinə çoxlu tanklar, Xocavənd və Qırmızı Bazar yaxınlığında Maçkalaşen və Cardar cəbhələrində zirehli döyüş maşınları və zirehli piyada dəstələri daxil idi. Xocavəndin alay komandiri Monte Melkonyan ağır zirehli texnikanın olmamasına baxmayaraq, Azərbaycan qüvvələri tərəfindən təkrar hücum cəhdlərini zərərləşdirməyi bacarmışdı.

1992-ci il avqustun sonunda qondarma Dağlıq Qarabağ hökumətində siyasi gərginlik, hökumət üzvlərinin avqustun 17-də istefa verməsi ilə nəticələndi. Hakimiyyət sonradan Dövlət Müdafiə Komitəsi tərəfindən çağırılan şuraya fərz edildi. Robert Koçaryanın başçılığı altında olan şuraya, münaqişənin sonuna qədər müvəqqəti olaraq anklavın idarə edilməsi tapşırıldı. Eyni zamanda Azərbaycan təyyarə hücumlarına başladı.



## Qışın yaxınlaşması



*Qarabağ müharibəsində Azərbaycan qaçqınları, 1992-ci il.*

Qış yaxınlaşdıqca hər iki tərəf əsasən qaz və elektrik kimi resursları daxili istifadə üçün qoruyurdu. Qarabağda yaşayan erməni sakinləri iqtisadi avtomobil yolunun açılışına baxmayaraq, Azərbaycanın tətbiq etdiyi iqtisadi blokadadan böyük əziyyət çəkirdi. Metsamor AES bağlandıqdan sonra, Ermənistanın iqtisadiyyati ərzaq çatışmazlığı və enerji çatışmazlığından çətinlik çəkirdi: Gürcüstanda Abxaziya və Osetiya separatçılarına qarşı vətəndaş müharibələri başlamışdı, təchizatı karvanlara basqınlar edilmişdi və Ermənistandan Rusiyaya keçirilən neft kəməri dəfələrlə dağıdılmışdı. 1991–1992-ci illərin qışı kimi, 1992–1993 qışı da çox soyuq idi: Ermənistan və Qarabağ ərazisində bir çox ailələr istilik və isti suyun olmamasından çətinlik çəkirdi.

Erməni diasporası pul yığıb, Ermənistana təchizatı yardım edirdi. Dekabr ayında Ermənistana Gürcüstanın Qara dəniz limanı olan Batumi vasitəsilə ABŞ-dən iki daşıma ilə 33,000 ton taxıl və 150 ton uşaq qidası gətirilmişdi. 1993-cü ilin fevral ayında, Avropa İqtisadi Birliyi Ermənistana 4.5 milyon Avropa valyuta vahidi (ECU) yolladı. Ermənistanın cənub qonşusu İran, Ermənistana güc və elektrik enerjisi ilə təmin edilməsi ilə iqtisadi yardım edirdi. Elçibəyin İran üçün təhlükəli olan Bütöv Azərbaycan ideyasını də-

fələrlə gündəmə gətirməsi iki ölkə arasında münasibətlərində soyuqlaşma yaratmışdı.

Qaçqın və məcburi köçkün olan azərbaycanlılar Azərbaycan hökuməti və İran tərəfindən qurulan dərmə çatma düşərgələrdə yaşayırdı. Beynəlxalq Qırmızı Xaç azərbaycanlılara yorğan paylayaraq, dekabr ayında qaçqınlar üçün qida ayırmışdı. Azərbaycanın iqtisadiyyatı neft sənayesinin dayanmasından çətinlik çəkirdi. Ölkənin neft emalı zavodları tam gücü ilə işləmirdi və hasilat normaları hesablamalardan aşağı idi. 1965-ci ildə Bakıda neft yataqlarından 21,5 milyon ton neft ixrac edilirdisə, 1988-ci ildə neft ixracının sayı demək olar ki, 3,3 milyon aşağı düşmüşdü. Köhnəlmiş Sovet emalı avadanlıqları və Qərb neft şirkətləri tərəfindən müharibə regionda investisiya istəksizliyi, Azərbaycana neftin istehsalında maneə olurdu.

## 1993-cü ilin yayı
## Münaqişələr

Kəskin qışa baxmayaraq, yeni ili hər iki tərəf həvəslə gözləyirdi. Azərbaycan prezidenti Elçibəy Ermənistan prezidenti Ter-Petrosyanla münaqişənin həllinə optimizlə baxmasını ifadə etmişdi, lakin belə ümidlər 1993-cü ildə puç oldu. Rusiya prezidenti Boris Yeltsin və ABŞ prezidenti Corc Herbert Uoker Buşun yeni atəşkəs çağırışlarına baxmayaraq, bölgədə hərbi əməliyyatlar yenidən qaynadı. Ermənistan Silahlı Qüvvələri 1992-ci ilin payızından Qarabağın şimalında azərbaycanlıların idarə ətdiyi kəndlərə yeni hücumlar etdi.

Hərbi məğlubiyyətlər Azərbaycanın daxilində gərginlik yaratmışdı. Çarəsiz qalan Azərbaycanın müdafiə naziri Rəhim Qazıyev və Rövşən Cavadovun briqadası kömək üçün Rusiyaya üz tutmuşdu. Hərbi hissələrin yerləşməsi haqqında ölkənin daxili işlər naziri İsgəndər Həmidov və Qazıyev arasında siyasi gərginlik, fevralın 20-də Qazıyevin istefası ilə nəticələndi. Ermənistanda da eyni siyasi gərginlik yaranmışdı və ermənilərin prezident Ter-Petrosyana qarşı narazılığı artırdı.



## Kəlbəcər döyüşü



***1992-ci ildə Kəlbəcər rayonunu tərk edən azərbaycanlı qaçqınlar***

Şimali Qarabağın qərbində yerləşən Kəlbəcər rayonu, Ermənistan ilə həmsərhəddir və bölgənin rəsmi sərhədləri xaricində idi. 1993-cü il mart ayında ermənilərin işğal etdiyi Tərtər rayonunun ərazisində Sərsəng su anbarı azərbaycanlılar tərəfindən hücuma məruz qalmışdı. Monte Melkonyanın döyüşçüləri Aşağı Qaranlıq rayonunu tutduqdan sonra Kəlbəcəri işğal etmək niyyətində idi. Prezident Elçibəy iki ay müddətinə fövqəladə vəziyyət elan edib, universal çağırış təqdim etdi.

Azərbaycanlıların hərbi müxalifəti Melkonyanın döyüşçülərinə regionda bir neçə tərk edilmiş zirehli avtomobil və tankların ələ keçmə imkanını verdi. Aprel ayının 1-də, səhərə yaxın erməni və rus hərbi qoşunları, Ermənistan tərəfdən eyni vaxtda sərhəd boyu ağır artilleriya atəşinin və zirehli texnikanın köməyi, 2000 nəfərdən çox canlı qüvvə ilə qəti hücuma keçdi. Söyüdlü, Dikyurd, Yellicə, Ayrım sərhəd məntəqələrində Azərbaycan ordusu onlardan qat-qat üstün qüvvələrin qarşısında tab gətirməyib, döyüşərək geriyə çəkilməyə məcbur oldu. Bunun nəticəsində, həmin mövqelər ermənilərin əlinə keçdi. Yalnız Zəylik istiqamətində ermənilərin hücumunun

qarşısı alındı. Zəylikdə olan Azərbaycan qüvvələri son iki gün ərzində ermənilərin mövqelərinə və Basarkeçərə 200-dək top mərmisi atmışdı. 3 apreldə artıq erməni qoşunları Kəlbəcəri idarə edirdi.

BMT Təhlükəsizlik Şurası, Türkiyə və Pakistanın dəstəyi ilə, 1993-cü il aprelin 30-da Kəlbəcərin işğalını pisləyən, erməni işğalçılarından dərhal həmin ərazini tərk etməyi tələb edən 822 №-li qətnamə qəbul etdi. Human Rights Watch məcmuəsində qeyd edirdi ki, erməni qoşunları Kəlbəcərə hücum edəndə, müharibə qaydalarını dəfələrlə pozmuşdu. Ermənilər mülki əhalini zorla öz evlərindən çıxarmış, qəsdən atəş açmış və girov götürmüşlər.

Siyasi hadisələr Azərbaycanın digər bölgələrində də baş verirdi: Surət Hüseynovun tabeliyindəki silahlı birləşmələr Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirərək, Bakıya doğru hərəkət etməyə başladı. 9 iyun 1993-cü ildə Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev prezident Əbülfəz Elçibəyin dəvəti ilə Bakıya gəldi. Bunun ardınca Milli Məclisdə Gəncə hadisələri ilə bağlı gərgin müzakirələr başladı. 15 iyun 1993-cü ildə isə Milli Məclisin iclasında prezident Əbülfəz Elçibəyin təklifi ilə deputat və Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev parlamentin sədri seçildi. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə qəflətən, dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən Bakı şəhərindən Ordubad rayonunun Kələki kəndinə getdi. Bununla Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti vəzifələrini icra etməsini qeyri-mümkün etdi. 1 iyulda Surət Hüseynov Azərbaycanın baş naziri təyin edildi. Prezidenti vəzifəsini icra edən Heydər Əliyev, Xalq Cəbhəsinin 33 könüllü batalyonunu etibarsız hesab edərək, ləğv etdi. Heydər Əliyev 1998-ci il oktyabrın 11-də seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.



## Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan
### 1993 Yay əməliyyatları və Ağdam uğrunda döyüş



***Qarabağ müharibəsində Allahverdi Bağırovun əllə çəkdiyi xəritə***

Azərbaycan xalqı yeni siyasi mənzərəyə öyrəşərkən, ermənilər iyunun 12-da Mərzili mahalı yaxınlığında Azərbaycanın yüngül zireh və piyada ilə atışmasında ölən Monte Melkonyanın İrəvanda dövlət cənazəsində iştirak edirdilər. Erməni tərəfi Bakıdakı siyasi böhrandan istifadə edirdilər — Azərbaycan qüvvələri Qarabağ cəbhəsini demək olar ki, tamamilə qorumurdu. Dörd ay siyasi qeyri-sabitlikdən sonra, Azərbaycan beş rayonunu və Dağlıq Qarabağın şimalını itirmişdi. İyunun sonunda, azərbaycanlılar anklavın son nöqtəsi olan Xocavəndi itirmişdi.

1993-cü il iyulun 4-də erməni qüvvələri artilleriya ilə Ağdamı bombalayıb, şəhərin əksər hissəsini məhv etmişdi və bunun nəticəsində, əsgərlər və mülki vətəndaşlar şəhərdən evakuasiya edildi. Ordunun dağılması ilə üzləşən Heydər Əliyev, de fakto Qarabağ hökuməti və Minsk Qrupu rəsmiləri ilə danışıqlar aparırdı. Avqustun ortalarında ermənilər Füzuli və Cəbrayıla qoşun yeritdi. Ermənilərin Azərbaycan bölgəlrinin işğalını nəzərə alaraq, Türkiyənin baş naziri Tansu Çillər, Ermənistan hökumətini Naxçıvana hücum etməməsi uçün xəbərdarlıq etdi və ermənilərin Azərbaycan torpaq-

larından çıxmasını tələb etdi. Bunun nəticəsində, minlərlə türk əsgərləri sentyabrın əvvəlində Türkiyə — Ermənistan sərhədinə göndərildi. Ermənistanda Rusiya tərəfli qüvvələr Türkiyənin hərəkətinə qarşı idi və onların münaqişəyə qoşulmasının əleyhinə idi.

Sentyabrın əvvəllərində Azərbaycan ordusunda nizamsızlıq artmışdı. Ruslardan alınan əksər ağır silahlar döyüşlər zamanı fəaliyyətdən çıxarılmışdı. 1992-ci il iyun hücumunda Ermənistan Silahlı Qüvvələri Azərbaycan tərəfindən onlarla tanklar, yüngül zirehli texnikalar və artilleriya ələ keçirmişdi. Məsələn, 1993-cü ildə Monte Melkonyan televiziyaya müsahibəsində qeyd edirdi ki, təkcə Xocavənddə onun dəstəsi toplam olaraq 55 T-72, 24 BMP-2, 15 APC; 1992-ci ildə Goranboy hücumunda 25 ədəd ağır artilleriya ələ keçirib və ya məhv etmişdir. Serj Sarkisyan, Qarabağ silahlı qüvvələrinin o zaman hərbi lideri, müharibə zamanı toplam olaraq 156 tankın ələ keçirilməsini qeyd etmişdi. 1993-cü ilin yayında ermənilər küllü miqdarda Azərbaycan tərəfindən silahı ələ keçirilməsinə görə Elçibəyi tərif edirdi.



## Səmada döyüşlər

### Azərbaycan Hərbi Hava Qüvvələri, Ermənistan Hərbi Hava Qüvvələri, Qarakənd faciəsi, Şuşa yaxınlığında Mi-8 vertolyotunun vurulması, və An-2 təyyarəsinin vurulması (1991)

Qarabağın səmalarında gedən döyüşlərdə əsas qırıcı və hücum vertolyotlarından istifadə olunurdu. Müharibədə hər iki tərəfin əsas nəqliyyat vertolyotu Mi-8 və Mi-17 idi. Ermənistanın hava qüvvələri cəmi iki Su-25 dəstəkləyən bombardmandan ibarət idi və Su-25-lərdən biri dost atəşi zamanı məhv olmuşdu. Ermənistanda bir neçə Su-22 və Su-17-lər olsa da, ölkənin köhnə uçuş aparatları müharibə dövründə ehtiyatda qalmışdı. Qarabağ müharibəsi dövründə Ermənistan Azərbaycanın 28 döyüş təyyarəsini və 19 hərbi helikopterini məhv etmişdi.

Azərbaycan Hərbi Hava Qüvvələri 45 qırıcıdan ibarət idi və bu qırıcılar əsasən keçmiş Sovet hərbi təcrübəli Rusiya və Ukraynadan gətirilən muzdlular tərəfindən idarə olunurdu. Muzdlular MiQ-25 və Su-24 kimi inkişaf etmiş təyyarələrlə və MiQ-21 kimi köhnə nəsil Sovet qırıcı bombardmanlarla Qarabağa uçurdular. Muzdlulara 5000 Rusiya rublundan çox aylıq əmək haqqı ödənirdi və onlar tez-tez Xankəndini bombalamaq üçün Azərbaycanın hava bazalarından uçurdu.

Ermənilərin müdafiə sisteminin quraşdırılması Azərbaycanın hava hücum qabiliyyətinə ciddi maneə yaradırdı. Azərbaycan və Ermənistanın ən çox istifadə etdiyi döyüş vertolyotu — Mil Mi-24 Krokodil idi.

1993-cü ilin oktyabr ayında Heydər Əliyev rəsmi olaraq prezident seçildi və itirilmiş ərazilərdən əlavə, ölkədə sosial nizamı bərpa etməyi vəd etdi. Həmin ay Azərbaycan MDB-yə qatıldı. Qış mövsümü əvvəlki il kimi oxşar şəraitlərdə keçirdi: hər iki tərəf aylar əvvəl yığılan ərzaqlar ilə dolanırdı. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı iki sonrakı BMT Təhlükəsizlik Şurasının qətnamələri oktyabr və noyabr ayında (874 və 884) qəbul edildi.

Yanvarın əvvəllərində, Azərbaycan qüvvələri və əfqan döyüşçüləri Füzuli rayonunun bir hissəsini, o cümlədən, İran sərhədində

Horadiz dəmir yolu qovşağını ələ keçirsə də, Füzuli şəhərini geri ala bilməmişdi. 1994-cü il yanvarın 10-da Azərbaycan Ağdərə rayonunun şimal anklavını ələ keçirmək üçün hücuma başladı. Hücumda Azərbaycan ordusu Qarabağın şimalında və cənubunda bir neçə əraziləri götürsə də, onları saxlaya bilmədi. Buna cavab olaraq, Ermənistan hərbi xidmətdə olan hərbçiləri və Daxili İşlər Nazirliyinin qoşunlarını Azərbaycanı dayandırmaq üçün Qarabağa yolladı. Ermənistan hökuməti odusunun sıralarını gücləndirmək üçün, yaşı 45-ə qədər olan kişilərin orduya çağırılması üçün fərman imzaladı. Bu dövrdə xidmətdə olan bir neçə Ermənistan əsgərləri Azərbaycan qüvvələri tərəfindən əsir götürülmüşdü.

Azərbaycanın hücumlarında çarəsizlik artdıqca, ölkənin hərbi rəhbərləri heç bir hərbi təlim almayan, 16 yaşlı gənc oğlanları cəlb edib, onları səmərəsiz canlı sədd hücumlarında iştirak etməyə göndərirdi. Qışda reallaşan iki hücumda Azərbaycan tərəfi təxminən 5000 nəfər itki vermişdi. Bu döyüşlərdə erməni tərəfinin itkisi isə bir neçə yüz nəfər idi. Azərbaycan əsas hücumları Kəlbəcər istiqamətində edib, bu yolla Laçın dəhlizində təhlükə yaratmaq istəyirdi. Azərbaycanın ilk hücumları nəticəsində Ömər aşırımı alındı, lakin müharibənin ən şiddətli toqquşmaları daha sonra baş verdi. Kəlbəcər istiqamətində toqquşmaların birində, Azərbaycanın uğursuz hücumu nəticəsində təxminən 1500 əsgər həlak olmuşdu. Şiddətli döyüşlər nəticəsində ermənilər Ömər aşırımını işğal etdi.



## 1994-cü il atəşkəsi Bişkek protokolu

Altı il gərgin döyüşlərdən sonra hər iki tərəf atəşkəsə hazır idi. Azərbaycan Ermənistan qüvvələrinin maneəsiz Bakıya yürüş planlarından xəbərdar olduğundan, ATƏT-in və ya Rusiyanın yeni atəşkəs təklifinə ümid bağlayırdı. Münaqişənin son döyüşləri Şaumyan yaxınlığında gedirdi və 1994-cü ilin əvvəllərində Goranboy rayonunun Gülüstan kəndində Azərbaycan və Ermənistan diplomatları atəşkəsin detallarını həyata keçirmək üçün görüş keçirirdi.

Mayın 5-də Rusiyanın vasitəçiliyi ilə, bütün tərəflər hərbi əməliyyatlarını dayandırmağa razılaşdı. Mayın 12-si saat 00:01-dan etibarən atəşkəs rejimi barədə "Bişkek protokolu" adlı sənəd imzalandı. Azərbaycanın müdafiə naziri Məmmədrəfi Məmmədov mayın 9-da, Ermənistanın müdafiə naziri Serj Sarkisyan mayın 10-da və Dağlıq Qarabağ qoşunlarının komandanı Samvel Babayan mayın 11-də sənədi imzaladı. Ara-sıra döyüşlər rayonunun bəzi yerlərində davam etsə də, bütün tərəflər atəşkəs şərtlərinə əməl edəcəyini bildirmişdi.

## Münaqişənin beynəlxalq mətbutda işıqlandırılması

Münaqişəndən görüntülər hər iki ölkənin jurnalistləri tərəfindən işıqlandırılırdı:

Vardan Hovhannisyan “Müharibədə və sülhdə insanların hekayəsi” ilə 2007-ci ildə Tribeka Film Festivalında ən yaxşı yeni sənədli kinorejissor kimi mükafat qazanmış, Çingiz Mustafayev, Salatın Əsgərova və Alı Mustafayev isə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Cəbhə xəttində döyüşləri çəkən jurnalist Dmitri Pisarenko qeyd edir ki, Ermənistan və Azərbaycan jurnalistləri öz hökumətlərinin rəsmi mövqeyini "obyektivlik ideologiyaya görə qurban edilmişdir". Ermənistan hərbi komandanlığı azərbaycanlıların hücumlarından sonra müsahibələr verirdilər və onlar ağır artilleriya hü-

cumlarının başlanmasında digər tərəfi tənqid edib, "kiçik saylı, amma fəxrli ermənilərin mübarizəsini" vurğulayırdı. Buna baxmayaraq, Ermənistan qoşunları belə hərəkətlərə haqq qazandırmamaq üçün, Dağlıq Qarabağın xaricində olan kəndlərin ələ keçmə zamanı danışmaqdan imtina edirdilər. Ona görə də, erməni jurnalistlər kifayət qədər yaradıcı ehtiyac hissini "erməni əks-hücumu" və ya "zəruri hərbi əməliyyat" kimi qeyd edirdilər.

Bolqarıstan jurnalisti Tsvetana Paskaleva Çaykənd əməliyyatını işıqlandırdı. Bəzi xarici jurnalistlər əvvəllər SSRİ-nin soyuq müharibəni uduzmasını vurğulayıb, tədricən etnik münaqişələrin SSRİ-ni bürüdüyünü, onlardan biri olan Dağlıq Qarabağ münaqişəsinin olduğunu qeyd edirdilər.

SSRİ insan hüquqları müvəkkili Andrey Saxarov Qarabağ müharibəsini — "Qarabağ məsələsi Azərbaycan üçün ambisiya, Qarabağ erməniləri üçün həyat və ya ölüm məsələsidir" kimi qeyd etmişdi.

## ATƏT-in Minsk Qrupu

1995-ci ildən ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin həlli üçün Azərbaycan və Ermənistan hökumətləri ilə vasitəçilik edirdi. Çoxsaylı təkliflər hər iki tərəflərin bir sıra güzəştləri əsasında edilmişdir. Nəzərdə tutulan təkliflərdən biri, erməni qüvvələrinin Qarabağ ətrafındakı yeddi rayondan çəkilməsini, Azərbaycan Türkiyəyə Ermənistan vasitəsilə neft borusunun gəlirlərindən, o cümlədən bəzi iqtisadi aktivlərin bölüşməsidir. Digər təkliflər də Azərbaycanın Qarabağ muxtariyyətinə tam müstəqillik verilməsini ən yaxın geniş formada təmin edilməsidir. Ermənistana həm də regionda böyük iqtisadi layihələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan Neft Kəməri və Bakı-Tbilisi-Qars dəmiryolu xətti xaric edilməsi ilə təzyiq edilirdi.

Ermənistan keçmiş prezidentin Levon Ter-Petrosyanın sözlərinə görə, Azərbaycana müəyyən Qarabağ əraziləri verərək, Qarabağ münaqişəsi 1997-ci ildə həll edilə bilərdi. Nəticədə sülh müqaviləsi bağlana bilərdi və Dağlıq Qarabağın statusu müəyyən olardı. Ter-Petrosyan qeyd edir ki, Qarabağ rəhbərliyinin yanaşması maksimalistir və "onlar daha da çox şeyin əldə etməsini düşünürdülər". Lakin əksər muxtariyyət təklifləri ermənilər tərəfindən müzakirə obyekti deyil hesab edilib və rədd edilmişdir. Eyni zamanda, Azərbaycan da sakitləşmək imkanını imtina edib və müntəzəm hərbi əməliyyatlarının hələ də qüvvədə olduğunu qeyd emişdi. 1998-ci il martın 30-da Robert Koçaryan prezident seçildi və münaqişənin həlli üçün müqavilə bağlama təkliflərini davam etdirmək cəhdlərini rədd etdi. 2001-ci ildə Köçəryan və Heydər Əliyev Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı tərəfindən maliyyələşdirilən sülh danışıqları üçün Ki Vest, Floridada görüşdülər. Bir sıra Qərb diplomatları optimist atmosferi ifadə etsə də, ölkə əhalisini hazırlamaq üçün kompromislər uğursuz oldu və münaqişənin sülh yolu ilə həlli ümidinin qarşısını aldı.



## Atəşkəs dövründə statistik rəqəmlər

Xəzər Hərbi Tədqiqatlar İnstitutu (Caspian Defense Studies Institute) bildirir ki, tərəflər arasında atəşkəs müqaviləsinin imzalandığı vaxtdan keçən 22 il ərzində (1994-cü ilin 12 mayından 2016-cı ilin 12 mayınadək) Azərbaycan–Ermənistan qoşunlarının təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin 2 min nəfərdən artıq hərbi qulluqçusu dünyasını dəyişib və ya yaralanıb. Sözügedən müddətdə ən azı 1008 Azərbaycan hərbi qulluqçusu həlak olub. Onların 873 Azərbaycan hərbçisi erməni gülləsindən dünyasını dəyişib, 135-dən artıq Azərbaycan hərbçisi isə mina partlayışından vəfat edib. Müvafiq dövrdə isə 1205 hərbi qulluqçu cəbhə bölgəsində yaralanıb və ya xəsarət alıb. Belə ki, həmin dövrdə erməni gülləsindən yaralananların ümumi sayı isə 965 nəfərdən yuxarıdır. 240-dan artıq hərbi qulluqçu isə mina partlayışından yaralanıb. Bundan başqa, sözgüdən müddətdə cəbhə xəttində 90-dan artıq mülki vətəndaş həlak olub. Onlardan 50 nəfəri erməni gülləsindən, 40 nəfəri isə mina partlayışından həlak olublar. Müvafiq dövrdə 140 mülki şəxs cəbhə xəttində yaralanıb və ya xəsarət alıb. Onlardan 80 nəfəri erməni gülləsindən yaralanıb, 60 nəfəri isə mina partlayışından xəsarət alıb. Qeyd edilən dövrdə Azərbaycanın 10 mülki vətəndaşı girov götürülüb, sonradan qaytarılıb. İki azərbaycanlı

(onlardan biri Rusiya vətəndaşıdır) hazırda işğal altında olan Dağlıq Qarabağda qondarma məhkəmə prosesinə cəlb olunub. Sözügedən dövrdə Azərbaycan Silahlı Qüvvələrinin 30-dan artıq hərbi qulluqçusu əsir götürülüb və onlardan 5-i 3-cü ölkəyə göndərilib, qalanları isə müxtəlif vaxtlarda Azərbaycana qaytarılıblar. Helsinki Vətəndaş Assambleyasının Vanadzor Ofisi Ermənistan ordusunun atəşkəs dövründə verdiyi itkilərlə bağlı geniş təhqiqat aparıb və 1994-cü ilin mayından 2017-ci ilin martına kimi 2500-dən çox erməni hərbçisinin döyüş və qeyri-döyüş şəraitində öldüyünü yazır. Ermənistan ordusu əsas itkilərini atəşkəsin ilk illərində, xüsusən 1995 (344 nəfər) və 1997-ci (216 nəfər) illərdə verib.

## Azərbaycana dəyən maddi ziyan

Döyüşlər nəticəsində təxminən bir milyon adam qaçqın və məcburi köçkün olmuşdur. Azərbaycanda yaşayan təxminən 400 000 erməni Ermənistana və ya Rusiyaya köçmüş və daha 30 000 insan Qarabağdan onlara qoşulmuşdur. Qarabağı tərk edənlərin çoxu müharibədən sonra qayıtmışdı. Təxminən 800,000 azərbaycanlı döyüşlərdə, həm də o cümlədən Ermənistan və Qarabağdan didərgin edilmişdir. Qarabağda yaşayan müxtəlif etnik qrupları da Azərbaycan və İran hökumətləri tərəfindən inşa olunan qaçqın düşərgələrində yaşamağa məcbur edilmişdi.

İşğal nəticəsində Azərbaycana aid cəmi uzunluğu 25 min km olan avtomobil yolu, yenə cəmi uzunluğu 3984 m olan 160 körpü, 14,5 min km uzunluğunda elektrik xətti, 2500 elektrik transformatoru, 2 min km qaz boru xətti, 160 su anbarı, 34-dən çox qaz dağıtım stansiyası erməni işğalçıları tərəfindən dağıdılmışdır.

İşğal edilmiş bölgələrdə, cəmi 140 min şagirdin oxuduğu olan 600 məktəb, 53 min şagirdin təhsil adlığı 65 peşə məktəbi, 2 yüksək öğrənim qurumu məhv edilib. 700 səhiyyə ocağı, 800 nəfərlik xəstəxana, poliklinikalar, doğum evləri, aptek binaları, təcili yardım xəstəxanaları dağıtılmıştır. Səhiyyə xidmətinə dəyən ümumi iqtisadi ziyan 1,2 milyard dollara yaxındır.

Azərbaycana aid 903 dövlət qeydiyyatında olan, 1500 Dövlət qeydiyyatında olmayan tarix və mədəniyyət abidələri, minlərcə



əsərin qorunduğu 26 müzey, 8 rəsm sərgisi, 4,6 milyon kitab və əlyazma saxlanan 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı ermənilər tərəfindən işgal edilib. Müharibə nəticəsində Azərbaycan Respublikası milyardlarla dollar məbləğində ziyana məruz qalıb. Ziyanın məbləği müxtəlif mənbələrdə fərqli göstərilir. BMT-nin 1994-cü ildəki hesabatında isə işğal nəticəsində Azərbaycana dəyən ziyan 53.5 milyard ABŞ dolları səviyyəsində təsbit olunmuşdur.

## 7 Madrid prinsipləri və Praqa prosesi

Müharibənin sonundan etibarən, bir sıra təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələr qəbul etmişlər. 2005-ci il yanvarın 25-də AŞPA-nın qış hissəvi-sessiyasında "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı 1416 (2005) saylı Qətnamə və 1690 (2005) saylı Tövsiyə qəbul olunmuşdur. Assambleya bir üzv dövlət tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərin ciddi şəkildə pozulması demək olduğunu xatırlatmış və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq etmişdir. 14 mart 2008-ci il tarixində BMT Baş Məclisi özünün 62-ci sessiyasında Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair A/RES/62/244 saylı qətnamə qəbul etdi. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətrafındakı silahlı münaqişənin beynəlxalq sülh və təhlükəsizliyə təhlükə törətdiyindən ciddi narahatlıq keçirən BMT Baş Məclisi Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, bütün erməni qoşunlarının Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. İslam Konfransı Təşkilatının 2008-ci il martın 13–14-də Seneqalın Dakar şəhərində keçirilmiş 11-ci Zirvə konfransında, eləcə də 2009-cu il mayın 23–25-də Suriyanın Dəməşq şəhərində keçirilmiş İƏT xarici işlər nazirlərinin 36-cı konfransı Azərbaycanın maraqlarına tam uyğun olan qətnamələr qəbul etmiş, qəbul edi-

lən sənədlərdə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd - şərtsiz çıxarılmasını tələb etmişlər. Buna cavab olaraq, Ermənistan rəhbərliyi Azərbaycanı "böyük beynəlxalq dəstək qazanmaq üçün İslamı istifadə etməsində" ittiham etmişdi.

2008-ci ildə "Moscow Defense Brief" jurnalı qeyd edir ki, Azərbaycan müdafiə xərclərinin sürətli artımı və Azərbaycan Silahlı Qüvvələrinin yenidən silahlanması ilə hərbi balans artıq Azərbaycanın xeyrinə dəyişib.



# APREL DÖYÜŞLƏRİ

**Aprel döyüşləri**, **Aprel müharibəsi** və ya **Dördgünlük müharibə** – 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş hərbi münaqişə. Aprel döyüşləri Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən seperatçı qüvvələr atəşkəs imzalanmazdan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2,000 hektarlıq ərazini azad etmişdir, ancaq Ermənistan tərəfi bu ərazinin ölçüsünün sadəcə 800 hektar olduğunu və heç bir strateji əhəmiyyətə malik olmadığını iddia edirdi.

Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin hesablamalarına görə, dörd gün davam edən döyüşlər zamanı həm hərbi, həm də mülki olmaqla təxminən 350 nəfərin həyatını itirdiyini açıqlamışdır.

Aprel döyüşləri özünün həcminə görə 12 may 1994-cü ildə razılaşdırılmış atəşkəs rejimindən sonra Azərbaycan qoşunların təmas xəttində baş vermiş ən böyük hərbi qarşıdurma idi. Aprel döyüşlərinin başlanması barədə müxtəlif fikirlər vardır. Bəzi siyasi şərhçilərə görə, döyüşlərin əsl təşəbbüskarı Rusiya və ya Türkiyə idi. Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan 2019-cu ildə verdiyi açıqlamada Aprel döyüşlərinə hazırlıqla bağlı məlumatı hərbi birləşmənin kəşfiyyatı verdiyini, lakin konkret hansı günlər hücum ediləcəyi barədə məlumatın olmasını bilmədiyini bildirib.

Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyan aprelin 2-də erkən saatlarda Birləşmiş Ştatlarda Nüvə Təhlükəsizliyi Sammitindən evə qayıdırdılar, bu zaman təmas xəttinin şimal-şərq, şərq və cənub-şərq sahələrində genişmiqyaslı döyüşlər baş verdi. Döyüşlər əsasən 257 km uzunluğunda olan təmas xətti üzərində yönəldilmişdir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalıb. Bunun nəticəsində dinc sakinlərdən 2-si ölüb, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Cəbhənin ən gərgin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində yerləşən birliklər, artilleriya bölmələri və digər qoşun növlərinin birgə, əlaqəli fəaliyyəti nəticəsində qısa müddətdə Ermənistan silahlı bölmələrinə qarşı cavab tədbirləri həyata keçirdi. Ermənistan silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 və 120 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəsi 127 dəfə pozub. Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndi atəşə tutulub. Habelə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndi, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonu ərazisindəki yüksəkliklər vurulub. Azərbaycanın müdafiə naziri Zakir Həsənov 2019-cu ildə verdiyi açıqlamada Azərbaycan ordusunun ermənilərin qurduğu Ohanyan səddini 18 dəqiqəyə yardığını bildirib. Talış kəndində olmuş "Kommersant" qəzetinin müxbirinin sözlərinə görə, Azərbaycan hərbçilərinin qrupu Talışa girsə də, orada möhkəmlənə bilmədilər.

Döyüşlər başlamazdan qabaq Azərbaycan Ordusunun diversiya qrupları cəbhənin dərinliyinə sızaraq bəzi əməliyyatlar həyata keçirmişdi. Belə əməliyyatların biri Aprel döyüşlərindən iki həftə öncə baş vermişdi, bu əməliyyat zamanı Azərbaycanın diversiya qrupu arxa cəbhənin olduqca dərinliyinə sızaraq, Əsgəran bölgəsindəki HHM kompleksinin RLS-ni məhv etmişdi.



Aprelin 3-də Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi azad olunub, Füzuli istiqamətində Ermənistanın pilotsuz uçuş aparatı vurulub. Lakin tərəflərin Seysulan kəndindəki vəziyyət haqqında xəbərləri ziddiyyətli olaraq qalırdı. Hər iki tərəf Seysulan kəndinin öz nəzarətində olmasını iddia edirdi.

Aprelin 4-ü Ermənistan itirilmiş mövqelərinin geri qaytarılması məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə hücum edir və təmas xəttinə yaxın olan yaşayış məntəqələrini intensiv surətdə atəşə tutub.

Aprelin 5-də Ağdərə şəhərinə aparan əsas yol üzərindəki strateji baxımdan əhəmiyyətli Madaqiz məntəqəsindəki hərbi bazanın qərargahına və "Yerkrapa" erməni könüllülərini cəbhəyə gətirən avtobusa zərbə endirilib. Erməni tərəfi bu zərbə nəticəsində 7 nəfərin öldüyünü təsdiq edib. Aprelin 5-də Xocavənd-Füzuli istiqamətində erməni qüvvələrinin 2 ədəd tankı heyətlə birlikdə və hərbi əmlakla dolu 5-dək təkərli texnikası sıradan çıxarılıb.



Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılıb. Razılaşma Moskva şəhərində Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilib. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirib.

Aprelin 5-də saat 12.10-dan başlayaraq aprelin 6-sı saat 12.56-dək sutka ərzində Azərbaycan-Ermənistan dövlət sərhədində Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqeləri Ermənistan Respublikasının Mehri, Sisian və Cermuk rayonları ərazisindəki mövqelərdən iriçaplı silahlar və qumbaraatanlardan atəşə məruz qalıb. Azərbaycanın Əlahiddə Ümumqoşun Ordusunun həmin istiqamətlərdə yerləşən bölmələrinin dəqiq cavab atəşi ilə düşmən susdurulub. Ordubad rayonu istiqamətində yerləşən Azərbaycan ordusunun bölmələri cavab tədbirləri nəticəsində düşmənin qarşı tərəfdəki atəş nöqtəsi və mühəndis-istehkam qurğusu dağıdılıb.

Aprel döyüşlərindən sonra may ayında Ermənistan və Azərbaycan prezidentləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkə XİN rəhbərlərinin iştirakı ilə Vyanada görüşmüş, iyunun 20-də Sankt-Peterburqda Rusiya prezidentinin iştirakı ilə üçtərəfli danışıqlar keçirmişlər. Görüşlər əsnasında münaqişə bölgəsində etimad tədbirlərinin möhkəmləndirilməsi, insidentlərin araşdırılması mexanizmlərinin yaradılması, ATƏT-in fəaliyyətdə olan sədri ofisinin genişləndirilməsi haqqında razılıq əldə edilmişdi.

### Atəşkəsdən sonrakı döyüşlər

Aprelin 7-də Azərbaycan Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, cəbhə bölgəsində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistana məxsus "X-55" tipli pilotsuz uçuş aparatı xüsusi üsulla endirilib. Aprelin 7-də Ağdərə-Goranboy istiqamətində Azərbaycana məxsus sanitar tibb maşını atəşə tutulub. Hadisə nəticəsində sanitar maşına ciddi ziyan dəysə də, xəsarət alan olmamışdı.



2016-cı il aprelin 19-da Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılmışdı.

Aprel döyüşlərində Ermənistana məxsus 30-dək tank, 320 döyüşçü məhv edilmiş və 500-dən artıq döyüşçüsü yaralanmışdı.

### Şəhidlərin siyahısı

| Rütbə | Adı, soyadı | D/T | Dəfn tarixi | Dəfn olunduğu yer |
|---|---|---|---|---|
| Polkovnik | **Vüqar Nurəddin oğlu Yusifov** | 1976 | 6 aprel 2016 | Şəmkir rayonu, Şiştəpə kəndi |
| Polkovnik-leytenant | **Raquf Cahangir oğlu Orucov** | 1972 | 5 aprel 2016 | Sumqayıt şəhəri, Şəhidlər Xiyabanı |
| | **Murad Telman oğlu Mirzəyev** | 1976 | 11 aprel 2016 | Bakı, II Fəxri Xiyaban |
| Mayor | **Təbriz Tariyel oğlu Musazadə** | 1981 | 11 aprel 2016 | Bakı, II Fəxri Xiyaban |
| | **Urfan Üzeyir oğlu Vəlizadə** | 1978 | 11 aprel 2016 | Bakı, II Fəxri Xiyaban |
| | **Sənan Tahir oğlu Axundov** | 1979 | 19 aprel 2016 | Beyləqan şəhəri |
| | **Rasim Əbdül oğlu Məmmədov** | 1977 | 5 aprel 2016 | Naxçıvan şəhəri |
| | **Elnur Adil oğlu Əliyev** | 1976 | 3 aprel 2016 | Füzuli rayonu |
| | **Samit Gülağa oğlu İmanov** | 1981 | 9 aprel 2016 | Neftçala rayonu, Həsənabad qəsəbəsi, Şəhidlər Xiyabanı |

| | | | | |
|---|---|---|---|---|
| Kapitan | **İnqilab Çingiz oğlu Quliyev** | 1983 | 5 aprel 2016 | Gəncə şəhəri, Şəhidlər xiyabanı |
| | **Mühid Qurban oğlu Orucov** | 1984 | 9 aprel 2016 | Qazax rayonu, Fərəhli kəndi |
| | **Vaqif Dilqəm oğlu Bayramov** | 1979 | 11 aprel 2016 | Naftalan şəhəri |
| | **Nəcməddin Akif oğlu Savalanov** | 1985 | 9 may 2016 | İmişli rayonu, Göbəktala kəndi |
| Baş leytenant | **Əbu Bəkir Vüqar oğlu İsmayılov** | 1990 | 11 aprel 2016 | Bakı, II Fəxri Xiyaban |
| | **Mirzə Sərvər oğlu Novruzov** | 1984 | 5 aprel 2016 | Bakı, II Fəxri xiyaban |
| | **Rəşid Rövşən oğlu Mehdiyev** | 1990 | 5 aprel 2016 | Salyan rayonu, Xələc kəndi |
| | **Ziya Niyazi oğlu Həsənov** | 1989 | 6 aprel 2016 | Bərdə şəhəri, Şəhidlər Xiyabanı |
| | **Elvin Məmməd oğlu Namazov** | 1990 | 9 aprel 2016 | Qazax rayonu, Yuxarı Salahlı kəndi |
| | **Cavid Gülbala oğlu Dədəkişiyev** | 1989 | 11 aprel 2016 | İmişli rayonu, Qaralar kəndi |
| | **Elnur İsgəndər oğlu İsgəndərov** | 1989 | 11 aprel 2016 | Şəki rayonu, Şəki şəhəri |
| Leytenant | **Sahil Həsrət oğlu Şirinov** | 1992 | 6 aprel 2016 | Qəbələ rayonu, Bum qəsəbəsi |
| | **Qabil Əbdüləli oğlu Orucəliyev** | 1991 | 02 aprel 2016 | Naxçıvan şəhəri |
| Gizir | **Əlvan Qafar oğlu Hüseynov** | 1994 | 2 aprel 2016 | Füzuli rayonu, Zobcuq qəsəbəsi |



| | | | | |
|---|---|---|---|---|
| | **Dilsuz Məmmədağa oğlu Qarayev** | 1990 | 4 aprel 2016 | Ağcabədi rayonu, Hindarx qəsəbəsi |
| | **Elimdar oğlu Səfərov** | 1992 | 4 aprel 2016 | Neftçala rayonu, Aşağı Qaramanlı kəndi |
| | **Orxan Kazım oğlu Hümbətov** | 1992 | 5 aprel 2016 | Şəki rayonu, Kiş kəndi |
| | **Orxan Ələsgər oğlu Müstəcəbov** | 1993 | 5 aprel 2016 | Qobustan rayonu, Bədəlli kəndi |
| | **Məhəbbət Zaman oğlu Mirzəyev** | 1994 | 12 aprel 2016 | Beyləqan rayonu, Dünyamalılar kəndi |
| | **Nurlan Rasim oğlu Abdullayev** | 1994 | 5 aprel 2016 | Zərdab rayonu, Böyük Dəkkə kəndi |
| | **Ravil Elman oğlu Novruzov** | 1986 | 4 aprel 2016 | Xızı rayonu, Giləzi qəsəbəsi |
| | **Rusif İbrahim oğlu Ağayev** | 1987 | 7 aprel 2016 | Lənkəran rayonu, Hirkan qəsəbəsi |
| | **Teymur Sabir oğlu Qasımov** | 1992 | 9 aprel 2016 | Mingəçevir, Şəhidlər Xiyabanı |
| | **Murad Vaqif oğlu Məmmədov** | 1989 | 5 aprel 2016 | Sumqayıt şəhəri, Şəhidlər Xiyabanı |
| | **Bəxtiyar Rəfael oğlu Hüseynov** | 1995 | 9 aprel 2016 | Goranboy rayonu, Qızılhacılı qəsəbəsi |
| | **Toğrul Habil oğlu Fərəczadə** | 1993 | 9 aprel 2016 | Ağsu rayonu, Bico kəndi |
| | **Şahin Yaşar oğlu Cavadzadə** | 1994 | 9 aprel 2016 | Beyləqan rayonu, Beyləqan şəhəri |
| | **Pəncəli Nurməmməd oğlu Teymurov** | 1981 | 11 aprel 2016 | Astara rayonu, Azaru kəndi |

| | | | | |
|---|---|---|---|---|
| | **Tural Gülşad oğlu Qurbanov** | 1992 | 11 aprel 2016 | Kürdəmir rayonu, Sığırlı kəndi |
| | **Mirsalam Təvəkkül oğlu Cəfərov** | 1994 | 11 aprel 2016 | Tovuz rayonu, Bayramlı kəndi |
| | **Seymur Qulamhüseyn oğlu Baxışov** | 1987 | 20 aprel 2016 | Sumqayıt şəhəri, Sumqayıt Şəhidlər Xiyabanı |
| Kiçik gizir | **Babək Vəfadar oğlu Abidov** | 1992 | 9 aprel 2016 | Şabran rayonu, Zeyvə kəndi[73][100] |
| | **Orxan İbrahim oğlu Həmidov** | 1980 | 4 aprel 2016 | Füzuli rayonu, Əhmədalılar kəndi |
| Çavuş | **Təbriz Hamlet oğlu Əsgərov** | 1993 | 6 aprel 2016 | Şəmkir rayonu, Morul kəndi |
| | **Elvin Sədrəddin oğlu Qayıbov** | 1989 | 5 aprel 2016 | Xaçmaz rayonu, Əbilyataq kəndi |
| MAXE hərbi qulluqçu | **Ruhin Əşrəf oğlu Qəhrəmanov** | 1997 | 3 aprel 2016 | Biləsuvar rayonu, 2 saylı məcburi köçkün qəsəbəsi |
| | **Nurlan Bayram oğlu Əsgərov** | 1995 | 5 aprel 2016 | Masallı rayonu, Kalinovka kəndi |
| | **Rahim Qara oğlu Tağıyev** | 1979 | 11 iyul 2016 | Mingəçevir şəhəri, Şəhidlər Xiyabanı |
| | **Nicat Bəhruz oğlu İsgəndərov** | 1989 | 3 aprel 2016 | Tərtər rayonu, Tərtər şəhəri |
| | **Səbuhi Rəfayıl oğlu Musayev** | 1988 | 7 aprel 2016 | Bərdə rayonu, Mustafaağalı kəndi |
| | **Adil Kamran oğlu Adilzadə** | 1993 | 11 aprel 2016 | Mingəçevir şəhəri, Şəhidlər Xiyabanı |
| | **Səyyar Knyaz oğlu Quliyev** | 1986 | 8 aprel 2016 | Füzuli rayonu, Zobcuq kəndi |



| | | | | |
|---|---|---|---|---|
| Sıravi | **Rəvan İsmayıl oğlu Nurayev** | 1997 | 3 aprel 2016 | Zaqatala rayonu, Muxax kəndi |
| | **Orxan Məhəmməd oğlu Əliyev** | 1996 | 3 aprel 2016 | Qazax rayonu, Aslanbəyli kəndi |
| | **Sarvan Natiq oğlu Mehrəliyev** | 1997 | 3 aprel 2016 | Ağdam rayonu, Üçoğlan kəndi Bəzi mənbə:Ballar |
| | **Samir Ziyəddin oğlu Qaçayev** | 1994 | 3 aprel 2016 | Şamaxı rayonu, Məlhəm kəndi |
| | **Fərahim Adışirin oğlu Novruzov** | 1996 | 4 aprel 2016 | Biləsuvar rayonu, Səmədabad kəndi |
| | **Nürəddin Etimad oğlu Mirzəyev** | 1996 | 4 aprel 2016 | Yardımlı rayonu, Honuba kəndi |
| | **Sərxan Azər oğlu Bağırov** | 1997 | 4 aprel 2016 | Göygöl rayonu, Əlimədədli kəndi |
| | **Hüseyn Zeynal oğlu Dəmirli** | 1993 | 5 aprel 2016 | Biləsuvar rayonu, Biləsuvar şəhəri |
| | **Ömər Məzahir oğlu Cəbrayılov** | 1997 | 5 aprel 2016 | Ağdaş rayonu, Şəkili kəndi |
| | **Vüqar Natiq oğlu Süleymanov** | 1993 | 5 aprel 2016 | Şəki rayonu, Böyük Dəhnə kəndi |
| | **Teymur Mikayıl oğlu Qasımov** | 1996 | 5 aprel 2016 | Göyçay rayonu, Çaxırlı kəndi |
| | **Rizvan Telman oğlu Muradov** | 1996 | 4 aprel 2016 | Sabirabad rayonu, Çiçəkli kəndi |
| | **Müşviq Arif oğlu Orucov** | 1996 | 5 aprel 2016 | Bakı, Suraxanı rayonu, Hövsan qəsəbəsi, "Dədə Qorqud" qəbristanlığı |
| | **Cabbarxan İlham oğlu Hacıağayev** | 1996 | 5 aprel 2016 | Bakı, Binəqədi rayonu, Xocəsən qəsəbəsi |

| | | | | |
|---|---|---|---|---|
| | **Nurlan Cəmil oğlu Qasımov** | 1997 | 5 aprel 2016 | Şəmkir rayonu, Tatarlı kəndi |
| | **Xaliq Həsən oğlu Əzizzadə** | 1996 | 6 aprel 2016 | Bakı, Sabunçu rayonu, Kürdəxanı qəsəbəsi |
| | **Emin İmran oğlu Bağırov** | 1996 | 6 aprel 2016 | Bakı, Binəqədi rayonu, Binəqədi qəsəbəsi |
| | **Kamran Faiq oğlu Şirəliyev** | 1994 | 6 aprel 2016 | Bakı, Suraxanı rayonu, Suraxanı qəsəbəsi |
| | **Əlizaman Fərrux oğlu İslamov** | 1997 | 6 aprel 2016 | Lənkəran rayonu, Cil kəndi |
| | **Ülvin Cəmaləddin oğlu Məmmədov** | 1996 | 7 aprel 2016 | Ağcabədi rayonu, Laçından olan məcburi köçkünlərin "Taxta körpü" qəsəbəsi |
| | **Şulan Bayram oğlu Bayramov** | 1996 | 7 aprel 2016 | Sumqayıt şəhəri |
| | **Fəxrəddin Seyfəddin oğlu Qurbanlı** | 1994 | 9 aprel 2016 | Bakı, Sabunçu rayonu, Pirşağı qəsəbəsi |
| | **Firdovsi Əliş oğlu Bağırzadə** | 1996 | 9 aprel 2016 | Masallı rayonu, Güllütəpə kəndi |
| | **Mahir Sabir oğlu Mirzəyev** | 1994 | 9 aprel 2016 | Abşeron rayonu, Mehdiabad qəsəbəsi |
| | **Röyal İmran oğlu Nəsirov** | 1997 | 9 aprel 2016 | Cəlilabad rayonu, Məlikqasımlı kəndi |
| | **Altun Fərman oğlu Dəmirli** | 1997 | 9 aprel 2016 | Şəmkir rayonu, Düyərli kəndi |
| | **Elşən Səlim oğlu Səmədov** | 1997 | 9 aprel 2016 | Şamaxı rayonu, Göylər kəndi |
| | **Vüsal İlham oğlu Alıyev** | 1996 | 9 aprel 2016 | Şəmkir rayonu, Kür qəsəbəsi |
| | **Mikayıl Yaqub oğlu Vahabzadə** | 1993 | 9 aprel 2016 | İsmayıllı rayonu, Maçaxı kəndi |



| | | | | |
|---|---|---|---|---|
| | **Mahir Qədir oğlu Quliyev** | 1993 | 9 aprel 2016 | Bakı, III Fəxri Xiyaban |
| | **Nazim Nadir oğlu Zəkarayev** | 1997 | 9 aprel 2016 | Şamaxı rayonu, Şamaxı şəhəri, Şəhidlər Xiyabanı |
| | **Yalçın Namiq oğlu Osmanov** | 1997 | 9 aprel 2016 | Qusar rayonu, Qusar şəhəri |
| | **Musa Nafil oğlu Qəribli** | 1992 | 30 oktyabr 2016 | Ağdaş rayonu Ərəbocağı kəndi |
| | **Əmiraslan Xəlil oğlu Xeyirbəyov** | 1996 | 9 aprel 2016 | Qusar rayonu, Caqarqışlaq kəndi |
| | **Elvin Azadxan oğlu Mirzəyev** | 1994 | 9 aprel 2016 | Xaçmaz rayonu, Xaçmaz şəhəri |
| | **Əbdülməcid Nadirşah oğlu Axundov** | 1993 | 9 aprel 2016 | Sumqayıt şəhəri |
| | **Mahmud Azər oğlu İbrahimov** | 1997 | 9 aprel 2016 | Bakı, Mehdiabad qəsəbəsi |
| | **Sərxan Oqtay oğlu Bayramov** | 1993 | 11 aprel 2016 | Zaqatala rayonu, ? |
| | **Rəşad Şakir oğlu Niftalıyev** | 1993 | 9 aprel 2016 | Bakı şəhərinin Xətai rayonu kəndi |
| | **Tural Sabir oğlu Dadaşov** | 1993 | 8 aprel 2016 | Bakı şəhərinin Suraxanı rayonunun Qaraçuxur qəsəbəsi |
| | **Ayaz Ələkbər oğlu Hüseynov** | 1997 | 4 aprel 2016 | Beyləqan rayonu, ll Şahvevən qəsəbəsi |
| | **Rəşid Əliağa oğlu Baxşəliyev** | 1996 | 12 aprel 2016 | Sumqayıt şəhəri, Şəhidlər Xiyabanı |

## Mülki şəxslər

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 2016-cı ilin aprel ayının 6-sındakı məlumatına əsasən, aprelin 2-dən etibarən intensivləşən Azərbaycan-Ermənistan silahlı münaqişəsi kontekstində Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn pozulması davam etdirilmişdı. Nazirliyin məlumatında bildirilir ki, "2016-cı ilin 2 aprel tarixində səhər erkən saatlardan başlayaraq Ermənistan münaqişə zonasında hərbi fəaliyyətini intensivləşdirərək, mülki əhaliyə qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlərə bərabər tutulan çoxsaylı aktlar törədib. Bu müddət ərzində Ermənistan tərəfi Ermənistan və Azərbaycan silahlı qüvvələrinin təmas xətti boyunca sıx məskunlaşmış ərazilərdə yaşayan, aralarında qadınlar, uşaqlar və ahılların da olduğu qeyri-döyüşçü mülki əhaliyə qarşı qəsdən, sistematik və hədəflənən hücumlar edib. 32 yaşayış məntəqəsinin bombalanması nəticəsində aralarında 16 yaşdan kiçik 2 uşaq olmaqla 6 mülki şəxs həlak olub, 26 şəxs ağır yaralanıb. Hücumlar nəticəsində həmçinin çoxsaylı ictimai və şəxsi mülkiyyətə, o cümlədən mülki infrastrukturlara ciddi ziyan dəyib. 232 fərdi yaşayış evi, 99 elektrik dirəyi, 3 elektrik yarımstansiyası, kilometrlərlə su və qaz boruları dağıdılıb. Məktəblər, xəstəxanalar və ibadət yerləri də daxil olmaqla sosial müəssisələrə Ermənistan silahlı qüvvələri tərəfindən idarə olunan raket zərbələri endirilib. 1 məscid ibadət zamanı yüksək kalibrli artilleriya mərmiləri ilə vurulub".

Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin 2016-cı ilin mayın 2-sində vurğuladığı məlumatda deyilir ki, "Ermənistanın təxribatçı hücumları nəticəsində təmas xəttində yerləşən ərazilərimiz mütəmadi olaraq atəşə tutulmuş, bunun nəticəsində isə məcburi köçkünlərə və yerli sakinlərə ziyan dəymiş, evlər dağıdılmış, hərbiçilər və mülki əhalidən olan sakinlər isə həlak olmuşlar; Belə ki, məcburi köçkünlərdən 16 nəfər həlak olmuş, 40 nəfər yaralanmış, məcburi köçkünlərin məskunlaşdığı 228 mənzilə ziyan dəymiş, onlardan 43 ev tamamilə dağıdılmış, 185 ev qismən dağıdılmış və 235-ə yaxın mal-qara tələf olmuşdur."



## Aprel döyüşlərinin nəticəsi

Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Azərbaycan prezidenti İlham Əliyev iyulun 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd edib ki, Aprel döyüşləri zamanı 2 min hektar ərazi işğaldan azad edilib.

Aprel döyüşləri vaxtı, hər iki ölkədə iqtidar və müxalifət eyni mövqeyi nümayiş etdirdi. Aprelin 29-da Ermənistanda üç yüksək rütbəli hərbi və müdafiə rəsmiləri Aprel döyüşlərində uğursuzluğa görə işdən qovulmuşdur.

5 aprel atəşkəsi Ermənistanda ehtiyatlı optimistliklə qarşılandı. Erməni rəsmiləri əvvəlcə erməni qüvvələrinin effektiv fəaliyyətini vurğulamışlarsa da, ictimaiyyətin xəyal qırıqlığı ordunun korrupsiyaya və könüllülüyünə yönəldildi. Hərbi əməliyyatların ilk bir neçə saatı zamanı çoxlu erməni tələfatından ötrü məsuliyyət cəbhə xəttləri boyunca köhnəlmiş avadanlıq və kommunikasiya xətlərinin olmasına yönəldildi. 2020-ci ilə qədər Ermənistan tərəfi cəbhə xəttinə ABŞ-dən alınan 225 müasir videomüşahidə avadanlıqları quraşdırmaqla bu çatışmazlığı qismən aradan qaldırmağa çalışıb. Bu sistem kilometrlərlə aralıdan istənilən hərəkəti qeydə alırdı və xüsusi komanda mərkəzinə ötürürdü. Habelə Ermənistan təmas xətti boyu öz müdafiə istehkamlarını möhkəmləndirmişdi, xüsusən şimal istiqamətində beton bunkerlər şəbəkəsi qurmuşdu. Həmin bunkerləri 44 günlük müharibədə 1 tonluq aviabombalar belə dağıda bilmirdi.

Aprel döyüşləri zamanı 2000-dən artıq insan Qarabağı tərk edib Ermənistana köçüb. Məcburi köçkünlərin əsas hissəsini qadınlar, uşaqlar və qocalar təşkil edirdi, kişilər isə Qarabağda hərbi əməliyyatlarda iştirak etmək üçün qalmışdılar. 2016-cı ilin sonuna olan məlumata görə 573 nəfər (172 ailə) məcburi köçkün olaraq qalırdı, onlar əsasən döyüşlər zamanı dağıdılmış Talış kəndinin sakinləri idi.

**Mədəniyyətdə**

2017-ci il aprelin 6-da Azərbaycan Ordusunun 2016-cı ilin aprel döyüşlərində qazandığı qələbə münasibətilə Horadiz şəhərində Müdafiə Nazirliyi və Füzuli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə zəfər yürüşü keçirilib, "Aprel şəhidlərinə xatirə" abidəsinin açılışı olub.

**Azərbaycana qarşı informasiya təxribatı**

Aprel döyüşləri zamanı bəzi Ermənistan, İran və Rusiya KİV-ləri Azərbaycana qarşı genişmiqyaslı informasiya müharibəsinə başlamışdı. 2016-cı il aprelin 5-də Rusiyanın LifeNews telekanalının jurnalistləri Azərbaycan ərazisində akkreditasiya olunmadan işlədiyinə görə ölkədən deportasiya olunub.

Azərbaycan ordusunun qələbəsi ilə bitən aprel döyüşlərində - 2016-cı ildə baş vermiş dördgünlük müharibədə qəhrəman əsgər, gizir və zabitlərimiz təcavüzkar Ermənistan ordusuna ağır zərbələr endirərək 2 min hektardan artıq ərazini işğaldan azad etmişlər.

Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi düşmən qüvvələrindən tam azad edilmişdi. Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ təpə" yüksəkliyinə üçrəngli bayrağımız sancılmışdı. Bu döyüşlər nəticəsində 320 erməni hərbçisi məhv edilib, 500-dən artığı isə yaralanmışdı.

Ötən müddət ərzində işğaldan azad olunan ərazilərdə, o cümlədən aprel qələbəsi ilə düşmən təhlükəsinin uzaqlaşdırıldığı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində təmir-bərpa işləri aparılıb, orada yeni qəsəbə salınıb, ata-baba yurdlarından didərgin salınan insanlar geri dönmüşlər.

Bu döyüşlər Azərbaycanın öz torpaqlarını işğalçı qoşunlardan təmizləmək qüdrətində olduğunu sübuta yetirmişdir. Həmin döyüşlərdən sonra Ermənistan silahlı qüvvələrində çaxnaşma yaranmış, işğalçı ordunun rəhbərləri işdən qovulmuş, daha sonra isə



müharibə caniləri – Sarqsyan öz dəstəsi ilə birlikdə hakimiyyəti itirmişdir.

Aprel döyüşləri Azərbaycan xalqının erməni işğalı altında olan torpaqların hərbi yolla azad edilməsinə daha çox inamını möhkəmləndirmişdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev aprel döyüşlərinin iştirakçısı olan hərbçilərlə görüşdə demişdi: “Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir”.

# APREL DÖYÜŞLƏRI –
# BÖYÜK ZƏFƏRIN BAŞLANĞICI



2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, aprel döyüşləri kimi tarixləşdi.

Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi.

Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu.



Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş tutmadı. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbə endirildi.

Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

Düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına vurulan zərbələr, kəşfiyyat qruplarımız tərəfindən həyata keçirilən müvafiq tədbirlər nəticəsində şimal istiqamətində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış məntəqəsi ətrafında, cənubda isə Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması məqsədilə Lələtəpə yüksəkliyi və onun ətrafındakı strateji cəhətdən mühüm ərazilər azad edildi. Bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi.

Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Məlumatlara görə, 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsinə yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi.

Aprel döyüşlərindən sonra - may ayında Ermənistan və Azərbaycan prezidentləri münaqişənin tənzimlənməsi üzrə ATƏT-in Minsk Qrupuna həmsədrlik edən ölkələrin rəsmilərinin iştirakı ilə Vyanada görüşmüşlər, həmçinin iyunun 20-də Sankt-Peterburqda Rusiya Prezidentinin iştirakı ilə üçtərəfli danışıqlar keçirilmişdi. Görüşlərdə münaqişə bölgəsində etimad tədbirlərinin möhkəmləndirilməsi, insidentlərin araşdırılması mexanizmlərinin yaradılması, ATƏT-in fəaliyyətdə olan sədri ofisinin genişləndirilməsi haqqında razılıq əldə edilmişdi.

Əslində, Ermənistanın hər dəfə cəbhədə təxribata əl atmasının səbəbi heç kimə sirr deyildi: cinayətkar rejim münaqişənin nizamlanması ilə bağlı danışıqlar ərəfəsində daim cəbhədə vəziyyəti gərginləşdirir və bununla da öz xalqının fikrini ölkədəki ictimai-siyasi, sosial-iqtisadi böhrandan yayındırmağa cəhd edirdi. Düşmənlə müqayisədə Azərbaycan isə münaqişənin dinc yolla həllinə tərəfdardır və bu istiqamətdə səylərini əsirgəmirdi.

Azərbaycan Ordusu düşmənə qarşı öz ərazilərimizdə əməliyyat aparırdı. Bu baxımdan da beynəlxalq təşkilatlar, nüfuzlu ölkələr aprel döyüşləriylə bağlı Azərbaycan əleyhinə bir söz deyə bilməzdilər. Azərbaycan qarşılıqlı qaydada hərbi əməliyyatları dayandırmağa razı oldu və bununla da münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bir daha nümayiş etdirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyildi, bütün region üçün ciddi təhlükə mənbəyi idi. Rəsmi Azərbaycan bəyan edirdi ki, işğal faktı, mövcud status-kvo ilə barışmaq və Ermənistanın təxribatlarına dözmək niyyətində deyil. Əksinə, düşmənə layiqli cavab vermək, torpaqlarını azad etmək iqtidarındadır.

Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prinsipial, qətiyyətli siyasəti sayəsində Azərbaycanın ardıcıl şəkildə qazandığı diplomatik uğurlar, Ermənistan rəhbərliyini çətin vəziyyətdə qoyur, həmçinin işğalçı ölkə beynəlxalq iqtisadi layihələrdən kənarda qalırdı. Dövlət başçımızın Azərbaycan Ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə də qeyd etdiyi kimi, Ermənistan öz müstəqil həyatını Azərbaycan torpaqlarının işğalına qurban verib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmişə bəyan edir ki, Ermənistanın müstəqil bir ölkə kimi fəaliyyəti qonşularla münasibətlərini tənzimləməkdən və öz qüvvələrini Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarmaqdan asılıdır.

"Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir



daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır . Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın".

Prezident İlham Əliyev bu sözləri ilə bir daha təsdiqləmişdir ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verilməyəcək. "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də olacaq".

## Aprel döyüşləri böyük qayıdışın başlanğıcı idi



2016-cı il 2-5 aprel döyüşləri zamanı düşmənin təxribatının qarşısı uğurla alındı, uzun illərdir düşmən nəzarətində olan Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar azad olundu, ümumilikdə işğal altındakı ərazilərin 2000 hektardan çox hissəsi düşməndən təmizləndi.

Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı, tariximizə şanlı səhifə kimi yazıldı. Bu zəfər Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi, dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini, vətənpərvərliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bir daha göstərdi. Aprel döyüşləri Ermənistanın o zaman qədər yaratdığı keçilməz Ohanyan xətti ilə bağlı mifi darmadağın etdi. Heç şübhəsiz ki, Aprel döyüşlərində qazanılan qələbə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən



diplomatiyasının, uğurlu daxili və xarici siyasətinin, sərkərdə məharətinin, Ali Baş Komandanın daimi diqqət və qayğısı ilə əhatə olunan silahlı qüvvələrimizin əsgər və zabitlərinin peşəkarlığının, mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək səviyyədə olması və xalqımızın ordu ilə monolit birliyi nəticəsində mümkün oldu.

Aprel zəfəri 44 günlük Vətən müharibəsindəki parlaq qələbənin, torpaqlarımızın azad olunmasının və böyük qayıdış salnaməsinin başlanğıcı idi. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Məhz, dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə böyük qayıdış prosesinə start verildi. Eyni zamanda, Aprel döyüşlərindən sonra əli silah tutan hər bir vətəndaşımız işğal altında olan torpaqlarımızın azad edilməsi üçün mübarizəyə tam hazır olduğunu bir daha nümayiş etdirdi. Bu birlik Vətən müharibəsində düşməni əzən "Dəmir yumruğ"a çevrildi.

Məhz, Aprel zəfərindən sonra 2018-ci ildə Naxçıvan istiqamətində Günnüt əməliyyatı ilə ümumi olaraq, on bir min hektarlıq ərazi azad olundu, İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət ələ keçirildi, 2020-ci ildə isə Tovuz istiqamətində düşmən təxribatının qarşısı qətiyyətlə alındı, düşmənə sarsıdıcı zərbələr vuruldu. Nəhayət, 2020-ci ilin sentyabr ayının 27-də başlanan 44 günlük Vətən müharibəsi işğal altında olan bütün torpaqlarımızın azad olunması ilə nəticələndi, tarixi zəfər, qələbə qazanıldı, ədalət bərpa edildi. Bu gün hər birimiz iftixar və qürur hissi ilə deyə bilirik: **Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Şəhidlər ölməz, Vətən bölünməz!**

Ermənistan ordusunun təxribatlarına cavab olaraq 2016-cı il aprelin əvvəllərində Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı nəticəsində yaranan rezonans Ermənistanın siyasi-hərbi rəhbərliyində dərin çatların əmələ gəlməsinə səbəb oldu ki, bunun nəticələrini biz bu gün də Ermənistan cəmiyyətində müşahidə edirik. Nəticədə erməni xalqı öz "şanlı ordusunu" tanıdı, eyni zamanda, bu ölkədə işğalçılığın və separatizmin dövlət səviyyəsində dəstəkləndiyi təsdiq olundu.

Aprel zəfərində illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Aprel qələbəsi əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü oldu.

Aprel döyüşləri Azərbaycan xalqının və ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aprel döyüşlərinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və Müdafiə Nazirliyinin rəhbərliyinin təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Bütün bunlar onu göstərir ki, XX əsrin əvvəllərində əsası qoyulan ordumuzun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Ümummilli lider Heydər Əliyevin müstəsna



xidmətləri sayəsində qorunub saxlanılan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şərəfli missiyasını uğurla davam etdirir.

Dövlət başçısının diqqət və qayğısı sayəsində ölkəmizdə mütəşəkkil, qüdrətli ordu formalaşdı və onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yarandı. Ümummilli Liderimizin əsasını qoyduğu milli dövlət quruculuğu və Azərbaycan Ordusunun müasir səviyyədə qurularaq gücləndirilməsi prosesinin düzgün inkişaf etdirilməsi nəticəsində ordumuzun formalaşdırılması, torpaqlarımızın layiqli şəkildə qorunması işinin təşkili istiqamətində qəti addımlar atıldı, yeni strategiyaya əsaslanan ordu siyasətinin əsası qoyuldu.

Eyni zamanda, Azərbaycan Ordusunda aparılan islahatlar nəticəsində hərbi hissələrdə, kollektivlərdə mənəvi sağlamlaşma dövrü başladı. Hərbi hissələrin ərzaq, əşya-əmlak təminatı gücləndirildi, silah-sursatla təchizat, hərbi qulluqçuların sosial-məişət şəraiti daha da yaxşılaşdırıldı. Azərbaycan əsgərinə və zabitinə münasibət dəyişdi. Qürur mənbəyimiz olan ordumuz ümid yerimizə çevrildi. Döyüş hazırlığının yüksəldilməsi və torpaqlarımızın işğaldan azad olunması naminə islahatlar aparıldı.

Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində nəzərdə tutulan uğurlara nail olundu.

Azərbaycan Ordusunda yeniləşməyə yol açan sürətli dəyişikliklər və komplektləşdirmə işləri həyata keçirildi. Hətta cəbhə zonasında döyüş tapşırığı icra edən hərbi hissələrin məişət şəraiti daha da yaxşılaşdırıldı, əsgərlərin təlimlər və döyüş növbəsi ilə yanaşı, məişət xarakterli işlərlə məşğul olmalarının miqyası azaldıldı.

Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsinin yoxlanılması, döyüş texnikasının, müasir silahların tətbiqi imkanlarının

öyrənilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyət və təminatın təşkili, döyüş əməliyyatlarında qarşıya qoyulmuş tapşırıqların icrasının yoxlanılması məqsədilə keçirilən təlimlərə ordunun şəxsi heyəti, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunları, ən müasir standartlara uyğun zirehli texnika cəlb edildi.

Təlimlər, yoxlamalar və digər tədbirlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərdi.

Güclü ordu üçün ən əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Əgər psixoloji durum yüksək səviyyədə olarsa, ən müasir texnika ilə təchiz olunmuş düşmənə belə asanlıqla qalib gəlmək olar. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq xalqımızın maddi rifahına təsir edən bütün tədbirlər Azərbaycan Ordusunun şəxsi heyətində mənəvi-psixoloji ruh yüksəkliyi yaratdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində yeni hərbi hissələr inşa edildi, şəxsi heyət üçün hər cür şərait yaradıldı. NATO standartlarına uyğun qurulan hərbi hissələr və müasir kriteriyalar əsasında müəyyənləşdirilən sosial-məişət şəraiti şəxsi heyətin xidmətinə öz təsirini göstərdi.

Ölkə başçısının bu istiqamətdə atdığı çox mühüm və ardıcıl tədbirlər nəticəsində Azərbaycanda ordu sıralarında xidmət edən, Vətənin keşiyində dayanan, onun inkişafına xidmətlər göstərən hərbi qulluqçuların problemlərinin həll edilməsi də dövlətin qarşısında duran prioritet məsələlər sırasında oldu. Əlbəttə ki, bütün məsələlərdə olduğu kimi, burada da Azərbaycan dövləti üzərinə düşən vəzifələri yerinə yetirdi və hərbi qulluqçuların mənzil-məişət problemləri uğurla həll edildi.

Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən bütün hərbçilər ardıcıllıqla şəxsi və xidməti mənzillərlə təmin olunmaqdadır. Bu baxımdan 2019-cu il xüsusilə yadda qaldı. Məsələn, cəbhəboyu zonada iki hektardan çox ərazidə inşa



edilən, ailəli və subay hərbi qulluqçular üçün nəzərdə tutulan, iki və üçotaqlı təmirli mənzillərdən ibarət olan binalar lazımi kommunikasiya sistemləri ilə təchiz edilərək xidməti mənzil kimi hərbçilərin istifadəsinə verildi. İlin sonu, həmçinin Azərbaycan Ordusunun şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) aviabazasının ərazisində yerləşən növbəti yaşayış binasının hərbi qulluqçuların istifadəsinə verilməsi ilə diqqət çəkdi.

Qoşunların yerləşdirilməsi sisteminin təkmilləşdirilməsi və müasir sosial-məişət infrastrukturuna malik hərbi şəhərciklərin yaradılması üzrə tədbirlərin yerinə yetirilməsi davam etdirildi. Hərbi hissələrdə müxtəlif təyinatlı 60-dək hərbi infrastruktur obyekti, bir yeni hərbi hospital kompleksi, hərbi qulluqçular üçün yaşayış binaları inşa edildi, ümumilikdə 200-dən artıq xidməti mənzil hərbi qulluqçuların istifadəsinə verildi, müxtəlif təyinatlı 26 hərbi infrastruktur obyekti təmir olundu və bir sıra obyektlərin inşası hələ də davam etdirilməkdədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirakı ilə 436 ailəyə mənzil verildi. Ümumilikdə son iki ildə Azərbaycanda 2500-dən çox hərbçi ailəsi mənzillə təmin olundu.

Yeni xidməti və şəxsi mənzillərin istifadəyə verilməsi hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsidir. Bu, ümumilikdə Azərbaycan Ordusunda şəxsi heyətin mənzil təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərin davamıdır. Bütövlükdə dövlətimizin siyasi və iqtisadi əsaslarının möhkəmləndirilməsi, müdafiə qüdrətinin artırılması istiqamətində qəbul edilən qərarlar, atılan uğurlu addımlar böyük nailiyyətlərin əldə olunmasını təmin etdi. Görülən işlər ordu quruculuğu prosesinə müsbət təsirini göstərdi.

Ordu quruculuğunun tərkib hissəsi kimi Azərbaycan Prezidentinin Sərəncamları ilə Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün Bakı, Naxçıvan, Gəncə və digər şəhərlərdə xidməti və fərdi yaşayış evlərinin tikintisi üçün milyonlarla vəsaitin ayrılması xüsusi əhəmiyyət kəsb edir. Bundan başqa, ölkə başçısının son 16 ildə Sərəncamları ilə Müdafiə, Daxili İşlər, Milli Təhlükəsiz-

lik, Fövqəladə Hallar nazirliklərinin, o cümlədən, Xüsusi Dövlət Mühafizə və Dövlət Sərhəd xidmətlərinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının dövlət büdcəsindən maliyyələşdirilən qurumlarında çalışan hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının artırılması da diqqət mərkəzində saxlanıldı. Bütün bu nəzərəçarpan addımların və ordu quruculuğu ilə bağlı həyata keçirilən tədbirlərin daha geniş, əhatəli miqyasda icrası Dağlıq Qarabağ probleminə münasibətdə dövlət rəhbərliyinin qətiyyətli mövqeyinin dəyişməz olduğunu və xalqımızın ümumi mövqeyilə birmənalı şəkildə uzlaşdığının məntiqi nəticəsidir. Xüsusilə, hər il dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin miqdarı əhəmiyyətli dərəcədə artırıldıqca, Silahlı Qüvvələrin maddi-texniki bazası müasir tələblərə uyğunlaşdırılır, şəxsi heyətin mənəvi-psixoloji və döyüş hazırlığında yeni nailiyyətlər əldə olunur, davamlı olaraq hərbi qulluqçulara verilən imtiyaz və güzəştlərin miqyası genişlənir, hərbi qulluqçuların mənzil-məişət problemlərinin köklü şəkildə həll olunmasına əsaslı zəmin yaranır. Atılan addımlar tək xidmət edənləri deyil, eyni zamanda, vaxtilə ərazi bütövlüyü uğrunda vuruşmuş ehtiyatda olan hərbi qulluqçuların, eyni zamanda şəhid olanların ailə üzvlərini də əhatə etdi.

Ölkənin milli-strateji maraqlarının təmin olunmasına, xalqla dövlət arasında bağlılığın möhkəmləndirilməsinə xidmət edən bu mütərəqqi addımlar daim ardıcıl şəkildə həyata keçirilir. Odur ki, bu gün regionda modern ordu quruculuğu siyasətinə görə nümunə hesab edilən Azərbaycan Respublikasının müasir tələblərə cavab verən ordusu ölkənin ərazi bütövlüyünü təmin etmək iqtidarındadır.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlığa sahibdir. Aprel döyüşləri Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını, xalqın arzu və istəyini reallaşdıracaq ordumuzun şəxsi heyətinin daim döyüşə hazır olduğunu göstərdi. Aprel zəfəri sübut etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti istənilən qələbələri qazanmağa qadirdir.



**2016-cı ilin apreli Azərbaycan Ordusunun növbəti şanlı Qələbəsi ilə tarixləşdi. Azərbaycan Respublikasının Prezidenti bu döyüşlər haqqında qürurla dedi ki, Aprel döyüşləri dərsliklərə salınmalıdır. Bu qələbə ordumuzun həm döyüş, həm də yüksək mənəvi-psixoloji hazırlığa malik olduğunu da təsdiqlədi. Aprel qələbəsi onu da təsdiqlədi ki, Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Bu qələbə xalqımıza bir gerçəkliyi də yaşatdı: Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir - bu döyüşlər Ali Baş Komandanın döyüş əmri ilə başlanacaq döyüşlərdə Azərbaycan ordusunun qalib gələcəyinə, torpaqlarımızı işğaldan azad edəcəyinə əminliyin döyüşləri idi.**

Aprel döyüşləri Azərbaycan dövlətinin, dövlətçiliyinin dönməzliyinin, Azərbaycan əsgərinin gücünün, qüdrətinin ifadəsi kimi tarixləşdi. Bu döyüşlər sübut etdi ki, Azərbaycan Ordusu düşmənin istənilən miqyaslı təxribatının, istənilən hərbi əməliyyatının qarşısını almağa qadirdir. Aprel döyüşləri həm də Azərbaycan Ordusu ilə düşmən ordusu arasındakı güc fərqinin, peşəkarlığının, döyüş hazırlığının fərqinin də təsdiqi oldu.




Azərbaycan müstəqilliyi, onun bərpası uğrunda qurbanlar verdiyi kimi, ərazi bütövlüyü, suverenliyi və müstəqilliyini qorumaq yolunda da mübarizə aparır, bu yolda da şəhidlər verir. Nə yaxşı ki, belə hadisələrin bir çoxu artıq tarixdir. Belə şərəfli günlərdən

biri də Azərbaycan tarixinə Aprel döyüşləri, Aprel müharibəsi adı ilə düşüb. Dörd günlük müharibə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə başlayıb. Bu, 1994-cü ildə Azərbaycanla Ermənistan arasında imzalanan atəşkəsdən sonra ilk ən şiddətli döyüş sayılır. Döyüşlər Azərbaycan əsgərinin qələbəsi ilə nəticələnib. Aprel müharibəsi nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.

Aprel müharibəsi 44 günlük döyüşlərin, Ermənistan ordusunun darmadağınının əsasını qoydu. Həmin döyüşlər Ermənistan ordusu barədə yayılan və havadarları tərəfindən təbliğ edilən mifi də dağıtdı. Məlum oldu ki, Ermənistan ordusu, kəşfiyyatı heç də müxtəlf mənbələrin təbliğ etdikləri səviyyədə deyil. Aprel döyüşlərindən sonra Ermənistan silahlı qüvvələrində istefalar oldu, bir çox yüksək vəzifəli şəxslər həbs edildi. Rəsmi İrəvan çaşbaş vəziyyətə düşdü. Hakimiyyət günahkarları axtarmağa başladı. Bu hadisələr həm də Ermənistanda hakimiyyət dəyişikliyinin əsasını qoydu. Düz iki il sonra, 2018-ci ilin aprelində Ermənistanda yeni siyasi qüvvələr hakimiyyətə gəldi. O vaxtkı prezident Serj Sarqsyana qarşı müxtəlif ittihamlar qaldırılıb, istintaq hələ də davam edir. Serj aprel döyüşləri məğlubiyyətinin əsas suçlusu olaraq qınanır. Serj Sarqsyan apreldə uduzmalarının səbəbini əsaslandıra bilmirdi. Xocalı sakinlərinin qatili hakimiyyətdə olduğu müddətdə ilk dəfə Azərbaycan əsgəri tərəfindən sarsıdıcı zərbə almışdı. Həmin günlər İrəvan-Moskva arasında danışıqlar da intensivləşmişdi. **Ermənistanın xahişi, Rusiyanın istəyi və vasitəçiliyi ilə 2016-cı il aprelin 5-də tərəflər atəşkəsə razılaşdılar.**

Aprel müharibəsi Azərbaycan hərbçilərinin döyüşə hazırlıq vəziyyətinin yoxlanılması üçün baş məşq də sayıla bilər. Həmin günlərdə Azərbaycan Silahlı Qüvvələrinin arsenalında olan bəzi hərbi texnikalar da sınaqdan çıxarılıb. Məlumata görə, döyüşlərdə Azərbaycan qüvvələri "Harop" kamikadzek PUA, "ThunderB" nəzarət dronları və "Spike"ləri, "TOS-1A" 24-barrel termobarik (uzun məsafədə alovsaçan) raket sistemləri tətbiq edib. Məlumatlara görə, 4 günlük döyüşlər başlamazdan əvvəl Azərbaycan



Ordusunun hərbçiləri cəbhənin dərinliyinə sızaraq bəzi əməliyyatlar həyata keçirib. Belə əməliyyatlardan biri Aprel döyüşlərindən iki həftə öncə baş verib. Eyni zamanda Azərbaycan hərbçiləri arxa cəbhənin olduqca dərinliyinə sızaraq Əsgəran bölgəsindəki Hava Hücumundan Müdafiə Kompleksinin RLS-ni məhv etmişdi.



Azərbaycan hərbçilərinin yüksək qabiliyyətli döyüş bacarıqları və uğrularını dövlət başçısı qiymətləndirib. 2016-cı il aprelin 19-da Prezident İlham Əliyevin uyğun sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin üç üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" Ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" Ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırıb.

Həmin günlərdə cəmiyyət də özünü təmkinli və mübariz apardı. Azərbaycan cəmiyyəti müstəqilliyinin bərpası və ərazi bütövlüyü uğrunda göstərdiyi birliyi apreldə də nümayiş etdirdi. Aprel döyüşləri Azərbaycan cəmiyyətinin birliyinin yoxlanılması üçün bir sınaq oldu. Həmin günlərdə beynəlxalq ictimaiyyətin təmsilçiləri - BMT, ABŞ, Avropa İttifaqı, onların ətrafındakı ayrı-ayrı dövlətlər Azərbaycanı qınadılar və ittiham etdilər. Onlar yenə də uzun illərdir deyilən açıqlamaları təkrarlayırdılar. ABŞ-ın o vaxtkı

dövlət katibi, Azərbaycana qarşı tətbiq edilən 907 saylı düzəlişin həmmüəllifi Con Kerri və müavini Viktoriya Nuland Azərbaycanı açıq şəkildə təhdid edib.




Eyni zamanda həmin günlərdə Azərbaycanın dostları və düşmənləri bir daha təsdiqləndi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevlə telefon danışığında silahlı toqquşma nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının şəhid olması ilə bağlı başsağlığı verərək bildirmişdi: “Çox təəssüf ki, neçə illər ərzində Dağlıq Qarabağ bölgəsindəki münaqişəyə ATƏT-in Minsk qrupu həmsədrlərinin laqeyd yanaşması nəticəsində biz bu mənzərə ilə qarşı-qarşıya qaldıq”. Pakistan Prezidentinin katibi Əhməd Fərrux isə belə demişdi: “Pakistan həmişə Azərbaycanın yanındadır. Azərbaycan qardaş və dost ölkədir”. Təəssüf ki, İran Aprel müharibəsi zamanı verdiyi bəyanatın arxasında 44 günlük döyüşlərdə durmadı. İranın müdafiə naziri general-mayor Hüseyn Dehqani Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənova telefon danışığı zamanı ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha qeyd etmiş, münaqişəsinin qısa müddətdə beynəlxalq hüquq normaları əsasında həll olunacağına ümid etdiyini bildirmişdi. O, münaqişənin həll olunmasında Azərbaycana yardım və dəstəyini təklif etmişdi. Ukrayna Prezidenti Petro Poroşenko Azərbaycanın ərazi bütövlüyünü tanıdığını vurğulamışdı və s.





Aprel döyüşləri bir neçə məsələyə aydınlıq gətirdi: Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək əzmindədir; Azərbaycan cəmiyyəti birliyini göstərdi; Azərbaycan Ordusu döyüş qabiliyyətini nümayiş etdirdi; Prezident İlham Əliyevin hadisələrdən əvvəl ərazi bütövlüyünün bərpası ilə bağlı verdiyi bəyanatları bu döyüşlərlə təsdiqləndi; Ermənistanın bütün sahələrdə gücsüzlüyü və döyüş qabiliyyətinin çox zəif olduğu dünyaya məlum oldu; Ermənistanın havadarlarına zərbə vuruldu; ATƏT-in Minsk qrupunun fərsizliyi və fəaliyyətsizliyi bir daha sübuta yetdi; Ermənistan siyasi-ideoloji xülyalarının puç olduğunun əsası qoyuldu; Aprel döyüşləri Ermənistanın dövlət deyil, regionda başqalarının sifarişini yerinə yetirən, ianə ilə dolanan təşkilat olduğunu faş elədi; Türkiyə, Pakistan, Ukrayna və başqalarının Azərbaycanla dost, əsl müttəfiq olduqları bir daha təsdiqləndi və b.



Azərbaycan Aprel müharibəsi ilə regionda maraqları olan dövlətlər və ermənlərin havadarlarına sübut elədi ki, regionun təhlükəsizliyi daha çox Azərbaycandan asılıdır. Cənubi Qafqazda təhlükəsizliyi və əməkdaşlığı təhdid edən, buna mane olan regiondaxili amil Ermənistandır. Rəsmi Bakı aprel hadisələri ilə beynəlxalq güclərə, erməni lobbisinə, havadarlarına ərazilərini hərb yolu ilə azad etməyə qadir olduğu ismarışını da verdi. **Dörd günlük müharibə 4 ildən sonra 44 günlük Vətən müharibəsi ilə davam etdi. Qələbə paradı ilə yekunlaşdı.**

Yeri gəlmişkən, Azərbaycan cəmiyyətində aprel ayı məyusluq da yaradıb. Çünki 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətini ermənilər, bolşeviklər işğal edib, süquta yetiriblər. Ancaq Aprel döyüşlərinin qəhrəmanları bu ayı Azərbaycana şərəfli təqvim olaraq təqdim etdilər.

Aprelin 4-də düşmən itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən, Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi. Əraziyə yaxın yaşayış məntəqələrimiz intensiv atəşə tutuldu. Ordu hissələrimizin şücaətini görən düşmən döyüşə əlavə qüvvələr cəlb etmək istədi, buna nisbətən nail oldu, ancaq döyüşü davam etdirməyə nail ola bilmədi. Yüksək döyüş hazırlığına malik olan bölmələrimiz düşmənin strateji baxımdan əhəmiyyətli hərbi bazasının qərargahına və “erməni könüllülərini” daşıyan maşınlara tutarlı zərbələr endirdi.



Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı, 320-dən çox düşmən məhv edildi, 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Bu döyüşlər bir daha təsdiqlədi ki, işğalın sonu yaxınlaşıb.

Aprel döyüşləri həm də onu göstərdi ki, Azərbaycan işğal faktı, mövcud status-kvo ilə barışmayacaq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Bu bəyanat Azərbaycan adından verilmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qürurla qeyd edirdi ki, Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir, Azərbaycan əsgərinin qələbəsidir, Azərbaycan dövlətinin qələbəsidir: "Biz bütün dünyaya bir daha sübut etdik ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, bunu beynəlxalq reytinqlər də qeyd edir. Bir daha sübut etdik ki, heç vaxt Azərbaycan indiki vəziyyətlə barışmayacaq və öz ərazi bütövlüyünü bərpa edəcəkdir".

Şanlı hərbi qələbəmiz olan Aprel döyüşləri dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərməklə yanaşı, Azərbaycan xalqının və dövlətinin heç vaxt işğalla barışmayacağını, ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəyini bir daha nümayiş etdirdi.

Aprelin 2-də təxminən saat 05:45 radələrində Lələtəpə Azərbaycan bölmələrinin tam nəzarətinə keçdi. Azərbaycan bayrağını Lələtəpədə dalğalandıran əsgər Asim Quliyev həmin anı belə xatırlayırdı: "Həmin bayrağı dəfələrlə təlimlərə aparmışdım. Yoldaşlar arasında hər zaman arzulayırdıq ki, məhz bu bayraq bizim iştirakımızla azad olunan ərazidə ucaldılsın. Elə qismət oldu ki, Lələtəpə istiqamətində hərəkətə keçəsi olduq. Düşmən səddini yararaq zirvəyə çıxdıq. 1 saatlıq döyüşdən sonra səngərdə bir dənə də olsun müqavimət göstərən düşmən hərbçisi qalmamışdı. Düşmən əlavə qüvvələrlə və artilleriyanın dəstəyi ilə hücuma başlayırdı. Mən hər kəsə zəfərimizi bəyan etmək üçün mərmi partlayışlarını və ölümü nəzərə almayıb bayrağımızı asmaq qərarına gəldim. Həmin vaxt tanklarımızın səsini eşitdim. Onlar köməyə gəlirdilər. Sevinc göz yaşlarıma hakim ola bilmirdim".



Aprel döyüşləri Azərbaycan Ordusunun istənilən döyüş tapşırığını yerinə yetirmək üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu da təsdiqlədi. Bu Qələbə yüksək döyüş və mənəvi-psixoloji hazırlığın vəhdəti ilə qazanıldı.

O günlərdə hər bir Azərbaycan vətəndaşı özünü ruhən döyüşlərdə hiss edirdi. Xalqımızın ərazi bütövlüyü uğrunda göstərdiyi birliyinin başlanğıcı Aprel döyüşləri oldu. Həmin günlərdə döyüşlərdə iştirak etmək üçün aidiyyəti qurumlara olunan müraciətlərin sayı-hesabı yox idi. Əli silah tuta biləcək hər bir vətəndaş işğal altında olan torpaqlarımızın azad edilməsi üçün döyüşməyə hazır olduğunu göstərdi. Vətən müharibəsində düşməni əzmək üçün "Dəmir yumruğ"a çevrilən də bu xalq-ordu birliyi düşməni qorxuya salmaqla yanaşı, dünyanı heyrətə gətirdi.

**Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyətindən biri də bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinin başlanğıcı qoyuldu.** Lələtəpə yüksəkliyinin azad edilməsi ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin kəndə qayıdışı ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. O zaman Cocuq Mərcanlı kəndinin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğalda olan digər ərazilərimizin də tezliklə azad olunacağına xalqımızda dərin inam yaratdı.



Digər bir tərəfdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və Müdafiə Nazirliyinin rəhbərliyinin təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

O zaman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı bütün dünyaya bir daha nümayiş etdirdi ki, Qarabağ probleminin həlli beynəlxalq təşkilatların biganəliyinə görə, Ermənistanın işğalçılığına görə müddət baxımından uzansa da Azərbaycan torpaqlarını işğaldan azad edəcək. Cocuq Mərcanlı kəndinin yenidən qurulması və yerli əhalinin öz doğma yurdlarına qayıtması gərəkli mesaj idi. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası onu göstərirdi ki, gün gələcək, Şuşanın məscidləri də bərpa ediləcək. Bu yozumun da mahiyyəti döyüş idi, döyüşlə qazanılacaq Qələbə idi. Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı işğaldan azad etdikdən sonra ilk olaraq Şuşada Yuxarı Gövhər ağa məscidi tam təmir edildi.

Aprel döyüşlərindən sonra erməni saytlarından birində deyilirdi: Talış kəndinin şimal və şimal-qərbdəki yüksəkliklərinin Azərbaycan Ordusunun nəzarətində olması burada tam başqa vəziyyət yaratdı. Döyüşlərə qədər kənddə 573 nəfər yaşayırdı. Hərbi əməliyyatlar bitdikdən sonra isə kənddə cəmi 50 nəfər qaldı. Aprel döyüşlərindən sonra kənd icra hakimiyyətinin binası, şadlıq zalı tikilib, suyun verilişi bərpa edilsə də heç kəs bura qayıtmayıb... Düşmən bilirdi ki, öz əzəli sahibləri çox yaxında bu torpaqları da azad edəcək... Bu tarixə "Dördgünlük müharibə" adı ilə düşən Aprel döyüşlərinə düşmənin yanaşması, qorxusu və narahatlığı idi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edib: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki,

xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir"

Aprel Qələbəsindən sonra 2018-ci mayında Naxçıvan istiqamətində Günnüt əməliyyatı ilə on bir min hektarlıq ərazi azad olundu, İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət ələ keçirildi, 2020-ci ildə iyulunda isə Tovuz istiqamətində düşmən təxribatının qarşısı qətiyyətlə alındı, düşmənə sarsıdıcı zərbələr vuruldu. 2020-ci ilin sentyabr ayının 27-də başlanan 44 günlük Vətən müharibəsi işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələndi, tarixi Zəfər qazanıldı, ədalət bərpa edildi.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlığa malikdir. Aprel döyüşləri 2020-ci ilin noyabrında qazanılan Zəfərin başlanğıcı idi...

**Lələtəpə**



| | |
|---|---|
| **Ölkə** | Azərbaycan |
| **Vilayət** | Cəbrayıl rayonu |



**Lələtəpə** — Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 2.9 km şimal-qərbində yerləşən 271.1 m hündürlüyə malik təpə

Lələtəpə adlandırılan yüksəklik mühüm tarixi, etnoqrafik, dini və mədəni əhəmiyyət kəsb edir Hərbi strateji əhəmiyyətə malik olan bu təpənin tutulması Horadiz şəhəri və Füzuli rayonunu atəş nəzarətində saxlamağa imkan verir. Lələtəpə Qarabağ müharibəsi zamanı 1994-cü il fevral ayının 11–12-də döyüş yerlərindən biri olub. Yüksəklik 1993-cü ildə ermənistan ordusu tərəfindən tutulub. Sonra Lələtəpə 1994-cü ildə "Horadiz əməliyyatı" zamanı Azərbaycan ordusu tərəfindən ələ keçirilsə də, sonralar ağır döyüşlər nəticəsində yenidən Ermənistan ordusunun nəzarətinə keçib. 2 aprel 2016-cı ildə Lələtəpə Dördgünlük müharibə zamanı Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. İşğaldan azad edilmiş Lələtəpə yüksəkliyinə illər sonra ilk dəfə Azərbaycan bayrağını aprelin 2-də təxminən saat 05:45 radələrində asan hərbi qulluqçu Asim Əliyev olub.

2017-ci il Fevral döyüşləri zamanı Ermənistan Silahlı Qüvvələri Lələtəpə yüksəkliyin almaq məqsədilə təxribat törədiblər. Lakin, Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq düşmənin atəş mövqelərinə və cəmləşmə nöqtələrinə qarşı müvafiq cavab tədbirləri həyata keçirib.

1994-cü ildən 2016-cı ilə qədər düşmən Lələtəpə ərazisindən Füzuli rayonunun Mirzənağılı, Qazaxlar, Əhmədalılar və Horadiz şəhərini daim atəş altında saxlayırdı.

**Lələtəpəyə sancılan bayraq, Cocuq Mərcanlıda qaynar həyat, qələbəyə gedən yol**



Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqla ordunun birliyinin, vətənpərvərliyinin göstəricisi kimi düşdü. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əks-hücum əməliyyatı aparan hissələrimiz mühüm mövqelərə sahib oldu. Lələtəpə kimi yüksəklik alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Hər kəs bu qalibiyyətin sevincini yaşayır.



## İKİNCİ QARABAĞ MÜHARİBƏSİ

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək, cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilib. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilmişdir. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir.

Çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı münaqişəni kəskin şəkildə qınamış və hər iki tərəfi gərginliyi azaltmağa və mənalı danışıqları təxirə salmadan davam etdirməyə çağırmışdır. Əfqanıstan, Ukrayna, Pakistan, Türkiyə və Şimali Kipr Türk Respublikası isə Azərbaycana dəstək olduqlarını bildirmişdir. 29 sentyabr tarixində BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar təcili iclas keçirmişdir. Rusiyanın vasitəçiliyi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənən və həm Ermənistan həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan Silahlı Qüvvələrinin mülki vətəndaşları hədəfə alan terror aktları nəticəsində atəşkəs yenidən pozulmuş, yaralıların və məhbusların mübadiləsi dayandırılmışdır.

**Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərin-**

**dən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.**

SSRİ-nin dağılmasından sonra Ermənistan və Azərbaycan dərhal döyüşlərdə iştirak etsələrdə də, 1993-cü ilin ortalarında hər iki ölkə Cenevrə konvensiyaları beynəlxalq hüquq müqavilələrini imzaladılar. Hər üç hökumət (qondarma Dağlıq Qarabağ da daxil olmaqla) müntəzəm vəhşiliklər törətməkdə digər tərəfi ittiham edirdi. Bu, insan hüquqları təşkilatları və KİV-lər tərəfindən dəfələrlə təsdiq olunmuşdur. Məsələn, Xocalı soyqırımı — "Human Rights Watch" və "Memorial" tərəfindən, Marağa qətliamı isə Britaniya təşkilatı "Christian Solidarity International" və 1992-ci ildə Böyük Britaniya Lordlar palatasının vitse-spikeri Karolayn Koks tərəfindən təsdiqlənmişdir.

Beynəlxalq qanunların olmaması hər iki tərəfdən müharibə cinayətlərin törəməsinə imkan verirdi. Ölüsoyanlıq və maradyorluq (qulaq kimi bədən hissələri cəbhədən müharibə suvenirləri kimi gətirilirdi) qeyd olunurdu və hətta əsgərlər arasında lovğalıq yaradırdı. Müntəzəm mülki vətəndaşlar tərəfindən deyil, forma alan başqa bir təcrübə — ermənilər və azərbaycanlılar arasında məhbusların dəyişdirməsi idi. Bir çox hallarda ailə üzvləri, əsgər və ya ön cəbhədə xidmət edən döyüşçülərin əlaqəsi itəndə, onlar döyüş cəbhəsində əsgərləri girov götürüb, evlərinin sərhədində saxlayıb, məhbuslar ilə dəyişdirirdilər.

Müharibə başa çatdıqdan sonra, hər iki tərəf əks tərəfi insanları əsir götürməkdə ittiham edirdi. Azərbaycan Ermənistanı 5000 azərbaycanlını, ermənilər isə Azərbaycanı 600 nəfəri məhbus saxlamaqda ittiham edirdi. Qeyri-kommersiya qrupu "Helsinki Initiative 92" müharibədən sonra Şuşa və Xankəndində iki həbsxananı tədqiq etsə də, heç bir müharibə məhbusunun olmadığını qeyd etmişdi. Oxşar istintaq Azərbaycanda da eyni nəticəni vermişdi.



## İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi

Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saat 06:00-da Qarabağ müharibəsindən sonra yaradılmış təmas xətti boyunca başladı. Bunun ardınca Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycan isə hərbi vəziyyət, komendant saatı və qismən səfərbərlik elan etdi. Türkiyə, bu dəstəyin dərəcəsi mübahisəli olsa da, Azərbaycana hərbi dəstək verdi. Türkiyənin iştirakının, münaqişədə Azərbaycanın mövqeyini artırmaqla və Rusiyanın bölgədəki təsirini kənarlaşdırmaqla təsir dairəsini genişləndirmək cəhdi olduğu düşünülür.

Beynəlxalq ekspertlər müharibənin Azərbaycanın hücumu ilə başladığını və əsas məqsədin bölgənin müdafiəsi zəif olan cənub bölgələrini işğaldan azad etmək olduğunu iddia edirlər. Müharibə, pilotsuz təyyarələrin, sensorların, ağır artilleriyanın və raket zərbələrinin istifadəsi, habelə dövlət təbliğatının və onlayn informasiya müharibəsində rəsmi sosial media hesablarının istifadəsi ilə yadda qalan oldu. Çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı döyüşləri kəskin şəkildə qınadı və hər iki tərəfi gərginliyi azaltmağa və mənalı danışıqları təxirə salmadan davam etdirməyə çağırdı. Rusiya, Fransa və ABŞ-nin vasitəçiliyi ilə əldə olunan üç atəşkəs də müharibəni dayandıra bilmədi.

Dağlıq Qarabağdakı ən böyük ikinci şəhər olan Şuşanın azad edilməsindən sonra İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il, saat 00:00-dan (UTC+3) etibarən bütün döyüş əməliyyatlarını dayandıran atəşkəs bəyanatı imzalandı. Müqaviləyə əsasən, Azərbaycan müharibə zamanı işğaldan azad etdiyi ərazilərə nəzarəti əlində saxladı. Ermənistan isə işğal altındakı keçmiş DQMV ətrafı əraziləri Azərbaycana qaytardı. Azərbaycan, həmçinin Türkiyə və İranla həmsərhəd olan Naxçıvana dəhliz əldə etdi. Təxminən 2000 rus əsgəri Ermənistan və Dağlıq Qarabağ arasındakı Laçın dəhlizi boyunca və keçmiş DQMV-nin Azərbaycanın nəzarətində olmayan hissəsində ən azı 5 il müddətinə sülhməramlı qüvvələr olaraq yerləşdirildi.

İkinci Qarabağ döyüşlərində Azərbaycan xeyli az itki ilə böyük irəliləyişlərə imza atdı. 4 oktyabrda Cəbrayıl azad edildikdən sonra Ermənistan ordusu cəbhənin cənub istiqamətində son-

rakı döyüşlərin də gedişatına təsir edən uğursuz həmləyə, Azərbaycan ordusunun 2016-cı ilin aprelində azad etdiyi "Lələtəpə" yüksəkliyini geri almağa cəhd etdi. Lakin Azərbaycan ordusunun kəşfiyyat bölmələri erməni tərəfinin hücumu barədə əvvəlcədən məlumat topladığı üçün Azərbaycan tərəfi döyüş üçün lazımi tədbirləri aldı. Əks-hücum cəhdi nəticəsində Ermənistan ordusunun bir tank polku darmadağın edilib, 800-dən çox hərbçisi məhv olunub (ümumilikdə yaralılarla birlikdə 1500–2000-ə qədər itki verildi) və həmin uğursuz əks-hücum cəhdindən sonra Ermənistan qüvvələri cəbhənin cənub istiqamətində salamat qalan texnikanı da atıb qaçmağa üz tutdular. Başlanğıcda bir sıra kəndləri və strateji körpüləri işğaldan azad etdikdən sonra Azərbaycan Silahlı Qüvvələri oktyabrın 22-də Qarabağın İranla cənub sərhədini tamamilə azad etdi və 23 oktyabrda Laçın Dəhlizinə doğru irəliləməyə başladı. Laçın Dəhlizi Qarabağdakı qondarma qurumla Ermənistanı birləşdirən yeganə böyük (digərləri ilə müqayisədə) magistral yol idi. Ən yaxın coğrafi yeniləmələr göstərirdi ki, həmin gün Azərbaycan qüvvələri Laçın magistral yolunu kəsmək üçün yalnız 10 km məsafədə idi. Magistral yola nəzarət Ermənistandan yanacaq, döyüş sursatı və hərbi möhkəmlətmə ehtiyatlarının qarşısını alacaqdı. Azərbaycan ənənəvi olaraq gün ərzində hərbi karvanların qarşısını almaq üçün artilleriya, minaatan və hətta birbaşa atəş və ya idarə olunan raketlərlə Ermənistan ordusuna zərbələr endirirdi.

Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir. 11 dekabrda Dağlıq Qarabağda hərbi əməliyyatların başa çatması və Rusiya Federasiyasının sülhməramlı əməliyyatlarının başladığı andan etibarən ilk dəfə atəşkəs pozulub. Hadrutda atəşkəs rejiminin pozulması ilə bağlı bir hal qeydə alınıb.



**Atəşkəs danışıqları**

Hərbi əməliyyatlar zamanı tərəflər arasında Qarabağla bağlı danışıqlar davam edib. Oktyabrın 19-da "dqr" in rəhbəri Araik Arutyunyan Paşinyana zəng edib. O, nəinki öz fikrini, həm də Qarabağ separatçılarının sabiq liderləri Arkadi Qukasyan və Bako Saakyanın, həmçinin Ermənistanın sabiq prezidentləri Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarqsyanın mövqelərini çatdırıb. Bundan sonra Paşinyan, Rusiyanın təkliflərinin məntiqinə uyğun olaraq, hərbi əməliyyatların dayandırılmalı olduğunu deyən Rusiya Prezidenti Vladimir Putinə zəng edib. Təklifə görə Qarabağın statusu məsələsinin həlli təxirə salınır, keçmiş DQMV ətrafındakı rayonlar Azərbaycana təhvil verilir və o vaxt səslənən təklifə görə, keçmiş DQMV-nin sərhədləri boyu və Laçın dəhlizində Rusiya sülhməramlıları yerləşdirilir. Baş nazir Paşinyan bu variantı Qarabağ separatçılarının başçısına çatdırıb və Araik Arutyunyan razılaşdığını bildirib. Bundan sonra Paşinyan parlamentdənkənar qüvvələrin nümayəndələrinin iştirakı ilə müşavirə çağırıb və qəbul etdiyi qərarı təqdim edib. Görüşün bir çox iştirakçıları narazılıqla reaksiya veriblər, müşavirədən sonra isə bəziləri sosial şəbəkələrdə yazıblar ki, Qarabağ uğrunda ümumxalq mübarizəsini əngəlləyənlər xəyanətkardırlar, başqa adları yoxdur. Elə həmin gün Paşinyan parlament fraksiyalarının nümayəndələrinin iştirakı ilə Təhlükəsizlik Şurasının (TŞ) iclasını da toplayıb. İclasda respublikanın prezidenti və bütün ermənilərin katolikosu da iştirak ediblər.

TŞ-nin iclasından sonra Paşinyan Putinə zəng edib və bu təklifə razı olduğunu bildirib. Putin cavab verib ki, bu məsələləri səhərə qədər İlham Əliyevlə müzakirə edib nəticəsini Paşinyana deyəcək. Növbəti gün səhər Bako Saakyan və Arkadi Qukasyan Paşinyanla görüşdə bildiriblər ki, Qarabağın statusu dəqiqləşdirilmədən hər hansı Sazişə qarşı çıxırlar. Paşinyanın fikrincə onlar bunu həm də Ermənistanın keçmiş prezidentlərinin adından bəyan ediblər. Oktyabrın 20-də Rusiya Prezidenti, şərtləşdikləri kimi, zəng edib. O bildirib ki, Əliyev atəşkəsə razıdır, lakin sülhməramlılar keçmiş DQMV-nin sərhədləri boyu deyil, faktiki təmas xəttinin uzunluğu boyu yerləşdirilməlidir, çünki Hadrut və Talış Azərbaycanın nəzarəti altındadır və onlar tutduqları mövqe-

dən geri çəkilməyə razı deyillər. Bundan başqa, Ermənistan tərəfi öhdəlik götürməlidir ki, azərbaycanlılar Şuşaya qayıdacaqlar. Paşinyan bundan imtina edib. O deyib ki, Hadrutla razılaşsa belə, Şuşanın verilməsini təsəvvür edə bilmir. Rusiya Prezidenti təəccübləndi ki, Paşinyan nə üçün azərbaycanlıların qayıtmasının əleyhinədir. Paşinyan öz arqumentlərini təqdim etdi. Onun fikrincə bu halda şəhər əhalisinin əksəriyyəti azərbaycanlılar olardı və Azərbaycan tərəfi Xankəndinə yolu kimin və necə idarə etməsi məsələsini qaldırardı. Paşinyan əmin olduğunu bildirib ki, əgər Şuşa ilə bağlı bu ssenariyə razılıq versəydi, Azərbaycan yeni şərt irəli sürərdi – Şuşadan Qırmızı Bazar kəndinə gedən yola nəzarətlə bağlı. Bununla da atəşkəsə nail olunmadı.

9 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçıları tərəfindən atəşkəs bəyanat imzalanır. Bəyanatda 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edilir.

**Tərəflərin taktikası**

Müharibənin əvvəlində erməni tərəfinin əhval-ruhiyyəsi daha yüksək idi, lakin tez bir zamanda pisləşməyə başladı. Ermənilər və münaqişəni izləyən bir çox beynəlxalq ekspertlər elə güman edirdilər ki, erməni qüvvələrinin hündürlükdə olmaları və uzun illər ərzində qurulmuş müdafiə səddlərinə nəzarəti onları Azərbaycanın yeni hücumundan qoruyacaq. Bunun illüziya olduğu tezliklə sübut edildi. Azərbaycanın döyüş taktikası tezliklə nəticə verdi. Erməni tərəfi nəinki itirdiyi əraziləri geri ala bilmirdi, həmçinin erməni ordusunda düzgün rotasiyanı da həyata keçirmək mümkün olmurdu. Azərbaycan ordusu 44 günlük müharibə ərzində "Harop" zərbə pilotsuz aparatlarından, o cümlədən İsraillə birgə Azərbaycanda istehsal olunan "Zərbə" dronlarından və digər PUA-lardan, o cümlədən "Bayraktar TB2" zərbə pilotsuz təyyarələrindən geniş istifadə edib. Təkcə Bayraktar TB2 dronları vasitəsilə Azərbaycan Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv edib. Azərbaycan pilotsuz An-2 təyyarələri Ermənistanın hava hücumundan müdafiə sistemlərinin



mövqe rayonlarını aşkarlamaq üçün fəal şəkildə tətbiq edirdi. Azərbaycan Ordusunun bu unikal fəndi dünya hərb tarixində yenilik kimi qəbul edilir. Döyüş əməliyyatlarının gedişində Ermənistan Müdafiə Nazirliyi az qala hər gün "Azərbaycan qırıcı-bombardmançılarının vurulduğu" haqda raportlar verirdi. Hərbi əməliyyatların ilk 2–3 həftəsindən sonra onların "vurduqları hərbi təyyarələrin" sayı onlarla ölçülürdü. Lakin daha sonra üzə çıxdı ki, Ermənistanın hava hücumundan müdafiə sistemləri Azərbaycanın pilotsuz An-2 təyyarələrini vurur və nəticədə öz mövqe rayonunu üzə çıxarır. Ardınca Azərbaycan Ordusu həmin hava hücumundan müdafiə sistemini məhv edir.

Dronlar həm düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələrin endirilməsi, həm artilleriya atəşini korreksiya etmək və kəşfiyyat aparmaq məqsədləri ilə tətbiq olunub. Azərbaycan ordusu pilotsuz aparatlardan müxtəlif məqsədlər üçün istifadə edirdi. Onlar üç-dörd növ olurdu. Biriləri artilleriya atəşlərini yönləndirirdi, PUA-lar gəlirdi və 4 dəqiqə sonra artileriya ermənilərin mövqelərinə dəqiq zərbələr endirirdi. Rus hərbi ekspert Pavel Felqenhauer qeyd edir ki, təxminən bərabər hərbi vəziyyətlərə baxmayaraq, Azərbaycan ordusu qəti keyfiyyət texnoloji üstünlüyünə sahib idi. Bəzi mütəxəssislər isə Ermənistanın məğlub olmasında PUA-ların rolunun çox olmadığını, Ermənistanın itkilərinin əsasən "sehrli texnologiya" deyil, düzgün olmayan təlim və pis ərazi səbəbindən baş verdiyini iddia edirlər.

**Atəşkəs sonrası toqquşmalar**

Birgə bəyanatın imzalanmasından bir ay keçdikdən sonra Ermənistan silahlı qüvvələrinin Xocavənd rayonu ərazisində diversiya-təxribat fəaliyyəti baş verib. Azərbaycanın müvafiq qurumları tərəfindən aparılan antiterror əməliyyatı nəticəsində Ermənistan vətəndaşları olan 62 nəfərdən ibarət diversiya qrupunun üzvlərinin saxlanılıb.

**İtkilər**

*Azərbaycan tərəfi* **-** Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2895 nəfər hərbi qulluqçusu həlak

olmuşdur. 19 nəfərdən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 nəfər hərbi qulluqçunun tibb müəssisələrində müalicəsi davam edir.

*Ermənistan tərəfi-* Oktyabrın 6-na Ermənistan tərəfinin məlumatlarına əsasən, döyüşlərdə 1120 hərbçi həlak olmuşdur. İkinci Qarabağ müharibəsində Azərbaycan ordusunun məhv etdiyi və ya qənimət kimi götürdüyü Ermənistana məxsus hərbi texnikanın dəyəri minimum qiymətləndirmə ssenarisi əsasında ən azı 3,8 milyard ABŞ dolları dəyərindədir. 44 gün davam edən müharibə nəticəsində Ermənistan 10 ədəd S-300 və onun taktiki-döyüş vasitələri, 366 tank, 352 müxtəlif çaplı top, 22 ədəd Pilotsuz Uçuş Aparatı, 5 Su-25 təyyarəsi, 50 Tor, Osa, Kub, Kruq modelli zenit-raket kompleksindən məhrum olunub. Eyni zamanda döyüş əməliyyatları çərçivəsində xüsusi əhəmiyyətə malik 97 ədəd Qrad, 4 ədəd Smerç, 2 Uraqan, 1 Tos odsaçan, 2 Uraqan, 1 ədəd Yars, Toçka-U, ballistik raketlər, Elbrus raket kompleksləri də məhv edilib. Xüsusi müdafiə qabiliyyəti üçün mühüm əhəmiyyət kəsb edən radiolokasiya stansiya və vasitələri, xüsusi döyüş qərargahları və silah-sursat anbarları da yox edilməklə Ermənistanın müharibə qabiliyyəti tamamilə məhv olunub. Məhv edilən hərbi texnikanın içərisində iqtisadi gücünün, hərbi imkanlarının və beynəlxalq qanunvericiliyin Ermənistanın əldə etməsinə heç bir halda imkan verməyi silah kompleksləri mövcuddur. Belə silahlara örnək olaraq, dəyəri yüz milyonlarla dollarla ölçülən S-300 sistemləri, satışı və istifadəsi qadağan olunan ballistik sistemləri, "Elbrus" raket kompleksləri xüsusi qeyd olunmalıdır. Bu baxımdan, hərbi xərcləmələr üzrə hesablamalar və iqtisadi göstəricilər Ermənistanın hazırkı hərbi büdcəsinin xərc istiqamətləri vasitəsilə hərbi infrastrukturu bərpa etməyə təxminən 38 il vaxt lazım olduğunu göstərir.

**İddialar**

Dağlıq Qarabağ münaqişəsinin coğrafiyası, tarixi və həssaslığı səbəbilə üçüncü tərəf və beynəlxalq aparıcı ölkələr tərəfindən, o cümlədən Suriya İnsan Haqları Monitorinq mərkəzi də daxil olmaqla çox sayda media təşkilatları müxtəlif ittihamlar, iddialar və ifadələr irəli sürmüşdür.



**İran və Rusiyanın iştirakı**

Münaqişə əsnasında Azərbaycan və İran mətbuatı Rusiya silah-sursat və hərbi texnikasının İran üzərindən Ermənistana daşındığını bildirdi. 29 sentyabrda İran Xarici İşlər Nazirliyi bu iddiaları rədd etdi. Ertəsi gün Azərbaycan hökumətinə bağlı KİV-lər hərbi texnikanın İran üzərindən Ermənistana aparıldığını göstərən videogörüntüləri paylaşdı. Azərbaycanlı millət vəkili Sabir Rüstəmxanlı İranın müxtəlif ölkələrdən Ermənistana silah daşınması ilə məşğul olduğunu bildirdi. Bundan sonra Sabir Rüstəmxanlı Azərbaycan parlamentində İsraildə Azərbaycan səfirliyinin açılmasını təklif etdi. İran Prezidentinin İşlər İdarəsinin rəisi Mahmud Vaezi, Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevlə telefon danışığında iddiaları rədd etdi və bu şayiələrin iki ölkə arasındaki münasibətləri pozmağa yönəldiyini bildirdi. Əlavə olaraq, İran dövlətinə bağlı KİV-lər kadrlarda əks olunan yük maşınlarının Ermənistan hökumətinin əvvəllər Rusiyadan aldığı Kamaz yük maşınlarının daşınmalarından ibarət olduğunu bildirdi.

**Əcnəbilərin, muzdluların və terror qruplaşmalarının iştirakı. YPG və PKK**

Münaqişədən əvvəl türk mənbələri İraq və Suriyadan bir çox YPG və PKK üzvünün Azərbaycana qarşı erməni milisləri yetişdirmək üçün Dağlıq Qarabağa köçürüldüyünü iddia etmişdir. 30 sentyabrda Türkiyə mənbələri 300-ə yaxın PKK döyüşçüsünün İran vasitəsilə Dağlıq Qarabağa köçürüldüyünü iddia etdi. 28 sentyabrda Azərbaycan Silahlı Qüvvələrindən verilən məlumata görə, erməni itkiləri arasında Suriyadan və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni mənşəli muzdlular var. 30 sentyabr tarixində Hikmət Hacıyev "beynəlxalq ictimaiyyətin Ermənistanın terrorçu qüvvələrini Azərbaycana qarşı istifadə etməsinə adekvat reaksiya verməli" olduğunu bildirdi. Lakin Washington Post qəzetinin şərhçisinə görə, Türkiyənin keçmişdə PKK və YPG-nin fəaliyyəti ilə bağlı şübhəli açıqlamaları bu iddiaları da şübhə altında salıb. The Jerusalem Post isə Daily Sabah qəzetinin PKK və YPG-nin Qarabağdakı müdaxiləsinə dair xəbərlərin bəhanə olmasını və Türkiyənin bu bəhanədən istifadə edərək Şimali İraqı və Suriyanı bombalayaraq "zərərsizləşdirəcəyini" iddia etdi.

**Erməni diasporu könüllüləri**

Müharibənin ilk günlərindən etibarən, bir sıra beynəlxalq mətbuat orqanlarında, dünyanın müxtəlif ölkələrinin vətəndaşları olan ermənilərin Qarabağdakı döyüşlərdə iştirak etmək üçün Ermənistana yollandığına dair məqalələr dərc olundu. Əsasən Livan, Suriya, Fransa və bəzi Latın Amerikası ölkələrində yaşayan erməni əsilli vətəndaşların erməni diasporunun çağırışları ilə beynəlxalq hüquq prinsiplərinə zidd olaraq, döyüşlərdə iştirakı məlum olmuşdur.

Bundan əlavə, 1 oktyabr tarixində Suriya İnsan Haqları Monitorinq mərkəzi erməni əsilli suriyalı döyüşçülərin Suriyadan Ermənistana aparıldığını təsdiqləyib.

**Kiber hücumlar**

Ermənistan və Azərbaycan, eləcə də onların müttəfiq ölkələrindən olan hakerlər kibermüharibə aparıblar, azərbaycanlı hakerlər erməni saytlarını hədəfə alıb, Əliyevin bəyanatlarını dərc ediblər və Yunan hakerlər Azərbaycanın hökumət saytlarını hədəfə alıblar. Hər iki tərəfdən koordinasiyalı mesajlar göndərilib. Yanlış məlumat və köhnə hadisələrin və digər münaqişələrin videoları yeni kimi paylaşılıb. Ermənistan və Azərbaycanla bağlı yeni sosial media hesabları çoxalıb, onların çoxu həqiqi istifadəçilərdir, lakin bir çoxu da qeyri-müəyyəndir.

**Daxili vəziyyət**

*Azərbaycan.* 27 sentyabr səhər saatlarında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilən məlumatlara görə Ermənistanın törədə biləcəyi təxribatların qarşısını almaq üçün ölkə üzrə internetin verilişində bir sıra məhdudiyyətlər tətbiq olunmuşdur. Həmçinin Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan azərbaycanlılara müraciət edərək, sosial şəbəkədə, elektron media və digər kütləvi informasiya vasitələrində rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırmışdır. Hərbi vəziyyətlə əlaqədar Milli Məclisdə keçirilən iclasda 27 sentyabr 00:00-dan etibarən Bakı, Gəncə, Göygöl, Yevlax və bir sıra rayonlarda komendant saatı elan olunması qərarı qəbul olunmuşdur. Verilmiş sərəncama



əsasən, Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edilmişdir. Həmçinin, Azərbaycan Hava Yollarının mətbuat xidməti 30 sentyabr tarixinədək Azərbaycan Respublikasının bütün hava limanlarının müntəzəm sərnişin reysləri üçün bağlanacağını açıqladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında sərəncam imzalayıb və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb. Sərəncam 28 sentyabr qüvvəyə minib. Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələr Azərbaycan xalqı tərəfindən böyük sevinclə və ruh-yüksəkliyi ilə qarşılanır. Azərbaycan vətəndaşları, xaricdə yaşayan azərbaycanlılar, eləcə də Türkiyə vətəndaşları bu nailiyyətlərə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları göndərib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ünvanına "ermənilərə qarşı döyüş əmri" gözləyən minlərlə Türkiyə vətəndaşı məktub göndərib, qardaş ölkənin işğalçılardan azad olunması üçün daim hazır olduqlarını bildirib. Həmçinin, 27 sentyabrdan etibarən, Bakı şəhərinin küçələrində, yaşayış binalarının eyvanlarında, mağaza və digər obyektlərin fasadlarında üç rəngli Azərbaycan bayrağı dalğalanırdı. Əhali, cəbhədə qazanılan uğurlar və bəzi ərazilərin işğaldan azad edilməsinin şərəfinə evlərini bayraqlarla bəzəyirdi. Eyni zamanda avtomobillərdən də kiçik bayraqlar asılırdı.

30 sentyabr tarixində Gənclər və İdman Nazirliyi, AFFA ilə birlikdə "Biz birlikdə güclüyük" adlı bayraq aksiyası təşkil edib. Aksiya könüllüləri paytaxt Bakı şəhərinin 3 fərqli hissəsində yüzlərlə bayraq paylayıb. Müdafiə Nazirliyi tərəfindən verilən məlumatlara görə sentyabrın 1-dən oktyabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna 6.691.593 AZN və 5102 ABŞ dolları vəsait daxil olub.

**Ermənistan**

Ermənistan Mülki Aviasiya Komitəsi 27 sentyabr 2020-ci il tarixdə qəbul edilmiş 1585N qərara uyğun olaraq 55 yaşdan aşağı şəxslər üçün çağırış elan edib. Bu çağırışlarla əlaqədər olaraq Ermənistanda 18 yaşdan 55 yaşınadək kişilər ölkəni yalnız ərazi hərbi komissarlıqlarının yazılı icazəsi ilə tərk edə bilərlər. 29 sentyabr tarixində, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanın cəbhə xəttinə getməsi ilə əlaqədər olaraq, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan və 2008-ci il seçki sonrası iğtişaş iddiasında ittiham olunan digər keçmiş məmurların məhkəməsi təxirə salındı. 1 oktyabr tarixində Ermənistanda TikTok proqramına giriş qadağan edilib. Elə həmin gün, Ermənistan Milli Təhlükəsizlik Xidməti keçmiş yüksək rütbəli Ermənistan hərbi məmurunu Azərbaycan kəşfiyyat orqanlarına casusluq etməkdə şübhəli bilinərək həbs olunduğunu və xəyanətdə ittiham olunduğunu bildirdi. 2 oktyabr tarixində Ermənistan Dağlıq Qarabağa gedən bütün avtomobil yollarını bağlamışdı. Yollar sadəcə hərbi yerdəyişmə məqsədilə istifadə ediləcək. Ermənistan silahlı qüvvələrinin bir sıra ön xətt bölmələrinin şəxsi heyətinin demoralizə olunması, bir çox hərbi qulluqçunun isə ümumiyyətlə döyüşdən imtina etməsi səbəbilə Ermənistan Müdafiə Nazirliyi ölkə qadınlarına müraciət etməyə başlamışdı. 2 oktyabr tarixində Ermənistan Müdafiə Nazirliyi tərəfindən qadın batalyonu yaradılıb və komplektləşdirilməyə başlanılmışdı.

9 oktyabr tarixindən etibarən Ermənistanda səlahiyyətlilər Dağlıq Qarabağdakı münaqişənin artması səbəbindən sentyabrın 27-də tətbiq olunan hərbi vəziyyəti sərtləşdiriblər və məhdudiyyətlər əlavə ediblər. Ermənistan Nazirlər Kabinetinin qərarına görə, ölkənin müdafiə qabiliyyətinə şübhə yaradan verilişlərin yayımlanması qadağandır. Dövlət və yerli idarəetmə orqanlarının vəzifəli şəxslərinə çıxışlar və nəşrlər də daxil olmaqla hərbi vəziyyətin və dövlət təhlükəsizliyinin qanuni rejiminin təmin edilməsi ilə bağlı fəaliyyətləri tənqid edən, təkzib edən, effektivliyini şübhə ilə qarşılayan və ya hər hansı bir şəkildə dəyərdən salan proqramları yayımlamaq qadağan edilib.



**44 gün sürən Vətən Müharibəsi**

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərcmərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.














2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir. Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.



2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla, törətdikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır.

Azərbaycan Respublikasının Hərbi doktrinasına əsasən, Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu Azərbaycan Respublikası özündə saxlayır. Azərbaycan Respublikası xalqın və ölkənin milli maraqlarını təmin etməyə qadir müstəqil, demokratik, hüquqi, dünyəvi,



unitar dövlət olaraq, öz inkişafı naminə milli təhlükəsizlik siyasətini müəyyən edir və həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə dərhal Təhlükəsizlik Şurasının iclası keçirilmiş, təcavüzkara adekvat cavab verilməsi istiqamətində konkret tapşırıqlar verilmişdir.



Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandığı, ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olunmuş, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarlar qəbul edilmişdir.

İlk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatları nəticəsində

Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad edilmişdir. Bu məqsədlə, 29 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərman imzalanmışdır. Fərmandan irəli gələrək Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılmışdır. Müvəqqəti komendantlıqların nəzdində də müvafiq dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılmış, vəzifələri müəyyən edilmişdir.

Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar. Belə ki, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur.








27 sentyabr 2020-ci il tarixdə saat 18 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə (5 nəfər) tamamilə məhv olmuşdur.



04, 05, 08, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 26 nəfər həlak olmuş, 175 nəfər yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.







Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak olmuş, 112 nəfər yaralanmış, rayonda yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.









Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 13360 yaşayış və qeyri yaşayış sahəsinə, 346 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir.



2020-ci ilin 27 sentyabr - 10 noyabr müddətində Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutmuşdur.

08 oktyabr, 03, 04 və 08 noyabr 2020-ci il tarixlərdə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, habelə Ermənistan Respublikasının ərazisində yerləşən hərbi birləşmələrinə rəhbərlik edən şəxslər və onların yaratdığı cinayətkar birliklər «Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair» 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq geniş miqyaslı dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, habelə BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasının əsas təməl prinsiplərini pozaraq ətraf mühitə qəsd edən geniş, uzun sürən və ciddi ziyan vurmaq, insanları qəsdən öldürmək məqsədilə Füzuli rayonunun Arayatlı, Alxanlı, Tərtər rayonunun Səhləbad kəndinə və Şuşa şəhərinin ərazisində yerləşən Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələrə, hər birinin içərisində 3,6 kiloqram P-4 kimyəvi tərkibli (ağ fosfor) olan D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmiləri ilə atəş açaraq həmin ərazilərdə yerləşən təbii sərvətləri qəsdən yandırmaqla, xüsusilə külli miqdarda ziyan vurmuş, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılmış və aparılmış, habelə terrorçuluq cinayəti törədilmişdir.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

**44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir.**












Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçmişlər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edilmişdir.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzala-

nan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.





Azərbaycan Respublikası Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edil-



mişdir.



Ermənistan 30 ilə yaxın müddətdə işğalda saxladığı Azərbaycan torpaqlarının geniş miqyasını, hətta hərbi təyinatı olmayan torpaqları da minalamışdır. 10 Noyabr 2020-ci il tarixli Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında Üçtərəfli Bəyanatda razılığın əldə olunmasına baxmayaraq, Ermənistan minalanmış xəritə və sxemləri təhvil verməkdən imtina edir. Bununla da, 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini, Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolun 1-ci maddəsi və 4 saylı Protokolun 2 (1) və 3 (2) maddələrində müəyyən edilmiş təminatlar da daxil olmaqla, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozur.

Minalı bölgələr insanların həyatı üçün təhlükə yaratmaqla yanaşı, torpaqlardan səmərəli istifadə işinə də mane olur. Xeyli müddətdir ərazilərin minalardan təmizlənməsinə baxmayaraq, mütəmadi olaraq baş verən mina partlamaları nəticəsində mülki vətəndaşların xəsarət almaları və həlak olma faktları artır.

## "ŞUŞA" ƏMƏLİYYATI

Vətən müharibəsinin gedişində unikal əməliyyatlardan biri — Şuşanın işğaldan azad edilməsi əməliyyatı tarixdə əbədi qalacaq. Qarabağın tacı, döyünən ürəyi Şuşa təbii istehkam olduğundan şəhərə tanklarla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi. Onu almağın iki variantı vardı. Birinci halda, şəhərdəki düşmən qüvvələrini hava zərbələri, top atəşləri ilə məhv etmək olardı. Komandanlıq buna getmədi. Çünki şəhərin bombardman edilməsi böyük dağıntılara səbəb olacaqdı. Buna görə də alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçildi. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etdi.

Azərbaycan ordusunun bölmələri oktyabrın ortalarında uğurlu əməliyyat nəticəsində Hadrut qəsəbəsi və ətraf kəndləri işğalçılardan azad etmişdilər. Onlar daha sonra şimala doğru irəliləyərək meşələri və dağ keçidlərini aşıb, Şuşa rayonuna daxil olmuşdur.

Həm ərazi, həm də seçilən marşrut nəqliyyat vasitələri üçün uyğun olmadığından Azərbaycan qüvvələri beş gün Şuşa istiqamətində piyada davam etməli idi. Azərbaycan Prezidenti İlham Əliyev daha sonra bunu təkrar vurğulayaraq Azərbaycan əsgərlərinin Şuşa şəhərinə çatmaq üçün yarğanları, meşələri və dağları keçdiklərini qeyd etmişdir. Erməni komandanlığı Azərbaycan qoşunlarına Qırmızı Bazar ətrafında müqavimət göstərməyi hesablamışdı, oradan Şuşakəndə yol gedir, sonra isə həmin yol Şuşaya qalxır. Ermənistan ordusunun Azərbaycan qoşunlarının Şuşaya hımləsini gözlədiyi ikinci istiqamət isə Laçın istiqaməti idi. Lakin Azərbaycan ordusunun komandanlığı öz miqyasına, planına və ardıcıllığına görə misli görülməmiş qərar verir. Şuşaya sıx Qarabağ meşələrindən istiqamət götürülür.

Azərbaycan qoşunları Çanaqçı kəndini işğaldan azad etmiş, ardından da noyabrın 4-də strateji Şuşa-Laçın yolunun bir hissəsinin nəzarətini ələ keçirmişdir.

Noyabrın 6-da yüngül silah-sursat ilə təchiz edilmiş, hərəsi 100 nəfərdən ibarət olan dörd qrupa bölünmüş 400 nəfərlik Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanın sıldırımlarına iplərlə dırmaşaraq səhər saatlarında şəhərə dörd tərəfdən daxil olmuş və şəhərdə dərhal döyüşlər başlamışdır. Yüzlərlə itki verən erməni silahlıları günortadan sonra şəhərdən tam çıxarılmışdır. Şəhərə nəzarəti yenidən bərpa etmək məqsədi ilə ermənilərin Şuşaya hücum cəhdləri boşa çıxmış, Azərbaycan ordusunun ciddi müqaviməti nəticəsində erməni silahlıları geri oturdulmuşdu. Noyabrın 7-də Şuşaya Ermənistan tərəfindən qadağan olunmuş İsgəndər-M ballistik raketləri atılsa da, bu döyüşün taleyini dəyişə bilməmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. Şuşa zəfəri, əslində, müharibənin taleyini həll etdi. Ertəsi gün daha 70-dən çox kəndin azad olunması xəbəri gəldi və bundan bir gün sonra Ermənistanın Baş naziri Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək kapitulyasiya aktını imzalamağa məcbur oldu.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın Baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladı lar. Bəyanata əsasən, noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları bir güllə atılmadan azad edildi.

## Şuşanın azad edilməsi



Şuşa və ətrafındakı dağlıq ərazi Dağlıq Qarabağ bölgəsindəki ən strateji əhəmiyyətli yerlərdən biridir, ümumiyyətlə bölgənin "döyünən ürəyi" adlandırılır. Şəhər XIX əsrin ortalarına qədər regionda yaşayan azərbaycanlı əhalinin mədəni və siyasi mərkəzi sayılırdı. Şuşa işğaldan azad edilənə qədər Erməni Həvari kilsəsinə bağlı Artsax Yeparxiyasının mərkəzi olmuş Qazançı kilsəsi şəhərdə yerləşdiyindən Şuşa ermənilər üçün dini əhəmiyyətə malikdir. Həmçinin, şəhər Dağlıq Qarabağda müdafiə onurğası rolunu oynayır, separatçılar tərəfindən paytaxt elan edilmiş Xankəndi şəhərini strateji Laçın dəhlizi vasitəsilə Ermənistanın Gorus şəhərinə bağlayır. Şuşa şəhəri 1992-ci ildə, Birinci Qarabağ müharibəsi zamanı Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş və əksəriyyəti azərbaycanlılardan təşkil olunmuş şəhər əhalisi məcburi köçkün olmuşdur.

Cəbrayıl şəhərindən irəliləyən Azərbaycan qüvvələri oktyabrın ortalarında Hadrut qəsəbəsini ələ keçirmişdir. Onlar daha sonra şimala doğru irəliləyərək meşələri və dağ keçidlərini aşıb, Şuşa rayonuna daxil olmuşdur. Şuşa müharibənin başlanğıcından bəri bombardman altında olmasına baxmayaraq, yalnız 29 oktyabrdan şəhər yaxınlığında lokal döyüşlər başlamışdır. Azərbaycan qoşunları Çanaqçı kəndini işğaldan azad etmiş, ardından da strateji Şuşa–Laçın yolunun bir hissəsinin nəzarətini



ələ keçirmişdir ki, erməni qüvvələri sonradan – 4 noyabrda yolu mülki vətəndaşlara bağlamışdır. Fransa mərkəzli "Le Monde" qəzeti erməni separatçılarının bunu inkar etməsinə baxmayaraq, 6 noyabrda döyüşün Azərbaycanın lehinə keçdiyini bildirmişdir.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri 7 noyabrda şəhərin qayalıqlarını dırmaşaraq yüngül silah-sursat ilə Şuşaya daxil olmuşdur. Onlar tezliklə erməni qoşunlarını şəhərdən qovmuş və 8 noyabrda Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan qüvvələrinin Şuşanı işğaldan azad etdiyini bəyan etmişdir, lakin Ermənistan rəhbərliyi bunu təkzib etmişdir. Buna baxmayaraq, ertəsi gün Azərbaycan Müdafiə Nazirliyi şəhərdən video yayımlamış və Şuşanın tamamilə Azərbaycanın nəzarətində olduğunu təsdiqləmişdir. Elə həmin gün Qondarma Dağlıq Qarabağ Respublikasının Prezident Aparatı separatçı qüvvələrin Şuşanın nəzarətini itirdirdiklərini təsdiqləmiş, fəqət sonradan Ermənistan Baş naziri Nikol Paşinyan və Ermənistan Müdafiə Nazirliyi buna zidd olan bəyanatlar yaymışdır. Atəşkəs razılaşmasının imzalanmasından sonra Qondarma Dağlıq Qarabağ Respublikası Prezidenti Arayik Harutyunyan, eləcə də Paşinyan, separatçı qüvvələrin 7 noyabrda şəhərə nəzarəti itirdiyini etiraf etmişdir. Şuşanın işğaldan azad edilməsi müharibənin həlledici anı olmuş və Azərbaycana strateji üstünlük vermişdir. Döyüşdən bir neçə gün sonra Ermənistan məğlubiyyəti qəbul etmiş və Azərbaycan müharibədə qələbə çalmışdır.

### Birinci Qarabağ müharibəsi və Şuşanın işğalı

Şuşa şəhəri Cənubi Qafqazda yerləşən Dağlıq Qarabağ regionunun ikinci ən böyük şəhəridir. Şəhər 1994-cü ildə Birinci Qarabağ müharibəsinin sona çatmasından bəri Qondarma Dağlıq Qarabağ Respublikasının nəzarətində olmasına baxmayaraq, de-yure Azərbaycan Respublikasının Şuşa rayonunun bir hissəsidir. Şuşa dəniz səviyyəsindən 1300–1600 metr yüksəklikdə, separatçıların paytaxt elan etdikləri Xankəndi şəhərindən təxminən 15 kilometr (9.3 mil) uzaqlıqda yerləşir. İki şəhəri bir vadi ayırır və dağlıq ərazidə yerləşən, Xankəndi üçün bufer zonası olan Şuşa"

bütün Dağlıq Qarabağı nəzarətdə saxlamağa imkan yaradan strateji yüksəklik" olaraq xarakterizə edilmişdir. Strateji şəhər həm Azərbaycanda, həm də Ermənistanda xalq arasında "əlçatmaz" dağ qalası adlandırılır. Ermənistanın cənubundakı Sünik mərkəzində yerləşən Gorus şəhəri ilə Xankəndini birləşdirən açar yol – Laçın dəhlizi Şuşadan keçir. Ermənistanı Dağlıq Qarabağa bağlayan digər əsas yol şimaldan, Kəlbəcər rayonundakı Murovdağ silsiləsindən keçir.

1923-cü ildə, sovet hakimiyyəti dövründə əhalisi əsasən ermənilərdən təşkil olan Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradılmış, lakin vilayətin inzibati mərkəzi əsasən azərbaycanlıların yaşadığı Şuşa şəhəri seçilmişdir. 1988-ci ilin fevralında, əksəriyyəti ermənilərdən təşkil olan DQMV hökuməti Azərbaycan SSR-dən ayrılmaq və Ermənistan SSR ilə birləşmək üçün qərar qəbul etmişdir ki, bu da Sovet İttifaqında yaşayan azərbaycanlılarla ermənilər arasında daha geniş etnik və ərazi münaqişəsinə gətirib çıxarmışdır. Sovet İttifaqı 1991-ci ildə süquta uğradıqdan sonra azərbaycanlılar və ermənilər Qarabağ üzərində nəzarəti saxlamaq üçün mübarizə aparmış və döyüşlər 1992-ci ilin əvvəllərində Ermənistan Silahlı Qüvvələrinin iştirakı ilə genişmiqyaslı müharibəyə çevrilmişdir. Dağlıq anklav o vaxta qədər öz müstəqilliyini elan edir və qondarma bir hökumət qurmuşdur. 8 may 1992-ci il tarixində Ermənistan Silahlı Qüvvələri Şuşa şəhərini işğal etmişdir və 1979-cu ildə şəhər əhalisinin 85,5 %-ni təşkil edən azərbaycanlılar məcburi köçkün olmuşdur.

Şəhər həm azərbaycanlılar, həm də ermənilər üçün tarixi, siyasi və mədəni əhəmiyyətə malikdir. Azərbaycanlılar Şuşa şəhərini bölgənin tarixi paytaxtı hesab edirlər və şəhər onlar üçün xüsusi mədəni əhəmiyyət daşıyır. Eyni zamanda, şəhərdə yerləşən və 2020-ci ilə qədər Erməni Həvari kilsəsinin Artsax Yeparxiyasının mərkəzi olan Qazançı kilsəsi ermənilər üçün dini əhəmiyyətə malikdir. 2021-ci ildə Ermənistan Qondarma Dağlıq Qarabağ Respublikasının paytaxtını Şuşaya köçürməyi və burada qanunsuz məskunlaşmanı başa vurmağı planlaşdırırdı. Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında tez-tez şəhərin işğaldan azad edilməsinin müharibənin əsas məqsədlərindən biri kimi xarakterizə etmişdir. O, 16 oktyabrda Türkiyə televiziyasına verdiyi bir müsahi-



bədə "Şuşa olmasa, işimiz yarımçıq qalacaq" demiş, Qondarma Dağlıq Qarabağ Respublikasının Prezidenti Arayik Harutyunyan isə Şuşanı "əcdadlarımızdan bizə miras qalan ən böyük irslərimizdən biri" adlandırmışdır. Şəhərin simvolik əhəmiyyətinə baxmayaraq, Beynəlxalq Böhran Qrupunun azərbaycanlı analitiki Zaur Şiriyev Şuşanın ələ keçirilməsinin hərbi və ya siyasi bir hədəf olub-olmadığının qaranlıq qaldığını qeyd etmişdir. Azərbaycanlı siyasi analitik Fuad Şahbazovun fikrincə, Azərbaycan qüvvələrinin Şuşada qələbə çalması "cəbhədə olan və olmayan azərbaycanlılar üçün mənəvi qələbə kimi qəbul ediləcək" və o güman edir ki, bu da erməni əsgərləri arasında "ciddi demoralizasiya"ya səbəb olacaq.

27 sentyabr 2020-ci il tarixində de-fakto Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilən və Qondarma Dağlıq Qarabağ Respublikası tərəfindən idarə edilən, lakin de-yure Azərbaycanın bir hissəsi olan Qarabağ bölgəsində döyüşlər başlamışdır. Azərbaycan qüvvələri əvvəlcə müvafiq inzibati mərkəzlərini işğaldan azad edərək Füzuli və Cəbrayıl rayonlarında uğur əldə etmiş, oradan Hadrut qəsəbəsinə doğru irəliləmişdir. 15 oktyabrda Hadrutun ələ keçirilməsindən sonra Azərbaycan qoşunları daha intensiv irəliləməyə, ermənilər isə geri çəkilməyə başlayırlar. Azərbaycan qüvvələri daha sonra Zəngilan və Qubadlı şəhərlərini işğaldan azad etmişdir. Onlar, həmçinin, Laçına hücuma keçir, meşələri və dağ keçidlərini aşaraq Şuşa rayonuna daxil olurlar.

Müharibənin əvvəlindən Şuşa şəhərinin ara-sıra top atəşinə məruz qalması barədə xəbərlər yayılırdı. Oktyabrın 4-də Azərbaycan ordusunun dəqiq raket zərbəsi ilə Şuşada, müharibədən cəmi bir neçə ay əvvəl separatçı rejimin rəhbəri Araik Arutyunyanın öz “inauqurasiyasını” keçirdiyi Mədəniyyət Evi darmadağın edildi. Zərbə nəticəsində həmin vaxt orada cəmləşən erməni hərbçiləri məhv edilib. Belə ki, zərbə zamanı binada 300-ə yaxın erməni hərbçisinin (sonradan onların Ermənistandan Qarabağa döyüşlərə göndərilən polislər olduğu üzə çıxmışdı) cəmləşdiyi məlum idi. Onların əksəriyyətinin öldüyü və yaralandığı bildirilir. Rəsmi mənbələr orada 20-dən çox polisin öldüyünü, 200-ə yaxınının yaralandığını təsdiq edir. Partlayış nəticəsində binanın damı dağılıb və içəridəkilərin üstünə tökülüb. 8 oktyabrda Şuşadakı Qazançı kilsəsinin bombardman edildiyi və ciddi ziyan gördüyü bildiril-

mişdir. Azərbaycan tərəfi bu insidentdə hər hansı bir məsuliyyətdən imtina etmişdir. Oktyabr ayı boyunca Şuşanın və eləcə də yaxınlıqdakı kəndlərin Azərbaycan qüvvələri tərəfindən top və raket atəşinə tutulması barədə xəbərlər yayılmış, Azərbaycan tərəfi isə xüsusən də şəhəri atəşə tutması haqqında yayılan xəbərləri təkzib edib. 28 oktyabrda Qondarma Dağlıq Qarabağ Respublikası rəhbərliyi Şuşadan bir neçə kilometr cənub-şərqdə yerləşən Çanaqçı kəndində vəziyyətin "gərgin" olduğunu bildirdi. Ertəsi gün Ermənistan Müdafiə Nazirliyi kənddə toqquşmaların baş verdiyini açıqlamış, Qondarma Dağlıq Qarabağ Respublikası Prezidenti Arayik Harutyunyan isə Azərbaycan qüvvələrinin Şuşadan 5 kilometr (3.1 mil) uzaqlıqda olduğunu etiraf etmişdir. 30 oktyabrda Daşaltı başda olmaqla Şuşa yaxınlığında toqquşmalar baş verib. Elə həmin gün "Abkhazian Network News Agency"nin müxbiri şəhər yaxınlığında böyük partlayışların eşidildiyini qeyd etmişdir. Ertəsi gün Qondarma Dağlıq Qarabağ Respublikası rəhbərliyi Şuşanın yenidən bombardmana məruz qaldığını açıqladı. Noyabrın 2-də Ermənistanın Müdafiə Nazirliyi də yaydığı bəyanatda Şuşa yaxınlığında şiddətli toqquşmaların baş verdiyini bildirib.

Döyüşdən əvvəl, oktyabrın sonları və noyabrın əvvəllərində həm Azərbaycan, həm də Ermənistan bir-birini Şuşa yaxınlığında ağ fosfordan istifadə etməkdə günahlandırmışdır. 30 oktyabrda Qondarma Dağlıq Qarabağ Respublikası rəhbərliyi Azərbaycan qüvvələrini Şuşa yaxınlığındakı meşələri yandırmaq üçün fosfor istifadə etməkdə günahlandırmış, lakin Azərbaycan tərəfi bu iddiaları təkzib etmişdir. Noyabrın 20-də Azərbaycan Baş Prokurorluğu Ermənistan Silahlı Qüvvələrini Şuşa ətrafında kimyəvi sursat istifadə edərək "ətraf mühitə böyük və uzunmüddətli ziyan vurmaqda" ittiham etmiş, bu məsələ barədə cinayət işi açmışdır. Həmçinin, Azərbaycan rəsmiləri Ermənistan Silahlı Qüvvələrinin bölgəyə ağ fosfor daşıdığını bildirmişdir. Ağ fosforun istifadəsi həm Azərbaycanın, həm də Ermənistanın imzalamadığı beynəlxalq müqaviləyə əsasən qadağan olunmuşdur.



**Döyüş**

Oktyabr ayında Dağlıq Qarabağın cənubunda yerləşən, əvvəllər ermənilərin nəzarətində olan ərazilərin əksəriyyəti üzərində nəzarəti əldə etdikdən sonra Azərbaycan quru qoşunları təmas xəttini keçərək qərbə doğru irəliləməyə başladı. Oktyabr ayının ortalarına qədər Azərbaycan hərbi qüvvələri Ermənistanı Dağlıq Qarabağla birləşdirən Laçın dəhlizinə doğru irəlilədi və ermənilərin nəzarətində olan əsas şəhərlərdən hesab edilən Hadrutu azad etdi. Oktyabrın 22-dək Azərbaycan hücumu ilə Laçın şəhərinə və həyati əhəmiyyət kəsb edən dəhlizə 10 kilometr məsafəyə qədər yaxınlaşdı. Laçın dəhlizini itirməklə Ermənistan Dağlıq Qarabağdakı qüvvələrini təchiz etməkdə çətinliklə üzləşə bilərdi. Cavab olaraq və təzyiqi Laçın dəhlizindən uzaqlaşdırmaq üçün erməni qüvvələri çətin keçilən meşə-dağlıq ərazilərdə hərbi qüvvələrdən istifadə edərək əks-hücumlara başladılar və Azərbaycan qoşunlarının əsas təminat yolları boyunca pusqular qurmağa başladılar. 28-30 oktyabr tarixləri arasında Şuşanı düşməndən azad etmək və şəhərin müdafiəsini yarmaq üçün Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri əraziyə yeridildi. Bəzi məlumatlara görə, Azərbaycan XTQ qüvvələrinin 400 hərbçisi 5 gün sıx meşələr və keçilməz yarğanlar arasından irəliləyib, ciddi mühafizə olunan Laçın dəh-lizindən keçərək ətraf kəndləri mühasirəyə alıblar. Məlumata görə, xüsusi təyinatlılar şəhərə bir çox istiqamətdən və fərqli hədəflərə yaxınlaşmaq üçün yüz nəfərlik qruplara bölünüblər.

Azərbaycan hesablarına görə, həm ərazi, həm də seçilən marşrut nəqliyyat vasitələri üçün uyğun olmadığından Azərbaycan qüvvələri beş gün Şuşa istiqamətində piyada davam etməli idi. Azərbaycan Prezidenti İlham Əliyev daha sonra bunu təkrar vurğulayaraq Azərbaycan əsgərlərinin Şuşa şəhərinə çatmaq üçün yarğanları, meşələri və dağları keçdiklərini qeyd etmişdir. Erməni komandanlığı Azərbaycan qoşunlarına Qırmızı Bazar ətrafında müqavimət göstərməyi hesablamışdı, oradan Şuşakəndə yol gedir, sonra isə həmin yol Şuşaya qalxır. Ermənistan ordusunun Azərbaycan qoşunlarının Şuşaya həmləsini gözlədiyi ikinci istiqamət isə Laçın istiqaməti idi. Lakin Azərbaycan ordusunun komandan-

lığı öz miqyasına, planına və ardıcıllığına görə misli görünməmiş qərar verir. Şuşaya sıx Qarabağ meşələrindən yeni yol açır. Böyük Tağlar kəndindən meşələrlə Şuşaya, Çanaxçı və Sığnax kəndlərinə doğru 3 gün ərzində 42 kilometr uzunluğunda buldozer və əllə yol açılır. Bununla mühəndis-istehkamçılar ensiz dağ cığırını texnikanın hərəkət edə biləcəyi meşə yoluna çevirdilər. Nəticədə Azərbaycan bölmələri artilleriya qurğularını Çanaxçı ətrafına çəkə bilmişdi. Elə burada da yeni artilleriya dueli başladı. Azərbaycan dağ piyadalarının uğurlu hücumu qəfil pusquya salınmış erməni əsgərlərinin sonuncu müqavimətini də qırdı.

Noyabrın 4-də Ermənistan rəsmiləri döyüşlərin Şu-şa yaxınlığında davam etdiyini bildirilmişdir. Azərbaycan qüvvələri Şuşa-Laçın yolununun bir hissəsinin nəzarətini ələ keçirmiş və separatçı rejim sonradan yolu mülki vətəndaşlara bağlamışdır. Sərhədsiz reportyorların verdiyi məlumata görə, beləliklə, 80-ə qədər jurnalist mühasirədə qalmışdır. Ermənistan rəsmiləri 5 noyabr səhəri Şuşanın ağır atəşə tutulduğunu və döyüşlərin ertəsi gün davam etdiyini bildirdi. Azərbaycan hərbçiləri Şuşaya girmək üçün çətin də olsa, qarşı tərəfin ağlına belə gəlməyən sıldırım qayaların olduğu istiqaməti seçdilər, onlar şəhərə qayalıqlara dırmaşmaqla qalxdılar. Erməni ordusu isə bütün gücünü şəhər istiqamətindəki əsas yollara cəmləmişdi. Çünki əsas hücumu bu yollardan gözləyirdi. Lakin Azərbaycan xüsusi təyinatlıları atəş dəstəyi olmadan sıldırım qayalıqlardan qalxdılar və yarğanlardan keçdilər. Oktyabrın 30-da erməni tərəfi döyüşlərin Şuşadan cəmi beş kilometr şərqdə getdiyini açıqladı. Şəhər artıq sentyabr ayının əvvəllərindən bəri ara-sıra top atəşinə tutulmuşdu və bu da şəhər sakinlərinin əksəriyyətinin qonşu Stepanakertə (Xankəndi) qaçmasına səbəb olmuşdu. Müharibənin bu mərhələsində Şuşanın nəhəng dağların əhatəsində - sıldırım qayalar üzərində yerləşməsi səbəbindən müdafiə olunan erməni qüvvələri hələ də taktiki üstünlüyə sahib idilər. Azərbaycan hərbçiləri şəhərə quru yolla yaxınlaşmağa çalışarkən tez-tez artilleriya, raket hücumları və pusqularla üzləşirdilər. Noyabrın 4-ü, axşam saatlarında Azərbaycan ordusunun konvensional piyada qüvvələrinin Şuşanın cənub qayalıqlarının dibindəki Daşaltı kəndinə yaxınlaşan yol uğrunda vuruşduqları barədə xəbərlər gəldi. O günə qədər Azərbaycan tərəfi Şuşanın



cənubundakı dağ silsiləsinə və Şuşanı Laçın şəhərinə bağlayan Laçın dəhlizinin əsas hissələrinə nəzarəti təmin etmişdi. Həmçinin Azərbaycan ordusu Ermənistanın Şuşanı əhatə edən müdafiə mövqelərini minaatanlardan atəşə tutmağa başlamışdı. Noyabrın 5-də axşam saatlarında Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin bir qismi əsas yola çatdı və Şuşanın müdafiəsinə kömək etmək istəyən erməni əsgərlərini mühasirəyə ala bildilər. Bu, o demək idi ki, Ermənistandan Şuşaya yardımın gəlməsi artıq mümkün deyildi. Yəni Həkəri çayı üzərindəki əsas körpü də dağıdılmışdı və şəhər ən azı üç əsas istiqamətdən mühasirəyə alınmışdı. Bölgədəki nəzarətin itirildiyini görən Ermənistan hakimiyyəti, Laçın dəhlizini mülki əhalinin üzünə bağladı – 80-ə yaxın xarici reportyor döyüş bölgəsində təcrid vəziyyətində qaldı. Noyabrın 6-da Azərbaycanın ordu birləşmələri şəhərin yaxınlığına çatdı. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin o vaxtkı rəhbəri Argişti Kərəmyan Qarabağdakı vəzifələrinin tamamlandığını qeyd edərək 6 noyabr səhər vaxtlarında Şuşanı tərk etmişdir. Bu xəbərdən bir müddət sonra Azərbaycan qüvvələri Şuşaya daxil oldu. Azərbaycan tərəfi şəhərə girdikdən sonra, ermənilərin müdafiəsinin zəifldilməsi və ya əks-hücumların qarşısını almaq üçün ətrafda əlavə bloklayıcı mövqelər və pusqu yerləri qurdular. Azərbaycan ordusunun digər bölmələri də eyni vaxtda uğurlu əməliyyat edərək Şuşanın cənubunda yerləşən Daşaltı kəndini tutmaqla Şuşaya gedən əsas yola çıxışı təmin etmişdilər. Ertəsi gün minlərlə erməni Şuşa və Xankəndi şəhərlərindən qaçmış, yollarda tıxac yaranmışdır. 7 noyabrda Ermənistan rəsmiləri Şuşa və Daşaltı yaxınlığında şiddətli döyüşlərin baş verdiyini bildirmiş, eyni zamanda Azərbaycan tərəfinin bir neçə hücumunun dəf edildiyini bildiriblər, lakin Azərbaycan tərəfi bunu təkzib etmişdir və prezident İlham Əliyev Azərbaycan qüvvələrinin şəhərin cənub-şərqində, Xocalı rayonu ərazisində yerləşən Qarabulaq və Baharlı kəndlərini işğaldan azad etdiklərini açıqlamışdır.

Azərbaycan qüvvələri 7 noyabrda şəhərə daxil olmuşdur. Əlavə olaraq, bir dəstə, Ermənistan tərəfi şəhərə əlavə dəstək göndərməsin deyə, Laçın dəhlizinin qarşısını almış, başqa bir dəstə isə Daşaltını işğaldan azad etdikdən sonra Şuşaya daxil olan qüvvələri atəş dəstəyi ilə təmin etmişdir. Azərbaycanın xüsusi təyinatlıları

şəhərə girəndə müdafiə olunan ermənilərlə yaxın məsafədə ağır küçə döyüşlərinə başladılar. Noyabrın 7-də ərazidə hava dumanlı idi. Bu, Azərbaycan tərəfinin havadan kəşfiyyat aparmaq imkanlarını, eləcə də hava zərbə vasitələrindən istifadəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırdı. Əlverişsiz hava şəraiti, həmçinin, "TB2 Bayraktar" pilotsuz uçan aparatlarından istifadəyə də mane olurdu. Belə bir şəraitdə Ermənistan qüvvələri zirehli maşınlarından – T-72 tanklarından və BMP-2 piyadaların döyüş maşınlarından maksimum istifadəni təmin etdi. Noyabrın 7-də səhər 09.00-da Şuşaya Ermənistan tərəfindən İsgəndər ballistik raketi atılmışdı. Raketin hədəfi azərbaycanlı hərbçilər idi. Amma raket Şuşaya yox, şəhərin yaxınlığına, erməni hərbçilərin çox olduğu yerə düşüb.

Əks hücuma baxmayaraq, Azərbaycan qüvvələri öz mövqelərini qorudular. Şuşa meşələrində müdafiə xətti qurdular və ermənilərin üç əks həmləsini dəf etdikdən sonra Şuşa İcra Hakimiyyətinin binasını ələ keçirərək erməni qüvvələrini qovmağa başladılar, şəhərdəki binaları və daha geniş əraziləri təmizlədilər. Şuşa uğrunda döyüşlər nəhayət binadan binaya, yaxın məsafədən aparılırdı. Ermənistan qüvvələri günortadan sonra şəhərdən çıxarılmış və 8 noyabr səhəri Azərbaycan qüvvələri şəhərin kənarında əməliyyatlara davam etmişdir. İlham Əliyev, noyabrın 24-də, rayonun Ermənistan tərəfinin atəşkəs razılaşması çərçivəsində Azərbaycana təhvil verilməsindən sonra Ağdam şəhərinə səfəri zamanı, Azərbaycan əsgərlərinin yüngül silahlarla təchiz edildiyini təsdiqləmiş, onların Şuşa şəhərində ermənilərlə "demək olar, əlbəyaxa döyüş"də olduğunu qeyd etmişdir. Azərbaycan hesablarına görə, ağır artilleriya ilə dəstəklənən Ermənistan qüvvələrinin sayı ən azı 2000 nəfər idi. Erməni mənbələri və rəsmiləri döyüş zamanı Şuşadakı erməni qüvvələrinin sayı barədə heç bir açıqlama verməsə də, Qondarma Dağlıq Qarabağ Respublikası Prezidenti Harutyunyan bölgəyə təxminən 6000 Azərbaycan əsgərinin cəlb olunduğunu irəli sürmüşdür.

İlham Əliyev 8 noyabr tarixində, günortadan sonra Azərbaycan qüvvələrinin şəhəri işğaldan azad etdiyi elan etmiş, həmçinin, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin komandiri Hikmət Mirzəyevi də bu münasibətlə təbrik etmişdir. Hadisə yerindəki "İzvestiya" müxbiri prezidentin açıqlamasını təsdiqləsə də,



qondarma rejimin rəsmiləri 8 və 9 noyabr tarixlərində şəhərin içində və kənarında döyüşlərin davam etdiyini bildirərək bunu təkzib etmişdir. 8 noyabrda Argişti Kərəmyan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri postundan azad edilmiş və Mikayıl Ambartsumyan tərəfindən əvəz olunmuşdur. 9 noyabrda Azərbaycan Daxili Qoşunları mayoru Zaur Rəhimovun məruzəsi ilə şəhərdən video yayımlamış və Şuşanın tamamilə Azərbaycan Milli Ordusunun nəzarətində olduğunu təsdiq etmişdir. Həmçinin İlham Əliyev Azərbaycan qüvvələrinin şəhərin cənub və şərqindəki Çanaqçı, Sığnaq, Şuşakənd və Daşaltı da daxil olmaqla bir neçə kəndi işğaldan azad etdiklərini açıqlamışdır. Qondarma Dağlıq Qarabağ Respublikası rəhbərliyi daha sonra Şuşa şəhərinə nəzarəti itirdiklərini etiraf edərək, Azərbaycan qüvvələrinin Xankəndinə yaxınlaşdığını vurğulamışdır. Lakin Ermənistanın Baş naziri Nikol Paşinyan döyüşün davam etdiyini bildirərək qondarma rejimin bəyanatının əleyhinə mövqe qoymuşdur. Bu iddia daha sonra Ermənistan Müdafiə Nazirliyi və erməni ictimaiyyətini çaxnaşma yaratmamağa çağıran Ermənistan Parlamentinin millət vəkili Nikolay Bağdasaryan tərəfindən təkrar edilmişdir. Bəzi ermənilər qondarma rejimin rəsmilərinin sosial şəbəkə hesablarının hakerlər tərəfindən sındırıldığını və açıqlamalarının həqiqəti əks etdirmədiyini irəli sürmüşdür. Bəzi erməni rəsmiləri və analitikləri də Azərbaycan rəhbərliyini "öz xalqına yalan danışmaqda" günahlandırmışdır. Bununla birlikdə, 10 noyabrda Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərinə nəzarət etdiyini təsdiqləyən imzalanmasından sonra Paşinyan və Qondarma Dağlıq Qarabağ Respublikası Prezidenti Harutyunyan işğalçı qüvvələrin 7 noyabrda şəhərə nəzarəti itirdiyini etiraf etmişdir.

**İtkilər**

Noyabr ayının ortalarında Beynəlxalq Qırmızı Xaç Komitəsi Rusiya sülhməramlı qüvvələrinin köməyi ilə hər iki tərəfdən həlak olmuş əsgərlərin cəsədlərini tapmağa və əsirlərin təhvil verilməsi prosesinə başlamışdır. 25 noyabrda rus mənbələri BQXK-nin Şuşa şəhərində ümumilikdə 2,000-dən çox cəsəd tapdığını bildirmişdir.

Azərbaycan müharibə dövründə hərbi itkilərini açıqlamamışdır. Dekabrın 3-də Azərbaycan Müdafiə Nazirliyi müharibə boyu şəhid olan Azərbaycan hərbçilərinin ümumi sayını açıqlamış və detalların sonradan veriləcəyini əlavə etmişdir. Bununla birlikdə, Ermənistan rəsmiləri Şuşa yaxınlığında ən azı 200 Azərbaycan əsgərinin öldürüldüyünü iddia etmişdir. Azərbaycan hesablarına görə, yaralanan Azərbaycan hərbçiləri 9 noyabrda təxliyə edilmişdir.

Ermənistan üçtərəfli razılaşmadan əvvəl döyüşdəki hərbi itkiləri ilə bağlı heç bir məlumat verməmişdir. 6 noyabrda "*Le Monde*" qəzeti Şuşa uğrunda gedən döyüşlər zamanı yaralanan erməniləri Xankəndi şəhərindəki xəstəxanalara yerləşdirmək üçün daha yer olmadığını qeyd etmişdir. 7 noyabrda Şuşadakı erməni qoşunlarının komandiri Seyran Ohanyanın ağır yaralandığı iddiaları ortaya çıxmışdır, ancaq bu, Ermənistan rəhbərliyi tərəfindən təkzib edilmişdir. Azərbaycan mərkəzli "*Azeri Daily*" saytı hərbi mənbələrə istinadən 800-dən çox erməni əsgəri cəsədinin Ermənistan tərəfinə təhvil verilməyə hazır olduğunu və Ermənistan Müdafiə Nazirliyinin Azərbaycan tərəfindən bu cəsədləri götürməyi istədiyini iddia etmişdir. Lakin 16 noyabrda Qondarma Dağlıq Qarabağ Prezidenti Arayik Harutyunyan Şuşa şəhərinin kənarından Ermənistan Silahlı Qüvvələrinə məxsus 150 cəsədin tapıldığını və yüzlərlə əsgərin hələ itkin olduğunu, Ermənistan Baş naziri Nikol Paşinyan isə 14–16 noyabr tarixlərində Şuşa yaxınlıqlarından 300-dən çox erməni cəsədinin tapıldığını etiraf etmişdir. 21 noyabrda Qondarma Dağlıq Qarabağ Respublikası rəhbərliyi şəhər yaxınlığında yaralı bir erməni polis məmuru tapdıqlarını açıqlamışdır.





## Azərbaycanın paytaxtı Bakı şəhərində Şuşada qələbəni qeyd edən xalq. 8 noyabr.

Döyüş İkinci Qarabağ müharibəsində həlledici məqam olmuşdur və həm Ermənistan ordusu, həm də daha geniş mənada erməni cəmiyyəti tərəfindən böyük bir zərbə kimi qiymətləndirilir. Döyüşdən iki gün sonra Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla atəşkəs müqaviləsi imzaladığını elan etmişdir. Ermənistan politoloqu Suren Sarkisyana görə, Şuşanın itirilməsinin nəticələrini dərk etmək ermənilər üçün çətin olmuşdur. Sarkisyan bunun Ermənistan müxalifətindən hakimiyyət dəyişikliyi tələb etməsinə səbəb olacağını da əlavə etmişdir. Müharibədən sonra bir çox erməni Paşinyana qarşı çıxmış, bütün ölkədə şiddətli etirazlar başlamış və Paşinyanın müxalifləri arasında onun Şuşanı "satması" ilə bağlı ümumi iddia yayılmış. Həmçinin, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan Ermənistan hərbi rəhbərliyini Azərbaycan qüvvələrinin Şuşanın yaxınlıqlarına çatmasına mane ola bilməməsinə görə tənqid etmişdir. Köçəryanın iddiasına görə, separatçı qüvvələrin yeni müdafiə xətti qurmaq üçün təqribən iki həftə vaxtı var idi və o vaxtı Qondarma Dağlıq Qarabağ Respublikasının Milli Təhlükəsizlik Şurasının katibi olan Vitali Balasanyan Şuşadakı erməni qüvvələrinə komandanlıq etmək məsuliyyətini boynuna almağı təklif etsə də onun təklifi geri çevrilmişdir. Bir sıra erməni hərbi rəsmiləri Ermənistanın hərbi vəziyyətinin bir çoxunun inandığından daha dəhşətli olduğunu iddia edərək Paşinyanı dəstəkləmişdir. Paşinyan iddialara cavab olaraq, Azərbaycan qüvvələrinin Şuşaya nəzarəti ələ keçirməsindən sonra Xankəndi şəhərinin müdafiəsiz qaldığını, Xankəndiyə nəzarətin də itirilməsindən sonra Əsgəran və Xocavənd ərazilərində xidmət edən 20–30 min erməni əsgərinin mühasirədə qalacağını bildirmiş və erməni əsgərlərinin həyatının onun üçün daha vacib olduğunu vurğulamışdır. Qondarma Dağlıq Qarabağ Respublikası Prezidenti Arayik Harutyunyan da xəyanət iddialarına qarşı çıxaraq separatçı qüvvələrinin şəhəri qorumaq üçün yetərli canlı qüvvəyə malik olmadığını qeyd etmişdir. Daha sonra Rusiya Prezidenti Vladimir Putin Azərbaycan qüvvələrinin Şuşaya nəzarəti ələ

keçirməsi nəticəsində ermənilər üçün kritik bir vəziyyət yarandığını və Azərbaycanın Xankəndi şəhərini ələ keçirərək daha da irəliləyə biləcəklərini söyləmiş, müharibənin dərhal dayandırılmasının Ermənistan tərəfinin marağında olduğunu bildirmişdir. 3 dekabrda Qondarma Dağlıq Qarabağ Respublikasının Şuşi mərzinin icra başçısı müavini Samvel Arutyunyan qeyd etmişdir ki, döyüş nəticəsində Şuşadan təqribən 4500 erməni məcburi köçkün olmuşdur.

Ermənistandan fərqli olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin Şuşanın azad edilməsi barədə verdiyi xəbəri bayraq dalğalandıraraq, mahnı oxuyaraq və avtomobil siqnalları ilə qarşılayan azərbaycanlılar arasında bayram əhval-ruhiyyəsi yaranmışdır. İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Bakıdakı Birinci Fəxri Xiyabanda çələngqoyma mərasimi keçirilmişdir. Həmçinin, Bakı buxtasındakı gəmilər fit vermiş, Moskva şəhərində yaşayan azərbaycanlılar fişəng nümayişi keçirmiş, Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmiş avtomobillər ABŞ-da, Nyu-Yorkun Bruklin borosunda yolları bəzəmişdir. Ermənilər Şuşanı işğal etmələrini "Dağlarda toy əməliyyatı" adlandırdığından Azərbaycanda bəzi siyasi xadimlər buna istinadən Şuşanın işğaldan azad edilməsini "Dağlarda boşanma" deyə qələmə vermişdir. 2016 Avroviziya Mahnı Müsabiqəsində Azərbaycanı təmsil etmiş azərbaycanlı müğənni Səmra Rəhimli 1 dekabrda "Şuşa, biz qayıtmışıq" adlı bir mahnı buraxmışdır. 27 sentyabr və 10 noyabr tarixləri Azərbaycanda müvafiq olaraq Anım Günü və Zəfər Günü elan edilmişdir, lakin Zəfər Gününün qeyd edilmə tarixi dəyişdirilərək 8 noyabr təyin edilmişdir, çünki əvvəlki tarix Türkiyədə Mustafa Kamal Atatürkün anım günü ilə üst-üstə düşürdü. 4 dekabr saat 12:00-da Azərbaycanda şəhidləri yad etmək üçün bir dəqiqəlik sükut keçirilmişdir. Bununla əlaqələr ölkədə dövlət bayraqları endirilmiş, gəmilər fit, maşınlar isə siqnal vermişdir. Azərbaycan əsgərləri də Şuşa qalasının qarşısında dayanaraq müharibədə şəhid olanların xatirələrini yad etmişdir.

Atəşkəs razılaşmasının ardından, 13 noyabrda bölgəyə yerləşdirilən Rusiya Silahlı Qüvvələrinə tabe 15-ci əlahiddə sülhməramlı motoatıcı briqadası şəhərin kənarında müşahidə



postu qurmuşdur. Rusiya sülhməramlı qüvvələri, açıqlamaya əsasən, Şuşa şəhərinin daxil olmadığı Laçın dəhlizini də nəzarətə götürmüşdür. Şuşanın şimal girişi olan Gəncə qapısından keçən yolda yerləşən digər bir nəzarət-buraxılış məntəqəsi Azərbaycan hərbçiləri tərəfindən qorunduğu görülmüşdür.

Noyabrın 8-də İlham Əliyevin Şuşa şəhərinin işğaldan azad edildiyini açıqlamasından sonra, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Kocaeli ilində kütləyə müraciət edərkən Azərbaycanı təbrik edərək bunun "işğal edilmiş torpaqların qalan hissəsinin də tezliklə azad ediləcəyinə işarə" olduğuna inandığını bildirmişdir. Türkiyə mühəndisi və müharibə zamanı Azərbaycan tərəfindən geniş şəkildə istifadə edilən "Bayraktar TB2" PUA-sının yaradıcısı olan Səlcuq Bayraqdar da Azərbaycan xalqına təbrik mesajı göndərmişdir. Həmçinin, Türkiyədə vitse-prezident Fuad Oqtay, Milli Müdafiə Nazirliyi, Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu, iqtidardakı AK Partiyasının müşaviri Ömər Çelik və Prezident Administrasiyasının media və kommunikasiya rəhbəri Fəxrəddin Altun və prezidentin müşaviri İbrahim Kalın Şuşanın azad edilməsi münasibətilə Azərbaycan xalqını təbrik etmişdilər. 9 noyabrda İran millət vəkili Əhməd Əlirzabeygi "Şuşa şəhərinin işğaldan azad edilməsinin ədalətin bərpa olunduğu"nu sübut etdiyini ifadə edərək buna görə "qürurlu və xoşbəxt" olduğunu söyləmişdir. Pakistanın Azərbaycandakı səfiri də azərbaycanlıları təbrik etmişdir. Bakı şəhərində yerləşən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri olan Latviyanın keçmiş prezidenti Vayra Vike-Freyberqa və Qırğızıstanın keçmiş baş naziri Coomart Otorbayev da İlham Əliyevi təbrik etmişdir.




## Şuşanın azad edilməsi “Dəmir yumruq” əməliyyatının kulminasiya nöqtəsi oldu

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altındakı torpaqlarımızı azad etmək üçün Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 8-də ordumuzun qəhrəman hərbçiləri alınmaz qala hesab edilən Şuşanı böyük fədakarlıqla azad etdi.

“Poliqon” xatırladır ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etməsi ilə 2020-ci il noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı.

Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Hərbi cəhətdən Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və dərhal noyabrın 9-da rəşadətli Azərbaycan Ordusu 70-dən çox yaşayış məntəqəsini və bir neçə mühüm strateji əhəmiyyətli yüksəkliyi işğalçılardan azad etdi.



Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi, noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması, Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti hərbi-strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu bildirib: “Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlərlə, bəlkə də minə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Amma düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu”.




Şuşanın işğaldan azad edilməsinin ikinci ildönümü ərəfəsində Müdafiə Nazirliyinin xətti ilə döyüşlərin getdiyi ərazilərə təşkil edilən media-tur çərçivəsində müharibədə iştirak etmiş, fərqlənmiş hərbi qulluqçularla yerində görüşmək və döyüşlər haqqında

birbaşa onlardan eşitmək imkanı oldu. Zəfər tarixini yazan hərbi qulluqçularımızı əyani tanımaq Qarabağ döyüşləri ilə bağlı hadisələri gözümüzdə bir daha canlandırdı.

Vətən müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələr komandanının birinci müavini – qərargah rəisi vəzifəsində xidmət edən, hazırda birlik komandiri olan general-mayor Kənan Seyidov POLİQON jurnalına Şuşa şəhərinin stratej əhəmiyyətindən və Şuşa əməliyyatının təfərrüatlarından danışdı.

General-mayor K.Seyidov bildirib ki, Şuşa strateji cəhətdən ən əlverişli ərazidə yerləşmiş şəhərimiz və Qarabağın baş tacıdır. Onun sözlərinə görə, Şuşanın azad edilməsi Azərbaycan Ordusunun bir nömrəli vəzifəsi olub.

“30 illik vətən, torpaq həsrəti və düşmənə olan nifrət hissi Azərbaycan əsgərini döyüşlərdə daha da ruhlandırırdı. Buna görə də, hətta müharibənin ilk saatlarında əminliklə deyə bilərdik ki, biz bu savaşda qələbə qazanacağıq, müzəffər olacağıq və nəticədə onu da bacardıq”, – deyə birlik komandiri vurğuladı.

General-mayor K.Seyidov Şuşa əməliyyatının detallarını açıqladı: “Şuşaya daxil olmamışdan əvvəl, birinci növbədə gördüyünüz bu Topxana meşəsi və əlimlə göstərdiyim istiqamətdəki yüksəkliklər və ətraf yüksəklilər ələ keçirilmişdi. Bundan sonra, əlimlə göstərdiyim istiqamətdə qruplarla Laçın dəhlizini, Laçın-Şuşa yolunu keçərək Şuşa şəhərinə üç əsas istiqamətdən – Qala qapıları istiqaməti, Xankəndinin Üç yolu istiqaməti və mərkəz hissəsindən Şuşaya daxil olduq. İlk Şuşaya girən qruplar bizim Şuşada olan türmə – Şuşa türməsi istiqamətindən girməyə nail oldular. Noyabr ayının 5-ində gecə saatlarında biz artıq Şuşaya girmişdik. Şuşa şəhərini düşməndən tam təmizləndikdən sonra, noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırıldı”.

Birlik komandiri K.Seyidov 21-ci əsrin müharibə standartını yaradan bir ölkə kimi Azərbaycanın əldə etdiyi tarixi zəfəri təmin edən ən müasir silahların tətbiqindən də söz açdı.

“44 günlük Vətən müharibəsi 21-ci əsrin ən müasir müharibəsi idi. Bu müharibədə qazanılan təcrübədən, bizim döyüş təcrübəmizdən bizdən sonra olan müharibələrdə istifadə olundu. Amma ilk yeniliyi Vətən müharibəsində Azərbaycan Ordusu nümayiş etdirdi.



Xüsusilə qeyd etmək istəyirəm ki, Vətən müharibəsinin hərbi baxımından qısa müddətdə, 44 gün ərzində şanlı qələbə ilə başa çatmasında Raket və Artilleriya Qoşunlarının arsenalında olan yüksək dəqiqlikli silahlar və eyni zamanda havadan olan “Harop”, “Bayraktar” və digər pilotsuz uçuş aparatlarının tətbiqi və ən əsası da Azərbaycan əsgərinin döyüş ruhu və hazırlığı mühüm rol oynadı”, – deyə general-mayor K.Seyidov vurğuladı.

K.Seyidov onu da qeyd etdi ki, Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun müasir silah və texnikalarla daha da gücləndirilməsi istiqamətində çox böyük işlər görülüb: “Ordunun silahlanması ilə bağlı cənab Ali Baş Komandanın diqqət və qayğısı ilə dünyadakı ən müasir silahlar hal-hazırda Azərbaycan Ordusunun arsenalına daxil olmaqdadır”.

**Əsgərlərimizin mənəvi-psixoloji vəziyyəti və ruh yüksəkliyi düşmən iradəsini məhv etdi**




Füzuli, Zəngilan, Qubadlı və Şuşa istiqamətində – xüsusilə Daşaltı kəndinin düşmən tapdağından azad olunmasında iştirak etmiş polkovnik-leytenant Rəcəb Bəyəliyev bildirdi ki, indi bu yollardan gəldiyi zaman böyük qürur hissi keçirdir: “Çünki biz o zaman bu yollardan keçəndə bu yollar keçilməz idi, texnikaların hərəkəti demək olar ki, mümkün deyildi. Bizim piyada bölmələ-

rimiz bu dağlıq, sıldırım qayaları dıramaşaraq böyük şücaət göstəriblər. Bilirsiniz ki, əlbəttə qələbənin qazanılması birinci iradə qüvvəsidir. Əsgərlərimizin ruh yüksəkliyi və mənəvi psixoloji vəziyyəti çox yüksək idi və bununla düşmən iradəsini məhv etdik. Elə birinci qələbəmizdə məhz bundan başladı. Eyni zamanda bizim silahlanmamızda olan ən müasir silah və texnikanın və onları bacarıqla istifadə edən komandirlərin sayəsində döyüş meydanında uğurlar qazanıldı.

Bilirsiniz, taktikada hücum edən tərəf üç qat üstün olmalıdır. Çünki bizlər hücum edirik, düşmən tərəf müdafiədədir. Amma buna baxmayaraq biz ən müasir silah və texnikadan, eyni zamanda müasir pilotsuz uçuş aparatlarından istifadə etməklə döyüş meydanında üstünlüyü əldə etdik. Bayaq dediyim kimi eyni zamanda əsgərlərimizin mənəvi-psixoloji ruhu da çox yüksək idi və bunun nəticəsində biz düşmən iradəsini məhv etdik. Beləliklə döyüş meydanında qələbə qazandıq".

Polkovnik-leytenant Rəcəb Bəyəliyev döyüşə hər zaman hazır olduqlarını bildirdi: "Müzəffər Ali Baş Komandanımız həmişə deyirdi ki, biz döyüşə hazırıq və əsgərlərimiz döyüş meydanında öz şücaətini göstərəcək, belə də oldu. Biz hər zaman – dünən də, bügün də, gələcəkdə də olarsa döyüşlərə hazırıq. Çünki bizim döyüş qabiliyyətimiz ən yüksək səviyyədədir. Ona görə də, elə döyüş əməliyyatı yoxdur ki, bizim Azərbaycan əsgərinin əlində aciz olsun. Biz bütün əməliyyatları yüksək səviyyədə, yüksək peşəkarlıqla icra etmişik.

Xüsusilə qeyd etmək istəyirəm ki, Daşaltı kəndinin və Daşaltını əhatə edən adsız yüksəkliyin alınmasında taborumuz yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdirdi. Beləliklə biz bu əraziləri işğaldan azad etdik".

Azərbaycan Ordusunun N saylı hərbi hissəsində artilleriyaçı kimi xidmətini davam etdirən polkovnik-leytenant Vüsal Hacıyev bildirdi ki, sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin hücumunun qarşısının alınması üçün, Müzəffər Ali Baş Komandanın əmrinə əsasən, "Dəmir yumruq" əks-hücum əməliyyatının başladığı gündən ancaq irəliyə doğru hərəkət ediblər: "Topçuların işi çox məsuliyyətlidir. Düşmənin dərinliyinə girən ordumuz "bizə dəstək durun, qarşıda düşmən var, oranı vurun" deyirdilər. Hətta elə bir məqamlar olurdu ki, biz öz təhlükəsizlik məsafəmizi belə qorumadan atəş dəstəyi təmin etmək məcburiyyətində olurduq. Düzdür, deyirlər artilleriya ön xəttə olmur. Amma, bilirsiniz, artilleriyanın atəşini yönəltməsi qabaqdan olur. Belə günlərdən birində – noyabırın 2-də komanda məntəqəsində düşmən snayperi tərəfindən vuruldum. Bəxtim gətirdi ki, güllə düz sinəmdə olan daraq çantasından tutmuşdu. Həqiqətən ondan sonra hiss etdim ki, ölüm var. O vaxta kimi biz ölüm nə olan şeydir başa düşmürdük. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə can sağlığı versin".



## Müasir artilleriya sistemləri Azərbaycan ordusunun üstünlüyünü təmin edib

Azərbaycan Ordusunun arsenalında olan artilleriya sistemlərinin üstünlüklərindən danışan artilleriya komandiri polkovnik-leytenant Elşən Hüseynov bildirdi ki, son 10 ildə Azərbaycanda Ordu quruculuğunda müasir artilleriya silahlarının alınması bizi düşməndən üstün etdi.

"Ümumiyyətlə müharibə artilleriyanın tətbiqi ilə başlayır. İlk gündən erməni əsgəri, zabiti artilleriyanın mərmisindən qorxurdu. Bizim üstünlüyümüz həm də onda idi ki, müasir arilleriya sistemlərimiz vardı. Avtomatlaşdırılmış artilleriya qurğularımızın sayəsində bütün tapşırıqlar operativ icra edilirdi.

Avtomatlaşdırılmış artilleriya sistemləri o deməkdir ki, sən mexaniki heç bir iş görmürsən. Hər şey avtomatik olur. Koordinatlar sənə gəlir və sən koordinatları daxil edirsən. Burada isə artıq nişangahına qədər topa gedən bütün məlumatlar var. Bu da əvvəl ki, variantlarla – mexaniki üsul ilə hesablayanda artilleriyaçını 3-5 dəqiqə qabağa salır. Ona görə də Azərbaycanda bu son 10 il ərzində alınmış bütün artilleriya sistemləri bizim üstünlüyümüzü təmin etdi. Döyüş vaxtı bizim müasir artilleriya sistemləri silahlarından uğurla istifadə olundu", – deyə polkovnik-leytenant E.Hüseynov vurğuladı.

**Vətən müharibəsimdə bütün hərbi hissələrin fasiləsiz tibbi təminatı təmin edilib**




Azərbaycan torpaqlarının bütövlüyü uğrunda Vətən müharibəsində iştirak edən tibb xidməti polkovnik-leytenantı Şahin Süleymanov sentyabrın 27-dən iki ay ərzində hərbi hissələrin tibbi təminatının yerinə yetirilməsində yaxından iştirak edib. Həmçinin xəstə və yaralılara tibbi təminatın keyfiyyətli və vaxtında göstərilməsi tədbirlərinin hamısında şəxsən iştirak edib.

Həkim Ş. Süleymanov bildirdi ki, Vətən müharibəsi zamanı müxtəlif birlik tərkibində olan hərbi hissələrin fasiləsiz tibbi təminatı təmin edilibdir: "Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının rəhbərliyi tərəfindən bütün dərman ləvazimatları, tibbi ləvazimatlar, verilən sifarişlər vaxtında və təcili hamısı çatdırılıb və həmçinin də hərbi hissələrin həkim, feldşerləri öz vəzifə borclarını hərbi hissələrdə layiqincə yerinə yetiriblər.

Hərbi hissələrin feldşerləri, sanitar təlimatçıları bu işi öz vəzifə borcları kimi layiqincə yerinə yetiriblər və yaralılara vaxtında tibbi yardım göstərilib və hospitallara təxliyə olunub. Həmçinin Səhiyyə Nazirliyinin tibbi müəssisələri də müharibə boyunca bu işdə yaxından iştirak ediblər.



Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə can sağlığı versin. Hər bir yaralı və şəhid xəbəri bizim üçün ən ağırıdır. Əsas odur ki, müqəddəs vəzifəmizi yerinə yetirdik. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında biz qələbə çaldıq. İnşallah gələcək nəsillərə bu bir nümunədir".




"İlk öncə qeyd etmək istəyirəm ki, Ali Baş Komandanımızdan gözlədiyimiz an, həmin an idi ki, əmri aldıqdan sonra bölmələrimiz düşmənin əks-kəşfiyyatına qarşı öz gücünü göstərdi. Təkcə ermənyə yox, bütün dünyaya göstərdi ki, biz nəyə qadirik. Ordunun ən önəmli vasitələrindən biri rabitə idarəetmədir ki, mən də rabitəçi kimi öz zabit və əsgər yoldaşlarımızla müəyyən olunmuş rabitə vasitələrindən, hansı ki, yeni təkmilləşdirilmiş rabitə vasitələrindən düşmənin bütün maneələrinə qarşı gələrək 44 günlük vətən müharibəsində döyüş vaxtı çox uğurlu fəaliyyət göstərdik.

Bu gün fəxr edirəm və çox sevinirəm ki, Şuşa artıq bizimdir. Biz artıq Şuşaya qayıtmışıq. 30 ildir gözləyirdik ki, bura qayıdaq. İlk öncə şəhidlərimizin valideynlərinə baş sağlığı verirəm. İkinci növbədə qazilərimizə sağalmağı arzu edirəm və bütün bu döyüşdə əməyi olan, əziyyət çəkənlərin hamısına təşəkkür edirəm", – deyə mayor Ş.Əzizov bildirdi.

Ş.Əzizov vurğuladı ki, düşmənin rabitə vasitələri həddən artıq çox zəif, köhnəlmiş idi, amma bizdə çox müasir, təkmilləşdirilmiş, bugünkü dövrə cavab verən rabitə vasitələri idi ki, biz o rabitə vasitələri ilə düşmənin bizə törətmək istədikləri radio maneələrin qarşısını yerindəcə alırdıq: "Biz döyüş vaxtı düşmənin əlində olan rabitə vasitələrini gördük. Onların əlindəki rabitə vasitələri keyfiyyətsiz rabitə vasitələri idi. Bizim onlara ötürdüyümüz radio maneələrin qarşısında dura bilmirdilər. Şuşaya girməyimizdə ötürdüyümüz radio maneələr əhəmiyyətli rol oynayırdı. Düşmən özünü itirmişdi. Bilmirdilər ki, öz heyətləri haradadır. Ona görə pərən-pərən olmuşdular. Düşmən Şuşanı həm qorxu hissinin çox olmasına, həm də döyüşün idarəetməsini itirdikərinə görə tərk etdi.

Bizdə ən əsas vasitələr – yeni, müasir rabitə vasitələridir ki, onlar çox az ölkələrdə istifadə olunur, bizim ölkədə də o rabitə vasitələrindən istifadə olunur. Biz döyüş vaxtı daşınan rabitə vasitələrindən istifadə edirdik. Əldə radio vasitələri idi, yəni o rabitə vasitələri uzaq məsafələr üçün istifadə olunan daşınan, yüngül rabitə vasitələridir. Döyüş vaxtı bölmələrin radio əlaqələrini təmin etmək üçün o rabitə vasitələrindən istifadə edilirdi. Təkcə döyüş vaxtı yox, döyüşdən sonra da cənab Ali Baş Komandanımızın əmri ilə hazırda bugünkü günə kimi də yenə də texnikalarımız da, ən əsas rabitə vasitələrimiz də daha da müasirləşdirilir,Ordumuz daha da yeni avadanlıqlar ilə təmin olunur".

Mayor Ş.Əzizov sözlərinə görə, heç vaxt xəyal edə bilməyib ki, bir gün Şuşaya gələcək. Onların Şuşaya girməyi ən sevincli və yadda qalan günlərindən biri olub: "Biz döyüş vaxtı nəyinki Şuşada, Şuşaya gəldiyimiz sıx meşələrin, təhlükələrin heç birində, hansı ki, meşələrin içində sıxlıqdan rabitə vasitələrini açmaq olmurdu, çətinliklər var idi, o çətinliklərə baxmayaraq öz canımızı təhlükyə atırdıq, amma biz o təhlükəni hiss etmirdik.

Ən əsas məsələlərdən birini qeyd etmək istəyirəm. Biz noyabrın 6-da Şuşaya girdik. Şuşanın Daşaltı kəndi istiqamətində, arxa tərəfdən gələndə düşmənin bir hərbi hissəsi vardı. Onun üzərində yuxarıda bildiyimiz teleqüllə var. Məqsədimiz teleqüllədə rabitə vasitəsini açmaq idi, əlverişli nöqtə olduğu üçün aşağıda olan bütün radio əlaqələri təmin edək və əlavə olaraq



onlara set verək. Yəni ora biz qalxanda düşmənin pilotsuz uçuş aparatları bizim üzərimizdə uçurdu. Düşmən bizi aşkar etməmişdi. Bu, kəşfiyyat xarakterli PUA-lar idi. Koordinatı çxarıb hədəfi vurmaq üçün nəzərdə tutulan PUA-lar idi. Həm yadda qalan, həm gülməli bir gün idi ki, düşmən artilleriya atəşi ilə bizə atırdı, biz 200-300 metr yuxarı qalxırdıq onun atdığı mərmilər bizə adi bir şey kimi idi. Biz gedib öz yerimizə, mövqeyimizə çatana kimi onlar çox atəş açdılar, lakin onlar bizə tuş gəlmədi. Biz öz işimizdən yayınmadıq, öz işimizə davam etdik və rabitə avadanlığını açdıq, əlaqəni təmin etdik. Həmin vaxtı PUA ilə bizi izləyən düşmən atdığı artilleriya atəşindən (toplarla atırdı) heç bir təsir olmadığını görürdü. Bundan sonra, bizə iki dəfə qadağan olunmuş silahdan atəş açdılar. Çünki biz bildiyimiz kimi döyüş vaxtı, döyüşdə ilk növbədə sıradan çıxarılası birinci rabitədir. Əgər bir qüvvəni məhv etmək istəyirsənsə rabitəni sıradan çıxarmalısan. Ona görə də biz düşmənin ən məqsədli hədəfləri idik. Atəş açmalarına baxmayaraq bizi öz işimizdən, məqsədimizdən yayındıra bilmədilər. Məqsədimizə çatdıq, dayanıqlı rabitə əlaqəsini təmin etdik və bu günləri də artıq Qarabağın tacı olan Şuşa şəhəri bizdədir. Bundan sonrada Ali Baş Komandanımızın növbəti əmrini səbirsizliklə gözləyirik və biz hər zaman düşmənin başında "Dəmir yumruq" kimi vurmağa hazır vəziyyətdəyik".

Şuşaya qədər keçdiyi döyüş yolundan danışan mayor Şahin Əzizov bildirib ki, əsas vəzifələri xüsusi təyinatlı qüvvələrin (XTQ) rabitə əlaqəsini təmin etmək olub: "Şuşaya Cəbrayıl istiqamətindən gəlmişik. Cəbrayıldan Xocavəndə, ordanda da meşənin içi ilə həm piyada olduq, həm də rabitəçi kimi rabitə əlaqəsini təmin etdik. Biz hansı ki, alışan, yanan maşınların arasından keçəndə qarşımızda olan XTQ-nin canlı döyüşünü gördük, bu da bizim sevincimiz idi, fəxrimiz idi. Biz fəxr edirik ki, o döyüşün canlı şahidləriyik.

Bizdə ruh yüksəkliyinin yaranma səbəblərindən biri o idi ki, şəxsən mən və mənim yoldaşlarım irəlilədikcə, müəyyən olunmuş mövqeləri aldıqca bizim şanlı bayrağımızı, o ucalan bayrağımızı uzaqdan görəndə biz ora qaçaraq gedirdik, heç nə düşünmədən gedirdik və istəyirdik ki, o bayrağı daha da irəli aparaq.

Bayrağımızın axırıncı, tam torpaqlarımız alınana kimi, ən yüksəklərdə dalğalanmağı üçün həvəs göstərirdik.

Ümumiyyətlə hər bir şeyi gərək praktiki yaşayasan. Bu günləri, biz döyüşdə bunu praktiki olaraq yaşadıq, hiss etdik, duyduq. Bu gün artıq Ordumuzda olan təlimlərimiz daha da ciddi, döyüş hazırlğı daha da artırılıb. Ali Baş Komandanın əmri ilə buna xüsusi diqqət yetirilir".




Kapitan Asim Kəlbəliyev keçdiyi döyüş yolundan ilk növbədə bu yolda qanları ilə, canları ilə tarix yazan əziz şəhidlərimizə Allahdan rəhmət, qəhrəmanlıq nümunəsi olan qazilərimizə şəfa diləməklə söz açdı.

"Qəhrəmanlıq salnaməsi olan Vətən müharibəsində qazanılan zəfər münasibəti ilə ilk növbədə şəhid yaxınlarını, əzizlərini, qazilərini və onların timsalında bütün xalqımızı təbrik etmək istəyərdim.

Bundan əlavə mən artilleriyaçı zabit olaraq sizin sualınıza cavab verməyə çalışacağam. Artilleriyaçı kimi biz də digər qoşun növləri ilə birlikdə sıx qarşılıqlı koordinasiya ilə 27 sentyabrdan aktiv döyüş fəaliyyətlərinə cəlb olunduq və bizim qarşımıza qoyulan tapşırıqların öhdəsindən tam şəkildə gəldik. Bizim



qarşımıza qoyulan ən əsas tapşırıqlar düşmənin dərinliyində olan komanda-müşahidə məntəqələri, idarəetmə məntəqələri, hava, hava hücumundan müdafiə məntəqələri, meydançaları, uçuş meydançaları, enmə meydançaları, eyni zamanda anbarlar və bu tipdən olan digər hədəflər ilk növbədə qarşımıza tapşırıq olaraq qoyulmuşdu.

Bu tapşırıqlar elə aktiv döyüş fəaliyyətləri başlayandan uğurla yerinə yetirildi. Bundan əlavə olaraq, artilleriyaçı zabitlərin digər tapşırıqlarından biri də xüsusi təyinatlıların irəliləməsinə artileriyaçıların artilleriya atəşi ilə dətsəkləməsi idi ki, müharibə başlayandan son gününə kimi bu tapşırığı da tam şəkildə yerinə yetirdik.

Son olaraq da döyüşlər, şanlı bayrağımızı bu dayandığımz yerdə və sonra daha yuxarılarda, mədəniyyət beşiyimiz olan Şuşa şəhərində sancılması ilə yekunlaşdı.

Ali Baş Komandanımızın da qeyd etdiyi kimi, hər bir kəsin ürəyində bir ifadə var idi, "Azərbaycan xalqı bu işğal ilə barışmayacaq. Torpaqlarımızın işğal olunması Azərbaycan xalqının əzmini, iradəsini qıra bilməz və danışıqlar yolu ilə yağı düşmən torpaqlardan çəkilməsə, güc yolu ilə, hərb yolu ilə bu torpaqların hər qarışından gəldiyi yerlərə göndəriləcək". Bu hər birimizin ürəyindən xəbər verən bir ifadə idi. Bunu reallıqda da hər bir əsgər hər bir zaman bu tapşırığı yerinə yetirməyə hazır idi. Bu tapşırıq üçün əyani sübut olaraq Aprel döyüşləri, Tovuz döyüşləri, eyni zamanda düşmən tərəfindən dəfələrlə törədilən təxribatlar zamanı Ordumuzun, əsgərimizin göstərdiyi igidliklər, qəhrəmanlıqlar buna bir nümunə idi. Eyni zamanda "Dəmir yumruq" adı altında başlanan əks-hücum əməliyyatında cənab Ali Baş Komandanımızın verdiyi irəli hücum əmri bizim əsgərimizdən tutmuş hər birimiz üçün ancaq sevinc, qürur və çoxdan içimizdə olan bir arzunun, istəyin, eyni zamanda bir qisas məşəlini alovlandırdı. Bunu əməliyyatın başladığı ilk gündən işimizlə, əməlimizlə sübut etdik ki, başladığımız günlərdə hər kəsin xəbəri, məlumatı vardı ki, ard-arda işğaldan azad olunan kəndlər, qəsəbələr, rayonlar əsgərimizin, Ordumuzun rəşadətinin əyani sübutudur.

Danışıqlar yolu ilə cənab Ali Baş Komandan işğal olunmuş torpaqlardan düşməni çıxartmağa çalışırdı, müharibə olmasın,

qan tökülməsin deyə humanizm addım atmışdı. Bu ərəfədə, keçən müddət ərazində Ordumuz da, əsgərimiz də sakit öz yerində dayanmamışdı. Mütəmadi öz üzərində çalışıb, bilik və bacarıqlarını artırıb, təlimlər keçirib, təkmilləşdirib, eyni zamanda Ordumuzun arsenalıda yeni silahlarla, tenikalarla güclənirdi. Hansı ki, həmin yeni arsenalımıza qəbul olunan silah-texnika özünü göstərdi. Və bu dayandığımız nöqtəyə qədər keçdiyimiz yola nəzər salanda sağda-solda bunların hər birinin izini görmək mümkündür", – deyə kapitan Asim Kəlbəliyev vurğuladı.

**Vətən müharibəsində qələbəmiz bizi arxayınlaşdırmır, döyüş hazırlığı prosesi planlı şəkildə davam edir**



Vətən müharibəsində Daşaltı, Şuşa istiqamətlərindəki döyüşlərdə iştirak etmiş leytenant Elbrus Həsrətov ilk olaraq qeyd edib ki, Ali Baş Komandanın qətiyyəti, xalqımızın həmrəkliyi və döyüşlərdə iştirak edənlərin vətənpərvərliyi, qələbə əzmi, yurd sevgisi sayəsində Vətən müharibəsində qalib gəldik: "Və təbii ki, Şuşa istiqamətində gedən döyüşlərdə Qarabağımızın tacı, xalqımız üçün müqəddəs məkan olan, ölkəmizin simvollarından birinə çevrilən Şuşa şəhərinin azad edilməsi 44 günlük "Dəmir yumruq" əks-hücum əməliyyatının kulminasiya nöqtəsi idi.

Şuşa şəhərinin azad edilməsində başqa qoşun növləri ilə qarşılıqlı fəaliyyət göstərən artilleriyaçılar da fərqlənirdilər. Artilleriyaçılar olaraq bizim üçün qürurverici məqamlardan biri də odur ki, 30 ilə yaxın düşmən işğalında qalan ərazilərimizə ilk daxil olanların sırasında olmaq şərəfi bizlərə də nəsib oldu.

Zəfər bayramı ərəfəsində fürsətdən istifadə edərək bir daha vətən uğrunda canlarından keçən şəhidlərimizi hörmətlə, ehtiramla yad edir, yaralanlara isə tezliklə sağalmalarını arzu edirəm. Allah bütün şəhidlərimizə rəhmət etsin.

Lakin Vətən müharibəsində qələbəmiz bizi arxayınlaşdırmır. Bu gün yenə də döyüş hazırlığı prosesi planlı şəkildə davam edir. Bildiyiniz kimi Vətən müharibəsindən sonra ölkə Prezidenti Ordumuzda islahatların davam etməsi, yeniliklərin tətbiq edilməsi barədə tapşırıqlar verdi.

Yeniliklərdən danışarkən komando hərbi hissələrinin yaranması, həmçinin artilleriyaçıların da ən yeni texnika ilə təmin olunduğunu, bölmələrimizin təminat və təchizatında son iki qazandığımız uğuru da xüsusi qeyd etməliyik. Müasir, ən yeni texnikalar alınıb, idarəetmə sistemlərində yeniliklər tətbiq olunub.

Döyüş hazırlığı prosesində Vətən müharibəsində qazandığımız təcrübədən uğurla bəhrələnirik. Ordumuzun arsenalına yeni-yeni silah növləri daxil olmuşdur.

Sonda bir daha fürsətdən istifadə edərək bütün xalqımızı Zəfər Bayramı münasibəti ilə təbrik edir, vətən uğrunda canlarından keçən şəhidlərə Allahdan rəhmət diləyir, döyüşlərdə yaralanan silahdaşlarımızı isə tezliklə sağalmasını arzu edirik.

Yaşasın Azərbaycan və onun şanlı Ordusu! Qarabağ Azərbaycandır"!

**Yaralılarımız təxliyə olmaqdan imtina edib döyüşə qatılırdı**

Gizir Oktay İsmayılov Vətən müharibəsində keçdiyi döyüş yolundan bunları dedi: Sentyabrın 27-si biz səhər saatlarında həyəcan siqnalı ilə qaldırıldıq. Düşmən hücum etmişdi və bizə əks-hücum komandası verildi. Biz əks-hücum komandasında Füzulinin Abdurrahmanlı istiqamətində Vodapron deyilən istiqamətdən düşmənə əks-hücum etdik. Düşmənin illərdir hazırladığı "ohanyan" deyilən xətti biz yardıq, darmadağın etdik

və o istiqamətdən irəlilədik. Aşağı Abdurrahmanlı istiqamətində güclü döyüşlər getdi. Ondan sonra biz gəldik kənd Horadiz istiqamətinə, Hadrut istiqamətində döyüşlər artıq gedirdi və axırıncı döyüşümüz 1550 yüksəkliyi deyilən yerdə oldu. Orada yaralandım. Bu çox strateji yüksəklik idi, Şuşanın alınması üçün bu vacib idi.




Düşmən 30 ildən bəri hazırladığı istehkam maneələri, texnikamız üçün və piyada əleyhinə minalar düzmüşdü, val qazmışdı çoxlu. Onları keçmək çətin idi. Onların bir neçə eşelonu var idi. Bunları keçmək çətin olsa da, bizim şəhidlərimizin, qazilərimizin, döyüşçülərimizin hesabına həmin maneələr dəf olundu və hal-hazırda bu torpaqlardayıq.

Biz yüksəklikdəykən artilleriya atəşi nəticəsində mən başımdan yaralandım və hospitalında ilk yardım olunduqdan sonra mən yenidən döyüşlərə qayıtdım. Qayıtdıqdan sonra döyüş bitmişdi.

Bizim yaralılarımız olurdu, təxliyyə etmək üçün təxliyə qrupları gəlirdi, təxliyyə olmurdu. Yaralı ola-ola yenidən döyüşə qatılırdı. Şəhid olanda olurdu, hal-hazırda aralarında yaşayanda var. Güllə yarası dəydiyi anda getmək istəmirdilər.

Biz demək olar ki, bu 30 ildən bəri düşmənə nifrət hissi ilə böyümüşük. Bir tərəfim Cəbrayıl, bir tərəfim Zəngilandandır. 30 ildən bəri gözləyirdik bu komandanı ki, biz döyüşə qatılaq.



Xüsusi hazırlanmış bölmədən idik, ona görə də şəxsi heyət həmişə istəyirdi döyüşsün. Onun üçün ruh yüksəkliyi çox böyük idi.

Vətən müharibəsində şəhid olan döyüşçülərimizə Allah rəhmət etsin, qazilərimizə can sağlığı və hal-hazırda xidmətdə olan yoldaşları salamlayırıq.

Elə silahlarımız var idi ki, heç istifadə olunmadı, ehtiyac olmadı. Müasir silahlarımız düşməndən qat-qat daha yaxşı idi. Döyüş bitdikdən sonra da müasir silahlar alırıq, istifadə olunur".

Onu da qeyd edək ki, Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində deyib: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"




**"Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir**

**gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı".**

Bu barədə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Füzuli-Şuşa avtomobil yolunun təməlqoyma mərasimində Şuşanın azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən bildirib.

Dövlətimizin başçısı deyib: “Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir”.

Bu gün artıq quruculuq işlərinə başlandığını vurğulayan Azərbaycan Prezidenti qeyd edib ki, Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq, imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.






## Tovuz döyüşlərinin şəhidləri

**Tovuz döyüşlərində Vətənin keşiyində dayanaraq, qəhrəmancasına döyüşən Azərbaycan Silahlı Qüvvələrinin 12 hərbçisi şəhid olub. Onlardan biri də general-mayor Polad Həşimovdur.**

**Şəhid general-mayor Polad Həşimov** 1975-ci il yanvarın 2-də Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olub. 1982-ci ildə Sumqayıt şəhəri 28 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul olub və 1986-cı ilə qədər orada təhsil alıb. Polad Həşimov 1992-ci ildə sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verib. 2014-cü ilin iyul ayında isə o, Silahlı Qüvvələrin Hərbi Akademiyasına daxil olub və 2016-cı ildə “hərbi idarəetmə” üzrə magistr dərəcəsi alıb.

P.Həşimov Birinci Qarabağ müharibəsi zamanı Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak edib, eləcə də 1994-cü ilin fevral ayında Murovdağ əməliyyatı zamanı “Güzgü”, “Koroğlu” və “Ömər” postları uğrunda gedən döyüşlərdə

qəhrəmancasına döyüşüb. 28 yaşı olanda "mayor" hərbi rütbəsi alan P.Həşimov 2003-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyevin Fərmanına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Cəmi 6 il sonra isə "polkovnik-leytenant" hərbi rütbəsi alan Polad Həşimov 2009-cu ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Vətən uğrunda" medalı ilə təltif edilib. 2014-cü ilin iyununda o, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyduğu tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Polad Həşimov 2017-ci ildən 3-cü Ordu Korpusunun komandir müavini, Qərargah rəisi vəzifəsində çalışıb.

2019-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, Polad Həşimova "general-mayor" ali hərbi rütbəsi verilib. Bununla da Polad Həşimov XIX əsrdə yaşayan İsmayıl bəy Qutqaşınlıdan sonra Azərbaycanın tarixində Qəbələdən general rütbəsi alan birinci hərbçi olub. Təəssüf ki, 2020-ci il iyulun 14-də səhər saatlarında Tovuz rayonu istiqamətində baş verən döyüşlər zamanı general-mayor Polad Həşimov şəhidlik zirvəsinə ucalıb.

P.Həşimovun Vətənə əmanət üç övladı – Davud və Teymur adlı oğulları, Aybəniz adlı qızı yadigar qalıb.

P.Həşimov İkinci Fəxri xiyabanda son mənzilə yola salınıb.

Döyüşlər zamanı müdafiənin ön xəttində olan general-mayor Polad Həşimov ilə birgə şəhid olan hərbçilərdən biri də polkovnik Mirzəyev İlqar Anzor oğludur.

P**olkovnik İlqar Mirzəyev** 1973-cü il mayın 8-də Gürcüstanın Qardabani şəhərində anadan olub. İlqar Mirzəyev 1991-ci il avqustun 1-də Bakı Ali Birləşmiş Komandalıq Məktəbinə (BABKM) qəbul olub və 1995-ci ildə oranı artilleriya ixtisası üzrə bitirib. Qüsursuz xidmətlərinə görə İ.Mirzəyevə Müdafiə Nazirliyinin 1997-ci il tarixli əmrinə əsasən "baş leytenant", 2000-ci il tarixli əmrinə əsasən "kapitan", 2002-ci il tarixli əmrinə əsasən "mayor", 2012-ci il tarixli əmrinə əsasən isə "polkovnik" hərbi rütbəsi verilib.



İlqar Mirzəyev 2013-2015-ci illərdə Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyasının Döyüş və döyüş təminatı şöbəsinin inspektoru vəzifəsində xidmət edib. 2020-ci il iyulun 12-də Tovuz döyüşləri başlayan zamanı İ.Mirzəyev artilleriya komandiri olub. O, iyulun 14-də Tovuz rayonu istiqamətində 3-cü Ordu Korpusunun komandir müavini general-mayor Polad Həşimov və tabeliyində olan əsgərlərlə bir yerdə qəhrəmancasına həlak olub. O, İkinci Fəxri xiyabanda torpağa tapşırılıb. Şəhid polkovnik İlqar Mirzəyevin Vətənə əmanət Elvin adlı oğlu və Gülnarə adlı qızı yadigardır.

**Şəhid mayor Əhmədov Namiq Hajan oğlu** 8 noyabr 1984-cü ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. 1991-ci ildə şəhid Zahid Mahmudov adına Yuxarı Salahlı kənd tam orta məktəbin birinci sinfinə daxil olub, 2002-ci ildə həmin məktəbi bitirib. 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olan, N.Əhmədov 2006-cı ildə ali hərbi məktəbi artilleriya ixtisası ilə bitirib. 2007-ci ildə Təlim Tədris Mərkəzində zabit kursunda təhsilini davam etdirib. Aprel döyüşlərində aparılan hərbi əməliyyatlarda yaxından iştirak edən Namiq Əhmədov döyüşdə göstərdiyi şücaətə görə fəxri fərmanla təltif edilib. Bununla yanaşı qəhrəmanlığına görə, ona vaxtından əvvəl "mayor" hərbi rütbəsi verilib. Mayor Namiq Əhmədov Tovuz istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman şəhid olub. Şəhidimiz doğulduğu Qazax rayonunun Yuxarı Salahlı kəndində dəfn olunub.

**Şəhid mayor Novruzov Anar Gülverdi oğlu** 12 may 1976-cı ildə Masallı rayonunun Ərkivan qəsəbəsində yerləşən Abbaslı məhəlləsində anadan olub.

Ailədə 10 uşaq olan A.Novruzov Ərkivan qəsəbəsindəki Cəfər Cabbarlı adına 1 saylı tam orta məktəbi 1993-cü ildə əla qiymətlərlə bitirib. Daha sonra sənədlərini Azərbaycan Texniki Universitetinin avtomobil nəqliyyatının istismarı fakültəsinə verib. Lakin, sonra Bakı Neft-Energetika Kollecinə qəbul olunub. Sənədlərini Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə verib. Bir il təhsil aldıqdan sonra təhsilini yarımçıq saxlayaraq Qarabağ müharibəsində könüllü olaraq iştirak edib.

1999-cu ildə ali hərbi məktəbi bitirən Anar Novruzov hərbi vəzifəsinə kəşfiyyatçı zabit kimi ön cəbhədə başlayıb. 2013-cü ilə qədər ön cəbhə bölgələrində, 2005-ci ildə Tərtər rayonunun Qapanlı kəndində, 2008-ci ildə rayonun Həsənqaya kəndində, 2013–2018-ci illərdə Sumqayıtda yerləşən "N" saylı hərbi hissədə xidmət edib. Kəşfiyyatçı zabit kimi xidmətinə görə silah yoldaşları tərəfindən "Akula" ləqəbi ilə çağrılan mayor A.Novruzov snayper və digər müasir silahlardan istifadəni yaxşı bilirdi.

Qüsursuz xidmətinə görə bir çox medallarla, diplom və təşəkkürnamələrlə təltif edilib. 26 ildən artıq hərb sahəsində çalışan mayor A. Novruzov Tovuz döyüşləri zamanı şəhid olub.

Şəhid mayorumuzun Vətənə əmanət Nihad adlı oğlu və Firuzə adlı qızı yadigar qaldı.

**Şəhid baş leytenantı Mahmudov Rəşad Rəşid oğlu** 1992-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. Orta təhsilini 9-cu sinifdən sonra Cəmşid Naxçıvanski adına hərbi liseydə davam etdirib. 2007-2010-cu illərdə hərbi liseydə təhsilini başa vuran R.Mahmudov 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub.

Xidmətinin ilk illərində Ağstafada, son illərində isə Tovuzda, təmas xəttində yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirib. 2016-cı ildə Aprel müharibəsi zamanı Rəşad Mahmudov Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak edib. Baş leytenant Rəşad Mahmudov 2020-ci ilin iyulunda Tovuz istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Şəhidimiz iyulun 13-də doğulduğu Biləsuvar rayonunun Aşağı Cürəli kəndində torpağa tapşırılıb.

**Şəhid gizir Zeynallı İlqar Ayaz oğlu** 9 iyul 1995-ci ildə Tovuz rayonu Cəlilli kəndində anadan olub. Orta təhsilini həmin kənddə bitirən İlqar Zeynallı Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə daxil olub. Hərbi həkim işi ixtisasına yiyələndikdən sonra Beyləqanda feldşer (hərbi həkim) kimi xidmətə başlayıb. Aprel döyüşlərinin fəal iştirakçılarından olub və neçə-neçə yaralı döyüş yoldaşlarına vaxtında ilkin tibbi yardım edib. Gizirimiz



2018-ci ildən Tovuz rayonunda xidmətinə davam edib. Tovuz döyüşlərində vuruşan İlqar Zeynallı qəhrəmancasına şəhid olub. O, anadan olduğu kənddə torpağa tapşırılıb.

**Şəhid gizir Babayev Yaşar Vasif oğlu** 1987-ci ildə Ağstafa rayonunun Köçəsgər qəsəbəsində anadan olub. O, 2012-ci il iyulun 19-da ailə həyatı qurub. Yaşar Babayev Azərbaycan Silahlı Qüvvələrinin giziri olub. Qəhrəman hərbçimiz Tovuz istiqamətində gedən şiddətli döyüşlər zamanı şəhid olub. Yaşar Babayev doğulduğu Ağstafa rayonunun Köçəsgər qəsəbəsində dəfn olunub. Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Yaşar Babayev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

8 il övlad həsrəti çəkən Yaşar Babayevin ölümündən 2 gün sonra qız övladı dünyaya gəlib.

**Şəhid çavuş Sadıqov Vüqar Lətif oğlu** 1987-ci ildə Ağstafa rayonunun Göycəli kəndində anadan olub. Azərbaycan Silahlı Qüvvələrinin çavuşu olan Vüqar Sadıqov 2020-ci il iyulun 12-də Ermənistan Silahlı Qüvvələrinin Tovuz rayonu istiqamətində təxribatının qarşısını alan zaman şəhid olub. Şəhidimiz iyulun 13-də doğulduğu Ağstafa rayonunda dəfn olunub. Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Vüqar Sadıqov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Onun Vətənə əmanət üç qız və bir oğul övladı qalıb.

**Baş əsgər Məmmədov Elşad Dönməz oğlu** 1996-cı ildə Tovuz rayonunun Ağdam kəndində anadan olub. E.Məmmədov Tovuz döyüşləri zamanı düşmən təxribatının qarşısını almaq məqsədilə döyüş tapşırıqlarını yerinə yetirən zaman şəhid olub. Azərbaycan Silahlı Qüvvələrinin baş əsgəri olan Elşad Məmmədov iyulun 13-də doğulduğu Tovuz rayonunda dəfn olundu. Xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən Elşad Məmmədov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib. Şəhidimizin vətənə əmanət bir oğul övladı qalıb.

**Əsgər Mustafazadə Elçin Arif oğlu** 1992-ci ildə Ağstafa rayonunun Həsənsu qəsəbəsində anadan olub. Elçin Mustafazadə Azərbaycan Silahlı Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçu idi. Elçin Mustafazadə Tovuz döyüşləri zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən silah yoldaşları ilə birlikdə şəhid olub. Şəhidimiz iyulun 14-də doğulduğu Ağstafa rayonunun Həsənsu qəsəbəsində torpağa tapşırılıb. Ali Baş Komandan Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

**Şəhid əsgər Daşdəmirov Xəyyam Məhəmməd oğlu** 2002-ci il fevralın 22-də İsmayıllı rayonunun Balik kəndində anadan olub. Bakı şəhəri Binəqədi Rayonu Biləcəri qəsəbəsində yaşayan şəhidimiz, 314 nömrəli tam orta məktəbin məzunu olub. Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Xəyyam Daşdəmirov iyulun 12-də Ermənistan Silahlı Qüvvələrinin Tovuz rayonu istiqamətində təxribatının qarşısını alan zaman şəhid olub. Şəhidimiz Xəyyam Daşdəmirov iyulun 13-də doğulduğu İsmayıllı rayonunda torpağa tapşırılıb.

**Şəhid əsgər İsmayılov Nazim Əfqan oğlu** 1996-cı ildə Ağstafa rayonunun Kolxəlfəli qəsəbəsində anadan olub. Nazim İsmayılov Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olub. 2020-ci il iyulun 16-da Tovuz istiqamətində olan şiddətli döyüşlər zamanı dünyasını dəyişib. O, iyulun 16-da doğulduğu Ağstafa rayonunun Kolxəlfəli qəsəbəsində dəfn olunub. Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, Nazim İsmayılov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.



# 44 GÜNÜN QƏHRƏMANLARI



**İmamverdi İsmayılov** 1 may 1989-cu ildə Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 1995-ci ildə İslam Nəsibov adına Aşağı Əskipara kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2003-cü ildə həmin məktəbin 8-ci sinifini bitirmişdir. Həmin ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdur. 2006-cı ildə həmin liseyi bitirmiş və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2010-cu ildə həmin məktəbi bitirmişdir. Sonra 1 il Azərbaycan Respublikası Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) təhsil almışdır. 2011-ci ildə İmamverdi İsmayılov leytenant rütbəsi almış, peşəkar hərbçi kimi yetişmişdi. Xidmətə başladığı ilk gündən nizam-intazama riayət edir, öz vəzifəsini ləyaqətlə yerinə yetirirdi. Qusar rayonunda, Sumqayıt şəhərində (Nasosnu), Bakı şəhərində Müşviq qəsəbəsində "N" saylı hərbi hissələrdə qüsursuz xidmət edərək Müdafiə Nazirliyi tərəfindən təltiflərə layiq görülmüşdü. İmamverdi İsmayılov "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif olunmuş, fəxri fərmanlar almışdı. Bununla bərabər, xidmətdə də irəliləmiş, artıq 2017-ci ildə kapitan rütbəsi almış, "N" saylı hərbi hissənin Maddi Təchizat üzrə xidmət rəisi olmuşdu.

Vətən müharibəsi başlayanda həmlə taborunun qərərgah rəisi olan İmamverdi İsmayılov 27-28 sentyabrda Goranboyun Gülüstan kəndi istiqamətindən irəliləyərək qarşıya qoyulmuş Murovdağ yüksəkliyinin alınması əmrini bir nəfər itki ilə yerinə yetirmişdir. Təcrübəli bir zabit kimi döyüş planlarını özü hazırlayır, istiqamətləri dəqiq müəyyənləşdirərək bütün detalları nəzərə alırdı. Əsgərlərin sonsuz hörmətini, böyük rəğbətini qazanmışdı İmamverdi İsmayılov.

Kapitan rütbəsi daşıyan İmamverdi İsmayılov Murov istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 29.09.2020-ci il tarixdə Qazax rayonunun Ağköynək kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Emin və Elnur adlı iki oğul övladı yadigar qalıb. Bütün şəhidlərimiz kimi kapitan İmamverdi İsmayılovun xatirəsi hər zaman əziz tutulur. Şəhid kapitanımızın göstərdiyi igidlik cənab Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı, 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyəti başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 2 noyabr 2021-ci il tarixli 9-21/377 nömrəli Sərəncamına əsasən adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Rəşadət" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**







**Şəhid Rövşən Pənahov** 2 oktyabr 1989-cu ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 1995-ci ildə Musa Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuşdur. 1996-2004-cü illərdə Birinci Şıxlı kənd ümumi orta məktəbin 9-cu sinifini bitirmişdir. 2004-2006-cı illərdə Birinci Şıxlı kənd tam orta məktəbi bitirmişdir. Həmin ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2010-cu ildə həmin Ali Hərbi Məktəbi bitirmişdir. 2010-2011-ci illərdə təlim keçmək üçün Bakıda müxtəlif hərbi hissələrdə xidmət etmişdir. 2011-ci ildə Naftalan şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 2014-2020-ci illərdə müxtəlif "N" saylı hərbi hissələrdə xidmət göstərmişdir.

Rövşən Pənahovun xidməti tapşırıqları yerinə yetirməsi, ümumiyyətlə, bütün fəaliyyəti nümunəvi idi. Ona görə də Müdafiə Nazirliyi tərəfindən medallarla təltif olunmuşdur. 24.06.2013-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley, 26.06.2017-ci ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və 26.06.2018-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları ilə təltif olunmuşdur. Eyni zamanda, bir neçə Fəxri Fərman da almışdır.

Kapitan Pənahov Rövşən Mahmud oğlu 2 oktyabr 2020-ci il tarixdə Göygöl rayonunun Toğanalı kəndi istiqamətində düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Şəhid olduğu gün Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. İki azyaşlı - Nilay adlı qız, Elay adlı oğul övladı yadigar qalıb.

Şəhid kapitanımızın göstərdiyi igidlik cənab Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "İgidliyə görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Kəlbəcərin azad olunmasına görə" medalları və 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Rəşadət"

ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 30 noyabr 2021-ci il tarixli 9-21/402 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Rəşadət" ordenli*** şəhidimizin adı verilib.

## Təltifləri





**Şəhid Nəbi Hüseynov** 9 iyul 1992-ci ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 1998-ci ildə Musa Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2006-cı ildə həmin məktəbin 8-ci sinifini bitirmişdir. Elə həmin il Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdur. 2006-2010-cu illərdə həmin hərbi məktəbdə təhsil almışdır. 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2014-cü ildə həmin məktəbi bitirdikdən sonra bir il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) olmuş, hərbi sahədəki biliyini daha da mükəmməlləşdirmiş, təcrübəsini daha da artırmışdır.

Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissələrində xidmət edən Nəbi qrup komandirinin müavini olmuşdur. Baş leytenant Nəbi Hüseynov 09.10.2020-ci ildə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə düşmənin



hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. 09.10.2020-ci il tarixdə Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

İkinci Qarabağ müharibəsində Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizlə yanaşı, baş leytenant Nəbi Hüseynovun da göstərdiyi qəhrəmanlıq, igidlik ölümündən sonra ölkə başçısı tərəfindən yüksək qiymətləndirilmişdir. İlk dəfə cənab Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən"Qarabağ" ordeni ilə təltif edilən Nəbi daha sonra dörd medala da layiq görülmüşdür. Nəbi Hüseynov ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları, 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyəti başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 2 noyabr 2021-ci il tarixli 9-21/377 nömrəli Sərəncamına əsasən adsız olan küçələrdən birinə ***"Qarabağ" ordenli*** şəhidimizin adı verilib.

## Təltifləri





**Şəhid Xaliddin Nəsibov** 17 iyul 1998-ci ildə Qazax rayonunun Qarapapaq kəndində anadan olmuşdur. 2004-cü ildə Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyin 1-ci sinfinə daxil olmuş, 2012-ci ildə həmin məktəbin 8-ci sinfini bitirmişdir. Elə həmin ildə sənədlərini Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə verərək yüksək balla daxil olmuşdur. 2015-ci ilə qədər burada oxuyub hərb sənətinin sirlərinə dərindən yiyələnən Xaliddin sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirmişdir. 2019-cu ildə həmin ali məktəbi bitirmişdir. Həmin ilin avqust ayının 1-dən Ağcəbədi rayonunda "N" saylı hərbi hissədə leytenant hərbi rütbəsində xidmətə başlamışdır.

Vətən müharibəsi başlayanda motoatıcı tağım komandiri vəzifəsində xidmət edən Xaliddin Nəsibov döyüş meydanında göstərdiyi igidliyə və şücaətə görə baş leytenant rütbəsi də almışdır. O, 15 oktyabr 2020-ci ildə bölük komandiri vəzifəsinə təyin olunmuşdur. İkinci Qarabağ döyüşlərində qəhrəmanlıq göstərən Xaliddin Nəsibov 6 noyabr 2020-ci il tarixdə uca zirvəyə - Şəhidlik zirvəsinə yüksələrək əbədiyyətə qovuşdu. İgid qəhrəmanımız 18 noyabr 2020-ci ildə doğulub boya-başa çatdığı Qarapapaq kəndində kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, doğma yurdumuzun, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda ölümün gözünə dik baxan Xaliddin Nəsibovun döyüşlərdə göstərdiyi igidlik dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhid baş leytenant ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Cəsur döyüşçü" medalları və 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.



Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 30 noyabr 2021-ci il tarixli 9-21/402 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***"Azərbaycan Bayrağı" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





**Şəhid Elmar Bayramlı** 2 sentyabr 1998-ci ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 1 sentyabr 2005-ci ildə Qazax rayon Birinci Şıxlı kənd ümumi orta məktəbin I sinfinə daxil olmuşdur. 2016-cı ildə Sumqayıt şəhər 24 nömrəli tam orta məktəbin XI sinfini bitirmişdir. 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2020-ci ildə həmin məktəbi bitirmişdir. 2020-ci ildə leytenant rütbəsi almış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində "Tağım komandiri" vəzifəsində xidmətə başlamışdır. Şəhid leytenantımız 29.09.2020-ci il tarixdə Tərtər rayonunun Talış kəndi istiqamətində düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. 30.09.2020-ci ildə Qazax rayonunun Yuxarı Salahlı kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Subay idi.

Şəhid Elmar Bayramlı da ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən

"Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Məhəmməd Məmmədov** 27 yanvar 1994-cü ildə Qazax rayonunun Alpout kəndində anadan olmuşdur. 2001-ci ildə Qazax rayon Rəsul Mirzəliyev adına Alpout kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2012-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Həmin ildə Bakı Dövlət Universitetinin Qazax filialının Tarix-coğrafiya fakültəsinə qəbul olmuşdur. 2016-cı ildə universiteti bitirən Məhəmməd elə həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindənhəqiqi hərbi xidmətə çağırılmışdır. 2017-ci ildə həqiqi hərbi xidmətdən qayıtmış, həmin ilin dekabr ayında könüllü olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri sırasında zabit kimi xidmətə başlamışdır. "N" saylı hərbi hissənin tağım komandiri olan leytenant Məhəmməd Məmmədov 04.10.2020-ci il tarixdə Tərtər rayonu istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. 07.10.2020-ci il tarixdə doğulduğu Alpout kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

Dövlətimiz, ölkə rəhbəri tərəfindən şəhidlərimizin xatirəsinin əziz tutulması, göstərdikləri qəhrəmanlıqlara görə orden və medallarla təltif olunmaları onlara olan yüksək diqqət və qayğı-



nın bariz nümunəsidir. Şəhid leytenantımız Məhəmməd Məmmədov da cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" və 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Laçının azad olunmasına görə", 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Mayis Yaqubov** 20 aprel 1998-ci ildə Qazax rayonunun Daş Salahlı kəndində anadan olmuşdur. 2004-cü ildə Şahin Cəbiyev adına Daş Salahlı kənd 2 nömrəli tam orta məktəbin 1-ci sinifinə daxil olmuşdur. Mayis Yaqubov 2012-ci ildə oxuduğu məktəbin 8-ci sinifini bitirərək ən yüksək balla Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub və 3 il sonra təhsilini başa vurub. Sonrakı illərdə hərbi təhsilinin artırılması qayğısına qalıb. Bu məqsədlə də 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2019-cu ildə həmin məktəbi bitirmişdir. Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissədə leytenant rütbəsində xidmətə başlamışdır. "N" saylı hərbi hissədə xidmətə başlayandan 3 ay sonra Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrinə keçib. Bunlar Mayis Yaqubovun hərbi təhsil dövrünün qısa xronikasıdır. Bu illərin arxasında mütəmadi təhsil, gərgin fiziki tərbiyə və böyük zəhmət durur. O, təhsildə olduğu kimi, xidmətdə də fərqlənib, 26 iyun 2018-ci ildə "Azərbaycan Respublikası Silahlı

Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

"N" saylı hərbi hissənin 2-ci xüsusi təyinatlı bölüyünün 1-ci xüsusi təyinatlı qrupunun komandiri olan leytenant Mayis Yaqubov 17 oktyabr 2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid leytenantımız 22.10.2020-ci il tarixdə Daş Salahlı kəndində yerləşən Şəhidlər xiyabanında dəfn edilmişdir. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olan leytenantımızın göstərdiyi igidlik Ali Baş Komandan İlham Əliyev tərəfindən də yüksək qiymətləndirildi. Döyüş yoldaşlarının "Əjdaha" ləqəbi ilə çağırdığı 22 yaşlı kəşfiyyatçı leytenant Mayis Yaqubov ölümündən sonra cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad olunmasına görə" medalları, 25.06.2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.

**<u>Təltifləri</u>**







**Şəhid Adil Əfəndiyev** 12 avqust 1995-ci ildə Qazax şəhərində anadan olmuşdur. 2001-ci ildə Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyin 1-ci sinfinə daxil olmuş, 2012-ci ildə həmin məktəb-liseyin 11-ci sinfini bitirmişdir. 2012-ci ildə Azərbaycan Tibb Universitetinə daxil olmuşdur. 2018-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsinin "Hərbi həkim işi" ixtisasını bitirmişdir. Təyinatla Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda həkim kimi hərbi xidmətə başlamışdır. "N" saylı hərbi hissənin qərargah və təchizat bölüyünün tibb məntəqəsinin rəisi, tibb xidməti leytenantı Adil Əfəndiyev 22.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qəhrəman şəhidimiz 25.10.2020-ci ildə Qazax şəhər qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

25 yaşında Şəhidlik zirvəsinə yüksələn tibb xidməti leytenantı Adil Əfəndiyevin döyüş meydanında göstərdiyi igidlik ölkə Prezidenti tərəfindən də yüksək qiymətləndirildi. O, ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" və 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə", 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları, 25.06.2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





**Şəhid Qismət Həməşəyev** 3 noyabr 1988-ci ildə Rusiya Federasiyasının Rostov vilayətində anadan olmuşdur. 1995-ci ildə Şəmistan Şahvələdov adına Xanlıqlar kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2006-cı ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2007-ci ildə Gəncə Dövlət Universitetinə daxil olmuş, 2011-ci ildə həmin Universiteti bitirmişdir. 2011-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, leytenant rütbəsində həqiqi hərbi xidmət keçmiş, 2013-cü ildə isə tərxis olunmuşdur. 2019-cu ildən “AccessBank”ın Qazax filialında əməliyyatçı kassir vəzifəsində işləmişdir. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında” müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il sentyabr ayının 21-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur. Hərbi təlimlərə ehtiyatda olan zabit kimi cəlb edilmiş Qismət Həməşəyev Vətən torpaqlarının müdafiəsi uğrunda igidcəsinə döyüşmüşdür. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin 1-ci motoatıcı taborunun, motoatıcı tağımının komandiri olan Qismət Həməşəyev 26 oktyabr 2020-ci il tarixdə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid leytenantımız 27 oktyabr 2020-ci il tarixdə Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi, övladı yoxdur.



Bütün şəhidlərimiz kimi, leytenant Qismət Həməşəyevin də xatirəsi hər zaman əziz tutulur. Şəhid leytenantımızın göstərdiyi igidlik cənab Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda”, 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən"Döyüşdə fərqlənməyə görə”, 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə” medalları və 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının “Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında” 30 noyabr 2021-ci il tarixli 9-21/402 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli “Rəşadət” ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





22 yaşında Şəhidlik zirvəsinə yüksələn **Nicat Nəsibov** 1 yanvar 1998-ci ildə Qazax rayonunun Cəfərli kəndində anadan olmuşdur. 2004-cü ildə Mirvarid Dilbazi adına Cəfərli kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2012-ci ildə həmin məktəbin 8-ci sinifini bitirmişdir. 2012-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuş, 2015-ci ildə həmin liseyi bitirmişdir. 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2019-cu ildə həmin hərbi məktəbi bitirib leytenant rütbəsi ilə "N” saylı hərbi hissədə tağım komandiri vəzifə-

sində xidmətə başlamışdır. 2020-ci ildə digər "N" saylı hərbi hissəyə təyinat almışdır.

"N" saylı hərbi hissədə tağım komandiri vəzifəsində hərbi qayda-anunlara uyğun şəkildə xidmət aparır, üzərinə düşən işin öhdəsindən layiqincə gəlirdi. Xidmətini yüksək səviyyədə həyata keçirdiyi üçün 26 avqust 2018-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuşdu.

Füzuli-Cəbrayıl bölgəsində - Qarabağ uğrunda gedən döyüşlərdə igidlik göstərən Nicat Nəsibov torpaqlarımızın azadlığını canından üstün tutmuşdur. "N" saylı hərbi hissənin 4-cü taborunun 12-ci bölüyü 1-ci tağımının komandiri leytenant Nicat Nəsibov 18.10.2020-ci il tarixdə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, aldığı qəlpə yarasından şəhid olmuşdur. Şəhid leytenantımız 01.11.2020-ci il tarixdə doğulduğu Cəfərli kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

Müzəffər Azərbaycan Ordusunun şücaətli igidlərindən olan şəhid leytenant Nicat Nəsibov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", 24iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Təltifləri**







**Şəhid Hacıyev Teymur Zaur oğlu** 28 yanvar 1991-ci ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. 1997-ci ildə Qazax rayon Zahid Mahmudov adına Yuxarı Salahlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2008-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2009-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. 2010-cu ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətini başa vurmuşdur. Həmin il Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (TTM) gizirlik kursunu keçərək Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində gizir rütbəsində xidmətə başlamışdır. 2018-ci ildə isə baş gizir vəzifəsinə təyin edilmişdir.

Teymur Hacıyev xidməti dövründə həmişə öz nizam-intizamı, verilən tapşırıqlara vaxtlı-vaxtında əməl etməsi ilə fərqlənmiş, Müdafiə Nazirliyi tərəfindən mükafatlandırılmışdır. Onun haqqında verilmiş xidməti xasiyyətnamədə oxuyuruq: "Baş gizir Teymur Hacıyev xidmət etdiyi müddət ərzində özünü intizamlı, savadlı, bacarıqlı və işgüzar bir hərbi qulluqçu kimi göstərmişdir. Hərbi qanun və nizamnamələri bilir, xidməti vəzifə borclarına məsuliyyətlə yanaşır".

Bu yüksək dərəcəli xidmətin nəticəsidir ki, Teymur Hacıyev Müdafiə Nazirliyi tərəfindən 23.05.2016-cı ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", 26.06.2018-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları ilə təltif olunmuşdur. Bir il sonra isə "Qüsürsuz xidmətə görə" 3-cü dərəcəli medal almışdır.

"N" saylı hərbi hissənin baş çavuşu baş gizir Teymur Hacıyev 13.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlər zamanı düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Şəhid baş gizir

Teymur Hacıyev 16.10.2020-ci ildə doğulub boya-başa çatdığı Qazax rayonunun Yuxarı Salahlı kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Ailəliydi. Hüseyn və Zaur adlı iki azyaşlı oğul övladı yadigar qalıb.

Vətən torpaqlarının düşmən işğalından azad olunmasında qəhrəmanlıq göstərən bütün döyüşçülərimiz kimi şəhid Teymur Hacıyevin də şücaəti dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. Şəhid Teymur Hacıyev ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Elvin Orucov** 18 dekabr 1991-ci ildə Qazax şəhərində anadan olmuşdur. 1999-cu ildə Rusiya Federasiyasının Nijni Novqorod şəhərində orta məktəbin 1-ci sinifinə getmişdir. Təhsilini 2005-ci ildən İsmət Qayıbov adına Qazax şəhər 3 nömrəli tam orta məktəbdə davam etdirmişdir. 2009-cu ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. Elvin Orucov hərbi xidmətdən qayıtdıqdan dərhal sonra bu sahədə oxumağa və xidmət etməyə qərar vermişdir. Bu məqsədlə 2011-ci il 10 noyabrdan 28 aprel 2012-ci ilə qədər Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (TTM) oxuyub "Tank komandiri"



kursunu bitirərək gizir rütbəsi almışdır. 30 aprel 2014-cü il tarixdən Elvin Orucov gizir kimi ordu sıralarında xidmət etməyə başlamışdır. Elvin Orucov eyni zamanda, xidmətdə də fərqlənib, öhdəsinə düşən tapşırığı vaxtından əvvəl yerinə yetirib, nizam-intizama əməl edib. Bunun nəticəsidir ki, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" (24.06.2013) və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" (26.06.2018) yubiley medalları ilə təltif olunub.

Elvin Orucov xidmətdə olduğu kimi, hərb meydanında da fərqlənmiş, 2016-cı ilin Aprel döyüşlərində düşmənə qarşı igidliklə vuruşaraq Fəxri Fərmanla təltif olunmuşdur.

Vətən müharibəsində də Elvin Orucov mərdlik göstərmiş, tank komandiri kimi hərbi tapşırığı layiqincə yerinə yetirmiş, düşmənə sarsıdıcı zərbələr endirmişdir. 27.09.2020-ci ildə Füzuli-Cəbrayıl-Xocəvənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid gizir Elvin Orucov 28.09.2020-ci ildə şəhərdəki Şəhidlər qəbiristanlığında izdihamla dəfn edilmişdir. Gizirimiz ailəliydi. İki azyaşlı - Emil adlı oğul, Elay adlı qız övladı yadigar qalıb.

Bütün şəhidlərimiz kimi Elvin Orucovun da göstərdiyi şücaət dövlətimiz, ölkə rəhbəri tərəfindən yüksək qiymətləndirilib. Orden və medallarla təltif olunan şəhidlərimizin arasında şəhid gizirimizin də adı var. E.Orucov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

**Təltifləri**





**Sərxan Abdullayev** 2 noyabr 1988-ci ildə Qazax rayonunda anadan olmuşdur. 1995-ci ildə Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyin 1-ci sinifinə daxil olmuş, 2006-cı ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2006-cı ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. 2008-ci ildə hərbi xidməti başa vurduqdan sonra Daxili Qoşunlarda gizir rütbəsində xidmətə başlamışdır.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsinin giziri, xüsusi təyinatlı dəstənin 2-ci xüsusi həmlə qrupunda 2-ci yarımqrup komandiri kimi xidmət edən igid Vətən oğlu 28.09.2020-ci il tarixdə Göygöl rayonunun Toğanalı kəndi ərazisində gedən hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olmuşdur. Sərxan Abdullayev 28.09.2020-ci ildə Qazax rayonunun Ağköynək kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Evli olan şəhid gizirimizin Orxan və Turan adlı iki azyaşlı oğul övladı yadigar qalıb.

Şəhid gizirin göstərdiyi igidlik hər zaman dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Vaxtilə "Qüsürsuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif olunmuş Sərxan Abdullayev ölümündən sonra da medallarla təltif edilmişdir. Şəhid gizirimizin göstərdiyi igidlik cənab Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**







**Şəhid Səbuhi Məmmədov** 6 mart 1995-ci ildə Qazax rayonunun Bala Çaylı kəndində anadan olmuşdur. 2001-ci ildə Səlamət Həsənov adına Bala Çaylı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2012-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2013-cü ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə getmiş, 2014-cü ilin oktyabrında hərbi xidmətdən tərxis olunmuşdur. 2017-ci ilin yanvarında Bakı şəhərində gizirlik kursu üzrə təhsil almış, aprel ayından "N" saylı hərbi hissədə top komandiri kimi fəaliyyətə başlamış, 2019-cu ildə "N" saylı hərbi hissəyə xüsusi təyinatlı bölüyə daxil olmuş və xidmətini orada davam etdirmişdir. 2020-ci ildə Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrinə kursa qəbul olmuş, kursu müvəffəqiyyətlə bitirmiş və xidmətini müxtəlif "N" saylı hərbi hissələrdə davam etdirmişdir.

Gizir Səbuhi Məmmədov 01.10.2020-ci il tarixdə Göygöl rayonu istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. 02.10.2020-ci il tarixdə Çaylı kəndindəki Şəhidlər xiyabanında izdihamla dəfn edilmişdir. Şəhid gizirimiz subay idi.

Müzəffər Azərbaycan Ordusunun şücaətli igidlərindən olan Səbuhi Məmmədov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Kəlbəcərin azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə", 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları və 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 30

noyabr 2021-ci il tarixli 9-21/402 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***“Azərbaycan Bayrağı” ordenli*** şəhidimizin adı verilib.

**<u>Təltifləri</u>**





**Şəhid İlkin Şükürov** 27 avqust 1995-ci ildə Qazax rayonunun Ürkməzli kəndində anadan olmuşdur. 2001-ci ildə Saqif Nəsirov adına Ürkməzli kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2010-cu ildə həmin məktəbin 9-cu sinifini bitirmişdir. 2016-cı ildə eksternant qaydada imtahan verərək həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2013-cü ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmış, 2015-ci ilin aprel ayına qədər həqiqi hərbi xidmətdə olmuşdur. 2017-ci ilin aprel ayından Azərbaycan Silahlı Qüvvələri sıralarında gizir rütbəsində xidmət etmişdir. 25 yaşlı gizirimiz 14.10.2020-ci il tarixdə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 15.10.2020-ci il tarixdə Ürkməzli kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Subay idi.

Azərbaycan xalqını 30 ildən sonra həsrətində olduğu torpaqlara qovuşduran, işğaldan azad edilən şəhərə, qəsəbəyə, kəndə üçrəngli bayrağımızı sancan igid Vətən oğullarının döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar Ali Baş Komandan İlham Əliyev tərəfindən də yüksək qiymətləndirildi. Ölkə başçısı hər bir əsgər və zabitimizi orden və medallarla təltif etdi. Gizir İlkin Şükürov



da təltif olunanlar arasındadır. O, cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda’’, 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə”, 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Cəsur döyüşçü” medalları və 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının “Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında” 30 noyabr 2021-ci il tarixli 9-21/402 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli “Rəşadət” ordenli*** şəhidimizin adı verilib.

**<u>Təltifləri</u>**





**Şəhid Tahir İsmayılov** 30 yanvar 1988-ci ildə Qazax rayonunun Sofulu kəndində anadan olmuşdur.1994-cü ildə Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyin 1-ci sinifinə daxil olmuş, 2003-cü ildə həmin məktəb-liseyin 9-cu sinifini bitirmişdir. 2003-cü ildə Qazax Dövlət Sosial-İqtisadi Kollecinə daxil olmuş və 2006-cı ildə həmin kolleci bitirmişdir. 2006-cı ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. 2007-ci il tarixdə həqiqi hərbi xidməti başa vurmuşdur. 31.01.2009-cu il tarixdən 11.04.2009-cu il tarixə qədər Bakıda Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (TTM) hərbi kursantlıq

kursunda hərbi kursantlıq oxumuş, 16.04.2009-cu il tarixdən 23.08.2012-ci il tarixə kimi "N" saylı hərbi hissədə gizir olaraq xidmət etmişdir. 26.04.2014-cü il tarixdən yenidən hərbiyə qayıdaraq xidmət etməyə başlamışdır. "N" saylı hərbi hissənin 1-ci motoatıcı bölüyün 2-ci tağım komandirinin müavini gizir Tahir İsmayılov 25.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd-Hadrut rayonları istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. Qubadlının azad olunması uğrunda gedən döyüşdə isə şəhid olmuşdur. Şəhid gizir Tahir İsmayılov 26.10.2020-ci il tarixdə Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Niyazi və Uğur adlı iki azyaşlı oğlan övladı yadigar qalıb.

Xidməti dövrü öz nizam-intizamı, verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməsi ilə fərqlənmiş, bir sıra medallarla təltif edilmişdir. Tahir İsmayılovun sinəsini 2018-ci ildə təltif olunduğu "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları bəzəyirdi.

Bütün şəhidlərimiz kimi gizir Tahir İsmayılovun da xatirəsi hər zaman əziz tutulur. Şəhid gizirimizin göstərdiyi igidlik cənab Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Cəsur döyüşçü" medalları və 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.



**Təltifləri**





**Şəhid Amid Məmmədov** 2 aprel 1987-ci ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olmuşdur. 1993-cü ildə Şəmistan Şahvələdov adına Xanlıqlar kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2004-cü ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2005-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2007-ci ildə isə hərbi xidmətdən tərxis olunmuşdur. 2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etməyə başlamışdır. Çavuş rütbəsinə qədər yüksəlmişdir. Sonra 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (TTM) gizirlik kursunda oxuyaraq həmin hərbi hissədə gizir kimi xidmət etmişdir. "N" saylı hərbi hissənin 1-ci mexanikləşdirilmiş taborunun 3-cü mexanikləşdirilmiş bölüyünün 2-ci mexanikləşdirilmiş tağımının döyüş maşını komandiri-döyüş maşınları heyətinin rəisi Amid Məmmədov 03.11.2020-ci il tarixdə Füzuli rayonu istiqamətində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid gizirimiz 4 noyabr 2020-ci ildə doğulduğu Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Nisə və Esmira adlı iki azyaşlı qız övladı yadigar qalıb.

Amid Məmmədov yüksək səviyyədə xidmət göstərmiş, hərbçi kimi yoldaşları arasında həmişə fərqlənmişdir. Ona görə də xid-

məti dövründə müxtəlif medallara, fəxri fərmanlara layiq görülmüşdür. O, 24.03.2013-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", 26.06.2018-ci ildə isə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalları ilə təltif olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olan gizirimizin göstərdiyi igidlik Ali Baş Komandan İlham Əliyev tərəfindən də yüksək qiymətləndirildi. Şəhid gizirimiz ölümündən sonra cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə" medalları və 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**







**Gizir Nağıyev Anar Sahib oğlu** 30 oktyabr 1989-cu ildə Gəncə şəhərində anadan olmuşdur. 1996-cı ildə Samux rayon Alıuşağı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuşdur. 2000-ci ildə ailəsi ilə birlikdə Qazax rayonunun Ürkməzli kəndinə köçdüyünə görə təhsilini Saqif Nəsirov adına Ürkməzli kənd tam orta məktəbdə davam etdirmiş, 2007-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2008-ci ilin yanvar ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmışdır. 2009-cu ilin iyul ayında həqiqi hərbi xidmətdən tərxis olmuşdur. Üç aydan sonra sənədlərini hazırlayıb çavuşluq kursunda oxumağa gedib. 21 yanvar 2010-cu ildən 10 aprel 2010-cu ilə qədər Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (TTM) minaatan komandiri kursunu bitirərək çavuş rütbəsi almış, "N" saylı hərbi hissədə xidmət etməyə başlamışdır. 2012-ci ilin yanvarında isə TTM-də 6 ay gizirlik kursunu keçmiş, gizir rütbəsi alaraq Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) xidmətini davam etdirmişdir.

Anar Nağıyevin 13 illik yüksək hərbi xidməti Müdafiə Nazirliyi tərəfindən qiymətləndirilmiş, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" (24.06.2013), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" (26.06.2018) yubiley medalları, həmçinin "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı (26.06.2017), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli (2019-cu il) medalları ilə təltif olunmuşdur.

"N" saylı hərbi hissənin hərbi qulluqçusu gizir Anar Nağıyev 8 noyabr 2020-ci ildə Qarabağın üzük qaşı olan Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid gizirimiz 17.11.2020-ci il tarixdə Ürkməzli kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi, üç azyaşlı – Röyal adlı oğul, Jasmin və Anarə adlı qız övladları yadigar qalıb.

İkinci Qarabağ müharibəsində Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizlə yanaşı, gizir Anar Nağıyevin də göstərdiyi qəhrəmanlıq, igidlik ölümündən sonra ölkə başçısı tərəfindən yüksək qiymətləndirilmişdir. İlk dəfə cənab Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Qarabağ" ordeni ilə təltif edilən Anar daha sonra 5 medala da layiq görülmüşdür. Anar Nağıyev ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 3 noyabr 2020-ci il tarixli Əmrinə əsasən Azərbaycan Respublikasının "Şücaətə görə" medalına layiq görülmüşdür.

Qazax Rayon İcra Hakimiyyəti başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 2 noyabr 2021-ci il tarixli 9-21/377 nömrəli Sərəncamına əsasən adsız olan küçələrdən birinə ***"Qarabağ" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**







**Şəhid gizir Məmmədov Turan Nadir oğlu** 29 avqust 1993-cü ildə Qazax rayonunun Dəmirçilər kəndində anadan olmuşdur. 1999-cu ildə Emin Qurbanov adına Dəmirçilər kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2010-cu ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra Turan Məmmədov 2011-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2013-cü ilin aprelində isə tərxis olunmuşdur.

Turan Məmmədov əsgərlikdən qayıdandan sonra evdə çox dayanmadı, mayın əvvələrində sənədlərini hazırlayıb Bakıya getdi. Kəşfiyyatçı olmaq istəyirdi. Bu məqsədlə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində(TTM) 6 ay oxudu və arzusunda olduğu gizir hərbi rütbəsini aldı. Turan Məmmədov 2013-cü ilin oktyabr ayından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında gizir kimi xidmət etməyə başlamışdır. 2015-ci ildə isə Hava Hücumundan Müdafiə Qurğularının zenit-raket bölüyündə gizir olmuşdur. O, qardaş Türkiyə hərbçiləri ilə də təlimlərdə iştirak etmiş, 2 dəfə kurs keçmiş, "Komando" məktəbində oxumuşdur.

Turan 2016-cı ilin Aprel döyüşlərində mərdliklə vuruşdu, yaralanaraq bu salnamənin ilk səhifəsini yazdı. Sonrakı illərdə Turan Məmmədov Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) baş kəşfiyyatçı, gizir kimi xidmətini davam etdirmişdir.

Vətən müharibəsində Turan Məmmədov həmlə-kəşfiyyat taborunun tərkibində döyüşə girərək mərdliklə döyüşüb, yeniyetməlik illərindən ürəyində kök atmış arzularını həyata keçirməyə başlayıb, düşməndən qisas alaraq ona aman verməyib. Murovdağ yüksəkliyi uğrunda 4 gün döyüşüb, yüksəkliyi düşməndən azad etdikdən sonra zirvəsinə bayraq sancıblar. Sonra Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Turan Məmmədov oktyabrın 5-dən 6-na keçən gecə Ağdərənin Tonaşen kəndindəki yüksəkliyi alarkən şəhid olub. 29 noyabr 2020-ci il tarixdə Dəmirçilər kənd qəbiristanlığında dəfn edilmişdir. Subay idi.

Turan Məmmədovun qəhrəmanlığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə",24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

**Təltifləri**





**Şəhid Elcan Namazov** 1 iyun 1997-ci ildə Qazax rayonunun Dəmirçilər kəndində anadan olmuşdur. 2003-cü ildə Emin Qurbanov adına Dəmirçilər kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2014-cü ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2016-cı ilin iyul ayından Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmış, 2018-ci ilin yanvar ayına kimi həqiqi hərbi xidmətdə olmuşdur. Əsgərliyini bitirəndən il yarım sonra sənədlərini "N" saylı hərbi hissəyə verərək 2019-cu ilin iyunundan oktyabrınadək gizirlik məktəbində oxumuşdur. Kiçik gizir rütbəsini alandan sonra, 2019-cu ilin iyunundan Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində kiçik gizir rütbəsində çevik alayda xidmət etməyə başladı. Sonra isə gizir rütbəsini alaraq kəşfiyyat bölüyünün kəşfiyyatçısı oldu. Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan kiçik gizir Elcan Namazov 16.10.2020-ci il tarixdə Dəmirçilər kənd qəbiristanlığında izdi-



hamla dəfn olunmuşdur. Subay idi. 23 yaşında Şəhidlik zirvəsinə yüksələn Elcan Namazovun döyüş meydanında göstərdiyi igidlik, qəhrəmanlıq ölkə Prezidenti tərəfindən də yüksək qiymətləndirildi. O, ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad olunmasına görə", 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə"medalları ilə təltif olunmuşdur. Şəhidimizin doğulub boya-başa çatdığı Dəmirçilər kəndində adını əbədiləşdirən bulaq inşa edilmişdir.

**Təltifləri**





**Şəhid Röyal Mədətov** 14 may 1992-ci ildə Qazax rayonunun Əzizbəyli (indiki Hüseynbəyli) kəndində anadan olmuşdur. 1998-ci ildə Qazax rayon Alı Əliyev adına Hüseynbəyli kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2009-cu ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 03.07.2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan ordu sıralarına həqiqi hərbi xidmətə çağırılmışdır. Həqiqi hərbi xidmətdən tərxis olunduqdan sonra 2012-ci ildən könüllü olaraq Azərbaycan ordu sıralarına qayıtmışdır. 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olmuş və yaralanmışdır. Təkrar olaraq ordu sıralarına qayıdaraq kiçik gizir kimi hərbi xidmətini davam etdirmişdir. "N" saylı hərbi hissədə xüsusi

təyinatlı dəstənin xüsusi təyinatlı manqa komandiri olan kiçik gizir Röyal Mədətov 22.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qəhrəman şəhidimiz 24.10.2020-ci il tarixdə Qazax şəhərindəki Şəhidlər qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Övladı yoxdur.

Gözündə qorxu yox idi. Ona görə də döyüş yoldaşları ona "Qara qartal" ləqəbi vermişdilər. Röyal Mədətov öz qorxmazlığı, mətinliyi ilə həmişə nümunə göstərirdi. 28 yaşında Şəhidlik zirvəsinə ucalan kiçik gizir Röyal Mədətovun döyüş meydanında göstərdiyi igidlik ölkə Prezidenti tərəfindən də yüksək qiymətləndirildi. O, ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə" medalları, 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalı və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 30 noyabr 2021-ci il tarixli 9-21/402 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***"Azərbaycan Bayrağı" ordenli*** şəhidimizin adı verilib.

**<u>Təltifləri</u>**







**Şəhid İsmayıl Qəsəbov** 6 iyul 1991-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olmuşdur. 1998-ci ildə Qazax rayon Elşən Cəfərov adına Çaylı kənd 2 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2009-cu ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2009-cu ilin oktyabr ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2011-ci ilin aprel ayında hərbi xidmətdən tərxis olunmuşdur. 28.12.2012-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsinə qəbul olmuş və orada xidmət etmişdir. Sonra xidmətini "N" saylı hərbi hissədə davam etdirmişdir. DİN-nin DQ-nın "N" saylı hərbi hissəsində XTD-də, 5-ci XƏQ-nun, 2-ci XƏ yarım qrupunda atıcı qumbaraatan, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) baş çavuş İsmayıl Qəsəbov 07.11.2020-ci il tarixdə Şuşa şəhərində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İgid Vətən oğlu 12.11.2020-ci il tarixdə doğulub boya-başa çatdığı Çaylı kəndindəki Şəhidlər xiyabanında izdihamla dəfn edilmişdir. Ailəliydi, Mərd və Uğur adlı iki azyaşlı oğul övladı yadigar qalıb.

Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda qəhrəmancasına vuruşan baş çavuş İsmayıl Qəsəbovun döyüş meydanında göstərdiyi şücaət dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhidimiz ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə" medalları, 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni, "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyəti başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 2 noyabr 2021-ci il tarixli 9-21/377 nömrəli Sərəncamına əsasən adsız olan küçələrdən birinə ***"Azərbaycan Bayrağı" ordenli*** şəhidimizin adı verilib.

**<u>Təltifləri</u>**





**Şəhid Elməddin Pənahov** 7 sentyabr 1983-cü ildə Qazax rayonunun Ürkməzli kəndində anadan olmuşdur. 1991-ci ildə Saqif Nəsirov adına Ürkməzli kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 1999-cu ildə həmin məktəbin 8-ci sinifini bitirmişdir. 2001-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. 2003-cü ilin aprel ayına qədər həqiqi hərbi xidmətdə olmuşdur. 2014-cü ilin mart ayından Azərbaycan Silahlı Qüvvələri sıralarında çavuş rütbəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etmişdir. Nümunəvi xidmətinə görə hərbi hissə rəhbərliyinin diqqətini cəlb etmiş, Müdafiə Nazirliyi tərəfindən mükafatlandırılmışdır. 2018-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuş, fəxri fərmanlar almışdır.

"N" saylı hərbi hissənin tuşlayıcısı MAHHXHQ çavuş Elməddin Pənahov 13.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. 15.10.2020-ci il tarixdə Ürkməzli kənd qəbiristanlığında dəfn olunmuşdur. Ailəliydi. İlkin və Ömər adlı 2 azyaşlı oğul övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, doğma yurdumuzun, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda ölümün gözünə dik baxan Elməddin Pənahovun döyüşlərdə göstərdiyi igidlik dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhid çavuş Elməddin Pənahov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**<u>Təltifləri</u>**





**Şəhid Timur Əliyev** 29 may 1984-cü ildə Özbəkistan Respublikasının Çirçik şəhərində anadan olmuşdur. 1990-cı ildə Özbəkistan Respublikasının Çirçik şəhərində 1-ci sinifə daxil olmuş, 1998-ci ildə həmin şəhərdə 8-ci sinifi bitirmişdir. 1998-ci ildə ailəsi ilə birgə Bakı şəhərinə köçmüş, orta təhsilini Bakı şəhərində davam etdirərək 2001-ci ildə 11-ci sinifi bitirmişdir. 2002-ci ildə Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, həqiqi hərbi xidməti keçərək 2004-cü ildə tərxis olunmuşdur. 2013-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu

(MAHHXHQ) kimi xidmətdə başlamışdır. Çavuş rütbəsinə qədər yüksəlmişdir. Şəhid çavuş Timur Əliyev 13 oktyabr 2020-ci il tarixdə Füzuli rayonu istiqamətində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid çavuşumuz 30 oktyabr 2020-ci ildə Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Alsu və Leyla adlı iki azyaşlı qız övladı yadigar qalıb. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə canlarından keçən bütün şəhidlərimizin xatirəsi dövlətimiz, ölkə rəhbəri tərəfindən də hər zaman əziz tutulur. Şəhid çavuş Timur Əliyevin də igidliyi dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. O, ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Çavuş Pərvin İsgəndərov** 25 iyun 1995-ci ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olmuşdur. 2002-ci ildə Şəmistan Şahvələdov adına Xanlıqlar kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2013-cü ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2013-cü ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. 2015-ci ildə



isə tərxis olunmuşdur. 2015-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etməyə başlamışdır. Çavuş rütbəsinə qədər yüksəlmişdir. "N" saylı hərbi hissənin manqa komandiri MAHHXHQ çavuş Pərvin İsgəndərov 13.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Çavuş Pərvin İsgəndərov 15.10.2020-ci ildə Ağstafa rayonunun Qarahəsənli kənd qəbiristanlığında atası şəhid İsgəndərov Pərviz Hacıməmməd oğlunun yanında dəfn edilmişdir. Ailəliydi. Şəhid babası Pərvizin adını daşıyan 1 azyaşlı oğul övladı yadigar qalıb. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində göstərdiyi qəhrəmanlığa görə şəhid Pərvin İsgəndərov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları və 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





**Şəhid Xaliddin Veyisli** 14 sentyabr 1981-ci ildə Qazax rayonunda anadan olmuşdur. 1987-ci ildə Qazax şəhər Səlim Əfəndiyev adına 1 nömrəli tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 1998-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 1999-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, 2001-ci ildə hərbi xidməti başa vurmuşdur. 2008-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətdə olmuşdur. Xaliddin Veyisli qulluq vaxtı daim nizam-intizam qaydalarına riayət etmiş, döyüş hazırlığına və qüsursuz xidmətə görə müdafiə naziri və hərbi hissə komandirləri tərəfindən medallara və fəxri fərmanlara layiq görülmüşdür. O, Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə Nazirinin 0107 №-li 24 iyun 2013-cü il tarixli Əmri əsasında"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə Nazirinin 0190 №-li 26 iyun 2018-ci il tarixli Əmri əsasında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley, habelə Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə Nazirinin 26 iyun 2018-ci il tarixli Əmri əsasında "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla təltif olunmuşdur. Həmin müddətdə bir neçə dəfə fəxri fərman da almışdır.

"N" saylı hərbi hissəsinin manqa komandiri, (MAHHXHQ), çavuş Xaliddin Veyisli 26.10.2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur. 27.10.2020-ci ildə Qazax şəhərindəki Şəhidlər qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Jalə adlı qız, Fəqan adlı oğul övladı yadigar qalıb.

Bütün şəhidlərimiz kimi Xaliddin Veyislinin də göstərdiyi şücaət dövlətimiz, ölkə rəhbəri tərəfindən yüksək qiymətləndirilib. Medallarla təltif olunan şəhidlərimizin arasında şəhid çavuşu-



muzun da adı var. Xaliddin Veyisli ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Şəhərin mərkəzində, Heydər Əliyev prospektində şəhidimizin adını əbədiləşdirən bulaq inşa olunub.

**Təltifləri**





**Şəhid Elməddin Nəsibov** 8 avqust 1983-cü ildə Qazax rayonunun Ağköynək kəndində anadan olmuşdur. 1990-cı ildə Qazax rayon Şamoy Çobanov adına Ağköynək kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2001-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Orta təhsilli idi. 2001-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2003-cü ilin aprel ayında tərxis olunmuşdur.

12 may 2014-cü il tarixdən 28 iyun 2014-cü tarixədək "N" saylı hərbi hissədə "Pulemyot manqa komandiri" ixtisası üzrə tam kurs keçmişdir. 28 iyun 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətdə olmuşdur. "N" saylı hərbi hissənin komandiri olmuşdur. 27 oktyabr 2020-ci ildə Füzuli-Cəbrayıl bölgəsində Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İgid Vətən oğlu 29 oktyabr 2020-ci ildə Qazax rayon Ağköynək kənd qəbiristanlığında izdi-

hamla dəfn olunmuşdur. Ailəliydi. Nəzrin və Nigar adlı iki qız övladı yadigar qalıb. Böyük qızı Nəzrin Ağköynək kənd tam orta məktəbin V, kiçik qızı Nigar isə II sinif şagirdidir.

Bütün şəhidlərimiz kimi Elməddin Nəsibovun da göstərdiyi şücaət dövlətimiz, ölkə rəhbəri tərəfindən yüksək qiymətləndirilib. Medallarla təltif olunan şəhidlərimizin arasında şəhidimizin də adı var. Elməddin Nəsibov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda”, 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə”, 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə” medalları və 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının “Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında” 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





**Şəhid çavuş Kərimov Kamil Ələddin oğlu** 2 iyul 1995-ci ildə Qazax rayonunun Ürkməzli kəndində anadan olmuşdur. 2002-ci ildə Saqif Nəsirov adına Ürkməzli kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2013-cü ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olmuş, 2017-ci ildə həmin Akademiyanı bitirmişdir. 2017-cı ilin iyul



ayından 2018-ci ilin iyul ayına qədər həqiqi hərbi xidmətdə olmuşdur. Ürəyində hərbi sahəyə böyük istək olduğu üçün həyatını bu peşəyə həsr etmək qərarına gəlmişdi. 2020-ci ilin avqust ayında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində kəşfiyyat bölüyündə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətə başlamışdır. Kamil Kərimov çavuş rütbəsində manqa komandiri kimi xidmət etmişdir. O, qətiyyətli, təcrübəli və cəsur kəşfiyyatçı idi, verilən tapşırıqları peşəkarlıqla yerinə yetirirdi. İkinci Qarabağ müharibəsi başlayanda Toğana kəndində hərbi xidmətdə idi Kamil. Sentyabrın 27-də düşmənə qarşı həmin istiqamətdən ilk döyüşə girib. Murovdağ yüksəkliyinin düşməndən azad edilməsində iştirak edib. Sentyabrın 29-da isə Kamil Kərimovun sonuncu döyüşü olub. Snayper silahından atılan güllə ilə düz ürəyindən vurulan Kamil Kərimov döyüş meydanında qəhrəmancasına şəhid olub. İgid Vətən oğlu 17 dekabr 2020-ci il tarixdə Ürkməzli kənd qəbiristanlığında dəfn edilmişdir. Subay idi.

Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda qəhrəmancasına vuruşan çavuş Kamil Kərimovun döyüş meydanında göstərdiyi şücaət dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhidimiz ölümündən sonra cənab Prezident İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Vətən uğrunda” və "Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid çavuş Qaragözov Alıxan Əkbər oğlu** 25 fevral 1989-cu ildə Qazax rayonunun Ağköynək kəndində anadan olmuşdur. 1996-cı ildə Şamoy Çobanov adına Qazax rayon Ağköynək kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2007-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Məktəb illərində idmana daha çox maraq göstərir, karate ilə məşqul olur, yarışlarda iştirak edirdi. Hətta bir neçə dəfə çempion olub medallar da almışdı. Məktəbi bitirdikdən sonra 03.07.2007-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, hərbi xidmətini 212 saylı hərbi hissədə davam etdirmişdir. 01.01.2009-cu ildə ordudan təxris olunmuşdur. Həmin ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kiçik çavuş kimi xidmət etməyə başlamışdır. Hərbi sahəni özü seçdiyi üçün Alıxan Qaragözov xidmətini yüksək səviyyədə həyata keçirir, vicdanla qulluq edirdi. Bunun nəticəsi idi ki, Alıxan Qaragözov "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley və "Qüsursuz xidmətə görə " 3-cü dərəcəli medallarla təltif olunmuşdur. Yanvarın 21-də Alıxan Qaragözovun tabe olduğu bölüyü (2021-ci il) Kəlbəcər rayonunun Zülfüqarlı kəndinə gətirdilər. Burada onlar əraziləri minalardan təmizləməyə başladılar. "N" saylı hərbi hissənin mühəndis-istehkam bölüyünün 1-ci mühəndis-istehkam tağımının 2-ci mühəndis-istehkam manqasının komandiri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kiçik çavuş Alıxan Qaragözov üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir, azad edilmiş əraziləri minalardan təmizlədikcə rahat nəfəs alırdı. Çünki təmizləmə əməliyyatı bu torpaqlarda həyata keçiriləcək tikinti-quruculuq işlərinin başlanması demək idi. Alıxan Qaragözov yanvarın 28-də döyüş təminatı ilə bağlı xidməti vəzifəsini



yerinə yetirərkən həlak olmuş, Şəhidlik zirvəsinə yüksəlmişdir. Ailəliydi. 29.01.2021-ci il tarixdə doğulduğu Ağköynək kənd qəbiristanlığında izdihamla dəfn olunmudur. Bir qız övladı yadigar qalıb.

**Təltifləri**





**Şəhid Sərxan Mustafayev** 21 mart 1994-cü ildə Qazax rayonunun Aslanbəyli kəndində anadan olmuşdur. 01.09.2001-ci il tarixdə Qazax rayon Aslanbəyli kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 30.05.2009-cu il tarixdə həmin məktəbin 9-cu sinfini bitirmişdir. 01.04.2012-ci ildən 01.10.2013-cü il tarixədək Bakı şəhərində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində həqiqi hərbi xidmətdə olmuşdur. 03.06.2014-cü il tarixdən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etmişdir. "N" saylı hərbi hissənin manqa komandiri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, kiçik çavuş Sərxan Mustafayev 31.10.2020-ci il tarixdə Füzuli–Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 02.11.2020-ci il tarixdə doğulduğu Aslanbəyli kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. İki azyaşlı – Ümid adlı oğul, Zümrüd adlı qız övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, doğma yurdumuzun, Vətən torpaqlarının düşmən tapdağından azad edil-

məsi uğrunda ölümün gözünə dik baxan Sərxan Mustafayevin döyüşlərdə göstərdiyi igidlik dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhid kiçik çavuş Sərxan Mustafayev ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

<u>**Təltifləri**</u>





**Şəhid Əhməd Məmmədov** 25 avqust 1994-cü ildə Qazax rayonunun Fərəhli kəndində anadan olmuşdur. 2000-ci ildə Qazax rayon Kamran Kərimov adına Fərəhli kənd ümumi orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2009-cu ildə həmin məktəbin 9-cu sinfini bitirmişdir. 2009-cu ildə Qazax şəhər Firuddin Şamoyev adına 4 nömrəli tam orta məktəbin 10-cu sinfinə daxil olmuş, 2011-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2012-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2014-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur. Həqiqi hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətini davam etdirmişdir. Kiçik çavuş rütbəsinə qədər yüksəlmişdir.



Kəşfiyyatçı kiçik çavuş Əhməd Məmmədovun döyüş yolu Cəbrayıldan başlayıb. Cəsurluğu, mübarizliyi ilə fərqlənərək həmişə öndə olub, Şuşanın azad olunmasına qədər gedən qanlı savaşda şərəfli bir döyüş yolu keçib. Kəşfiyyatçı Əhməd Məmmədov 08.11.2020-ci il tarixdə Şuşa şəhərində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İgid Vətən oğlu 11 noyabr 2020-ci il tarixdə doğulub boya-başa çatdığı Qazax rayonunun Fərəhli kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Övladı yoxdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, doğma yurdumuzun, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda ölümün gözünə dik baxan Əhməd Məmmədovun döyüşlərdə göstərdiyi igidlik dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhid kiçik çavuş Əhməd Məmmədov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda'', 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə" medalları və 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.

<u>**Təltifləri**</u>





**Şəhid Elşən Orucov** 6 avqust 1991-ci ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olmuşdur. 1997-ci ildə Qazax rayon Şəmistan Şahvələdov adına Xanlıqlar kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2008-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2009-cu ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmış, 2011-ci ildə hərbi xidmətdən tərxis olunmuşdur. 2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etməyə başlamışdır. "N" saylı hərbi hissəsinin 2-ci taborunun tank tağımının baş sürücü mexaniki idi.

Elşən Orucov hərb sahəsinə gəldiyi ilk gündən nümunəvi xidmət göstərmiş, ona görə də xidmətə başladığı vaxtdan iki il keçməmiş (24.06.2013) "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı ilə təltif olunmuşdur. 26 iyun 2018-ci ildə isə sinəsinə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalı taxılmışdır. Bu təltiflərə Elşən Orucov qüsursuz xidməti, nümunəvi olması və verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməsi sayəsində layiq görülmüşdür.

Elşən Orucov 04.11.2020-ci il tarixdə Füzuli rayonu istiqamətində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 6 noyabr 2020-ci ildə doğulduğu Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. İki azyaşlı - Ehtiram adlı oğul, Ayla adlı qız övladı yadigar qalıb.

İgid Vətən oğlunun döyüş meydanında göstərdiyi qəhrəmanlıq Ali Baş Komandan İlham Əliyev tərəfindən də yüksək qiymətləndirildi. Şəhid Elşən Orucov ölümündən sonra cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



**<u>Təltifləri</u>**





**Şəhid Oruc Qasımov** 26 oktyabr 1996-cı ildə Qazax rayonunda anadan olmuşdur. 2003-cü ildə İslam Nəsibov adına Aşağı Əskipara kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2014-cü ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2014-cü ilin oktyabr ayından 2016-cı ilin aprel ayınadək Cəlilabad rayonunda Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olmuşdur. 2017–ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etmişdir. "N" saylı hərbi hissənin heyət nəfəri MAHHXHQ əsgər Oruc Qasımov 13.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlər zamanı düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Oruc Qasımov 16.10.2020-ci il tarixdə Qazax rayonunun Ağköynək kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Subay idi.

Vətən torpaqlarının düşmən işğalından azad olunmasında qəhrəmanlıq göstərən bütün şəhidlərimiz kimi şəhid Oruc Qasımovun da igidliyi dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. Şəhid Oruc Qasımov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Dö-

yüşdə fərqlənməyə görə”, 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

**Təltifləri**






**Şəhid Məmmədov Tural Elxan oğlu** 17 sentyabr 1990-cı ildə Qazax rayonunun Qızılhacılı kəndində anadan olmuşdur. 01.09.1997-ci ildə Qazax şəhər Səməd Vurğun adına 2 nömrəli tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2008-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 03.10.2008-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmışdır.01.04.2010-cu il tarixdə həqiqi hərbi xidmətini başa vuraraq tərxis olunmuşdur. 12.12.2016-cı il tarixdən Azərbaycan Silahlı Qüvvələrinin "N” saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi kəşfiyyatçı-sanitar vəzifəsində xidmətə başlamışdır. 2017-ci ildə isə kəşfiyyatçı ixtisası üzrə imtahanları müvəffəqiyyətlə verərək sertifikat almış və 2018-ci ildən "N" saylı hərbi hissənin kəşfiyyat bölüyündə kəşfiyyatçı kimi xidmətini davam etdirmişdir. O, xidmətini daim döyüş bölgələrində keçirmiş, nizam-intizamlı, qorxmaz, mərd və cəsarətli olması ilə yoldaşlarından fərqlənmişdir. Tural öz peşəsini çox sevirdi, onunla nəfəs alırdı sanki. Gecə-gündüz bilməz, verilən tapşırıqları vicdanla və sevə-sevə yerinə yetirərdi. Ona görə də hərbi hissə komandanlığı tərəfindən Tural Məmmədovun xidməti həmişə yüksək qiymətləndirilirmiş, 2018-ci ildə "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuşdur. Azərbaycan Silahlı



Qüvvələrinin müxtəlif "N” saylı hərbi hissələrində xidmət edən, "Həmlə” taborunun kəşfiyyat bölüyündə döyüşən kəşfiyyatçı Tural Məmmədov Vətən müharibəsində igidcəsinə vuruşub. İkinci Qarabağ müharibəsi döyüşlərinin başladığı ilk günlərindən Kəlbəcər rayonunun "Murovdağ” istiqamətində gedən döyüşlərdə iştirak etmiş və qəhrəmancasına şəhid olmuşdur. Şəhid Tural Məmmədov 12 dekabr 2020-ci il tarixdə Qazax rayonunun Qızılhacılı kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Ailəliydi. İki əkiz - Nihat adlı oğul, Nilay adlı qız övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, doğma yurdumuzun, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda ölümün gözünə dik baxan Tural Məmmədovun döyüşlərdə göstərdiyi igidlik dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhid əsgər Tural Məmmədov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda”, 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Kəlbəcərin azad olunmasına görə”, "Cəsur döyüşçü” medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Taleh Abdullayev** 8 fevral 1993-cü ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. 1999-cu ildə Qazax rayon Zahid Mahmudov adına Yuxarı Salahlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2010-cu ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2011-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmış, 2012-ci ildə hərbi xidməti başa vurmuşdur. 2018-ci ildə

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmətə başlamışdır. "N" saylı hərbi hissənin heyət nəfəri-atıcısı, müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçu əsgər Taleh Abdullayev 13.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlər zamanı düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Vətən uğrunda canından keçən şəhidimiz 15.10.2020-ci il tarixdə Qazax rayonunun Yuxarı Salahlı kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Subay idi.

Vətən naminə canından keçən igid oğullarımızın döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar ölkə başçısı tərəfindən yüksək qiymətləndirilərək onlar orden və medallara layiq görüldülər. Bütün şəhidlərimiz kimi Taleh Abdullayev də medal alanlar sırasındadır. O, ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Davud Qurbanov** 15 fevral 1996-cı ildə Bakı şəhərində anadan olmuşdur. 2002-ci ildə Biləcəri qəsəbəsindəki Rizvan Pirnəzərov adına tam orta məktəbin 1-ci sinifinə daxil olmuşdur. 2013-cü ildə R.Pirnəzərov adına 299 saylı məktəb-liseyi bitirmişdir. Elə həmin ildə Azərbaycan Dövlət Neft Akademiyasının "İstehsalat proseslərinin avtomatlaşdırılması" fakültəsinə daxil olmuşdur.



2017-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetini (ADNSU) bitirmişdir. Həmin il universitetin magistratura pilləsinə qəbul olmuş və 2019-cu ildə magistraturanı bitirmişdir. 2019-cu ilin fevral ayında "Space" televiziya və yayım şirkətində montajçı vəzifəsində iş fəaliyyətinə başlamış və iyun ayına kimi orada işləmişdir. 2019-cu ilin iyul ayından "Azad Azərbaycan" (ATV) teleradio və yayım şirkətində montajçı vəzifəsində işə başlamışdır. Oktyabr ayından iş fəaliyyətini dondurub həqiqi hərbi xidmətə yollanmışdır. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon Şöbəsi tərəfindənhəqiqi hərbi xidmətə çağrılmışdır. Əsgər Davud Qurbanov 02.10.2020-ci ildə Bərdə-Beyləqan bölgəsində Vətən uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 04.10.2020-ci ildə Qazax rayonunun Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Subay idi.

Vətən torpaqlarının ərazi bütövlüyü və işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidliklə vuruşaraq şəhid olan Davud Qurbanov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Babək Həsənov** 14 sentyabr 1990-cı ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 1996-cı ildə Qazax rayon Musa Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2007-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2008-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2009-cu ildə hərbi xidmətdən tərxis olunmuşdur. 2013-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etmişdir. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il oktyabr ayının 26-da Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur. Babək Həsənov Füzulinin, Cəbrayılın, Qubadlının, Laçının alınması uğrunda gedən döyüşlərdə iştirak etmiş, şücaət göstərmişdir. 04.11.2020-ci il tarixdə Laçın rayonu istiqamətində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 05.11.2020-ci il tarixdə doğulduğu Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Əfsanə adlı 1 azyaşlı qız övladı yadigar qalıb.

Vətən uğrunda canından keçən şəhidimizin döyüş meydanında göstərdiyi igidlik Ali Baş Komandan İlham Əliyev tərəfindən də yüksək qiymətləndirildi. Şəhid Babək Həsənov ölümündən sonra cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixli



Sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Sakit Allahverdiyev** 24 dekabr 2001-ci ildə Ağstafa rayonunun Tatlı kəndində anadan olmuşdur. 2007-ci ildə Qazax rayon Elşən Cəfərov adına Çaylı kənd 2 nömrəli tam orta məktəbin I sinfinə daxil olmuş, 2018-ci ildə həmin məktəbin XI sinfini bitirmişdir. 2020-ci ilin yanvar ayının 26-da Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş "N" saylı hərbi hissənin Qərargah bölüyünün 3-cü mühafizə tağımının 3-cü mühafizə manqasının atıcısı əsgər Sakit Allahverdiyev 13.11.2020-ci ildə Çaylı kəndindəki Şəhidlər xiyabanında izdihamla dəfn edilmişdir. Subay idi.

Müzəffər Azərbaycan Ordusunun şücaətli igidlərindən olan Sakit Allahverdiyev ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə", 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 30 noyabr 2021-ci il tarixli 9-21/402 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***"Azərbaycan Bayrağı" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





**Şəhid Elfak Daşdəmirov** 26 aprel 1996-cı ildə Qazax rayonunun Fərəhli kəndində anadan olmuşdur. 2002-ci ildə Qazax rayon Kamran Kərimov adına Fərəhli kənd ümumi orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2011-ci ildə həmin məktəbin 9-cu sinifini bitirmişdir. 2011-ci ildə Qazax şəhər Səməd Vurğun adına 2 nömrəli tam orta məktəbin 10-cu sinifinə daxil olmuş, 2013-cü ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2013-cü ildə Azərbaycan Dövlət Aqrar Universitetinə (ADAU) daxil olmuş, 2017-ci ildə həmin universiteti bitirmişdir. 2017-2018-ci illərdə Azərbaycan Respublikası Milli Ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il sentyabr ayının 21-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur. "N" saylı hərbi hissənin baş atıcısı hərbi vəzifəli əsgər Elfak Daşdəmirov 26 oktyabr 2020-ci il tarixdə Füzuli-Cəbrayıl bölgəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 27 oktyabr 2020-ci il tarixdə Qazax rayon Fərəhli kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Subay idi.



Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük İkinci Qarabağ müharibəsində minlərlə Vətən övladı doğma torpaqlarımızın hər qarışı uğrunda son damla qanına qədər döyüşərək əsl qəhrəmanlıq nümunələri göstərdilər. Vətən naminə canlarından keçən igid oğullarımızın döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar ölkə başçısı tərəfindən yüksək qiymətləndirilərək onlar orden və medallara layiq görüldülər. Bütün şəhidlərimiz kimi Elfak Daşdəmirov da medal alanlar sırasındadır. O, ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları və 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





**İlqar Hüseynov** 17 yanvar 2001-ci ildə Qazax şəhərində anadan olmuşdur. 2007-ci ildə Qazax şəhər Qaratel Hacımahmudova adına ümumi orta məktəbin 1-ci sinifinə getmişdir. 2016-cı ildə həmin məktəbin 9-cu sinifini bitirmişdir. Həmin ildə Qazax Dövlət Sosial-İqtisadi Kollecinin elektrik təchizatı ixtisasına daxil olmuş, 2020-ci ildə bitirmişdir. Kolleci bitirdikdən sonra 07.07.2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. Ağdam rayonunun Xındırıstan kəndində xidmət etmişdir. 28.09.2020-ci il tarixdə Ağdam rayonu istiqamətində düşmənin hücumunun qarşısını alarkən "N" saylı hərbi hissənin artilleriya batareyasının əsgəri Hüseynov İlqar Yaşar oğlu qəhrəmancasına şəhid olmuşdur. Şəhid əsgərimiz 29.09.2020-ci il tarixdə şəhərdəki Şəhidlər qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay id.

Şəhid İlqar Hüseynov da ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Emil Kərimov** 7 sentyabr 1993-cü ildə Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. 2000-ci ildə Qazax rayon Valeh Musayev adına İkinci Şıxlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2011-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2011-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2013-cü ilin aprel ayında tərxis olunmuşdur. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il sentyabr ayının 21-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur. "N" saylı hərbi hissənin manqa komandiri hərbi vəzifəli əsgər Kərimov Emil İlqar oğlu 25 oktyabr 2020-ci il tarixdə Füzuli-Cəbrayıl bölgəsində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qəhrəman şəhidimiz 27.10.2020-ci il tarixdə doğulub boya-başa çatdığı İkinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi, iki azyaşlı - Nazənin adlı qız, Amin adlı oğlan övladı yadigar qalıb.



Vətən torpaqlarının bütövlüyü naminə canından keçən igid əsgərimizin döyüşlərdə göstərdiyi şücaət dövlətimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə" və 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Niftalı Qocayev** 20 noyabr 1994-cü ildə Qazax rayonunun Çaylı kəndində anadan olmuşdur. 2001-ci ildə Qazax rayon Elşən Cəfərov adına Çaylı kənd 2 nömrəli tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2012-ci ildə həmin məktəbin 11-ci sinifini bitimişdir. 2013-cü ilin yanvar ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2014-cü ilin iyul ayında hərbi xidmətdən tərxis olunmuşdur. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında” müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il sentyabr ayının 21-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur. 01.11.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 02.11.2020-ci il tarixdə Çaylı kəndindəki Şəhidlər xiyabanında izdihamla dəfn edilmişdir. Subay idi.

Müzəffər Azərbaycan Ordusunun şücaətli igidlərindən olan şəhid Niftalı Qocayev ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən"Vətən uğrunda”, 25 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə”, "Xocavəndin azad olunmasına görə”, 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə”, 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

**Təltifləri**







**Şəhid Elçin Qurbanov** 22 yanvar 2002-ci ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olmuşdur. 2008-ci ildə Şəmistan Şahvələdov adına Xanlıqlar kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2017-ci ildə həmin məktəbin 9-cu sinifini bitirmişdir. 2020-ci ilin 27 yanvarında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmışdır. Elçin Qurbanov Füzuli-Cəbrayıl-Xocavənd rayonlarının düşməndən azad olunması uğrunda gedən döyüşlərdə mərdliklə vuruşub. "N” saylı hərbi hissənin 2-ci mexanikləşdirilmiş taborun tank əleyhinə tağımının tank əleyhinə idarə olunan raket manqasının operatoru əsgər Elçin Qurbanov 04.11.2020-ci il tarixdə Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İgid Vətən oğlu6 noyabr 2020-ci ildə doğulub boya-başa çatdığı Qazax rayonunun Xanlıqlar kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

İgid Vətən oğlunun döyüş meydanında göstərdiyi qəhrəmanlıq Ali Baş Komandan İlham Əliyev tərəfindən də yüksək qiymətləndirildi. Şəhid Elçin Qurbanov ölümündən sonra cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda”, 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə”, 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Füzulinin azad olunmasına görə”, "Cəbrayılın azad olunmasına görə”, "Cəsur döyüşçü” medalları ilə təltif olunmuşdur.

**Təltifləri**





**Şəhid Əvəz Məmmədov** 1 iyun 2001-ci ildə Qazax rayonunun Bala Çaylı kəndində anadan olmuşdur. 2007-ci ildə Səlamət Həsənov adına Bala Çaylı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2018-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2019-cu ilin 2 iyulunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin 1-ci taborunun, 1-ci bölüyünün atıcı-qumbaraatan köməkçisi əsgər Əvəz Məmmədov 07.10.2020-ci il tarixdə Ağdam rayonu istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmancasına şəhid olan əsgərimiz 07.10.2020-ci ildə Çaylı kəndindəki Şəhidlər xiyabanında izdihamla dəfn edilmişdir. Subay idi.

Vətənə olan xidməti borcunu qaytararkən torpaqlarımızın bütövlüyü naminə canından keçən igid əsgərimizin döyüşlərdə göstərdiyi şücaət dövlətimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Təltifləri**







**Şəhid Merik Mustafayev** 5 noyabr 1995-ci ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 2002-ci ildə Birinci Şıxlı kənd ümumi orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2011-ci ildə həmin məktəbin 9-cu sinifini bitirmişdir. 2014-cü ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmış, 2015-ci ildə isə tərxis olunmuşdur. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il sentyabr ayının 21-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur. "N" saylı hərbi hissənin atıcısı hərbi vəzifəli əsgər Merik Mustafayev 26.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl bölgəsində Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qəhrəman şəhidimiz 27.10.2020-ci il tarixdə doğulduğu Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Övladı yoxdur. Bütün şəhidlərimiz kimi Merik Mustafayevin də göstərdiyi şücaət dövlətimiz, ölkə rəhbəri tərəfindən yüksək qiymətləndirilib. Medallarla təltif olunan şəhidlərimizin arasında şəhid əsgərimizin də adı var. Merik Mustafayev ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Təltifləri**





**Şəhid Asəf Nəsibov** 25 fevral 1994-cü ildə Qazax rayonunun Qaymaqlı kəndində anadan olmuşdur. 2000-ci ildə Qazax rayon Aydın Məmmədov adına Qaymaqlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2011-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2011-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) Kimya mühəndisliyi fakültəsinə qəbul olmuş, 2015-ci ildə həmin universiteti bitirmişdir. 25.07.2015-ci ildən 23.07.2016-cı ilədək Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidməti bitirdikdən sonra 10.09.2016-cı ildən 13.09.2017-ci ilədək Bakı Şəhər Xəzər Firmasında xəritə mühəndisi vəzifəsində işləmişdir. 14.09.2017-ci ildən 01.05.2018-ci ilədək Qazax rayon Yol İstismar İdarəsində kiçik mühəndis olaraq işləmişdir. 01.05.2018-ci ildən 12.11.2018-ci ilədək fərdi əməklə məşğul olmuşdur. 12.11.2018-ci ildən 28.09.2020-ci il tarixədək İqtisadiyyat Nazirliyi tabeliyində "Sumqayıt Kimya Sənaye Parkı" MMC-də baş-mütəxəssis olaraq işləmişdir. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il sentyabr ayının 29-da Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur.

Müharibə Asəf Nəsibova tanış idi. O, 2016-cı ilin Aprel döyüşlərində iştirak etmiş, müharibənin ağrı-acılarını görmüşdü. Ona görə də Murovdağ yüksəkliyinin alınması uğrunda gedən döyüşlərə qatılanda müharibə heç də ona çətin gəlmədi. Asəf Nəsibov Cəbrayılın, Qubadlının, Xocavəndin düşməndən azad olunması uğrunda gedən döyüşlərdə mərdliklə vuruşmuşdur. "N" saylı hərbi hissənin 3-cü taborun 7-ci bölüyün 2-ci tağımın 2-ci manqasının heyət nəfəri-atıcısı əsgər Asəf Nəsibov 28.10.2020-ci il tarixdə Laçın rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İgid Vətən oğlu 31.10.2020-ci ildə doğulub boya-başa çatdığı Qaymaqlı kənd qəbiristanlığında izdihamla dəfn olunmuşdur. Nişanlı idi.



Müzəffər Azərbaycan Ordusunun şücaətli igidlərindən olan Asəf Nəsibov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

**Təltifləri**





**Şəhid Nicat Nəsibov** 3 oktyabr 1996-cı ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 2003-cü ildə Musa Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuş, 2014-cü ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2014-cü ildə Gəncə Regional Kollecinə daxil olmuşdur. 2016-cı ilin aprel ayında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinəhəqiqi hərbi xidmətə çağırılmış, 2017-ciilin oktyabr ayında isə tərxis olunmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra yenidən Gəncə Regional Kollecində təhsilini davam etdirmişdir. 2019-cu ildə kolleci elektrik ixtisası üzrə başa vurmuşdur. O, 2020-ci ilin əvvəllərində imtahan yolu ilə Gəncə Regional Enerji İdarəsində işə düzəlmişdir.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq tarixli Sərəncamına əsasən 2020-ci il sentyabr ayının 21-də Azərbaycan Respublikası

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur. 24 yaşlı igid Vətən oğlu 27.10.2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 29.10.2020-ci il tarixdə doğulduğu Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

Müzəffər Azərbaycan Ordusunun şücaətli igidlərindən olan Nicat Nəsibov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir. Qəhrəman şəhidimizin doğulub boya-başa çatdığı Birinci Şıxlı kəndində yaşadığı evin qarşısında adını əbədiləşdirən bulaq inşa olunub.

**Təltifləri**





**Şəhid Elmar Omarov** 23 mart 2001-ci ildə Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. 2008-ci ildə Qazax rayon Şahnabad Nəsibova adına Sarıvəlli kənd tam orta məktəbin I sinfinə daxil olmuş, 2019-cu ildə həmin məktəbin XI sinfini bitirmişdir. 2019-cu ilin 3 iyulunda Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı



Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmışdır. "N" saylı hərbi hissənin 1-ci tabor, 2-ci bölük, 1-ci tağımın tuşlayıcısı əsgər Elmar Omarov 09.11.2020-ci il tarixdə Şuşa şəhərində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İgid Vətən oğlu 12 noyabr 2020-ci il tarixdə doğulub boya-başa çatdığı Qazax rayonunun İkinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

Azərbaycanın ərazi bütövlüyü, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda ölümün gözünə dik baxan əsgər Elmar Omarovun döyüşlərdə göstərdiyi igidlik və şücaət dövlətimiz, ölkə rəhbəri tərəfindən də yüksək qiymətləndirildi. Şəhid əsgər Elmar Omarov ölümündən sonra cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Cəsur döyüşçü" medalları və 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısının "Şəhid adlarının əbədiləşdirilməsi məqsədilə Qazax şəhərində mövcud olan adsız küçələrə şəhid olmuş şəxslərin adlarının verilməsi haqqında" 31 mart 2023-cü il tarixli 9-23/106 nömrəli Sərəncamına əsasən şəhər ərazisində adsız olan küçələrdən birinə ***3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli*** şəhidimizin adı verilib.

**Təltifləri**





**Şəhid Anar Vəliyev** 21 iyul 2002-ci ildə Qazax rayonunun Orta Salahlı kəndində anadan olmuşdur. 2008-ci ildə Səməd Hacıyev adına Orta Salahlı kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2017-ci ildə həmin məktəbin 9-cu sinfini bitirmişdir. 23 iyul 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır.

Anar Vəliyev Vətən müharibəsində ilk döyüşə Tərtərdən başlamış, Füzulinin, Laçının düşmənlərdən azad edilməsi uğrunda gedən qanlı vuruşmalarda fədakarlıq göstərmişdir. Hərbi əməliyyatlar zamanı yaşına uyğun olmayan mərdliklə döyüşür, düşmənə aman vermirdi. Talış kəndi uğrunda gedən döyüş isə Anarın sonuncu döyüşü olub.

Müdafiə Nazirliyinin "N” saylı hərbi hissəsinin operatoru əsgər Anar Vəliyev 11.10.2020-ci il tarixdə Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən minaatan silahdan atılan atəş nəticəsində başından aldığı ağır qəlpə yarasından qəhrəmancasına şəhid olmuşdur. Vətən müharibəsində iştirak edərək Şəhidlik məqamına ucalan Anar Vəliyev 11.10.2020-ci ildə doğulduğu Orta Salahlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Subay idi.

Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində canından keçən bütün şəhidlərimiz kimi əsgər Anar Vəliyevin igidliyi də ölümündən sonra ölkə Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Anar Vəliyev cənab Prezidentin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda”, 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Laçının azad olunmasına görə” və 05 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən isə "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



**Təltifləri**





**Şəhid Əliyev İlkin Bəxtiyar oğlu** 26 fevral 2001-ci il tarixdə Qazax rayonunun Canalı kəndində anadan olmuşdur. 2007-ci ildə Qazax rayon Canalı kənd tam orta məktəbin 1-ci sinifinə daxil olmuşdur. 2018-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. Uşaqlıqdan idmana daha çox maraq göstərirdi, yunan-roma güləşi ilə məşğul olurdu. Bir neçə dəfə birinci yerə çıxıb medallar da almışdı.

2019-cu ilin 3 aprelində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağrılmışdır.

Vətən müharibəsi başlayandan bir neçə gün sonra İlkin Əliyevin xidmət etdiyi batareya müharibə bölgəsinə gətirilir. İlkinin döyüş yolu oktyabr ayının 2-dən Füzulidən başlayıb. Sonra bu yol Qubadlıdan, Xocavənddən, Şuşa ətrafından, Laçından keçib. "N” saylı hərbi hissənin artilleriya divizionun 1-ci batareyanın, 1-ci tağımın 2-ci topun komandiri əsgər Əliyev İlkin Bəxtiyar oğlu düşmənin texnikasının, canlı qüvvəsinin məhv edilməsində böyük igidlik və şücaət göstərib. O, 14.11.2020-ci il tarixdə Xocavənddə şəhid olmuşdur.16.11.2020-ci il tarixdə Hüseynbəyli kəndi ərazisində yerləşən Şəhidlər qəbiristanlığında dəfn olunmuşdur. Subay idi.

Əliyev İlkin Bəxtiyar oğlu Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad

olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Təltifləri**





# Vətən Müharibəsi Qəhrəmanları



*Azərbaycan Prezidenti İlham Əliyev İkinci Qarabağ müharibəsində qəhrəmanlıq nümunəsi göstərən və nəticədə "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Zəfər" ordeni və "Qarabağ" ordeni ilə təltif olunan hərbi qulluqçularla görüşü zamanı (12 aprel 2021-ci il)*

Bu siyahı Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülən 83 nəfərin adı və hərbi xidməti barədə qısa məlumatı əhatə edir.

**Tarix**

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal edilmiş ərazilərin azad edilməsi zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli, 2336 nömrəli Sərəncamına əsasən, 34 nəfər ölümündən sonra olmaqla, 83 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" medalı ilə təltif edilib.

"Vətən Müharibəsi Qəhrəmanı" medalına layiq görülən 83 nəfərdən Sərəncam imzalanan ana görə 2 nəfəri general-leytenant, 6 nəfəri general-mayor, 8 nəfəri polkovnik, 1 nəfəri 1-ci dərəcəli kapitan, 13 nəfəri polkovnik-leytenant, 17 nəfəri mayor, 13 nəfəri kapitan, 6 nəfəri baş leytenant, 6 nəfəri baş gizir, 2 nəfəri gizir, 5 nəfəri kiçik gizir, 1 nəfəri kiçik miçman, 3 nəfəri isə əsgərdir.

"Vətən Müharibəsi Qəhrəmanı" medalına layiq görülən 83 nəfərdən Sərəncam imzalanan ana görə 37 nəfəri Xüsusi Təyinatlı Qüvvələrin, 21 nəfəri Quru Qoşunlarının, 12 nəfəri Dövlət

Sərhəd Xidmətinin, 7 nəfəri Hərbi Hava Qüvvələrinin, 4 nəfəri Daxili Qoşunların, 2 nəfəri isə Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçusudur.

Bundan əlavə, Dövlət Təhlükəsizliyi Xidmətinin 3 əməkdaşı da "Vətən Müharibəsi Qəhrəmanı" medalına layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin məxfi Sərəncamına əsasən, Xarici Kəşfiyyat Xidmətinin "Yarasa" xüsusi təyinatlı dəstəsinin də bir neçə hərbi qulluqçusu bu medala layiq görülüb.

| Vətən Müharibəsi Qəhrəmanı | Fotoşəkil | Rütbə | Xidməti |
|---|---|---|---|
| **İlham İsmayıl oğlu Mehdiyev** (1965 –) |  | General-leytenant | İkinci Qarabağ müharibəsi zamanı Dövlət Sərhəd Xidmətinin döyüş hazırlığı üzrə rəis müavini olan İlham Mehdiyev Cəbrayıl və Zəngilanın azad edilməsinin idarə edilməsində qəhrəmanlıq nümunəsi göstərib. |
| **Hikmət İzzət oğlu Mirzəyev** (1968 –) |  | General-leytenant | İkinci Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin komandanı olan Hikmət Mirzəyev Cəbrayıl, Füzuli, Qubadlı, Murovdağ və Şuşanın azad edilməsinin idarə edilməsində qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **Namiq Sərəfruz oğlu İslamzadə** (1974 –) |  | General-mayor | İkinci Qarabağ müharibəsi zamanı Hərbi Hava Qüvvələri Kürdəmir aviabazasının komandiri olan Namiq İslamzadə Füzuli və Hadrutun azad edilməsində "Su-25" hücum təyyarəsinin pilotu olaraq qəhrəmanlıq nümunəsi göstərib. |
| **Zaur Sabir oğlu Məmmədov** (–) |  | General-mayor | İkinci Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin I komandan müavini və Qərargah rəisi olan Zaur Cavanşir Cəbrayıl, Füzuli və Şuşanın azad edilməsinin iştirakçısı olaraq qəhrəmanlıq nümunəsi göstərib. |
| **Kənan Əlihüseyn oğlu Seyidov** (1974 –) |  | General-mayor | İkinci Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin komandan müavini olan Kənan Seyidov Cəbrayıl, Füzuli və Şuşanın azad edilməsinin iştirakçısı olaraq qəhrəmanlıq nümunəsi göstərib |

| | | | |
|---|---|---|---|
| **Ələkbər Məhəmməd oğlu Cahan-girov** (–) |  | Polkov-nik | İkinci Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Ələkbər Cahangirov Cəbrayıl, Füzuli və Şuşanın azad edilməsinin iştirakçısı olaraq qəhrəmanlıq nümunəsi göstərib. |
| **Babək Mürsəl oğlu Ələkbərov** (1987 –) |  | General-mayor | İkinci Qarabağ müharibəsi zamanı Çevik Hərəkət Qüvvələri Mərdəkan briqadasının I komandir müavini və Qərargah rəisi olan Babək Ələkbərov Cəbrayıl və Zəngilanın azad edilməsində qəhrəmanlıq nümunəsi göstərib. Bundan əlavə o, Xudafərin körpüsünün azad edilməsi xəbərini Azərbaycan Prezidenti İlham Əliyevə məruzə edib |
| **Telman Əsgər oğlu Hüseynov** (–) |  | Polkov-nik | İkinci Qarabağ müharibəsi zamanı Quru Qoşunlarının hərbi qulluqçusu olan Telman Hüseynov Cəbrayıl, Füzuli və Q ubadlının azad edilməsinin iştirakçısı olaraq qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **Raqif İbadulla oğlu İsrayılov** (1975 –) | | Polkov-nik | Quru Qoşunlarının hərbi qulluqçusu olan Raqif İsrayılov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Zəngilan şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Babək Vahid oğlu Qurbanov** (1982 –) | | General-mayor | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Babək Qurbanov Xudafərin körpüsünün və Zəngilan şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Elnur Ceerov oğlu Qebedov** (1978 –) |  | Polkov-nik | Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının Hərbi Hissə Komandiri olan Elnur Qebedov dinc əhalinin yaşadığı şəhər və rayonlarda, xüsusilə Mingəçevir SES istiqamətində erməni təxribatlarının qarşısını alan zaman, həmçinin düşmən tərəfinin 2 ədəd "Su-25" hücum təyarəsinin məhv edilməsində qəhrəmanlıq nümunəsi göstərib. |
| **Nizami Bəydəmir oğlu Mövlanov** (–) | | Polkov-nik | Quru Qoşunlarının hərbi qulluqçusu olan Nizami Mövlanov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib |

| | | | |
|---|---|---|---|
| **Zaur İsmayıl oğlu Nudirəliyev**<br>(1978–2020) |  | Polkov-nik | Hərbi Hava Qüvvələrinin USTA dərəcəli pilotu olan Zaur Nudirəliyev Füzuli şəhəri və Cəbrayıl şəhəri istiqamətlərində gedən döyüşlər zamanı "Su-25" hücum təyyarəsində qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Vüsal Eynulla oğlu Sultanov**<br>(–) |  | <br>General-mayor | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Vüsal Sultanov Xudafərin körpüsünün azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Zəfər Qəzənfər oğlu Yusibov**<br>(1982 –) |  | Polkov-nik | Daxili Qoşunların "Şahin" Xüsusi Təyinatlı Dəstəsinin Komandiri olan Zəfər Yusibov Murov zirvəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Zaur İlham oğlu Zeynalov**<br>(1975 –) |  | <br>General-mayor | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Zaur Zeynalov Murov zirvəsinin, Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **Zaur Hikmət oğlu Quliyev**<br>(–) |  | <br>1-ci dərəcəli Kapitan | Hərbi Dəniz Qüvvələrinin "Su Altı Hücum" Xüsusi Təyinatlı Dəstəsinin Komandiri olan Zaur Quliyev Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Qubadlı şəhərinin azad edilməsi uğrunda gedən döyüşləri idarə edən zaman zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Əfqan Ağasəf oğlu Abdurah-manov**<br>(1976 – 2020) |  | Polkov-nik-leytenant | Quru Qoşunlarının hərbi qulluqçusu olan Əfqan Abdurahmanov Madagiz qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub |
| **Səxavət Mamed oğlu Baxışov**<br>(1978 –) |  | Polkov-nik | Quru Qoşunlarının hərbi qulluqçusu olan Səxavət Baxışov Madagiz qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Ceyhun Fikrət oğlu Camalov**<br>(1982 –) |  | Polkov-nik-leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Ceyhun Camalov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |

| | | | |
|---|---|---|---|
| **Ramiz Sübhan oğlu Cəfərov** (1974 – 2020) |  | Polkov-nik-leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Ramiz Cəfərov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Orxan Nadir oğlu Əkbərov** (1982–2020) |  | Polkov-nik-leytenant | Quru Qoşunlarının hərbi qulluqçusu olan Orxan Əkbərov Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Anar Vaqif oğlu Əliyev** (1980–2020) |  | Polkov-nik-leytenant | Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı Bölməsinin Komandiri olan Anar Əliyev Xocavənd rayonun Tuğ qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Xaliq Arif oğlu İbrahimov** (1985 –) |  | Polkov-nik-leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Xaliq İbrahimov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Qubadlı şəhərinin azad edilməsi uğrunda gedən döyüşləri idarə edən zaman zamanı qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **Füzuli Şiraslan oğlu İmrəliyev** (–) |  | Polkov-nik | Daxili Qoşunların "Kobra" Xüsusi Təyinatlı Dəstəsinin Komandiri olan Füzuli İmrəliyev Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşləri idarə edən zaman zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Faiq Qaçay oğlu Qasımov** (1974–2020) |  | Polkov-nik-leytenant | Quru Qoşunlarının hərbi qulluqçusu olan Faiq Qasımov Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Ramiz Vaqif oğlu Qasımov** (1975–2020) |  | Polkov-nik-leytenant | Hərbi Hava Qüvvələrinin USTA dərəcəli pilotu olan Ramiz Qasımov Madagiz qəsəbəsi istiqamətlərində gedən döyüşlər zamanı "Mi-17" hücum vertolyotu qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Anar Mehman oğlu Mirzəyev** (–) |  | Polkov-nik-leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Anar Mirzəyev Xocavənd şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |

| | | | |
|---|---|---|---|
| **Rəşad Soltanağa oğlu Nadirov** (1982 –) |  | Polkov-nik | Hərbi Hava Qüvvələrinin USTA dərəcəli pilotu olan Rəşad Nadirov Füzuli şəhəri və Cəbrayıl şəhəri istiqamətlərində gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Vüqar Əhməd oğlu Ağayev** (1972–2020) |  | Mayor | Quru Qoşunlarının hərbi qulluqçusu olan Vüqar Ağayev Qubadlı şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub |
| **Mirdamət Səristan oğlu Bağıyev** (1986 –) | | Mayor | Quru Qoşunlarının hərbi qulluqçusu olan Mirdamət Bağıyev Madagiz qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Elbrus Eyvaz oğlu Bayramov** (1986–2020) |  | Mayor | Quru Qoşunlarının hərbi qulluqçusu olan Elbrus Bayramov Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Amid Rəbbil oğlu Heydərov** (1988–2020) |  | Mayor | Quru Qoşunlarının hərbi qulluqçusu olan Amid Heydərov Cəbrayıl şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |



| | | | |
|---|---|---|---|
| **Saleh Valeh oğlu Həsənov** (1986 –) |  | Mayor | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Saleh Həsənov Murov zirvəsinin, həmçinin Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Şahin Yusif oğlu Hüseyn-quliyev** (1991 –) |  | Polkov-nik-leytenant | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Şahin Hüseynquliyev Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Zaur Rahat oğlu Hüseynov** (1987 –) |  | Mayor | Zaur Hüseynov Cəbrayıl şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Şıxamir Oruc oğlu Qaflanov** (1986–2020) |  | Mayor | Daxili Qoşunların "Bəbir" Xüsusi Təyinatlı Dəstəsinin Komandiri olan Şixamir Qaflanov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Hadrut qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |

| | | | |
|---|---|---|---|
| **Anar Misir oğlu Qasımov**<br>(–) | | Polkov-nik-leytenant | Quru Qoşunlarının hərbi qulluqçusu olan Anar Qasımov Murov zirvəsinin, həmçinin Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Röyal İlham oğlu Quliyev**<br>(–) |  | Mayor | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Röyal Quliyev Xudafərin körpüsünün və Zəngilan şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Səfər Qurban oğlu Qurbanov**<br>(–) |  | Polkov-nik-leytenant | Hərbi Hava Qüvvələrinin USTA dərəcəli pilotu olan Səfər Qurbanov Füzuli şəhəri və Cəbrayıl şəhəri istiqamətlərində gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Elçin Elşən oğlu Mansurov**<br>(1984–2020) |  | Mayor | Quru Qoşunlarının hərbi qulluqçusu olan Elçin Mansurov Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Anar İbrahim oğlu Məmmədov**<br>(–) |  | Mayor | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Anar Məmmədov Xudafərin körpüsünün və Zəngilan şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **İlqar Rəhman oğlu Orucov**<br>(1984 –) |  | Polkov-nik-leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan İlqar Orucov Kəlbəcər rayonunun, Xocavənd rayonunun, Cəbrayıl şəhərinin və Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Gündüz Ağəmməd oğlu Səfərli**<br>(–) |  | Polkov-nik-leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Gündüz Səfərli Cəbrayıl şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib |
| **Elvin Sərraf oğlu Səfərov**<br>(–) |  | Polkov-nik-leytenant | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Elvin Səfərov Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Elnur Ramiz oğlu Şirinov**<br>(1987 –) |  | Mayor | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Elnur Şirinov Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Anar Mehman oğlu Şükürov**<br>(1977–2020) |  | Mayor | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu və "Həmlə" Taborunun Komandiri olan Anar Şükürov Madagiz qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |

| | | | |
|---|---|---|---|
| **Rəşad Arif oğlu Abdullayev** (1991–2020) |  | Kapitan | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Rəşad Abdullayev Murovdağ zirvəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Nihad Akif oğlu Babayev** (1991–2020) |  | Kapitan | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Nihad Babayev Füzuli şəhərinin və Hadrut qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Qəzənfər Kərim oğlu Bağırlı** (–) | | Mayor | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Qəzənfər Bağırlı Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Nicad Mehman oğlu Bədəlov** (–) |  | Mayor | Daxili Qoşunların hərbi qulluqçusu olan Nicad Bədəlov Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Fərid Vaqif oğlu Əliyev** (–) | | Kapitan | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Fərid Əliyev Madagiz qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **Ceyhun Aydın oğlu Həsənov** (1985–2020) |  | Kapitan | Quru Qoşunlarının hərbi qulluqçusu olan Ceyhun Həsənov Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub |
| **Ramazan İzzət oğlu Hudulov** (1994 –) |  | Kapitan | Quru Qoşunlarının hərbi qulluqçusu olan Ramazan Hudulov Füzulinin və Qubadlı şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Rəşad Məzahir oğlu Qasımlı** (1991 –) |  | Mayor | Hərbi Hava Qüvvələrinin USTA dərəcəli pilotu olan Rəşad Qasımlı Madagiz qəsəbəsinin, Füzuli şəhəri və Cəbrayıl şəhəri istiqamətlərində gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Cavid Hilal oğlu Mahmudov** (1988–2020) |  | Kapitan | Quru Qoşunlarının hərbi qulluqçusu olan Cavid Mahmudov Cəbrayıl şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Veysəl Yadulla oğlu Musibov** (1988–2020) | | Kapitan | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Veysəl Musibov Murov zirvəsinin, Cəbrayıl şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |

| | | | |
|---|---|---|---|
| **Surxay Əbdül oğlu Noçuyev** (1988–2020) |  | Kapitan | Quru Qoşunlarının hərbi qulluqçusu olan Surxay Noçuyev Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Qubadlı şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **İsmayıl Məhəmməd oğlu Səmədov** (1990–2020) |  | Kapitan | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan İsmayıl Səmədov Cəbrayıl şəhərinin və Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Renat Güləmməd oğlu Şıxnəbiyev** (1990 –) |  | Mayor | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Renat Şıxnəbiyev Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Qəzənfər Mahmud oğlu Ağayev** (1996 –) | | Baş leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Qəzənfər Ağayev Madagiz qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **İzzət Zakir oğlu Balacayev** (1993 –) |  | Baş leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan İzzət Balacayev Cəbrayıl, Füzuli, Xocavənd, Kəlbəcər və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Cavid Ədalət oğlu Behbudov** (1994 –) |  | Baş leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Cavid Behbudov Cəbrayıl, Füzuli, Xocavənd, Kəlbəcər və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Valeh Vahid oğlu Bədəlov** (1990–2020) |  | Baş leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Valeh Bədəlov Murov zirvəsinin, həmçinin Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Hadrut qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Azad Arif oğlu Hümbətov** (1996–2020) |  | Baş leytenant | Quru Qoşunlarının hərbi qulluqçusu olan Azad Hümbətov Füzuli şəhərinin, Hadrut qəsəbəsinin, Qubadlı şəhərinin və Laçın dəhlizinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |

| | | | |
|---|---|---|---|
| **Adil Asəf oğlu İbrahimli** (1992–2020) |  | Baş leytenant | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Adil İbrahimli Murov zirvəsinin, həmçinin Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Şahin Hüseynbala oğlu Allahyarov** (1992–2020) |  | Baş gizir | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Şahin Allahyarov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Sübhan Rahim oğlu Cəbrayılov** (1982–2020) |  | Baş gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Sübhan Cəbrayılov Cəbrayıl şəhərinin və Qubadlı şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Yaşar Əhəd oğlu Hüseynov** (1980 –) |  | Baş gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Yaşar Hüseynov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |



| | | | |
|---|---|---|---|
| **Camal Vidadi oğlu İsmayılov** (1984–2020) |  | Baş gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Camal İsmayılov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrut qəsəbəsinin və Laçın şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Mehrab Söhrab oğlu Niftəliyev** (1985–2020) |  | Baş gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Mehrab Niftəliyev Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Azər Nazim oğlu Yusifli** (1994–2020) | | Baş gizir | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Azər Yusifli Xudafərin körpüsünün və Zəngilan şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **İntiqam Bayram oğlu Əsgərli** (1990–2020) |  | Gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan İntiqam Əsgərli Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |

| | | | |
|---|---|---|---|
| **Elyar Arif oğlu Vəliyev** (1991–2020) |  | Gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Elyar Vəliyev Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Orxan Rövşən oğlu Cabbarov** (1995–2020) |  | Kiçik gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Orxan Cabbarov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Yaşar Mirağa oğlu Əhmədov** (–) | | Kiçik gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Yaşar Əhmədov Cəbrayıl şəhərinin və Füzuli şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Əli Rəşid oğlu Hüseynov** (–) | | Kiçik gizir | Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu olan Əli Hüseynov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Nail Nəriman oğlu İbrahimli** (1994–2020) |  | Kiçik gizir | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Nail İbrahimli Füzuli şəhərinin, Zəngilan şəhərinin, Qubadlı şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |



| | | | |
|---|---|---|---|
| **Amin Taciddin oğlu Novruzov** (1996–2020) |  | Kiçik gizir | Sərhəd Qoşunlarının hərbi qulluqçusu olan Amin Novruzov Füzuli şəhərinin və Zəngilan şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Fəqan Amil oğlu Zalov** (1997–2020) |  | Kiçik miçman | Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçusu olan Fəqan Zalov Cəbrayıl şəhərinin, Hadrut qəsəbəsinin, Füzuli şəhərinin, Qubadlı şəhərinin və Xocavənd şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib və şəhid olub. |
| **Azər Rizvan oğlu Abdullazadə** (2001 –) | | Əsgər | Quru Qoşunlarının hərbi qulluqçusu olan Azər Abdullazadə Cəbrayıl şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Murad İlyas oğlu Əflətov** (–) | | Əsgər | Quru Qoşunlarının hərbi qulluqçusu olan Murad Əflətov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |
| **Vüsal Elşən oğlu Yaqubov** (2001 –) |  | Əsgər | Quru Qoşunlarının hərbi qulluqçusu olan Vüsal Yaqubov Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıq nümunəsi göstərib. |

## Hikmət Mirzəyev



**Hikmət İzzət oğlu Mirzəyev** *(29 fevral 1968, Puşkin)* – Azərbaycan hərbi xadimi, general-leytenant (2020), Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Quru Qoşunlarının komandanı (2024-cü ildən), Vətən Müharibəsi Qəhrəmanı (2020). Xüsusi Təyinatlı Qüvvələrin keçmiş komandanı (2014–2024), Aprel döyüşlərinin və İkinci Qarabağ müharibəsinin hərbi rəhbərlərindən biridir. Hikmət Mirzəyev Cəbrayıl rayonunun və Şuşa şəhərinin azad olunması əməliyyatlarına rəhbərlik etmişdir.

**Həyatı**

Hikmət Mirzəyev 29 fevral 1968-ci ildə hazırkı Biləsuvar şəhərində anadan olmuşdur. 1989-cu ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini bitirdikdən sonra SSRİ Silahlı Qüvvələri tərkibində taqım komandiri vəzifəsində xidmətə başlamışdır. 1992–1998-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində bölük, tabor, əlahiddə xüsusi təyinatlı tabor və briqada komandiri vəzifələrində xidmət edib. 1997–1998-ci illərdə Türkiyə Respublikasının Quru Qoşunları Hərbi Akademiyasında təhsil alıb. 1999-cu ildən Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. 2014-cü ildən isə Xüsusi Təyinatlı Qüvvələrin komandanı vəzifəsinə təyin olunub.

Birinci Qarabağ müharibəsində iştirak etmiş, xüsusi təyinatlı taborun üzvü olmuşdur. 1992-ci ilin dekabrında Xocalı rayonu ərazisindəki o zaman Ağdam üçün böyük təhlükə təşkil edən Fərrux yüksəkliyini azad etmək üçün Müdafiə Nazirliyinin göstərişi



ilə Mehman Səlimovun komandanlığı ilə aparılmış hücum əməliyyatı zamanı Hikmət Mirzəyev kapitan rütbəsində hərbi birliyin kəşfiyyat bölüyünün komandiri kimi döyüşmüşdür.

O, Heydər Əliyevin Prezident olduğu illərdə polkovnik-leytenant hərbi rütbəsini daşımışdır. Ona polkovnik rütbəsini də məhz Heydər Əliyev təqdim etmişdir. Hikmət Mirzəyev 19 yanvar 2002-ci ildə Heydər Əliyevin imzaladığı sərəncamla general-mayor ali hərbi rütbəsinə layiq görülüb. 17 oktyabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən general-mayor Hikmət İzzət oğlu Mirzəyevə general-leytenant ali hərbi rütbəsi verilmişdir.

Bundan başqa, Hikmət Mirzəyev 24 iyun 2003-cü ildə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsində xüsusi xidmətlərinə, özünün xidməti vəzifələrini və hərbi hissəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsində fərqləndiyinə görə Heydər Əliyevin fərmanı ilə "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

24 iyun 2015-ci ildə isə Hikmət Mirzəyev Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

2016-cı ilin aprelində və 2020-ci ildə Dağlıq Qarabağda aparılan hərbi əməliyyatların rəhbərlərindən olmuşdur. O, bundan öncə Cəbrayıl rayonunun 27 il davam edən işğaldan azad edilməsi əməliyyatına başçılıq edib. Bu münasibətlə dövlət başçısı Mirzəyevə zəng edərək onu təbrik etmişdir.

2016-cı ilin aprel döyüşlərində işğal edilmiş torpaqların azad edilməsində əsas rol oynayan xüsusi təyinatlılar 2018-ci ildə Ordunun 100 illiyi münasibətilə keçirilən hərbi paradda general Hikmət Mirzəyevin başçılığı altında keçiblər.

2024-cü il yanvarın 11-də Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Quru Qoşunlarının komandanı təyin edilib.

Ailəlidir. İki övladı var.



**Babək Mürsəl oğlu *Ələkbərov*** *(24 dekabr 1987, Ceyranbatan, Abşeron rayonu)* — Azərbaycan Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının general-mayoru, Çevik Hərəkət Qüvvələrinin Komandanı, Vətən müharibəsinin iştirakçısı, Vətən Müharibəsi Qəhrəmanı.

Babək Ələkbərov 2003–2006-cı illərdə Cəmşid Naxçıvanski adına Liseydə təhsil alıb. 2006–2010-cu illərdə isə MTN-nin Heydər Əliyev adına Akademiyasının Sərhəd qoşunları fakültəsində ali hərbi təhsil alaraq oradan "leytenant" rütbəsində məzun olub. Məzun olduqdan sonra Sərhəd Qoşunlarının Çevik Hərəkat Qüvvələrində xidmətə başlayıb. 2016-cı ildə Prezident İlham Əliyevin Sərəncamına əsasən, Dövlət Sərhəd Xidməti əməkdaşlarının Peşə bayramı günü münasibətilə "İgidliyə görə" medalı ilə təltif edilib. 27 sentyabr 2020-ci ildə başlanan Vətən Müharibəsinin iştirakçısıdır. Arazboyu əməliyyatlarda böyük şücaət göstərmiş, Zəngilan rayonu və Xudafərin körpüsünün azad edilməsini Ali Baş Komandana məruzə etmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidlik və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Babək Ələkbərova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

Ailəlidir, 3 övladı var.





**Mais Şükür oğlu Bərxudarov** *(bəzi yerlərdə Mayis Bərxudarov 20 aprel 1976, Qubadlı)* — Azərbaycan Silahlı Qüvvələrinin General-leytenantı, 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin Vətən müharibəsinin Komandanlarından.

**Hərbi xidməti**

Baş leytenant Mais Bərxudarov Azərbaycan Prezidenti Heydər Əliyevin 24 iyun 1998-ci il tarixli 735 nömrəli Sərəncamına əsasən "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Polkovnik Mais Bərxudarov Azərbaycan Prezidenti İlham Əliyevin 25 iyun 2012-ci il tarixli 2305 nömrəli Sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun, Xocavənd rayonunun, Füzuli rayonunun və Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Mais Bərxudarov "Cəbrayılın azad olunmasına görə" medalı, 25.12.2020-ci il tarixli Sərəncamlarına əsasən isə "Xocavəndin azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Zəngilanın azad olunmasına görə" medalı. və "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

2016-cı il, aprelin 1–5-i Qarabağda gedən döyüşlər zamanı korpus komandiri olan polkovnik Mais Bərxudarov döyüşlər

başlayan kimi, özü də əsgərlərə qoşularaq, birbaşa döyüşlərdə iştirak etmiş, Lələtəpə yüksəkliyini və on kilometrlərlə ərazini azadetmə əməliyyatında şəxsən iştrak etmiş, erməni silahlı qüvvələrinin çoxsaylı qüvvələrini çox məhdud sayda əsgər və zabitləri ilə məhv edib sıradan çıxarmışdır. Hadisə şahidlərinin verdiyi məlumata görə, Mais Bərxudarov şəxsən tankın üzərində əyləşərək, özü öndə olmaqla bütün əsgərlərini döyüşə çağırıb. Mənbə bildirir ki, Bərxudarovun tankı ən öndə getdiyindən, bütün ordu xüsusi fəallıq və qəhrəmanlıqla döyüşməyə başlayıb.

4 noyabr 2022-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “general-leytenant” ali hərbi rütbəsi verilib.





**Məhəmməd Kərim oğlu Həsənov** *(25 fevral 1966, Qazax rayonu)* — Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru; Naxçıvan Muxtar Respublikası Heydər Əliyev adına Hərbi Liseyin rəisi, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Komandanının müavini; Günnüt əməliyyatı və Vətən müharibəsinin iştirakçısı. 2014-cü ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və 2018-ci ildə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.

Məhəmməd Həsənov Qazax rayonu Aslanbəyli kəndində anadan olub. Ali təhsilini bitirdikdən sonra rus dili müəllimi olaraq işləməyə başlamışdır. 20 yanvar hadisələrində Sovet İttifaqına qarşı etiraz nümayişində fəal iştirakçılardan olmuş və son anda tankın altından sağ çıxmağı bacarmışdır. Qarabağ müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanmış və ağır döyüşlərdə iştirak edərək bir neçə qəlpə yarası almışdır.

Müharibədən sonra hərbi xidmətdə qalaraq ordu quruculuğunda mühüm işlər görmüşdür. Mətbuatda açıqlanmayan bir çox əməliyyatların iştirakçısı olmuşdur. Hərbi hissə komandiri və digər mühüm vəzifələrdə xidmət etmişdir.

2019-cu il aprel ayında polkovnik Məhəmməd Həsənov Naxçıvan Muxtar Respublikası Heydər Əliyev adına Hərbi Liseyə rəis təyin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2021-ci il tarixli 2926 nömrəli Sərəncamı ilə general-mayor Məhəmməd Kərim oğlu Həsənov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Hərbi Liseyinin rəisi vəzifəsindən azad edilərək, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əlahiddə Ümumqoşun Ordu komandanının müavini təyin edilib.

24 iyun 2019-cu ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev polkovnik Məhəmməd Kərim oğlu Həsənova general-mayor ali hərbi rütbəsi verilib.

2003-cü ildə polkovnik-leytenant Həsənov Məhəmməd Kərim oğlu "Vətən uğrunda" medalı ilə təltif olunub.

2006-cı ildə polkovnik-leytenant Məhəmməd Həsənov "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

2014-cü ildə polkovnik Məhəmməd Həsənov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

2018-ci ildə polkovnik Məhəmməd Həsənov "İgidliyə görə" medalı ilə təltif olunub.



## Dünya azərbaycanlılarının həmrəylik və birlik hərəkatı



**Berlinin Brandenburq qapıları yaxınlığındakı Paris meydanında Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Ümumavropa Qarabağ mitinqi**

**Tovuz döyüşləri dünya azərbaycanlılarının milli birlik və həmrəylik hərəkatı ilə xatırlanır.**

Ermənistanın növbəti təxribatı nəticəsində ordumuzun yüksəkrütbəli hərbçi və əsgərlərinin şəhid olması dünyadakı soydaşlarımız arasında həmrəylik dalğası yaratdı, birliyimizi daha da möhkəmləndirdi. Hadisə baş verən gündən Azərbaycan xalqı və xaricdəki həmvətənlərimiz Ermənistanın işğalçılıq siyasətinə, Azərbaycanın Tovuz rayonu istiqamətində dövlət sərhəddində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlara etiraz əlaməti olaraq mütəşəkkil şəkildə aksiyalara başladı.

İndiyədək heç vaxt olmadığı qədər soydaşlarımız güclü birlik nümayiş etdirdi, siyasi düşüncəni, fərqli dünyagörüşünü kənara qoyaraq dünya dövlətlərindən və beynəlxalq təşkilatlardan işğala son qoyulmasını tələb etdi. Soydaşlarımız ilk dəfə milli birlik və həmrəylik nümayiş etdirərək Azərbaycan dövlətinin, ordusunun

yanında olduğunu bəyan etdi, diaspor təşkilatları iyulun 12-dən 31-dək 30-dan çox ölkədə 70-dən artıq izdihamlı mitinqlərin təşkilinə nail oldu.

COVID-19 pandemiyası ilə əlaqədar bir çox ölkələrdə insanların bir yerə toplaşmasına məhdudiyyətlərin tətbiq edilməsinə baxmayaraq, bu aksiyalarda ümumilikdə 25 mindən çox soydaşımız, eləcə də dost xalqların - Türkiyə, İsrail, Pakistan, Ukrayna və digər xalqların nümayəndələri iştirak etdi.

Azərbaycan ordusunun Ermənistanın hərbi təxribatlarına layiqli cavab verməsinin ardından soydaşlarımızın beynəlxalq aləmdə kütləvi olaraq həmrəylik və birlik hərəkatına qoşulması, sivil, icazəli aksiyalara başlaması, cəbhədə olduğu kimi, dünyada da erməniləri ciddi təşvişi ilə qarşılandı. Ermənistanın uzun illərdir dünya dövlətlərini aldatması soydaşlarımızın birlik və həmrəylik hərəkatı sayəsində ifşaya məruz qaldı, həqiqətlər real faktlar əsasında dünyaya bəyan olundu.

Tovuz təxribatının ilk günündən dünya azərbaycanlıları ilə intensiv əlaqə yaradan Diasporla İş üzrə Dövlət Komitəsi bir tərəfdən onların aksiyalarını koordinasiya edir, digər tərəfdən də onları yaşadıqları ölkələrin qanunlarına hörmətlə yanaşmağa çağırır, bütün adddımları hüquq çərçivəsində atmağı tövsiyə edir, ermənilərin təxribatına uymamağa, onların törətdiyi vəhşiliklər haqqında müvavif olaraq ölkəmizin diplomatik nümayəndəliklərini, Azərbaycanlıların Koordinasiya Şuralarını və ya xaricdəki Azərbaycan Evlərini məlumatlandırmağı xahiş edirdi.

Həmin günlərdə çıxışlarının birində Prezident İlham Əliyev də soydaşlarımızın fəallığını qeyd edərək bildirmişdi ki, "Artıq bu gün dünyada mövcud olan və fəallaşan Azərbaycan icmaları ölkəmizə də dəstəkdir. Biz də onları dəstəkləyirik. Dəfələrlə demişəm ki, bütün Azərbaycan vətəndaşları, xaricdə yaşayan azərbaycanlılar bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır”.

Həmin vaxt aksiyalarla yanaşı diaspor təşkilatları, Azərbaycanlıların Koordinasiya Şuraları və fərdi şəxslər tərəfindən Tovuz təxribatı ilə əlaqədar yüzlərlə bəyanat yayıldı. Ermənistanın işğalçılıq siyasətinin, təxribat hallarının dayandırılması ilə bağlı BMT, ATƏT və digər beynəlxalq təşkilatlara, eləcə də dünyanın aparıcı ölkələrinin qanunverici orqanlarına, rəsmi dairələrinə onlarla



müraciət ünvanlandı, ümumilikdə 36 ölkədə yaşayan azərbaycanlılar 128 bəyanatla çıxış etdi.

Yerli və xarici mətbuatda Ermənistanın təxribatı ilə bağlı informasiyalar yayıldı. Soydaşlarımızın fəallığı nəticəsində 40 ölkədə 20 dildə 180 məqalə və xəbər çap edildi, sosial şəbəkələrdə #KarabakhisAzerbaijan, #StopArmenianaggression, #StopArmenianoccupation həştəqləri ilə həqiqətləri özündə əks etdirən milyonlarla informasiya paylaşıldı.

Bu gün dünya azərbaycanlılarının həmrəylik və birlik hərəkatının özünütəsdiq günüdür. Bu hərəkatın dalğası böyüdü və onun önəmi 44 günlük Zəfər tariximizlə təsdiqləndi.

Döyüşlər zamanı Bakının ayrı-ayrı yerlərində, küçə və prospektlərində, həmçinin ölkənin digər şəhər və rayonlarında Azərbaycan Silahlı Qüvvələrinə dəstək aksiyaları keçirilib. Əllərində Azərbaycan bayraqlarını tutmuş minlərlə insan küçələrə axışaraq "Qarabağ", "Qarabağa azadlıq" şüarlarını səsləndiriblər. Əsasən gənclərin iştirak etdiyi aksiyada habelə hərbçilərə dəstək nümayiş etdirilib, şəhidlərin xatirəsi ehtiramla yad olunub. İyulun 14-də baş tutan aksiya Şəhidlər Xiyabanına yürüşlə davam edib.

Növbəti günlərdən başlayaraq, çoxsaylı azərbaycanlı gənc ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət edib. Nazirlər Kabinetinin iyulun 15-də keçirilmiş iclasında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin “Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram” çağırışına səs verən minlərlə vətəndaşımız Xidmətin yerli idarə, şöbə və bölmələrinə gələrək könüllü şəkildə orduda xidmət etmək barədə arzularını bildirib və müvafiq qaydada qeydiyyata alınıblar.

İyulun 14-də Azərbaycanın Fransadakı Səfirliyinin binasına qarşı vandalizm aktı törədilməsi ilə bağlı Fransanın Azərbaycandakı səfiri XİN-ə çağırılaraq qarşı tərəfə etiraz bildirilib. Vandalizm aktının erməni radikal gənclər təşkilatının bir qrup üzvü tərəfindən törədildiyi ehtimal olunur.




*İyulun 21-də Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun qarşısında azərbaycanlı və erməni nümayişçilər.*

Toqquşmalar başa çatandan sonra iyulun 17-dən avqustun ortalarına kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınması intensiv xarakter alıb. Baş vermiş hərbi toqquşmadan dərhal sonra Rusiyadan Qazaxıstan, Türkmənistan və İranın hava məkanından istifadə edilərək İl-76 hərbi-nəqliyyat təyyarələri ilə Ermənistana 400 tondan artıq həcmdə hərbi təyinatlı yük daşınıb. Təyyarələr Ermənistana "Krasuxa" radioelektron mübarizə vasitələri, "Nebo-M" radar kompleksləri və digər hərbi texnika çatdırıb. Avqustun 12-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə zəng edərək bunun Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu bildirib. Daha sonra müdafiə naziri Sergey Şoyqu Rusiyanın hər il təşkil etdiyi ordu oyunlarının dəniz mərhələsi ilə əlaqəli olaraq təyyarələrin guya "inşaat materialları" daşıdığı şəklində gülünc izahat verməşdi. Rəsmi Bakı isə bəyan etdi ki, Rusiya tərəfinin bu izahatını inandırıcı hesab etmir və daha tutarlı izahat gözləyir. Ermənistana silah daşınması avqustun 25-dən etibarən hər gün Mozdok (Rusiya)-Aktau (Qazaxıstan)-Türkmənbaşı (Türkmənistan)-Nevşəhr (İran)-Rəşt (İran)-Mehri (Ermənistan)-Yerevan marşrutu ilə İl-76 hərbi-nəqliyyat təyyarələri ilə yenidən davam etdirilib.

Hərbi əməliyyatların başlamasından bir neçə gün əv-vəl Serbiyadan Ermənistana iri partiyada müxtəlif çaplı minaatan



mərmiləri çatdırılıb. Həmin sursat quru yoluyla, Gürcüstan üzərindən Ermənistana keçirilib. Habelə bu ərəfələrdə Gürcüstan üzərindən Ermənistana "KamAZ" avtomobilləri ilə Rusiyadan digər hərbi ləvazimatlar, o cümlədən minatanlar və "Qrad" qurğuları üçün launçerlərin daşındığı haqda məlumatlar yayılıb. Bu faktlar Azərbaycan tərəfinin ciddi narahatlığına və hiddətinə səbəb olub. Serbiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Danitsa Veinoviç bununla əlaqədar 20 iyulda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb və izahat tələb olunub. Danitsa Veinoviç qeyd olunan məsələlərlə bağlı məlumatının olmadığını söyləyib, məlumatları Serbiya tərəfinə çatdıracağını vəd edib. Serbiya Ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyaiç (Serbiya qanunlarına əsasən, silah ixracına icazə verən bu nazirlikdir) silahların Ermənistana verilməsini qismən etiraf edib və Ermənistana qarşı sanksiyaların olmadığını və bu vəziyyətdə bir alıcıya imtina etməyin çətin olduğunu əlavə edib.

## BMT-yə üzv ölkələr

Türkiyə - iyulun 12-də Türkiyə Xarici İşlər Nazirliyi Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutması ilə bağlı bəyanat yayıb və Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Tovuz bölgəsinə hücumunu qətiyyətlə pislənilib. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Twitter" hesabında Azərbaycanı dəstəkləyən bəyanat verib.

Ukrayna - Ukrayna Xarici İşlər Nazirliyi Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində iyulun 12-də mövqeləri ələ keçirmək məqsədilə açılan artilleriya atəşlərindən dərin narahatlığını ifadə edən bəyanat yayıb və münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında siyasi yolla həll olunmasının tərəfdarı olduğunu bildirib.

Rusiya - iyulun 13-də Rusiya Xarici İşlər Naziri Sergey Lavrov tərəfləri dərhal atəşi dayandırmağa, təmkin nümayi etdirməyə və üzərlərinə götürdüyü öhdəlikləri, habelə Rusiya, ABŞ və Fransa nümayəndələrinin Minsk Qrupu həmsədrləri qismində irəli sürdüyü təklifləri nəzərə almağa çağırdı.

Gürcüstan - Gürcüstan prezidenti Salome Zurabişvili 12–13 iyul tarixlərində Azərbaycan və Ermənistan sərhədində baş verən silahlı qarşıdurmaya görə narahatlığını ifadə edib.

İran - İran Xarici İşlər Nazirliyi rəsmisi vurğulayıb ki, rəsmi Tehran bütün münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıdır.

Pakistan - Pakistan Xarici İşlər Nazirliyi həyatını itirmiş azərbaycanlıların ailələrinə dərin hüznlə başsağlığı verib.

Qazaxıstan - Qazaxıstan Xarici İşlər Nazirliyi açıqlamasında Qazaxıstana dost olan Azərbaycan və Ermənistanı təmkinli



olmağa və mübahisəli məsələləri güc yolu ilə həll etməkdən çəkinməyə çağırdığını, pandemiyanın fonunda və dünyada sosial-iqtisadi vəziyyətin pisləşdiyi bir vaxtda qarşıdurmanın dərinləşməsi nəticələri məlum olmayan mənfi nəticələrə gətirib çıxara biləcəyini, ikitərəfli formatda sülh və razılaşmanın tezliklə əldə ediləcəyinə ümid etdiklərini və münaqişənin BMT, ATƏT, MDB kimi beynəlxalq təşkilatlar çərçivəsində dinc yolla həlli üçün yardım göstərməyə hazır olduqlarını bildirmişdir.

Moldova - Moldova Xarici İşlər Nazirliyi həlak olanların ailələrinə başsağlığı verib və tərəfləri güc tətbiq etməkdən çəkinməyə, vəziyyətin kəskinləşməsinin qarşısını almaq üçün səyləri davam etdirməyə və beynəlxalq hüququn prinsip və normalarına hörmət əsasında uzunmüddətli siyasi həll yolu tapmağa çağırıb.

Yaponiya - Yaponiya Xarici İşlər Nazirliyi 15 iyulda yaydığı bəyanatda Azərbaycan–Ermənistan sərhədində bu günlərdə baş verən qarşıdurma və insanların həlak olması ilə əlaqədar narahatlıq keçirdiyini, bütün münaqişə tərəflərini hərbi əməliyyatları dayandırmağa və maksimum təmkin nümayiş etdirməyə çağırdığını bildirib.

Böyük Britaniya - Britaniya parlamentinin bir qrup üzvü Ermənistanı "təcavüzkar" adlandıraraq onların son hərəkətlərini qınayan qərar imzalamışdır. Karnegi Avropa fondunun aparıcı əməkdaşı Tomas de Vaal atəşkəsin pozulmasını "*siyasi qərar*" adlandırıb.

## Beynəlxalq təşkilatlar

BMT - BMT baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik açıqlamasında baş katib Antonio Quterreşin hərbi əməliyyatların dərhal dayandırılmasına çağırdığını və iştirak edən tərəfləri vəziyyətin həlli istiqamətində addımlar atmağa, eləcə də təxribatçı ritorikadan çəkinməyə çağırdığını qeyd etmişdir.

Türk Şurası - Türk Şurasının baş katibi Bağdad Amreyev dərin narahatlığını bildirib və sıx əhaliyə malik sərhədyanı Tovuz rayonunun artilleriya atəşinə tutulmasını və beləliklə, bölgədə gərginliyin artmasını qətiyyətlə pisləyib.

GUAM - GUAM-ın baş katibliyi Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqaməti boyu etdiyi hücumları pislədiyini və münaqişələrin GUAM regionunun rifahı, stabilliyi və firavanlığına əngəl olduğunu bildirmişdir.

ATƏT - ATƏT-in saytına istinadən verdiyi bəyanatda həmsədrlərin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşikin itkilərin olmasına təəssüfləndiyini, həlak olanların ailələrinə başsağlığı verdiyini, həmsədrlərin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi insident başlayandan bəri Ermənistan və Azərbaycan rəsmiləri ilə birbaşa təmasda oluduğunu qeyd etmişdir.

**İnsidentlər**

Polşa - 16 iyulda Azərbaycanın Polşadakı səfirliyinin qarşısında aksiya keçirməyə çalışan 30 erməninin qarşısını 150 azərbaycanlı gənc kəsib və bu barədə polisə xəbər verilib.

Böyük Britaniya - 17 iyulda Londonda azərbaycanlılar Ermənistan səfirliyi önündə aksiya keçirərkən ermənilər aksiyaçılara hücum ediblər. Polisin müdaxiləsi ilə tərəflər ayrılıb və aksiya davam edib.

Rusiya - 18 iyulda Moskvada "Food City" meyvə bazasının rəhbərləri olan Qod Nisanov və Zarax İliyev erməni sahibkarlardan məhsulları almaqdan imtina ediblər. Bu səbəbdən ermənilərin 30-dan çox furasında minlərlə ton məhsulu xarab olub. İyulun 23-də iş adamı Araz Ağalarova məxsus Rusiyadakı ticarət mərkəzləri erməni məhsullarından imtina edib.



ABŞ - İyulun 21-də ABŞ-nin Los Anceles şəhərində Azərbaycanın Baş Konsulluğu qarşısında keçirilən aksiya zamanı oraya toplaşmış azərbaycanlılara qarşı ermənilər tərəfindən çoxsaylı hücumlar edilib. Aksiya zamanı biri qadın olmaqla yeddi azərbaycanlı müxtəlif bədən xəsarətləri alıb, onlardan 4 nəfər isə xəstəxanaya müraciət edib.

Belçika - 2020-ci ilin 22 iyul tarixində Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı Səfirliyi, Avropa İttifaqı yanında Nümayəndəliyinin inzibati binası önündə baş tutmuş nümayiş zamanı Belçikadakı erməni diasporu tərəfindən kəskin vandalizm aktları ilə müşayiət olunan kütləvi nümayiş keçirilib. Erməni təcavüzkarlarının daş və iti kəsici alətlərlə, partlayıcı vasitələrlə hücumu nəticəsində Azərbaycan diaspor nümayəndələrindən 6 nəfər, eləcə də "REAL TV"-nın Avropa bürosunun müxbiri Xatirə Sərdarqızı yaralanıb və onlara tibbi yardım göstərilib; diplomatik missiyanın əməkdaşları xəsarətlər alıb, missiyanın inzibati binası dağıtılara məruz qalıb, şüşələri sındırılb, azərbaycanlı icma nümayəndəsinin şəxsi avtomobili yarasız hala salınıb, diplomatların ailə üzvlərinin yaşadığı əraziyə hücum cəhdi olub. Belçikanın hüquq-mühafizə orqanları tərəfindən 17 erməni təxribatçısı saxlanılıb.

## Xankəndinin tarixi – dünəni və bu günü

**Xankəndi** - Azərbaycan Respublikasında şəhər. 1991-ci il dekabrın 26-da Ermənistan Silahlı Qüvvələri və Qarabağdakı erməni separatçıları tərəfindən işğal ediləndən sonra yaradılan qondarma Dağlıq Qarabağ Respublikasının paytaxtı idi. İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan şəhər tipli qəsəbəsi daxildir. Sahəsi 8 km²-dir. Paytaxt Bakıdan 329 km uzaqlıqda yerləşir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumatına əsasən Xankəndi şəhərinin 53,3 min nəfər, Kərkicahan qəsəbəsinin isə 2 min nəfər əhalisi vardır. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhəri Rusiya sülhməramlılarının nəzarətinə keçmiş, sülhməramlı qüvvələrinin mərkəzi qərargahı burada yerləşdirilmişdir. Sentyabr ayı antiterror əməliyyatlarından 29 sentyabr 2023-cü ildə Azərbaycan polisləri şəhərə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırmışdır.

### Şəhərin adının tarixçəsi

Qarabağ xanlığı tərəfindən Xankəndi (*Xanın kəndi*) adıyla XVIII əsrdə quruldu.

Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekre imzaladı. Həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunurdu. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə "Stepanakert" adlandırılmışdır.

1991-ci ildə Azərbaycan SSR Ali Sovetiinin qərarı ilə şəhərin əvvəlki - "Xankəndi" adı bərpa edilmişdir.





***Yelizavetpol quberniyasının 1903-cü ilin xəritəsində Qarabağ ərazisi***

Xankəndi digər Azərbaycan şəhərlərinin əksəriyyətindən nisbətən cavan olması ilə fərqlənir. Arxiv sənədlərinə görə şəhər XVIII əsrin axırlarında, o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığı başçılarının - xanların istirahəti üçün yaşayış məskəni kimi salınır. Xanların fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində salınır. Bu zaman onun xanlığın digər vacib şəhər və kəndlərinə, Ağdama, Xocalıya, Malıbəyliyə, Kərkicahana və digərlərinə yaxın olması da əsas götürülüb. Belə ki, yeni yaşayış məntəqəsi kimi digər yaşayış məntəqələrində də ancaq yerli əhali, azərbaycanlılar yaşayırdı. İlk illər yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında "Xanın kəndi" kimi tanınır. Qısa bir müddətdən sonra qəsəbə Xankəndi adını alır.

Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanmışdı.

## Rusiya işğalı dövrü

Qarabağ xanlığını zorla Rusiya İmperiyasına birləşdirən 1813-cü il Gülüstan müqaviləsinə qədər Xankəndi ancaq xan ailəsinin və ona yaxın azsaylı əyanların yaşadığı kiçik yaşayış məskəni kimi formalaşmışdı. Rusiyanın Qarabağı işğal etməsi bütün bölgələrə olduğu kimi, Xankəndinin də taleyinə ciddi təsir edir. Əvvəlki həyat tərzi dağıdılır, Azərbaycan cəmiyyəti üçün ənənəvi olan sülalələr bölgüsü qadağan edilir, hər şey imperiyanın maraqlarına tabe etdirilir. Eyni zamanda keçmiş xanlıq ərazisində tez-tez baş verən üsyanların qarşısını almaq üçün bütün ərazi boyu hərbi hissələr yerləşdirilməyə başlanır. Onların biri də Xankəndində yerləşdirilir. Yer hərbi hissə üçün çox əlverişli idi. Bir tərəfdən çara tabe olmaq istəməyən Şuşanı və ətrafdakı xeyli Azərbaycan məskənlərini nəzarətdə saxlamaq mümkün idi. Digər tərəfdən, Xankəndiyə İrandan köçürülən və rus hərbi bazalarında onlara qulluq edəcək erməni ailələrini yerləşdirmək planı var idi. Çar çinovniklərinə digər bölgələrdə olmasa da, Xankəndində etnik proporsiyanı müəyyən qədər pozmaq mümkün oldu. 1813-cü ildə Xankəndində heç bir erməni və rus ailəsi yaşamasa da, artıq 1847-ci ildə orada 80 erməni, 52 rus ailəsinin yaşadığı ev və erməni kilsəsi var idi. Rusiya işğalından dərhal sonra orada çar ordusunun Qafqaz Süvari Diviziyasının qərargahı və kazarmaları yerləşdirildi. Ermənilər və rus zabitləri yaşayış məskənini "qərargah" adlandırsalar da, 1847-ci il çar Rusiya xəritələrinə qəsəbə rəsmi şəkildə Xankəndi adı ilə düşür. Çar işğalından sonra böyüyən Xankəndi şəhərinə bir qayda olaraq İrandan köçürülən ermənilər yerləşdirilir, etibar doğurduqlarına görə çar ordusunun hərbi hissələrində və dövlət idarələrində işlə təmin edilirdilər. 1900-cü ildə Xankəndində artıq 3 min əhali yaşayır, hətta ikisinifli məktəb də fəliyyət göstərirdi. Şəhərdə 1-ci Sujeno-Vladiqafqaz Tersk kazak qoşun postu yerləşdirilir. Məqsədli yeridilən etnik siyasət nəticəsində ötən əsrin əvvəllərində Xankəndində erməni və rus əhalisinin sayı xeyli artır. Ancaq bununla belə şəhərdə xeyli sayda xan nəslinin nümayəndələri, azərbaycanlı ziyalılar, musiqiçilər və sənətkarlar yaşayırdılar. Məqsədli təcrid siyasətinə baxmayaraq onlar Xankəndində ciddi söz sahibi idilər və hakimiyyət onlarla hesablaşmalı olurdular.



## Cümhuriyyət dönəmi

1917-ci ildə Rusiya imperiyasında baş verən Oktyabr inqilabından sonra Cənubi Qafqazda cərəyan edən mürəkkəb proseslər Xankəndindən də yan ötmədi. XIX əsrdə tarixi Azərbaycan dövləti olan İrəvan xanlığı torpaqlarına yerləşdirilmiş İran erməniləri orada Ermənistan dövləti elan etdilər. Bununla kifayətlənməyən erməni millətçiləri Azərbaycanın Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, ümumilikdə bütün Azərbaycan torpaqlarına iddia etməyə başladılar. Bunun üçün erməni hərbi birləşmələri həmin bölgələrdəki azərbaycanlılar yaşayan şəhər və kəndlərə hücum edir, dinc insanları qətliam edirdilər. Bakı, Şamaxı, Quba, Göyçay, Göyçə, Zəngəzur qırğınlarına aid arxiv sənədləri indi də durur. Həmin dövrdə qanlı qarşıdurmalar eyni zamanda Azərbaycanın Dağlıq Qarabağ bölgəsində, o cümlədən Xankəndində də baş verirdi. Erməni millətçiləri vaxtilə qulluq etdikləri, Xankəndində yerləşən çar ordusu hərbi hissəsinin imkanlarından da geniş istifadə edirdilər. Sonradan 1992-ci il fevralın 26-da onlar bu metodu təkrarlayaraq, Xankəndidə yerləşən dağılan Sovet ordusunun 366-cı polkundan istifadə edərək Xocalı soyqırımını törətdilər. 1918 - 1920-ci illərdə müstəqil Azərbaycan Cümhuriyyəti hökumətinin apardığı siyasət və Azərbaycan Ordusunun qətiyyəti nəticəsində erməni millətçilərinin Dağlıq Qarabağ və Xankəndi iddialarını dəf etmək mümkün oldu.

## SSRİ dövrü

Azərbaycanın Sovet İmperiyası tərəfindən işğalından sonra təşkil olunan əhalinin siyahıya alınmasının nəticələrinə əsasən 1921-ci ildə Xankəndi qəsəbəsində 85 təsərrüfatda 398 azərbaycanlı, 226 təsərrüfatda 981 erməni yaşayırdı. Sovet hakimiyyəti illərində erməni millətçi dairələrinin Azərbaycan torpaqları iddiası Lenin, Stalin və Orconikidzenin dəstəyi ilə yeni forma almağa başladı. Buna 1920-ci ildə Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi olmuş erməni Anostas Mikoyanın və 1921–1925-ci illərdə həmin vəzifəni tutmuş ermənipərəst bolqar Sergey Kirovun apardığı siyasət də rəvac 261erdi. Bu siyasət nəticəsində

1923-cü il iyulun 4-də Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi Zaqafqaziya bürosunun iclasında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin taleyi məsələsi müzakirə edildi. Azərbaycan torpağının taleyini buna müstəsna hüququ olan Azərbaycan xalqı deyil, siyasi təşkilatın, büronun 9 nəfər üzvü həll etməyə girişdi. Onların isə 3-ü erməni, 3-ü gürcü, 1-I bölgəyə tamamilə yad olan bolqar, ancaq biri — Nəriman Nərimanov azərbaycanlı idi. Bu çoxluq isə həmin iclasda bütün qanunları və reallıqları kənara qoyaraq Dağlıq Qarabağı Ermənistana vermək qərarına gəlir. Ancaq N. Nərimanovun Moskvaya qəti etirazı bir gün sonra büronun əvvəlki qərarını ləğv edərək bölgəyə muxtariyyat verilməklə Azərbaycanın tərkibində saxlamaq qərarını verməyə məcbur edir. Görünür, Lenin və Stalin artıq İrəvan, Zəngəzur və Göyçəsi əlindən alınmış Azərbaycanın Qarabağ itkisində gərgin situasiyanın yaranacağını nəzərə alırdılar. Həmçinin Azərbaycan rəhbərlərinin kənardan gəlmə - 1921-ci ildə A. Mikoyan, 1921–25-ci illərdə isə S. Kirov olmasını respublikanı ikinci Ermənistan kimi qəbul etməsinə şərait yaradırdı. Beləliklə, RKP MK Zaqafqaziya bürosu Dağlıq Qarabağa, mərkəzi Şuşa şəhəri olmaqla, Azərbaycan daxilində muxtariyyat verilməsi qərarı verir. Ancaq o dövr Azərbaycan rəhbəri olan ermənipərəst Sergey Kirov və onun ətrafı sırf azərbaycanlı şəhəri olan Şuşada erməni muxtariyyatını qurmağın çətin olacağını dərk edirdilər. Nəzərə almaq lazımdır ki, Zaqafqaziya bürosunun adıçəkilən hər iki iclasında Azərbaycan rəhbəri S. Kirov Dağlıq Qarabağın Ermənistana verilməsi variantını müdafiə edirdi. 7 iyul 1923-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Dağlıq Qarabağ Muxtar vilayətinin təşkil edilməsi barədə qərar qəbul edir. Vilayətin erməniləşdirilməsi məqsədilə paytaxt, mərkəzi büronun qərarının əleyhinə olaraq Şuşa deyil, əhalisinin yarıya qədəri erməni sakini olan Xankəndi olur.

Ermənipərəst Kirovun dəstəyi ilə qısa bir zamandan sonra Xankəndinin adı da dəyişdirilir. 18 sentyabr 1923-cü ildə Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ Muxtar Vilayəti Komitəsinin qərarı ilə Xankəndi qəsəbəsinin adı dəyişdirilərək Stepanakert adlandırıldı. Nəyə görə bütün vilayət əhalisinin deyil, ancaq erməni əhalisinin müraciətinin nəzərə alınması sualına isə cavab yoxdur. Bu zaman Stepan Şaumyanın Azərbaycana 1914-cü



ildə gələrək 1918-ci ildə yoxa çıxdığı, 1917–1918-ci illərdə Azərbaycan xalqına qarşı qətliamın təşkilatçısı olduğu, onun Dağlıq Qarabağla, konkret olaraq Xankəndi ilə heç bir əlaqəsi olmadığı respublikanın o vaxtkı rəhbərliyini qətiyyən maraqlandırmırdı. Elə indi də erməni işğalçılarının işğalı altında olan Xankəndini bolşevik və qətliam törədicisi Şaumyanın adı ilə Stepanakert adlandırması onların əsl mahiyyətindən xəbər verir. Ancaq bütün sovet dövründə Azərbaycan ictimaiyyəti şəhəri qeyri-rəsmi olaraq Xankəndi adlandırmaqda davam edirdi. Sonralar tarix sübut etdi ki, Moskvanın məqsədi Azərbaycanın ərazi bütövlüyünü qorumaq yox, onun içərisində erməni millətçiliyinin dayağı olaraq respublikaya daim problem yaradacaq mərkəzin yaradılması idi. DQMV yaradılandan SSRİ dağılanadək nəinki Xankəndinin, hətta vilayətdəki irili-xırdalı bütün təşkilatların rəhbərləri ancaq erməni millətindən olan şəxslər təyin edilirdilər. Regionun və şəhərin tarixi, mədəni ənənələri və etnik tərkibi bir kənara atılaraq ancaq erməni xətti qabardılmağa çalışılırdı. Məsələn, 1926-cı ildə Azərbaycan KP MK-nın birinci katibi Levon Mirzoyan (o, 1926–1929-cu illərdə respublikaya rəhbərlik edib) Xankəndinin baş planının tərtib edilməsi üçün Ermənistandan Azərbaycana Aleksandr Tamanyan adlı arxitektor dəvət edir. Bu o Mirzoyandır ki, hakimiyyətinin axırıncı ilində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasındakı Mığrı rayonu (ermənilər ora sonradan Meqri adı verdilər) Ermənistana verildi və bununla da Naxçıvan anklava çevrildi. A. Tamanyan region üçün yad adam idi. O ancaq 1923-cü ildə 46 yaşında doğulduğu və həmişə yaşadığı Rusiyadan İrəvana köçərək Ermənistan Xalq Komissarları Sovetinin baş mühəndisi təyin edilir. Həm İrəvanda, həm Bakıda Avropa səviyyəsində tanınan xeyli sayda yerli azərbaycanlı arxitektorların olmasına baxmayaraq, qədim Azərbaycan şəhərlərinin baş planının hazırlanması məhz ona tapşırılır. O, 1924-cü ildə İrəvanın (sonradan ermənilər oranı Yerevan adlandırdılar), 1927-ci ildə Bəyazidin, 1925-ci ildə Gümrünün (sonradan ermənilər oranı Leninakan adlandırdılar) 1927–28-ci ildə Üçmüəzzənin (sonradan ermənilər oranı Eçmiadzin adlandırdılar) baş planını hazırlayır. Bununla da Ermənistana verilmiş bu Azərbaycan şəhərlərinin şərq arxitekturası, əsrlərdən gələn inkişaf xətti və mədəni siması itirilir.

A. Tamanyanın təklifi və Azərbaycanın rəhbəri L. Mirzoyanın razılığı ilə 1926-cı ildə Xankəndinin baş planı qəbul edilir. Onun planı isə Qarabağ şəhərsalma mədəniyyəti ilə tam ziddiyyət təşkil edirdi. Maraqlıdır ki, A. Tamanyanın nəvəsi və adaşı Aleksandr Tamanyan 1988-ci ildən başlayan Qarabağ erməni icmasının erdi s ka hərəkatında fəal iştirak etmişdir.

Xankəndi Qarabağ xanlarının istirahət mərkəzi kimi salınsa da, XX əsrdə o, Azərbaycanın yeni sənaye və mədəniyyət mərkəzi kimi inkişaf etməyə başlayır. Bu zaman bu işə daima Azərbaycanın ümumi erdi s ka resurslarından böyük dəstək verilir. Bu səbəbdən də onun bütün sahələr üzrə inkişafı digər Azərbaycan şəhərlərindən daha sürətlə getməyə başlayır. 1920-ci illərin əvvəllərində Xankəndi kəndini erməni əhalisi ilə fəal məskunlaşdırmağa başladılar. Bu, böyüməkdə olan şəhərin əhali artımında da özünü bariz göstərməyə başlayır. 1939-cu ildə şəhərdə 10 min, 1959-cu ildə 20 min, 1970-ci ildə 30 min, 1988-ci ildə 60 min əhali yaşamağa başlayır. Bu rəqəmlər Dağlıq Qarabağ regionunun erdi inkişafdan geri qalması barədə erməni millətçilərin 1988-ci ildə ortaya atdıqları iddianı tamamilə rədd edir. Çünki hər 20 ilə əhalisinin sayının iki dəfə artması, istənilən əyalət şəhəri üçün böyük inkişaf göstəricisi idi. Artan əhali üçün nəinki mənzillər tikilir və müvafiq erdi və kommunal infrastruktur yaradılırdı, eyni zamanda onlar üçün iş yerləri olacaq müasir müəssisələr tikilirdi. Eyni zamanda bu, təkcə Xankəndi üçün deyil, bütün Dağlıq Qarabağ üçün xarakterik idi. Yada salmaq düzgün olardı ki, bütün bunlar Dağlıq Qarabağ Muxtar Vilayətinin deyil, onilliklərlə Azərbaycanın maliyyə-texniki resursları və iradəsi hesabına yaradılırdı. Xankəndində tikilmiş müəssisələr keçmiş muxtar vilayətin sənaye məhsulunun yarısından çoxunu buraxırdı. Sovet dövrünün axırına Xankəndində bütün Cənubi Qafqazda tanınan ipək kombinatı, ayaqqabı, xalça, tikiş fabrikləri, süd kombinatı və şərab zavodu fəaliyyət göstərirdi. Elektrotexniki zavodun, mebel fabrikinin, tikinti materialları kombinatının, erdi s-beton zavodunun məhsulları Azərbaycanın daxili bazarında özünə müştəri tapırdı.

Xankəndinin sürətlə böyüməsi nəticəsində 1978-ci ilin may ayında Xankəndi şəhər statusunu aldı. Şəhər Xankəndi rayonu



tabeliyindən çıxarıldı, həmin rayonun adı isə dəyişdirilərək Əsgəran rayonu adlandırıldı.

## Qarabağ müharibəsi dövrü

1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başladılar. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olundu. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırdı. Bu, Dağlıq Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb oldu. Bundan sonra Sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərdi. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlandı. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd etdilər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlandı. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunu qisasını almaq üçün Xankəndinə yürüş etdilər. Onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsildi. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirildi, çoxlu sayda insan isə yaralandı. Bu gənclər sonradan illərlə davam edəcək Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları oldular.

May ayının 25-dən etibarən isə Vilayət Partiya Komitəsində məsul vəzifədə çalışan azərbaycanlılar işdən çıxarıldı. İlk olaraq ermənilər 1988-ci ilin 18 sentyabrında Xocalıya hücum etdilər. Güclü müqavimətlə rastlaşdıqdan sonra onlar Xankəndində olan azərbaycanlıların evlərinə basqınlar təşkil etdilər. Mayor Şahbazyanın başçılığı altında həm yerli milis idarəsində, həm də Ermənistanda çalışan milis işçilərindən ibarət dəstələr yaradıldı. Azərbaycanlıların yaşadıqları evləri yandırmaq məqsədilə bu dəstələrdən hər biri bir küçəyə nəzarət edirdi. Zavodskoy küçəsi, Puşkin küçəsi, Ü. Hacıbəyov küçəsi, Özbəkistan küçəsi, Bazarnaya küçəsi, DQMV-50 küçəsində evlərə hücum edərək müxtəlif vasitələrlə

onları yandırmağa başladılar. Sabir və Lesnoy küçələrinə də hücum edən ermənilər orada müqavimətlə rastlaşdıqlarından geri çəkilməyə məcbur oldular. Daha sonra M. Paşayev, Timiryazev, Magilyevski və Admiral İsakov küçələrində də yanğınlar törətdilər. Ümumilikdə isə 59 ev yandırıldı. Sentyabr ayının 18-dən 20-nə kimi ermənilər talan və qarətlərinin davam etdirdilər. Beləliklə, 1988-ci ilin sentyabr ayında ermənilər Xankəndi şəhərində yaşayan bütün etnik azərbaycanlıların hamısını zorla şəhərdən qovurlar. Xankəndində Azərbaycanın büdcəsinin pulu ilə tikilmiş bütün sənaye müəssisələrinin başçıları ermənilər idi. Həmin müəssisələr gizlin olaraq atıcı silahlar və minalar istehsal edərək, bunları erməni silahlı dəstələrinə paylayırdılar. 1990-cı ildə Sovet ordusu Azərbaycan qüvvələrinin şəhəri ələ keçirməsinin qarşısını almaq üçün Xankəndiyə bir neçə Xüsusi Təyinatlı vzvod və digər əlavə hərbi birlikləri göndərdi. 1991-ci ilin dekabr ayında SSRİ öz mövcudluğuna son qoydu. Xankəndindəki ermənilər bunu fürsət kimi bilib dərhal şəhərdə yerləşən hərbi bazaya hücum edərək oradakı bütün silahları ələ keçirdilər. Döyüş zamanı bir neçə erməni silahlısı və erdi s əsgəri öldürüldü. Bazada olan rus əsgərlərinin bir hissəsi ermənilərlə vuruşmağa razılıq verdi, buna razı olmayanlar isə Qarabağdan qovuldular. Lakin bundan daha əvvəl Xankəndində yerləşən 366-cı moto-atıcı alayın rus əsgərləri öz silahlarını ermənilərə satmağa başlamışdılar. 1991-ci ildə Qarabağda olan amerikalı hüquq müdafiəçisi Skot Harton bu barədə yazaraq bildirir ki, hərbi bazada xidmət edən rus zabiti onu yerli biznesmen kimi təsəvvür edərək, ona tankı 3000 ABŞ dollarına almağı təklif edib. Bəzi şahidlər isə rusların öz silahlarını araq əvəzinə ermənilərə verdiyini deyir. Müharibə boyunca Azərbaycan Ordusunun bölmələri bir neçə dəfə Xankəndinə yaxınlaşsa da, şəhəri işğaldan azad etmək mümkün olmayıb.

### Atəşkəs dövrü

Qarabağ müharibəsi dövründə Xankəndi şəhəri böyük dağıntılara məruz qalır. Lakin müharibədən sonra ermənilər xaricdəki diasporun köməyi ilə Xankəndini bərpa edirlər. Onu da qeyd etmək lazımdır ki, ermənilər işğal olunmuş digər rayonların şəhər



mərkəzlərini talan edərək onların vasitəsilə Xankəndini və həmçinin Dağlıq Qarabağdakı digər şəhərləri çox ucuz qiymətə bərpa ediblər. Bundan başqa erməni diasporunun köməyi ilə Gorus şəhərindən Xankəndinə qədər 64 km uzunluğunda, çəkilişi 1999-cu ildə tamamlanan şose yolu çəkilmişdir ki, bu yol Ermənistan ilə işğal olunmuş əraziləri birləşdirən yeganə yoldur. 2000-ci ildə Xankəndində separatçı rejimin başçısı Arkadi Qukasyana sui-qəsd təşkil olunur. Qukasyan bu hücum nəticəsində sağ qala bilir. Sui-qəsdin təşkilatçısı kimi Qarabağdakı erməni ordusunun komandanı olan Samvel Babayan tutularaq 14 illik həbs cəzasına məhkum edilir.

### Şəhərdə terror, sui-qəsd və hücum aktları

1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib.

28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şose yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanmışdır.

20 sentyabr 1991-ci ildə şəhərdə Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpü partladılmışdır. Cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur.

1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılır.

1990-cı ilin iyununda Xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılır.

15 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılmışdır. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil.

1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur.

1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V. Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir.

1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir.

1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyirdilər.

1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L. Xomiç qətlə yetirilmişdir.

24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir.
Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də əl atıblar. Belə ki, Kərkicahan, Cəmilli və Kosalar ərazisində xalqın mal-qarası, xırda buynuzlu heyvanları ya oğurlanır, ya da güllələnirdi.

1994-cü il 18 mart tarixində Xankəndi səmasında erməni terrorçuları tərəfindən İranın Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 36 nəfər həlak olmuşdur.

## Əhalisi

Bir çox illərdə ermənilər Xankəndi şəhərinə köç etmişdirlər. İlk köç 1800-cü ildə, İbrahimxəlil xan Cavanşirin dönəminə təsadüf edir. Daha sonralar 1804, 1850, 1890, 1915, 1937 və 1951-ci ildə minlərlə erməni buraya köç etmişdir. Ən son köç isə 1988-ci



ildə Sumqayıt ermənilərinin köçü olmuşdur. Onlar əsasən Xankəndi, Kərkicahan, Kosalar, Bəhlulun, Cəmilli ərazilərində məskunlaşmışdırlar.
Bu gün Xankəndinin azərbaycanlı əhalisinin çox hissəsi Bakı, Abşeron, Pirşağı, Mərdəkan, Zuğulba, Gəncə, Sumqayıt, Nəsimi rayonu, Ağcabədi, Naftalan və Ağcakənd ərazilərində məskunlaşmışdırlar. Qarabağ müharibəsinin ilk məcburi köçkünləri olmuş Xankəndi camaatı Gəncənin "Üzümçülük sovxozu" deyilən ərazidə yaşamışlar.



*Tələbə Prospekti*

Xankəndi Azərbaycanın inkişaf etmiş sənaye mərkəzlərindən biri olmuşdur. Yüngül və yeyinti sənayesi inkişaf etmişdir. Elektrotexnika, avtomobil təmiri və asfalt-beton zavodları, mebel fabriki, tikinti materialları, sənaye, istehsalat və tədris istehsalat kombinatları vardı. Şəhərdə 3 savxoz və 1 kolxoz fəaliyyət göstərirdi. Bu savxozlarda insanlar taxıl, buğda, arpa, pambıq, kök, kələm, xiyar, qarpız və digər bitkiləri əkirdilər. Şəhərdəki yeganə kolxozda isə əsasən atçılığa və maldarlığa çox üstünlük verirdilər. Burada Qarabağın cins atları yetişdirilirdi.
Həmçinin şəhərdə nəşriyyat da çox inkişaf etmişdir. SSRİ dönəmində şəhərdə üç qəzet (Qarabağ, Xankəndi və Komsomolçu gənclər) fəaliyyət göstərirdi. 1978-ci ildə Xankəndi Gənc Jurnalistləri Evi də açılmışdır.

Erməni diasporunun pulları hesabına şəhərdə bir neçə otel tikilmişdir. Bu otellərdə əsasən Dağlıq Qarabağı gəzməyə gələn erməni diasporunun nümayəndələri qalırdılar. Bununla belə iş yerlərinin olmaması səbəbindən əhalinin bir hissəsi Xankəndini tərk edib. Erməni diasporu Qarabağa, Xankəndiyə, Şuşaya və digər ərazilərin abadlaşdırılması üçün pul sərmayə qoyduqlarını bildirirdilər.

### Mədəniyyəti

Xankəndi şəhərində bir çox mədəniyyət yerləri olmuşdur. Şəhərdə 2 mədəniyyət evi, 2 musiqi məktəbi, 1 rəqs məktəbi, 1 rəsm məktəbi fəaliyyət göstərirdi. SSRİ dönəmində şəhərin mədəniyyət evi V. İ. Leninin adını daşıyırdı. Qarabağda ilk rəqs məktəbi Xankəndi şəhərində 1972-ci ildə istifadəyə verilmişdir. Şəhərdə 1936-cı ilə qədər qızlar və oğlanlar birlikdə təhsil almırdılar.

"Biz və bizim dağlar" monumental abidəsinin 1967-ci ildə Azərbaycan Respublikasının Xankəndi şəhəri yaxınlığında, Əsgəran rayonu ərazisində açılışı olub. Heykəltəraş Sarkis Baqdasaryan tərəfindən hazırlanmış "Biz və bizim dağlar" monumental abidəsi qısa zamanda həm yerli əhali, həm də Azərbaycan cəmiyyəti tərəfindən sevilib və hazırda Azərbaycan mədəni irsinin ayrılmaz hissəsi sayılır.

Abidənin erməni əsilli heykəltaraş tərəfindən yaradılması onu avtomatik olaraq Ermənistanın mədəni sərvəti etmir. Abidə Azərbaycan Respublikasının büdcəsi hesabına, Azərbaycan Respublikasının ərazisində yaradılıb, ona görə də Azərbaycan mədəni sərvəti hesab edilir". Qeyd edək ki, istənilən mədəniyyət abidəsi yaradıldığı ölkənin mədəni sərvəti hesab edilir: "Bu prinsip bütün dünyada qəbul edilib və heç bir mübahisə doğurmur".





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. Dövlətimizin başçısı burada çıxış edib.**

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz həmvətənlər.

Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuş-

dum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə



fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vətən müharibəsi cəmi 44 gün çəkdi. Bütün bu günlər ərzində dəfələrlə xalqa müraciət edərək, eyni zamanda, düşmənə müraciət edərək bildirmişdim ki, silahları yerə qoyun, torpaqlarımızın azad olunmasının qrafikini, tarixini verin və biz müharibəni dayandırmağa hazırıq. Biz Şuşanı - bizim müqəddəs ocağımız olan, alınmaz qala sayılan Şuşanı azad edəndən sonra artıq düşmən öz məğlubiyyətini dərk etdi, ağ bayraq qaldırdı və biz müharibəni dayandırdıq.

Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, biz o vaxt - noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da - noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır.

Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss

etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Bu il “Heydər Əliyev İli”dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Mən Ulu Öndərin ad gününü Şuşada keçirdim. Bilirəm, o vaxt bəziləri sual verirdi ki, təntənəli iclas harada keçiriləcək, təntənəli iclasda kim çıxış edəcək, hansı xarici qonaqlar gələcək? Sonra da gördülər ki, heç bir təntənəli iclas keçirilməmişdir. Nə üçün? Ona görə ki, bizim Ulu Öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Bu, birincisi. İkincisi, Heydər Əliyev çox təvazökar insan idi, heç vaxt təmtəraqlı mərasimlər keçirmirdi. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə,- artıq sağlamlığı o qədər də yerində deyildi, - Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi dedim. Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub.



Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl - 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt -1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə qalmışdı, 1 milyon insan evsiz-eşiksiz qalmışdır, torpaqlarımız tamamilə dağıdılmışdır. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Bir dənə salamat bina qalmayıb. Bizə qarşı etnik təmizləmə aparılmışdır. Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, “Xocalıya ədalət!” hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu Öndər Heydər Əliyevə dəstək vermişdir, onu prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.

Bu bina keçən əsrin 60-cı illərində inşa edilmişdir, Azərbaycan büdcəsi hesabına. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası idi. Buna partkom binası deyirdilər. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışdır. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbər-

liyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan Bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdir. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdir. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi.

Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdı. Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi



olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər.

Yenə Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq Ulu Öndəri Xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi.

Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç təlxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il. Üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı. Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan

xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik.

Bax, burada oturmuş özünü “prezident” adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü “baş nazir” adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü “xarici işlər naziri” adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın.

Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. **Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**



## Xankəndində Zəfər paradı



Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçrildi.

Dövlətimizin başçısı şəxsi heyəti salamladı.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Hərbi orkestr Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlətimizin başçısı paradda çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Əziz hərbçilər, mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

Hərbçilər: Sağ ol.

Prezident İlham Əliyev: Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.

Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi və mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.

Qırx dörd gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim göndərə bilməzdi və mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.

O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada – Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu

tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda, bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu, sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın-Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah-sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan



torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada - Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü

tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik. Yəni, hazırlıq işləri aparərkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.

Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: “Qarabağ Ermənistandır və nöqtə”. Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni, biz bütün vəzifə-

ləri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın.

Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

Hərbçilər: Sağ ol.

Prezident İlham Əliyev:

**Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!**

Hərbçilər: **Qarabağ Azərbaycandır!**



# MÜNDƏRİCAT


Qarabağ Azərbaycan Xalq Cumhuriyyəti dövründə .......... 4
Dağlıq Qarabağ Muxtar Vilayəti Tarixi .......... 7
Birinci Qarabağ müharibəsi .......... 10
SSRİ-nin son günlərində qarşıdurma .......... 17
Əskaran və Sumqayıt hadisələri .......... 20
Qara yanvar .......... 23
Qazaxda döyüşlər .......... 25
Çaykənd əməliyyatı .......... 26
Xocalı soyqırımı .......... 27
Şuşanın işğalı .......... 30
Laçının işğalı .......... 32
Goranboy əməliyyatı .......... 33
Ağdərə və Xocavənd toqquşmaları .......... 36
Kəlbəcər döyüşü .......... 39
Ağdam, Fizulu, Cəbrayıl və Zəngilan -1993 Yay əməliyyatları və Ağdam uğrunda döyüş .......... 41
1994-cü ilin ateşkəsi - Bişkek pratokolu .......... 45
Aprel döyüşləri .......... 51
Aprel döyüşləri – Böyük Zəfərin başlanğıcı .......... 66
İkinci Qarabağ müharibəsi .......... 89
Şuşa əməliyyatı .......... 116
Birinci Qarabağ müharibəsi, Şuşanın işğalı və azad olunması .......... 119
Tovuz Şəhidləri .......... 149
44 Günün Qəhrəmanları .......... 155
Vətən Müharibəsi Qəhrəmanları .......... 221
Dünya azərbaycanlılarının həmrəylik və birlik hərəkatı .......... 249
BMTyə üzv ölkələr .......... 254
Beynəlxalq təşkilatlar .......... 255
Xankəndi tarixi .......... 258
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. Dövlətimizin başçısı burada çıxış edib. .......... 271
Xankəndində Zəfər paradı .......... 279

Çapa imzalanmışdır: 01.05.2025.
Formatı: 60x84 1/8.
Həcmi: 36. Sifariş: 322. Sayı: 1000

Kitab “ADİLOĞLU” nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəh., Tbilisi pr.,3007-ci məhəllə, 44 C
Tel.: (050) 593 27 77, (055) 339 75 77
E-mail: adiloglu2000@gmail.com